AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

AYNURƏ SADIQQIZI

# NEFTÇALA-SALYAN FOLKLOR MÜHİTİ

BAKI – 2018

**Elmi redaktoru:** **Kamran ƏLİYEV**
AMEA-nın müxbir üzvü,
Əməkdar elm xadimi

**Rəyçi:** **Əfzələddin ƏSGƏR**
Filologiya üzrə elmlər doktoru

**Aynurə Sadıq qızı Səfərova. Neftçala-Salyan folklor mühiti.** Bakı, Elm və təhsil, 2018, 164 səh.

Kitabda Neftçala və Salyan rayonlarından toplanılmış folklor mətnlərindən və həmin mətnlərin regional xüsusiyyətlərindən bəhs edilir, əraziyə məxsus mərasimlər təsvir və təhlil edilir. Monoqrafiyadan ali məktəblərin filologiya fakültəsinin tələbələri və tədqiqatçı alimlər istifadə edə bilərlər.

folklor.az

S 4603000000 Qrifli nəşr
N-098-2018

© Folklor İnstitutu, 2018

# FOLKLORA SEVGİ İLƏ

Son dövrlərdə Azərbaycan folklorunun regional xüsusiyyətlərinin araşdırılması davamlı və sistemli hal almışdır. Bu cür tədqiqatlar yerli əhalinin mənəvi aləminin, düşüncə tərzinin, gün-güzəranının təhlilinə geniş imkanlar açır. Eyni zamanda regional folklor nümunələrinin ümumazərbaycan folklorunun tərkib hissələrindən biri olması faktı da təsdiqlənir. Bu cür araşdırmalardan biri də Aynurə Sadıqqızının "Neftçala-Salyan folklor mühiti" tədqiqatıdır.

Müəllif bu regionla bağlı mövcud folklor nümunələrini, onlar barədə yazılan tədqiqatları nəzərə almaqla özü də xeyli yeni folklor nümunələri toplamış və geniş araşdırma aparmışdır. Nəticədə bölgənin tarixi-coğrafi, etnoqrafik xüsusiyyətlərini aşkarlamış, folklor söyləyicilərinin mətn ifasını lentə almış, bu ərazidə yaşayan aşıqların fəaliyyətini dəyərləndirmiş, folklor nümunələrinin həm özəlliklərini, həm də ümumi xüsusiyyətlərini aşkara çıxarmışdır. Bölgənin tarixi-coğrafi və etnoqrafik xüsusiyyətlərini təhlil edərkən bölgə coğrafiyasının folklorda təzahürünə xüsusi önəm vermiş, xüsusilə Kür çayının folklor örnəklərində yer alması maraqla izlənilmişdir. Eyni qaydada əhalinin məşğuliyyətinin folklorda təzahürü də araşdırılmışdır.

Aynurə Sadıqqızının tədqiqatının aparıcı xətlərindən biri də mifoloji mətnlərin əhəmiyyətinin meydana çıxarılmasıdır. Tədqiqatçı bu qənaətdədir ki, bölgədən toplanan mifoloji mətnlərin əksəriyyəti spesifik xarakter daşıyır və bu cür mətnlərə digər bölgələrdə rast gəlinmir. Mifoloji mətnlərdəki Beçəxor, Hal anası, Cin, Əzrayıl, Qaraçuxa kimi personajlar diqqətlə araşdırılır, onların funksiyaları, xalq yaddaşı ilə bağlılıqları müasir elmi-nəzəri səviyyədə təqdim olunur. Beçəxor müxtəlif formalarda görünsə də, ziyanverici kimi tanınır. Hal anasına çox vaxt Al anası şəklində rast gəlinir. Cinlə bağlı müxtəlif inamlar təhlil edilir, o cümlədən cinlərin balalarının yanmaması üçün axşam vaxtı həyətə isti su tökülməməsi barədə olan mətnlərə də aydınlıq gətirilir. Mətnlərə əsasən Əzrayılın insanlara yanaşma üsulları araşdırılır. Qaraçuxa ilə bağlı inanclar və rəvayətlər ümumiləşdirilir. Başqa bir təqdirəlayiq cəhət isə ondadır ki, tədqiqatçı hansı tip mətnlərin yaşca fərqli söyləyicilər tərəfindən söylənməsinin mahiyyətini izah edir.

Bölgənin mərasim folklorundan bəhs edilərkən toy və yas mərasimləri, Novruz bayramı, Qırx-bələk adəti və dini bayramlara daha çox önəm verilir.

Tədqiqatda toplanmış materiallara istinadən toyun elçilik, nişan, qız toyu, xınayaxdı, oğlan toyu (gəlinaparma), əlgördü kimi mərhələləri xalq adət-ənənəsi fonunda araşdırılır. Bölgədə müşahidə edilən qırx-bələk adətinin şərhi də yeni olmaqla bərabər, həm də əhəmiyyətlidir. Bəzi hallarda digər bölgələrdən əldə edilmiş folklor nümunələri ilə aparılmış müqayisələr də regionun folklor materiallarının özünəməxsusluqlarını ortaya çıxarmağa imkan verir. Yas mərasimləri ilə bağlı irəli sürülən mülahizələr daha çox diqqəti bu mərasimlərin qorunan və qorunmayan tərəflərinə yönəldilməsidir. Yas yerlərində söylənilən oxşamalarla bağlı irəli sürülən fikirlər də xüsusi maraq doğurur. Bir məsələni də qeyd etməyə dəyər ki, tədqiqatçı oxşamaların deyilməsindəki aktivlik və passivlik baxımından bölgədaxili mənzərəyə də aydınlıq gətirə bilmişdir.

Novruz bayramından bəhs edilən məqamlarda bu bayramın elementlərində təbiətlə cəmiyyətin birliyinin ifadə olunmasının mahiyyəti mənalandırılır, eyni zamanda Novruz adətlərinin müqəddəsliyi önə çəkilir.

Yaxşı cəhətdir ki, müəllif həmişə faktlara əsaslanır. Bununla həm nümunələrin əhəmiyyətini artırmış olur, həm də irəli sürdüyü elmi tezislərin inandırıcılığını təmin edir.

Aynurə Sadıqqızı öz tədqiqatında epik folklor örnəklərinə də ayrıca fəsil ayırmışdır. Bu mənada Neftçala-Salyan bölgəsindən əldə edilən materiallarda dastanlarla, nağıllarla və lətifələrlə bağlı nümunələr araşdırılmışdır.

Tədqiqatçının uşaq folklor nümunələri barədəki mülahizələri də maraq doğurur. Xüsusilə bu nümunələrin məktəblilər üçün əhəmiyyətli olması tədqiqatın praktik əhəmiyyətini daha da artırır.

Aynurə Sadıqqızının Neftçala-Salyan regionundakı folklor nümunələrinə həsr olunmuş tədqiqatı faydalı bir iş kimi folklorşünaslığımızın nailiyyətlərindən hesab edilə bilər.

**Kamran ƏLİYEV**
**AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi**

# GİRİŞ

Folklorun regionlar üzrə öyrənilməsi dolayısı ilə Azərbaycan folklorunun dərindən araşdırılmasına şərait yaradır. Son zamanlar AMEA Folklor İnstitutunun fəaliyyəti nəticəsində gerçəkləşdirilmiş layihələr, təşkil olunan elmi konfranslar, folklorun bölgələr üzrə toplanması və nəşri Azərbaycan folklorunun regionlar üzrə araşdırılmasını asanlaşdırır. Bölgə folklorunun öyrənilməsi araşdırılan bölgəyə dair folklor materiallarının toplanılması ilə başlayır.

Məlum olduğu kimi, adminstrativ bölgələrdən əlavə, bir də folklor və etnoqrafiya bölgələri mövcuddur. Folklor və etnoqrafiya bölgələri adminstrativ bölgələrdən böyük də ola bilər, kiçik də. Folklorşünaslığın qarşısında dayanan vəzifələrdən biri folklor bölgələrinin özünəməxsus xüsusiyyətlərini aşkara çıxartmaq, onların regional xüsusiyyətlərini öyrənməkdən ibarətdir. Belə araşdırmalar nəticə etibarilə folklorumuzun daha dərindən öyrənilməsinə yardım edir. Bununla yanaşı, bölgələrin folklor mənzərəsini görmək və burada gedən folklor proseslərini öyrənmək baxımından region folklorunun araşdırılması xüsusi əhəmiyyət daşıyır.

Salyan-Neftçala bölgəsi özünün bir çox xüsusiyyətləri ilə Azərbaycanın başqa bölgələrindən seçilir. Bu bölgənin folklorunun araşdırılması, ümumiyyətlə, bölgə folklorunun özünəməxsus xüsusiyyətlərinin üzə çıxmasına əhəmiyyətli dərəcədə yardımçı olacaq.

Folklorun bölgələr üzrə toplanması və tədqiq olunması Azərbaycan folklorşünaslığının daha dərin və fundamental şəkildə formalaşmasına gətirib çıxarır. Buna görə də folklorşünasların qarşısında duran mühüm vəzifələrdən biri hər bölgənin folklor materiallarını toplamaq və nəşr etmək məsələsidir. Bu günə qədər Salyan və Neftçala ərazilərinin folklorunun sistemli şəkildə toplanmaması, nəşr və tədqiq olunmaması bizdə belə bir mövzuya müraciət etmək zərurəti yaratdı. Bu baxımdan, "Neftçala-Salyan folklor mühiti" adlı mövzunun tədqiqata cəlb olunması ümumazərbaycan folklorunda bu bölgənin hansı özəlliklərə malik olması, eyni zamanda bu ərazinin materialları ilə digər bölgələrin folklor materialları

arasındakı oxşar və fərqli məqamları araşdırmaq baxımından gərəklidir.

Neftçala və Salyan ərazisinin folklorunun toplanması ilə bağlı çox az iş görülmüşdür. Bölgədən toplanılmış folklor nümunələri ilk dəfə olaraq SMOMPK məcmuəsində çap olunmuşdur. Belə ki, bu dərginin iki nömrəsində Salyan bölgəsindən toplanılmış folklor materialları və etnoqrafik mətnlər nəşr edilmişdir (141; 147). Qeyd etmək lazımdır ki, əraziyə məxsus etnoqrafik və folklor mətnlərini ilk olaraq Göyçay ikiillik məktəbinin müəllimi N.Kalaşev toplamışdır. O, "Bakı quberniyası Cavad qəzasının Salyan qəsəbəsi" adlı məqaləsində buranın tarixi-coğrafi şəraiti, iqlimi, flora və faunası, əhalinin məşğuliyyəti, mətbəxi və d. məlumatlarla yanaşı, "suyeveriye" adlandırdığı inanclar və sınamaları da nəşr etdirmişdir. Müəllif salyanlılar arasında geniş yayılmış inanc və etiqadlardan misallar gətirmiş, bu materiallar rus dilində çap olunmuşdur.

SMOMPK-dan sonra uzun illər sözügedən ərazinin folklor materialları diqqətdən kənarda qalmış, bölgədən folklor toplamağa, demək olar ki, heç cəhd olunmamışdır. Ötən əsrin ikinci yarısında bu ərazinin folklorunun toplanması işi əslən bu bölgədən olan ali məktəb tələbələrinin kurs işi səviyyəsində aparılmış, həmin materiallar isə çox zaman arxivlərdə diqqətdən kənarda qalmışdır.

Ötən əsrin ikinci yarısında tədqiqatçı Ə.Məmmədovun "Qarayazı düzündən Xəzər dənizinə qədər" adlı tarixi-etnoqrafik oçerkində Kür çayı boyunca uzanan böyük bir ərazidə, o cümlədən Salyan və Neftçala rayonlarında yaşayan əhalinin etnoqrafiyası, insanların həyat tərzi və yaşayışı ilə bağlı məlumat verilmiş, arasıra bölgənin toponimləri ilə bağlı kiçik rəvayətlər də nümunə gətirilmişdir (88). Salyan ərazisinin lətifə qəhrəmanlarını öyrənmək və araşdırmaq baxımından Məhəmməd Rza Xəlilbəylinin 1994-cü ildə Salyanda nəşr etdirdiyi "Salyanın məzəli adamları" kitabı maraq doğurur (65). Neftçala rayonunun tarixi-coğrafi şəraiti, bu ərazidəki kənd və qəsəbələrin adları, onların yaranması barədə danışılan rəvayətlər İbrahim Nurlunun "Neftçala – XXI əsrin astanasında" adlı kitabında öz əksini tapmışdır (99). Bölgənin tarixi, toponimik

adların etimologiyası, əhalinin etnoqrafiyası, buranın tanınmış ziyalıları və s. haqqında təfsilatlı məlumat verən mənbə Azər Turanın 2012-ci ildə nəşr etdirdiyi "Darülmöminin" kitabıdır (124). Göründüyü kimi, ərazinin tarixi, toponimləri, əhalinin məşğuliyyəti, etnoqrafiyası az-çox araşdırılsa da, folklor materialları toplanılmamış, folklor mühiti sistemli şəkildə araşdırılmamışdır. 2003-cü ildə AMEA Folklor İnstitutu yaradıldıqdan sonra Azərbaycanın müxtəlif bölgələrindən folklor nümunələri qeydə alınmağa və çoxcildli folklor antologiyaları (12; 13; 14; 15; 16; 17; 18; 19; 20; 21; 22; 23; 24; 25; 26; 27; 28; 29; 30; 31; 32; 33) nəşr olunmağa başladı. Biz də Neftçala-Salyan ərazisinin folklorunu toplamağa başladıq və topladığımız materialları İnstitutun arxivinə təhvil verdik. Ərazinin folklor materiallarının bu günə qədər nəşr olunmaması, mühitin tədqiq olunmaması səbəbindən üzərimizə götürdüyümüz işin ağırlığının və məsuliyyətinin kifayət qədər çətin olduğunu bilirdik. Bütün bunlara baxmayaraq, Neftçala və Salyan rayonlarında dəfələrlə folklor ezamiyyətlərində olduq, yaşca bir-birindən fərqlənən folklor söyləyiciləri ilə görüşdük. Topladığımız mətnlərin bir qismini AMEA Folklor İnstitutunun hazırladığı "Dədə Qorqud" elmi-ədəbi toplusunda "Azərbaycan folklorundan yeni nümunələr" rubrikası altında çap etdirdik (93; 94).

Sözügedən ərazinin tarixi, coğrafi şəraiti, əhalinin məşğuliyyəti, həyat tərzi və s. məsələlər ayrı-ayrı tədqiqatçılar tərəfindən araşdırılsa da, bölgənin folkloru geniş və sistemli şəkildə nə toplanılmış, nə də araşdırılmışdır. Mövzu ilk dəfədir ki, araşdırmaya cəlb olunur.

Məqsədimiz Neftçala və Salyan ərazisinin folklor mühitini, bu mühitin regional xüsusiyyətlərini öyrənməkdir. Buna görə aşağıdakı vəzifələri yerinə yetirməyə çalışdıq:

– Bölgənin tarixi-coğrafi, etnoqrafik xüsusiyyətləri və onların folklora təsirini üzə çıxartmaq;

– Neftçala-Salyan ərazisinin folklorunun regional özəlliklərini müəyyən etmək, bu əraziyə məxsus folklor örnəklərini respublikanın digər bölgələrinə məxsus variantlarla müqayisə eləmək, oxşar və fərqli cəhətləri göstərmək;

– Ötən əsrin ortalarında Qərbi Azərbaycandan deportasiya olunanların və XX əsrin sonlarında Qarabağdan qaçqın düşərək bu ərazidə məskunlaşan əhalinin folkloru ilə Neftçala-Salyan ərazisindəki folklor mətnlərinin oxşar və fərqli məqamlarını aşkarlamaq;

– Neftçala və Salyan ərazisində folklor söyləyiciliyi, söyləyiciliyin müasir durumunu öyrənmək;

– Neftçala və Salyan ərazisində yaşayıb-yaratmış aşıqların yaradıcılığını təhlil etmək;

– Ərazidə icra olunan mərasimlərin spesifik xüsusiyyətlərini aşkarlamaq, mərasimlərin icrası zamanı ifa olunan folklor mətnlərinin regional xüsusiyyətlərini üzə çıxarmaq;

– Bölgələrdən toplanılan bəzi folklor janrlarının özəlliklərini aşkarlamaq, həmin folklor örnəklərinin spesifik xüsusiyyətlərini araşdırmaq.

Azərbaycan folklorunun regional xüsusiyyətlərinin araşdırılması ilə bağlı xeyli işlər mövcuddur. Q.Paşayevin "İraq-türkman folkloru" (101) adlı monoqrafiyası, S.Qəniyevin "Şirvan folklor mühiti" (84) adlı doktorluq dissertasiyası və eyniadlı monoqrafiyası, H.İsmayılovun "Azərbaycan folklorunun regional xüsusiyyətləri" (70) adlı monoqrafiyası, V.Hacıyevin "Azərbaycan folklorunun səciyyəvi xüsusiyyətləri (Gürcüstan türklərinin folklor örnəkləri əsasında)" (60) adlı doktorluq dissertasiyası, eləcə də "Gürcüstanda türk xalq ədəbiyyatı" (61) adlı monoqrafiyası, M.Abdullayevanın "Azərbaycan folklorunun regional xüsusiyyətləri (Şəki-Zaqatala folklor nümunələri əsasında)" (5), L.Süleymanovanın "Şəki folklor mühiti" (118), A.Məmmədovun "Qərbi Azərbaycan folklor ədəbi mühiti (Ağbaba-Şörəyel materialı əsasında)" (87), A.Alıyevin "Azərbaycan folklorunun regional xüsusiyyətləri (Dərələyəz folklor nümunələri əsasında)" (9), R.Babayevin "Azərbaycan folklorunun regional xüsusiyyətləri (Naxçıvan folkloru)" (40) adlı fəlsəfə doktorluğu dissertasiyaları belə işlərdəndir. Neftçala-Salyan folklor mühitinin öyrənilməsində həmin işlərdən örnək olaraq istifadə olunmuşdur.

Araşdırma işi bir çox yeniliklərlə müşayiət olunur:

– Neftçala və Salyan rayonlarının folkloru ilk dəfə bu araşdırmada geniş şəkildə öyrənilmişdir. Əraziyə məxsus folklor materiallarının özünəməxsusluğu və tipologiyasının öyrənilməsinə ilk dəfə burada cəhd göstərilmişdir.

– Bölgənin mifoloji mətn və rəvayətləri, o cümlədən bölgəyə məxsus mifoloji personajlar ilk dəfə burada təsvir və təhlil edilmişdir. Ziyarət yerləri, müqəddəs ocaq sahibləri və onlarla bağlı inanclar və rəvayətlər haqda məlumat verilmiş, təhlil olunmuşdur.

– Neftçala-Salyan bölgəsindən uşaq folkloru ilə bağlı əldə edilmiş mətnlərin regional xüsusiyyətlərindən bəhs edilmişdir.

– Ərazidə icra olunan mərasimlər və onlarla bağlı söylənilən folklor mətnləri təsvir və təhlil edilmişdir.

– Neftçala-Salyan ərazisindən toplanılmış epik folklor janrları, o cümlədən dastanlar, nağıllar və lətifələr haqqında məlumat verilmiş və həmin mətnlərin bir çoxu araşdırmaya cəlb olunmuşdur.

– Bölgənin folklor söyləyiciliyi haqqında ilk dəfə bu tədqiqatda bəhs olunmuşdur.

# I FƏSİL

# NEFTÇALA-SALYAN FOLKLOR BÖLGƏSİ

## 1.1. Bölgə haqqında ümumi məlumat

Neftçala və Salyan rayonları Azərbaycan respublikasının cənub-şərq hissəsində yerləşir. İnzibati ərazi olaraq bir-birinə yaxın qonşu olan, tarixən birgə rayon tərkibində təşkil olunan Neftçala və Salyan həm ictimai-siyasi, sosial-mədəni həyatında, həm məişətdəki mərasimlərin icrası, eləcə də folklor mühitinin formalaşması baxımından bir-birinə çox sıx bağlıdır.

Salyan 1930-cu ildə inzibati rayon kimi təşkil edilmişdir. Cənub-şərqi Şirvan və Salyan düzlərində yerləşir. Şərqdən kiçik sahədə Xəzər dənizi ilə hüdudlanır. Mərkəzi Salyan şəhəridir (36). Sahəsi 1790 kv.km, əhalisi 128,1 min nəfərdir (01.01.2013). Azərbaycan Respublikasının cənub qapısı hesab olunan, ana Kürün sahilində yerləşən Salyan bölgəsi həm də füsunkar təbiəti, bol təbii sərvətləri və tarixi-arxeoloji abidələri ilə fərqlənir. Salyan rayonu Aran bölgəsinə daxildir (86).

Rayona Kürsəngi, Qaraçala, Aydıngün, Yolüstü, Aşağı Kürkənd, Düzənlik, Peyk, Qırxçıraq qəsəbələri və Xıdırlı, Şatrovka, Pambıqkənd, Bəşirbəyli, Arbatan, Aşağı Noxudlu, Yuxarı Noxudlu, Xurşud, Birinci Varlı, İkinci Varlı, Yenikənd, Şəkərli, Həsənli, Qardili, Qarabağlı, Təzəkənd, Kərimbəyli, Gomuşçu, Kolanı, Qızılağac, Bəydili, Alçalı, Quyçu, Kürqaraqaşlı, Beştalı, Cəngan, Ərəbqardaşbəyli, Xocalı, Marışlı, Seyidsadıqlı, Sarvan, Dayıkənd, Seyidlər, Xələc, Abadkənd, Çuxanlı, Piratman, Gəncəli, Parça Xələc, Seyidan, Şorsulu, Borankənd kəndləri daxildir (36, 870).

Neftçala inzibati rayon kimi ilk dəfə 1940-cı il fevralın 11-də təşkil edilmişdir. O vaxta qədər Salyanın, bir il isə (1939) Xıllı rayonunun tərkibində olmuşdur. 1959-cu ildə ləğv edilərək ərazisi Salyan rayonu ilə birləşdirilmiş, 1973-cü ildə yenidən müstəqil rayon olmuşdur. Neftçalanın ərazisi şimaldan Salyan, qərbdən Biləsuvar və Cəlilabad, cənub-qərbdən Masallı, cənubdan Lənkəran rayonları ilə həmsərhəddir. Rayonun ərazisi şərqdən Xəzər dənizi

ilə əhatə olunub (121, 64). Sahəsi 1500 kv.km, əhalisi 83,2 min nəfərdir (01.01.2013).

"Neftçala" toponimi neft və çala sözlərindən ibarət olub "neftli çala" mənasındadır. Çala sözü "çuxur yer", "çökəklik" anlamındadır. El arasında bura "Nöyütxana" deyilməsi rayonun hələ çox qədim zamanlardan neftlə zəngin ərazi olduğunu göstərir (121, 57).

Rayonun ərazisinə Bankə, Xıllı, Həsənabad qəsəbələri, Kürkənd, Aşağı Surra, Aşağı Qaramanlı, Astanlı, Qədimkənd, Birinci Qaralı, Kürqarabucaq, Boyat, Ballıcalı, Dördlər, Cəngan, Qaraqaşlı, Bala Surra, Ərəbqardaşbəyli, Beşdəli, Şorkənd, Yenikənd, 1 nömrəli Mayak, 2 nömrəli Mayak, Sübh, Qırmızı Şəfəq, Qırmızıkənd, Şirvanlı, Qaçaqkənd, Xanməmmədli, Qazaxbərəsi, Ramazanlı, Sarıqamış, Yeniqışlaq, Mikayıllı, Qızqayıtdı, Haqverdilər, Dalğalı, Kürdili, Sahil, Tatarməhlə, Abasallı, Mirzəqurbanlı, Uzunbabalı, Xolqarabucaq, Dördlər, Xoltəzəkənd, Xəzər, Xolqaraqaşlı, Mürsəqulu, Yuxarı Qaramanlı, Pirəbbə, İkinci Qaralı kəndləri daxildir (36, 868).

Neftçala rayonu nisbətən yeni yarandığına görə tarixi mənbələrdə daha çox Salyan toponimi ilə bağlı faktlara rast gəlinir.

Salyanın tarixi ilə bağlı maraqlı fikirlər vardır. Rayon ərazisində aparılan arxeoloji qazıntılardan məlum olmuşdur ki, Babazanlı dağı yaxınlığında yerləşən Qırxçıraq adlı ərazidə yaşayış e.ə. I minilliyin əvvəllərindən başlamış, XVII əsrə qədər ardıcıl şəkildə davam etmişdir (86, 10). Məlumdur ki, qədim Mahmudabad şəhərinin qalıqları Salyan ərazisindədir. Bu da bizə deməyə əsas verir ki, burada çox qədim zamanlarda yaşayış olmuşdur. Tarixi mənbələrdə göstərilir ki, "Mahmudabadı Elxani hökmdarı Mahmud Qazan xan Xəzər dənizi yaxınlığında saldırmış və öz adı ilə adlandırmışdır. Bacrəvandan 20 (təqribən 140 km), Ərdəbildən 40 (təqribən 280 km) fərsəx məsafədə yerləşirdi. A.Bakıxanov Mahmudabadın "dəniz kənarında, Kür çayının iki qolu arasında olduğunu göstərmişdir. Bakı-Salyan avtomobil yolunun 115 km-liyində "Qırxçıraq" adlanan yerdə arxeoloji axtarışlar zamanı

(1978) aşkar edilən yaşayış yerinin (sahəsi 16 kv. km) Mahmudabadın qalıqları olduğu ehtimal edilir (38, 395).

Karvan yollarının qovşağında yerləşən Mahmudabad Güştəsfi mahalının sənətkarlıq və ticarət mərkəzi olmuşdur (42, 80). "XVII yüzildə Mahmudabadda cami və şah bazarları, hamamlar görən Övliya Çələbi əhalinin tərkibində qıpçaqlaşmış moğol topluluqlarından kumıklarla, göydolaq türkmən və moğollarla da görüşmüşdü" (124, 47).

Tarixi faktlardan və bölgəni əks etdirən toponimik adlardan məlum olur ki, bura başdan-başa qədim türklərin məskunlaşdığı ərazidir. Xalac, bayat, qaramanlı, bəydili, qarabucaq və digər tayfaların adlarını yaşadan kəndlərə Salyan və Neftçala rayonları ərazisində rast gəlinir. "Qədim zamanlardan Türküstanda yaşayan Bayat türkləri XIII əsrin əvvəllərində Çingiz xanın ordusu ilə bərabər Azərbaycana gələrək Muğanda Akkuşa çayı sahilində Bayat kəndini, səyadlılar isə Araz çayı üzərində Saatlı kəndini salmışlar" (146, 284).

Noqay tatarlarının "bucaq" qəbiləsi tərəfindən isə Xolqarabucaq kəndinin salındığı güman edilir (41, 43-53). Bucaq tayfaları ilə bağlı Ə.Şamil yazır: "Bucaq etnonimi ilə bağlı toponimlər Qafqazda geniş yayılmışdır. 13-cü yüzildə moğollar qıpçaqları Şimali Qafqazda sıxışdırdıqdan sonra bir hissəsi, o cümlədən bucaqlar Azərbaycana gəlib məskunlaşmışlar. Bucaqlar qədim türkdilli bulqarların bir hissəsi idilər. Dnepr-Dunay çayları ilə Qara dəniz arasında Bucaq adlı yerdə məskunlaşdıqlarından qədim bulqarların bir hissəsi bu adı qəbul etmişlər" (120, 106). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, sözügedən ərazidə bucaq tayfa adını özündə yaşadan iki kənd mövcuddur. Kürqarabucaq, Xolqarabucaq. Kürqarabucaq kəndi Kür çayının sahilində, Xolqarabucaq kəndi isə Kürün qollarından olan Akkuşa çayının sahilində yerləşir.

XIV-XV əsrlərdə indiki Salyanın ərazisində kifayət qədər böyük yaşayış məntəqəsi olmuşdur. "Muğanın maddi mədəniyyəti" kitabında qeyd olunur ki, Səfəvilərin hökmranlığı dövründə Salyan Səfəvi hakimlərinin tiyulu hesab olunurmuş. Səfəvi şahları tərəfindən buraya hakimlər təyin olunurmuş. Səfəvi-Osmanlı mü-

haribələri Azərbaycanın digər yerləri kimi Salyanın da təsərrüfat və iqtisadi həyatına böyük zərbə vurmuş və şəhər kimi inkişafına mane olmuşdur. Bununla belə, XVII-XVIII əsrlərdə Salyan yenə də İran və Rusiya arasındakı tranzit yolunun üzərində yerləşən mühüm bir məntəqə idi (89, 41).

Tədqiqatçı Ə.Məmmədovun verdiyi məlumata görə, H.Z.Şirvani XVIII əsrdə Salyanda olmuş və bu barədə "Busitan əs-siyahə" əsərində yazmışdır: "Salyan – Şirvanın cənub-şərqində bir limandır. Bir tərəfdən Gilan dənizi, digər tərəfdən Kür çayı və Muğan vadisi ilə əhatə olunur. Uzunluğu 25 fərsəx, eni 10 fərsəxdir. Çəmənlik, güllü çöllər, səfalı bağlarla baqidir (88, 153).

Bəzi mənbələrdə göstərilir ki, 1795-ci ildə Ağa Məhəmməd şah Qacar 60 minlik qoşunla Qafqaz üzərinə yürüş edir. Şamaxı istiqamətində hücum zamanı Qacar ordusu Salyanda ciddi müqavimətlə rastlaşır. Qanlı döyüşlərdə şah ordusu çoxsaylı itkilər verdikdən sonra şəhər əhalisinin böyük bir hissəsi öldürülmüş, Salyan şəhəri isə tamamilə yandırılıb dağıdılmışdır. 1797-ci ildə isə Quba xanı Hüseynəli xanın təşəbbüsü ilə Salyanın aşağı kəndləri olan Boyat və Qaramanlı kəndlərinin əhalisi Salyana köçürülmüş və şəhər yenidən tikilməyə başlanmışdır (həmin kəndlər indi Neftçala rayonunun ərazisindədir) (149).

Ötən əsrin əvvəllərində M.Vəlili yazırdı: "Salyan balıq sənayesindən başqa İran, Gürcüstan, Şimali Qafqaz, Türküstan və Rusiya məmləkətləri arasında ticarət mərkəzi əhəmiyyətinə də haiz idi" (41, 66).

1863-cü ildə əhalinin siyahıya alınmasına görə, Salyan şəhərində 1292 ev, 10634 nəfər sakin olmuşdur. 1868-ci ilin fevralında Çar Rusiyası zamanında Bakı quberniyası daxilində Cavad qəzası yaradılır və Salyan bu qəzanın inzibati idarəçilik və mədəni mərkəzi olur (149).

Salyan sözünün etimologiyası ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bəzi mənbələrdə Salyan – Kür çayı sahilində gəmi dayanacağı, "bərə yeri" (salların körpüyə yan aldığı yer) mənasında verilir. Başqa bir mənbəyə görə, "sal tayfasının bina etdiyi məskən" anlamında olduğu göstərilir (98, 206).

Salyan sözünün avar dilində salsali sözündən əmələ gəlib duzlu yer mənasında olmasını söyləyənlər də vardır. Lakin bu, inandırıcı deyildir. Çünki Salyanda və onun ətrafında avarların yaşaması məlum deyildir (97, 80). Göründüyü kimi, müəllif özü də Salyan və ətraf ərazilərdə avarların yaşamadığı faktını əsas gətirərək Salyan sözünün avar dilindəki mənası ilə bağlılığının heç bir məntiqi əlaqəsi olmadığını əsaslandırmışdır.

K.Ramazanov da Salyan sözünün etimologiyasını araşdırmış və bu coğrafi adın böyük karvan yolu üstündə olmuş sal – bərə, ibtidai gəmi sözündən ibarət olmasını, “salın yan aldığı” yerlə bağlı yaranmasını və tədricən “Salyan” şəklində formalaşmasını təsdiqləmişdir. Tədqiqatçı həmin fikrin təsdiqini məşhur bayatını nümunə gətirərək bir daha sübut etmiş olur.

Əzizinəm Salyana,
Dara zülfün, sal yana.
Necəsən bir ah çəkim,
Kür quruya, sal yana (105).

Bəzi tədqiqatçılar Salyan sözünün fars dilindəki “salyani” – yəni illik bac, illik gəlir mənası verən sözdən yarandığını iddia etmişlər. Bəziləri isə bu sözün farscadan salih+an, yəni saleh, əməli saleh insanların yaşadığı yer mənasında olduğunu söyləyirlər. Bu ərazidə yaşayan insanların dinə-imana bağlı, Allah adamı olmasını, hər işində, əməlində saleh olması faktını əsas gətirərək, salih+an sözünün sonradan Salyan formasına düşdüyünü qeyd edirlər.

Digər bir fakta görə türkdilli qədim tayfaların içərisində “sal” tayfası da olmuşdur. Onlar Volqaboyu sahillərində yaşamışlar, həmin ərazidəki düzənliklərdən biri “Sal düzənliyi” adlanmışdır. Şərqi Avropa düzənliyindən axan Don çayının qollarından biri Sal çayı adlanır. Bu faktları əsaslandırıb yazırlar: “Salyan yaşayış məntəqəsi keçmişdə bu ərazidə məskən salmış “sal tayfası”nın adını daşımışdır. Orta əsrlərdə yaranmış yaşayış məntəqələrinin əksəriyyəti qəbilə, tayfa, nəsil, tirə və şəxs adını daşımışdır. Həmin qəbildən olan coğrafi adlardan biri də Salyan toponimidir” (88, 159). Fikrimizcə, bu sonuncu fakt daha inandırıcıdır.

### 1.1.1. Əhalinin etnik tərkibi

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 2013-cü ildə nəşr etdirdiyi statistik göstəricilərə görə, Salyan rayonunun əhalisinin milli tərkibi aşağıdakı cədvəldə öz əksini tapıb (37, 501).

| **Salyan rayonu əhalisinin ümumi sayı** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | Faiz | Nəfər | faiz | nəfər | Faiz |
| | **121871** | **100,0** | **60338** | **100,0** | **61533** | **100,0** |
| Azərbaycanlılar | 121700 | 99,86 | 60272 | 99,89 | 61428 | 99,83 |
| Türklər | 93 | 0,08 | 47 | 0,08 | 46 | 0,07 |
| Ruslar | 57 | 0,05 | 13 | 0,02 | 44 | 0,04 |
| Kürdlər | 9 | 0,01 | 6 | 0,01 | 3 | 0,00 |
| Tatarlar | 2 | 0,00 | 0 | 0,00 | 2 | 0,00 |
| Ləzgilər | 2 | 0,00 | 0 | 0,00 | 2 | 0,00 |
| Digər millətlər | 8 | 0,01 | 0 | 0,00 | 8 | 0,01 |

Yenə də həmin statistik mənbənin verdiyi məlumata görə, Neftçala rayonunun milli tərkibi aşağıdakı kimidir (37, 481).

| **Neftçala rayonunun əhalisinin ümumi sayı** | **Cəmi** | | **Kişi** | | **Qadın** | |
|---|---|---|---|---|---|---|
| | Nəfər | Faiz | Nəfər | faiz | nəfər | Faiz |
| | **79525** | **100,0** | **39067** | **100,0** | **40458** | **100,0** |
| Azərbaycanlılar | 79411 | 99,86 | 39038 | 99,93 | 40373 | 99,79 |
| Ruslar | 98 | 0,12 | 24 | 0,06 | 74 | 0,18 |
| Gürcülər | 2 | 0,00 | 0 | 0,00 | 2 | 0,00 |
| Digər millətlər | 14 | 0,02 | 5 | 0,01 | 9 | 0,02 |

Statistik göstəricilərdən məlum olur ki, bölgə əhalisi milli tərkibinə görə Azərbaycan türkləridir.

Region əhalisinin etnik tərkibi ilə bağlı bəzi tarixi mənbələrdə maraqlı faktlarla qarşılaşırıq. Əvvəldə qeyd etdiyimiz kimi, bölgənin kəndlərinin adında bu gün də qorunub saxlanan türk tayfa adları göstərir ki, buranın əhalisi türk mənşəlidir. Qaramanlı adı ilə burada 2 kənd vardır: Aşağı Qaramanlı, Yuxarı Qaramanlı. Sovet dönəmində kəndin adı təhrif olunaraq Qaraimanlı şəklində sənədləşdirilsə də, sonralar ərazinin adı olduğu kimi təsdiqlənmiş, yenidən Qaramanlı kimi dəyişdirilmişdir.

Tarixdən məlumdur ki, qaramanlılar, əsasən, Kiçik Asiyada yaşamış türk tayfasıdır. F.Rəşidəddin qaramanlıların Səlcuq Sultanı Toğrulun dövründə (1038-1068) Anadoluya gəlib orada məskunlaşdığını göstərir. Orta Asiyada qaramanlılar köçəri heyvandarlıqla məşğul olurdular. Amudərya ətrafındakı torpaqları tərk edərkən yolları İrandan Azərbaycana və buradan da Türkiyəyə keçib gedirdi. Orta əsrlərdə qaramanlılar səlcuq-oğuz tayfalarından biri kimi tanınmışdır. Onlar güclü olmaqla yanaşı, həm də nüfuzlu bir tayfa kimi Kiçik Asiyada yaşamış və Anadoluda müstəqil xanlığı olmuşdur" (99, 166).

Qaramanlıların igidliyi, ad-sanı, şöhrəti haqqında el arasında belə bir bayatı da söylənməkdədir:

Əslim Qaramanlıdır,
Elim adlı-sanlıdır.
İgid döyüşdən gəlir,
Gözləri nə qanlıdır.

XIII əsrdə monqolların hücumu zamanı Xorasan və İranda yaşayan əski türk soyu – xalacların bir hissəsi məhv edilmiş, sağ qalanları isə Azərbaycana köçərək Muğanda, Kürün sahilində Xalac kəndində məskunlaşmışlar (99, 22). Mahmud Kaşğari "xalacları" və yaxud "kalacları", Rəşidəddindən fərqli olaraq, 24 oğuz tayfasından ayrılmış 2 ayrı nəsil kimi qeyd etmişdir (88, 149). Rəşidəddinin "Oğuznamə" əsərində "Oğuzun İraqi-Əcəm tərəfə elçilər göndərməsi" hissəsində xalaclarla bağlı oxuyuruq. Oğuz öz xalqı ilə Dəmavəndə yollanarkən yolda bir hamilə qadın övlad dünyaya gətirir. Dəstədən geri qalan ər və arvada acığı tutan Oğuz onları acılayıb deyir: "qadını doğdu deyə yoldan geridə qalmaq olarmı? Madam ki, siz bu səbəbdən ordudan geri qaldınız, o halda burada qalın". Ona türkcə "qal ac"– dedi…(Vaxtilə bu ad xalac olmuş; bu baxımdan Xalac qəbiləsindən olanlar bu şəxsin övlad və törəmələri sayılır) (106, 49).

Qeyd edək ki, Salyanda vaxtilə Xələc adını özündə yaşadan 3 kənd vardı. Parçaxələc, Yaxaxələc, Çölxələc. İndi həmin kəndlərin ikisinin adı olduğu kimi qalır, bir kəndin isə, təəssüf ki, adını dəyişdirərək Yenikəndlə əvəzləmişlər.

Neftçalanın Oriyat, Xolqarabucaq, Kürqarabucaq və s. kənd adları da sözügedən ərazilərin qədim türk tayfalarına məxsus olduğunu göstərir.

XIX əsrin sonlarında Çar Rusiyasının ruslaşdırma siyasəti nəticəsində regiona xeyli ruslar və ukraynalılar köçürülmüşdür. Neftçalada Saratovka, Novovasilyevka, Prorva adlı rus kəndləri salınmışdı. İndi həmin kəndlərin rus və ukrayna mənşəli əhalisi öz vətənlərinə geri döndüklərindən kəndlər bir müddət boş qalmış, sonradan yerli əhali burada məskunlaşmışdır. Kəndlərin adı dəyişdirilmiş, Azərbaycan türkcəsində Saratovka – Sahil, Novovasilyevka – Kürkənd, Prorva – Dalğalı kimi sənədləşdirilmişdir.

Məlumdur ki, Neftçala və Salyan rayonlarının ərazisi düzənlik sahələrdən ibarətdir. Muğan düzünün böyük bir hissəsi bu regionun payına düşür. Burada geniş və münbit otlaq sahələri vardır. “Şirvanın, Şamaxının dağlarından gətirilən qoyun sürüləri bu ərazidə qışlayır, yazın axırlarında yenə sərin yaylaqlara üz tuturmuş. Dəniz sahilindəki Xanqışlağı kəndi də vaxtilə Şirvan xanının bu yerlərə səfərindən xəbər verir. Uzun müddət yalnız qışda yada düşən bu yerlərdə XVII əsrin axırlarından başlayaraq oturaq həyata keçilmişdir” (99, 123). Prof. İ.Əbilov da kəndin adının yaranması ilə bağlı yazır: “Sıldırım dağlar qoynunda yerləşən müxtəlif xanlıqlar öz qoyun sürülərini qışın tufanından qorumaq üçün bu yerlərdən qışlaq kimi istifadə etmişlər. Xanqışlağı kəndinin toponimiyası fikrimizin şəksiz dəqiqliyinə sübutdur (53, 3).

Uzun illər öncə oturaq həyat tərzinə uyğunlaşmasına baxmayaraq, əhali bu gün də maldarlıqla, heyvandarlıqla məşğul olur. Bunun nəticəsidir ki, regiondakı bir çox nəsil və tayfaları bu günün özündə də “tərəkəmə” adlandırırlar.

Q.Qeybullayev göstərir ki, Muğanda qışlaq tipli müvəqqəti səciyyə daşıyan məskənlər kəndə keçid mərhələsi təşkil etmişdir. Təsadüfi deyildir ki, müasir Muğan kəndlərinin bir hissəsi vaxtilə burada qışlayan elat icmalarının, xüsusilə şahsevənlərin oturaqlaşması nəticəsində yaranmışdır (144, 71).

H.Məmmədov da bir çox tarixi mənbələrə istinadən “şahsevən qışlaqlarının daimi məskənlərə – kəndlərə çevrilməsi prosesini

1885-ci ildə çar hökuməti tərəfindən Rusiya – İran sərhədinin bağlanması ilə əlaqələndirmiş və göstərmişdir ki, sərhəd bağlandığına görə elat icmalarının gəliş-gedişi qadağan edildiyi üçün bu proses bir az da sürətlənmişdi (89, 40-41). "Şahsevənlər türk etnik qruplarından biri olubdur. I Şah Abbasın (1584-1629) dövründə qacarlardan, əfşarlardan və başqa türk tayfa birliklərindən düzəldilmiş xüsusi şah qvardiyasına verilən addır. Səfəvilər dövlətində də əsas hərbi qüvvələrdən olduqlarından mal-mülk sahibləri kimi ayrıca tayfa birliyi yaratmışdılar və XIX əsrin ortalarından oturaq həyata keçərək heyvandarlıqla, əkinçiliklə məşğul olmağa başlamışdılar" (39, 478).

Tarixi materiallarda göstərilir ki, vaxtilə Kürün qollarının sayı indikindən çox olmuşdur. Hazırda həmin qolların bir neçəsi qurumuş, bəzilərinin adı yaşlı nəslin yaddaşında qalmışdır. Mərcanlı çayı belələrindəndir. Akkuşa və Kürdili qolları isə bu gün öz yataqlarını dəyişsələr də, sonunda yenə dənizə qovuşurlar. Vaxtilə bu ərazidə məskunlaşan insanlar Kür çayının və ya qollarının ətrafında yurd düşürdü. Çünki onların yeganə su mənbəyi Kür çayı, yaxud da onun qolları idi. Tərəkəmələrin həm özlərinin, həm də heyvan sürülərinin suya olan ehtiyacı belə qarşılanmışdı. Ensiklopediyada qeyd olunduğuna görə, "əvvəllər Sırdəryanın sağ sahilində yaşamış və ərəb istilalarından sonra türkmən adlandırılmış oğuz türkləri XI əsrdən İran, Zaqafqaziya, Kiçik Asiya və Mesopotamiyaya yayılmışdılar. Köçəri həyat sürən oğuzların bir hissəsi tərəkəmə (ərəbcə türkmən sözünün cəmidir) adlandırılmışdı. Azərbaycanda Kür-Araz ovalığı, Mil-Qarabağ, Muğan və Şirvan düzlərində yaşayan və icma halında yaylağa gedən tərəkəmələr həm də əkinçiliklə məşğul olurdular. Tərəkəmələrin kənddə qalan hissəsi aranda biçini qurtarır, payız əkininə hazırlıq görürdü" (39, 256-257).

Salyan və Neftçala bölgəsindəki əhalinin müəyyən hissəsi 1948-1951-ci illərdə Qərbi Azərbaycandan deportasiya olunaraq zorla buraya köçürülənlərdir. Onların bir hissəsi Salyanın Şorsulu, Yenikənd, Arbatan; Neftçalanın Kürqaraqaşlı, Mirzəqurbanlı, Astanlı və s. kəndlərində məskunlaşmışlar.

Ermənistanın Qarabağı işğalı nəticəsində Dağlıq Qarabağ və ətraf ərazilərdən didərgin düşən əhalinin də bir hissəsi Neftçala və Salyan ərazisində dağınıq halda məskunlaşmışlar. Lakin görünür, bölgənin qızmar yayı, həddindən artıq isti iqlimi səfalı Qarabağdan gələn qaçqınların burada daimi məskən salması üçün əlverişsiz olmuş, onların əksəriyyəti buranı tərk etmişdir.

### 1.1.2. Bölgə coğrafiyasının folklorda təzahürü

Neftçala-Salyan ərazisinin səthi əsasən düzənlikdir. Kür-Araz ovalığının Cənub-şərqi Şirvan düzü, Salyan düzü və qismən də Muğan düzü bu ərazini təşkil edir. Ərazinin çox hissəsi okean səviyyəsindən aşağıda (-28 m-ə qədər) yerləşir. Yayı quraq keçən mülayim-isti yarımsəhra və quru çöl iqliminə malikdir. Ərazidə tirə və təpəliklər vardır (Hərəmi, Mişovdağ). Burada palçıq vulkanları mövcuddur. (Mişovdağ, Qalmas). Bölgənin faydalı qazıntıları neft, qaz, yod, brom, xörək duzudur. Azərbaycanın ən böyük su nəhri olan Kür çayı bu ərazidən keçib Xəzərə tökülür. Kür burada delta əmələ gətirir. Vaxtilə Kür ağzında çaydan xeyli qol ayrılıb Xəzərə tökülürmüş. Hazırda onlardan bir neçəsinin yeri qalmaqdadır (99, 9).

Kür çayının və onun qollarının bu ərazidən axıb keçməsi bölgənin insanlarının diqqətini çəkmiş, bu səbəbdən Kür çayının adının ərazidən toplanmış folklor mətnlərində işlənməsi xarakterik hala çevrilmişdir. Regiondan toplanmış folklor örnəkləri arasında, xüsusilə bayatılarda Kür çayının adına tez-tez rast gəlirik:

| | |
|---|---|
| 1) Arazı ayırdılar, | = Arazı ayırdılar, |
| Kür ilə doyurdular. | = Qum ilə qayırdılar. |
| Mən sənnən ayrılmazdım, | = Mənim nə vədəm idi, |
| Zülm ilə ayırdılar (49). | = Anamdan ayırdılar (12, 276). |

2) Araz aşanda mələr,
Kür qouşanda mələr.
Ana oğlun tapbasa,
Qanı coşanda mələr (49).

| | |
|---|---|
| 3) Araz daşdı, diyillər, | = Araz aşdı, diyillər, |
| Kür qouşdu, diyillər. | = Qum qaynaşdı diyillər. |
| Yaram avad tapbadı, | = Əlyar, evin yıxılsın, |
| Həkim qaşdı, diyillər (49). | = Tahar qaşdı diyillər (92, 153). |

Birinci və üçüncü bayatının həm Salyandan, həm də Naxçıvandan qeydə alınmış variantlarını müqayisə etsək görürük ki, hər iki örnəyin Salyan variantında Kür çayı ilə yanaşı Arazın da adı çəkilir. Sonuncuda tarixdən bizə məlum olan Araz çayının daşması, Kür ilə qovuşması təsvir olunur.

Y.V.Çəmənzəminli bayatı janrının xalqın həyat və məişəti ilə sıx bağlı olduğunu yazmışdır: "Tarix və məişət izləri bayatılarda, tapmacalarda, vəsfi-hallarda daha çoxdur. Bunlarda müəyyən bir fikir zaman və məkana bağlanmış, hər kəs öz mühitinə görə uydurmuşdur" (50, 301). Bayatıların xalqımızın dünəni ilə sıx əlaqəli olduğunu, bugünün özündə də həyatımızın ayrılmaz parçasına çevrildiyini göstərən İ.Abbaslı yazır: "Xalqın tarixi sadəcə tarix olaraq qalmamış, həm də şeirə-bayatıya çevrilmişdir. Ayrı-ayrı yüzilliklərin mühüm hadisələri ilə səsləşən bayatılar onu yaradanların həyatında dərin iz buraxan sarsıntıları yada salır, dünənimizdən, ötən günlərimizdən xəbər verir" (1, 202). Doğrudan da, diqqət yetirsək, görürük ki, tarixi keçmişimizlə, insanların əski həyat tərzi ilə bağlı nə varsa, hamısı bayatılarda əks olunur.

L.Süleymanova göstərir ki, "hər bir ərazidən toplanan folklor nümunələri, o cümlədən bayatılar həmin ərazidə yaşayanların adət-ənənəsini, etnoqrafiyasını, həyat tərzini, bütövlükdə dünyagörüşünü əks etdirir" (118, 10). Neftçala və Salyan ərazisindən topladığımız bayatıların da bir çoxunda bu bölgənin coğrafi adları ilə yanaşı, həm də tarixi keçmişini əks etdirən nümunələri görürük:

Səlyana qoşun getdi,
Bilmədim, nöşün getdi?!
Aləmnən bircə-bircə,
Bizdən bi qoşun getdi (49).

| | |
|---|---|
| Mən aşiqəm, Salyana, | = Mən aşiqəm, Səlyana, |
| Dara zülfün, sal yana. | = Dara zülfün, sal yana. |
| Necəsən bir ah çəkim | = İstiyirəm səniynən |
| Kür quruya, sal yana. | = Qoşa gedəy Səlyana (49). |

Bu bayatının ilk iki misrası məşhurdur. Söyləyici mətnin son iki misrasını dəyişərək bayatının yeni variantını yaratsa da, bədiilik, obrazlılıq baxımından birinci variant daha güclüdür. Bayatıdakı onomastik vahidlərin regionallığı şərtləndirən mühüm əlamət olduğunu qeyd edən R.Babayev həm də bayatının "təbiətindən doğan", məna yükünü daşıyan, rəmzləşən obrazlara örnək olduğunu göstərir (40, 98).

Göstərilən nümunələrdən bir daha anlaşılır ki, "bayatılar insan həyatının canlı poetik salnaməsidir. Onun varlığını, mənəvi aləmini dünyaya göz açdığı çağdan ömrünün son anlarına kimi müşayiət edir, duyum və hisslərinə estetik, bədii zövq aşılayır" (1, 197).

Bölgənin toponimik adlarına ərazidən toplanılan folklorun bir çox janrlarında rast gəlirik. Bu baxımdan, rəvayətlərə, əfsanələrə, xüsusilə lətifələrə diqqət yetirsək, maraqlı nümunələrlə qarşılaşırıq. Məsələn, Neftçalanın Ballıcallı kəndinin adı ilə bağlı söylənilən rəvayətə görə, Vəlican adlı bir aşıq Arazın o tayından bu yerlərə gəlmiş, kəndin binasını qoymuşdur. Aşığın sevdiyi Gövhərtacı başqasına zorla ərə vermək istəyəndə qız özünü çaya ataraq intihar etmişdir. Sevgilisinə qovuşa bilməyən aşıq Vəlican burada yaşamağa qərar vermişdir. O vaxtdan Vəlicanlı kəndinin əsası qoyulmuşdur və bu gün həmin kəndin adı Ballıcallı kimi səslənməkdədir (99, 166). Bu rəvayətin digər bir variantı tərəfimizdən qeydə alınmışdır.

Nağıllarda da onomastik vahidlərə rast gəlmək olur. "Fərə bacının nağılı"nda qarğa tülküyə yalvarıb deyir: Amanın günüdü, tülkü lələ, məni nağayrırsan qayır, ancaq Səlyanın Kürünə aparıb atma, Səlyan Kürü böyük Kürdü, onnan mən qorxuram" (49).

Lətifələrdə də onomastik vahidlərə tez-tez rast gəlinir. "Surranın quru bəylərindən biri gəmiyə minir və Salyana gedərkən gəmiçiyə kömək edirmiş. Qazandığı pulu isə faytona verib, Surraya, düz evlərinin qapısına sürdürüb hamıya göstərmək istəyirmiş ki, bəy Salyandan faytonla gəlib" (99, 178). Başqa bir nümunədə

Neftçalanın Oriyat kəndi ilə əlaqəli söylənən fikir – "Oriyata getdün, çörəy götür, Oriyatdan çıxdun, ayağ götür" məsəlində və yaxud yeri çox rahat olan adama, "filankəsin yeri Səlyandı" məsəlində toponimik adların folklorda təzahür olunması ilə rastlaşırıq.

### 1.1.3. Əhalinin məşğuliyyəti və onun folklorda təzahürü

Salyan və Neftçala regionu Xəzər dənizinin sahilində yerləşir. Bölgədə neft-qaz, balıqçılıq sənayesi mühüm yer tutur. Kəndlərdə isə əhali, əsasən, maldarlıqla, əkinçiliklə, eyni zamanda bağbostan işləri ilə məşğul olurlar. Bölgənin aran zonası olması, iki böyük düzənliyin ərazisində – Şirvan və Muğan düzündə yerləşməsi, böyük otlaq sahələrinə malik olması heyvandarlıq üçün burada lap qədimdən əlverişli şərait olduğunu göstərir.

Əvvəllər buradan qışlaq kimi istifadə edən tərəkəmələr daha sonra oturaq həyata keçmiş, buranı özləri üçün daimi yaşayış yerinə çevirmişlər. Ə.Məmmədovun verdiyi məlumata görə, "tərəkəmə əhli" adlandırılan qaravəllilər (Neftçaladakı Qaravəlli kəndinin əhalisi) Muğanda xeyli vaxt yarımköçəri həyat keçirmişlər. Onların obaları Akkuşa çayı və Kür vadisində olmuşdur. Oturaq həyata keçdikdən sonra onlar qoyunçuluqla yanaşı, əkinçilik və qismən balıqçılıqla da məşğul olmuşlar (88, 173).

Muğanın mülayim qışı və bol yem ehtiyatı ilə zəngin olan qışlaqları, başlıca məşğuliyyəti maldarlıq, xüsusilə qoyunçuluq olan Azərbaycan tərəkəmələri üçün mövsümi məskunlaşmanın əsas məkanına çevrilmişdir (89, 35). Tərəkəmələrin həyat tərzi və məişəti ilə bağlı H.Həvilov yazır: "Onların təsərrüfat forması köçmə maldarlıq səciyyəsi daşısa da, burada köçəri həyat tərzi atributları saxlanılırdı. Bütün bunlara baxmayaraq, tərəkəmə təsərrüfatlarını qətiyyən köçəri təsərrüfatlar kimi səciyyələndirmək olmaz; çünki, birincilərin daimi yaşayış məskənləri, daimi yaylaq və qışlaq otlaq sahələri, daimi köç yolları vardır. Hətta arxiv sənədlərinin göstərdiyi kimi, tərəkəmə təsərrüfatları müəyyən miqdar əkin sahələrinə də malik idilər " (62, 22).

Tərəkəmələrin mətbəxi, onların qışa hazırlıq məqsədilə gördükləri bir çox işlər diqqət çəkəndir. Misal üçün, özlərinə qış azu-

qəsi hazırlayan tərəkəmələr payızın axır ayında dananı kəsirmiş, əti xırda hissələrə bölərək doğrayırmışlar. Doğranmış əti pörtlədirmişlər. Sonra ət sudan çıxarılaraq duzlanır. Suyu çəkiləndən sonra bişmiş ət bol yağın içərisində qıpqırmızı bişincəyə qədər qovrulur. Tam bişəndən sonra iri, saxsı küpələrə yığılır, qışa saxlanılırmış. Qışda lazım olanda tərəkəmə dana ətindən hazırladığı qovurmanı qısa zamanda süfrəyə qoyaraq yavanlıq edə bilirmiş.

Məlumdur ki, tərəkəmələrin ən vacib məişət əşyalarından biri nehrədir. Heyvandarlıqla məşğul olan qədim türk tayfaları arasında nehrənin ayrı-ayrı formaları mövcud olmuşdur. "Tarixən Azərbaycanda tuluq, ağac və gil nehrələrdən istifadə edilmişdir... Tuluq nehrədən daha çox köçəri türklər istifadə etmişlər" (74, 164). Fikrimizcə, ağac nehrə tərəkəmələrin geniş istifadə etdiyi məişət əşyası olub. Çünki qışda arana, yayda dağa köç edən tərəkəmələr üçün tuluq və ağac nehrəni daşımaq daha əlverişli idi. "Tuluq, ağac və gil nehrələrdən ən davamlısı sonuncudur. Onu daha çox oturaq həyat tərzi keçirən maldarlar işlədiblər" (74, 164).

Ərazidən topladığımız folklor materialları arasında nehrə ilə bağlı mətnlər də vardır. "Əvvəllər nehrəni iki qadın çalxalayardı. Nehrə hündür bir yerdən iplə asılırdı, qadınlardan biri bu tərəfində, birisi o biri tərəfdə dayanardı, nehrəni (yəqin ki, ağac nehrə nəzərdə tutulur) yellədərək biri o birinə tərəf itələyər və deyərdi: yarısı sənin, yarısı mənim, yarısı sənin, yarısı mənim. İndiki nehrələrin (gil nehrə nəzərdə tutulur) bir qulpu olur. Bir qadın oturur çalxalayır, deyir, hamısı mənim, hamısı mənim" (49). Bu mətndə ağac nehrə ilə gil nehrənin çalxalanma prosesindəki fərq verilməklə yanaşı, həm də əvvəllər insanların əldə etdiyi ruzini bərabər paylaşdığı, son zamanlar isə bu ənənənin sıradan çıxdığı göstərilir.

Bölgə ərazisindən nehrə ilə bağlı oxunan nəğmələr də əldə etdik. Məlumdur ki, "nehrə çalxamaq evin ağır işlərindəndir. Həmin prosesdə oxunan nəğmələr əməyi yüngülləşdirir və icraçını daha səbirli edir" (74, 166). Qeyd edək ki, heyvanı sağarkən oxunan sağın nəğmələri sıradan çıxdığı kimi, nehrəni çalxayarkən oxunan nəğmələr də söyləyicilərin yaddaşında qırıq-qırıq qalmaqdadır:

Nehrəm, ol-ol-ol,
Ayranı göz yaşıycan
Nehrəm, ol-ol-ol,
Yağı gomuşun başıycan
Nehrəm, ol-ol-ol.
Nənəm sudan gəlincə
Nehrəm, ol-ol-ol,
Aşım yavan qalıbdı
Nehrəm, ol-ol-ol (49).

Gündəlik ruzisini mal-heyvandan əldə edən tərəkəmə qadınlarının çoxu heyvanı oxşayır, ona nənəm, bacım, "Sarıqızım", "Alaqızım" deyir, sağın zamanı bol süd verməsi üçün nəğmələr oxuyurmuşlar. Təəssüf ki, bu gün bölgədə sağın nəğmələrinə də az-az rast gəlinir:

Nənəm, dur-dur-dur.
Nənəm, nənəm, ay nənəm,
Süt ver mənə, ay nənəm,
Təpiy vurma, ay nənəm,
Nənəm, dur-dur-dur (49).

Ərazidən heyvandarlıqla bağlı qeydə alınan folklor örnəkləri – atalar sözləri, məsəllər, bayatılar, lətifələr bölgə insanlarının leksikonunda tez-tez işlədilir.

Təki sən sütdü inəy ol, vır, sərinci dağıt.
Qooşunun iki inəyli olmağın isdə ki, səən də bir inəyün olsun.
Çobanın köölü olsa, təkədən pendir tutar.
Sürüdən ayrı düşən qoyunu qurd yiyər.
Heyvan iynəşə-iynəşə, insan dilləşə-dilləşə.
Kor qoyun gecə otdiyar.
Xamda otdamısan, quyruğun hanı?! (49)

Biz getdüy gəlini görməyə,
Gəlin getdi təzəy dərməyə.

İki qoçun başı bi qazanda qaynamaz.

Tapmaca: "Dörd dəbriş bi quyuya daş atır" (açması: inəyin sağılması) (49).

Qoyun diyir: – qarnımı doydur, qara basdır məni,

Keçi diyir: – qarnımı doydur, qora* basdır məni (10).

Qara dana, ay qara dana,
Getdi girdi qağdana.**
Qağdanı qar alıbdı,
Nə yiyəcəy qara dana? (10)

Ay mənim qara quzum,
Çıxma dağlara, quzum.
Su verim, yonca verim,
Yi sən, doyunca verim (49).

K.Əliyev göstərir ki, "sayaçı sözlərində ifadə olunan fikir və mülahizələr köçəri camaatın qoyunçuluqla bağlı duyğu və düşüncələridir. Həmin duyğu və düşüncələr birxətli və birtərəfli olmayıb köçəri həyat keçirən və gün-güzəranını zəhmətdə və əməkdə görən insanların həyatından süzülüb gəlir" (56, 18). Müəllifin fikrinə şərik olaraq qeyd edək ki, təkcə sayaçı sözlərində deyil, həm də folklorun digər janrlarında əməksevər kənd insanının gündəlik qayğıları əks olunur. Salyanın Yenikənd (köhnə adı – Aşağı Xələc) kəndindən qeydə aldığımız bir mətndə insanların heyvandarlığa bağlı olduğu aşkar görünür. Mətndə heyvanlara sevgi yumoristik dillə ifadə olunmuşdur: "Kənddə Məhərrəmlik mərasimi üçün yığışan adamlar öz gündəlik qayğılarından danışır, məişət söhbətləri edirlər. Molla imamların müsibətindən, Kərbala faciəsindən danışır. Nə qədər danışırsa, görür, adamlar ona qulaq asmır, hər kəs öz malından, qoyun sürüsündən söhbət edir. Əlacsız qalan molla düşünür ki, mən nə edim, bunları necə ağladım ki, bunlar mənə qulaq assın, ağlasın?! Deyir: – Ay camahat, o gün bir hadisəyə şahid oldum. Gördüm, bir sahədə qoyun, keçi sürüsü otdayırdı. Yaxınnığda bir uçurum var iydi. Qoyunnar, keçilər – hamısı uçurumdan addayıb o taya keşdi. Ancaq təzə doğulan bir çəpiş uçurumdan atıla bilmədi. İndi ana qalıb o tayda "məə" eliyir, bala qalıb bu tayda "məə" eliyir. Bala

--------------------------------
*qor – isti köz
**qağdan – bostan yeri

çəpiş nə qədər istiyir, anasının yanına getsin, gedə bilmir. Molla bunu demişdi ki, camahat ağlaşmağa başlayır" (49).

Kür çayının və onun qollarının Neftçala və Salyan ərazisindən keçməsi burada əkinçiliyin geniş yayılmasına şərait yaratmışdır. Vaxtilə insanların Kür çayı boyunca məskunlaşması, görünür, məhz bu səbəbdən olmuşdur. Geniş əkin sahələrinin suya tələbatının qarşılanması üçün ən yaxşı vasitə insanların çay boyu yerləşməsinə səbəb olmuşdur. 1863-cü ildə şəhər statusu alan Salyan "xarici görünüşünə görə Kür boyunca uzanan böyük kənd təsiri bağışlayırdı" (141, 73).

Ərazinin əkinçilik təsərrüfatında taxılçılıq xüsusi yer tutur. Burada arpa, buğda, bəzi yerlərdə darı becərilmişdir. Əkinçiliyi əks etdirən folklor nümunələrinə baxaq. Qeyd edək ki, örnəklərin bir çoxu ümumtürk xarakterli olduğundan, digər bölgələrdə də rast gəlinməkdədir. "Şərti şumda kəsəy, xırmanda yabalaşmıyax", "Nə əkərsən, onu da biçərsən", "Əkəndə yox, piçəndə yox, yiyəndə ortağ qardaş", "Çəltiy döyülə-döyülə dən olar", "Yaz əkinçi, qış dilənçi" (49);

Budu gəldi üçü çəltiyçinin,
Leyləyə bənzər qıçı çəltiyçinin (10, 1).

Çəltiyi səpdim avar-əncərə*,
Bir yannan qaz yidi, bir yannan bılı**(10, 1).

Ərazidən toplanılan tapmacalar burada taxılçılığın geniş yayıldığını göstərir.

Aşırır, ay aşırır,
Dağı-daşı daşırır.
Aşığ bi şey göribdi,
Əyağ başı pişirir (49).

(Açması: taxılın qurumuş ot-ələfiynən buğdadan hədiy bişirmək).

Dilim-dilim nar,
Diziməcən qar.

---

*dənizlə qamışlıq arasındakı çəltik əkilən yer
**qazın, ördəyin balasına bılı deyilir.

Uşdu bi kəkliy,
Qaldı bi dilvar.

(Açması: taxılın döyülüb təmizlənmə prosesi) ( 10, 11).

XX əsrin ortalarında, sovet dönəmində uzun illər bölgədə pambıqçılıq mühüm rol oynamışdır. Bu gün də bəzi kəndli sahibkarlar öz pay torpaqlarında pambıq əkib-becərirlər. Sovet quruluşunun mövcud olduğu illərdə respublikanın digər rayonlarında olduğu kimi, burada da kolxoz təsərrüfatlarında pambıq becərilmiş, yığılan məhsul dövlətə təhvil verilmişdir. Sadə kəndlilərin, zəhmət adamlarının gününün böyük hissəsi bu işə sərf edildiyi üçün onlar pambıq sahələrində də öz "yaradıcılıq"larından geri qalmamışlar:

Bizim qalxoz sizinkinnən qabağdı,
Pammığımız hər biri bir tabağdı,
Bırnun badımcan, başun balqabağdı (49).

Və yaxud tarla briqadirinə öcəşərək zarafatla oxuyurmuşlar:

Ay hissi-hissi birqadir,
Dəsmalı kirri birqadir,
Kaprativə sabın gəlib
Al, dəsmalu yu, birqadir (49).

Tapmacaların arasında da pambıqla bağlı qeydə aldığımız nümunələr vardır.

Bir süri atdar,
Çəməndə otdar.
Vaxtı gələndə
Dərisi çatdar
(açması: pambıq qozası) (49).

Qeyd edək ki, bölgənin torpaqlarının böyük əksəriyyəti şoran torpaqlar olmasına baxmayaraq, burada uzaq keçmişdə də, bu günün özündə də gözəl bağlar salınmış, müxtəlif meyvə sortları yetişdirilmişdir. 1885-ci ildə Kalaşev SMOMPK-da nəşr etdirdiyi məqaləsində Salyanda yetişdirilən üzüm növlərinin adlarını sadalamışdır: əsgəri, misqalı, xəlili, kişmişi, yezdan, şani, lis, ablaqani, çileyi, qızılı, dərbəndi, sahili, minyaxa, kəlişan, keçi-əmcəyi, lah (141). Təkcə bu fakt keçən əsrdə burada bağçı-

lığın yüksək səviyyədə olduğunu təsdiqləyir. Becərdiyi bağından bol məhsul götürməyi arzulayan kəndli müşahidə edib ki:

Qış dumanı qar gətirər,
Yaz dumanı bar;

Bar verən ağacı kəsməzlər;
Bağda oturan barından yeyər;
Ağac bar verdikcə başın aşağı dikər (49).

Bağında yetişən ilk meyvədən "nobarannığ edən" kəs isə "dişimin, başımın ağrısı" deyibdi. Bağ-bostan əkməyin xeyrini-bəhrini görənlər "bağa baxarsan, bağ olar, baxmarsan, dağ" deyiblər.

Tapmaca: Hinni hinnicə
Burnu əyircə
(açması: noxud)
Dana su içər,
Çatı köpər
(açması: boranı ) (49).

Neftçala və Salyan ərazisində yaşayan əhali təkcə əkinçilik və maldarlıqla məşğul olmaqla kifayətlənmir, burada balıqçılıq da geniş yayılmışdır. Bölgənin ağ balığı, kürüsü bütün dünyada məşhurdur. Tarixi mənbələr göstərir ki, XVII-XVIII əsrlərdə Salyan tacirləri Salyan-Həştərxan gəmi yolu vasitəsilə Rusiya şəhərləri ilə ticarət əlaqəsi yaratmışdılar. Salyandan satmaq üçün bu şəhərlərə balıq, kürü, tənbəki, ağ və zolaqlı bez aparılırmış (88, 154).

Mütəxəssislərin və qurmanların rəyinə görə, Salyan və Neftçala rayonlarında tutulan ağ balıq və nərə balığı dünyada ən dadlı balıq sayılır (124). A.Turan rus yazıçısı Qleb Uspenskiyə istinad edərək Salyan (Neftçala) ərazisində rusların XIX yüzilliyin axırlarında balıqçılıq sənayesi ilə məşğul olduqları haqqında yazır. Q.Uspenski 1883-cü ildə Tataraməhləyə gəlmiş, burada gördüklərini qələmə almışdır. "Allahverən vətəgə" (Bojıy promısel) Kürün sağ sahilində (axına görə) Xəzər dənizinə tökülən yerin yaxınlığındadır. Bu adı daşıyan yer balaca şəhərcik kimi bir şeydir, burada qulluqçular üçün tikilmiş qəşəng binalar, xəstəxana, tor və

başqa balıqçılıq ləvazimatı mağazası var. Kür sahilində, daha doğrusu, Kür sahilindəki su üzərində böyük vətəgə – anbarlar tikilmişdir; burada balıqların içalatı çıxarılır, balıqlar duzlanır, qaxac balıq hazırlanır və sonra anbarın dalında ipə sarılıb günə verilir, habelə kürü, balıq yapışqanı istehsal edilir" (124, 138). A.Turan həmin illərdə nərə balığının və onun kürüsünün emal olunması ilə bağlı işlərin, əsasən, rus sahibkarları tərəfindən icra olunduğunu, buradakı balıqçılıq sənayesinin Rusiya iqtisadiyyatına xeyir verməsini faktlarla göstərmişdir. "Rusiya iqtisadiyyatına böyük fayda gətirən Neftçala (Salyan) balıqçılığı barədə bir məsələni ayrıca qeyd etməyə ehtiyac duyuram. Balıqçı babalarımız qiymətli balıq və kürü alveri ilə məşğul olmayıblar. Ola da bilməzdilər. Çünki nərə, ağ balıq və qara kürünü şəriət yasaqlamışdı. Darülmöminin mahalının əhalisi isə şəriətə qail insanlardı. Bu səbəbdən də dəbdəbəli süfrələrin bəzəyi olan nemətlər onların sadə süfrələrində görünməyib. Heç kəs yemədiyi üçün balıq təsərrüfatında çalışdıqları mövsümdə həmin balıqları şəxsi alver məqsədilə də ovlaya bilməzdilər. Axı kim alacaqdı? Nərəni, ağbalığı, qara kürünü kimə satacaqdılar? Digər tərəfdən də tutulan balığın satışına Rusiya dövlətinin xüsusi nəzarəti vardı" (124, 140).

Qeyd edilməlidir ki, Salyan və Neftçala ərazisinin mətbəxində qədimdən, əsasən, pulcuqlu balıqlar mühüm yer tutmuşdur. Kür çayının Xəzərə qovuşduğu yerlərdə, Neftçalada və ətraf kəndlərdə pulcuqlu balıq ovu daha çox yayılmışdır. Bu, neftçalalıların balıqdan hazırladığı yeməklərin çeşidindən də görünür. Bölgədə Novruz bayramında hazırlanan plov balıqsız olmaz. "Balıq dolması", "balıq buğlaması", "balıq kababı" və s. xörəklər yalnız bu bölgənin mətbəxinə aiddir. Salyanlılar və neftçalalılar balıq dolmasını duzlu balıqdan hazırlayırlar. Bunun üçün balığın axçası alınır, qulaqları və qarnı təmizlənir, sonra balıq duzlanır. Duzlanmış balıq çəlləkdə və ya şirli qablarda uzun müddət saxlanıla bilər. Bişirmək istəyəndə duzlanmış balıq suya qoyulur, duzunu yuyub, qarnına içlik doldururlar. İçlik üçün baş soğan xırda-xırda doğranır, yağda azca qovrulur, üzərinə pomidor, alça turşusu, nanə qurusu səpilir,

qarışdırılır. Payız vaxtı bura turşməzə nar da əlavə edilir. Hazırlanmış içlik duzlu balığın qarnına yığılır. Əvvəlcə üzüm və ya əncir yarpağına, sonra təmiz parçaya bükülür. İçərisinə az miqdarda su tökülmüş qazana xırda kərpic qoyulur, hazırlanmış balığı həmin kərpicin üzərinə qoyub buxarda, ocaq üstündə bişirirlər.

Bölgədən qeydə aldığımız lətifələrdə və inanclarda da balıqla bağlı maraqlı informasiya vardır. Məsələn, hamilə qadının bətnindəki uşağın qız, yaxud oğlan olmasını bilmək üçün balığın başındakı sümüyü atırlar. Həmin sümüyün üzü aşağı və ya üzü yuxarı düşməsi ilə qadının qız, yoxsa oğlan doğacağını təyin edirlər (49). Balıqsatan bir kişi köhnə, quruyub beli əyilmiş balığı müştəriyə tərifləyir ki, malı tez satıb qurtarsın. Müştəri balığın quruyub əyilməyinin səbəbini soruşanda balıqçı deyir: – Bu balığı döngədən burulanda tutmuşam, ona görə beli əyridi (49).

“Salyanla bağlı bir sıra faktlar məlumdur ki, onlar burada yaşayan əhalinin qədim xalq sənətkarlığının müəyyən səviyyədə olduğunu göstərir... Salyanda meydana gəlmiş və sonradan bütün Şirvan zonasına yayılmış yeri kürsülü, üstü balıq beli evlər sonradan İranda “şirvani ev” adı ilə yayılmışdır. Tək at qoşulan iki təkərli arabalar da Salyanda meydana çıxmışdır” (88, 156). H.Sarabski “Köhnə Bakı” əsərində bakılıların keçmişdə bağa köçərkən Salyan arabalarından istifadə etdiyi haqda yazırdı (110, 46). Salyanlı zərgərlərin hazırladığı qızıl və gümüş məmulatları, dulusçuların gil-saxsı qabları dediyimiz zonada əsrlər boyu məşhur olmuşdur (88, 156). Salyan peşə məktəbində işləyən Poqosov soyadlı müəllim SMOMPK-da nəşr etdirdiyi məqaləsində Salyanda xəz-dəri məmulatları emalından, burada kürk, papaq istehsalının mühüm yer tutduğundan yazırdı (147, 146-150).

### 1.2. Bölgə əhalisinin xarakterik xüsusiyyətləri və onun folklorda ifadəsi

Məlumdur ki, Muğan düzünün xeyli hissəsi Neftçala və Salyan ərazisindədir. Bu baxımdan, Muğanın əhalisi üçün deyilmiş aşağıdakı fikirləri neftçalalılara və salyanlılara da aid etmək

olar: “Muğanın mülayim iqlimi insanların xoş, istiqanlı, mehriban rəftarında özünü göstərir. Hər bir yerin insanı hər şeydən başqa öz xarakterində mənsub olduğu yerin təbiətini də əks etdirir. Bu mənada Muğan bölgəsinin coğrafiyası insanların xarakterini müsbət mənada səciyyələndirir” (28, 5-6).

Bölgə əhalisinin əksəriyyəti Azərbaycan türkləri üçün xarakterik hesab olunan milli-mənəvi dəyərlərə bağlı insanlardır. Burada əhalinin böyük əksəriyyəti İslam dininə aşırı dərəcədə bağlıdır. Təsadüfi deyil ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədrlərindən – şeyxülislamlarından üçü salyanlı olmuşdur. “İraqın Nəcəfül-Əşrəf şəhərindəki İslam Universitetinin Mərkəzi Dini Arxivində Salyanın xəritəsi asılmış və həmin xəritədə Salyan – “darülmöminin”, yəni möminlər yurdu kimi qeyd edilmişdir (64, 77). Görünür, məhz bu səbəbdən A.Turan Salyan ərazisinin tarixi, görkəmli şəxsiyyətləri ilə bağlı yazdığı kitabını “Darülmöminin” (124) adlandırmışdır.

Əslən salyanlı olan böyük Turan ideologiyasının yaradıcısı Əlibəy Hüseynzadənin, xalqın azadlığı uğrunda daim mübarizə aparan xalq şairlərimiz Xəlil Rza Ulutürkün, Əliağa Kürçaylının, böyük bəstəkar Arif Məlikovun və onlarla digər məşhur ədibin adı Salyanın qürur mənbəyidir. Bölgə əhalisi hər zaman ana torpağa, doğma yurda bağlı olmuş, vətənin azadlığı uğrunda gedən döyüşlərdə ön sıralarda iştirak etmişlər. Bunu bölgənin Milli Qəhrəman adına layiq görülən igid oğulları, torpaq uğrunda şəhid olan və müharibədə iştirak edən sıravi vətəndaşların sayı da təsdiqləyir.

Bölgə əhalisinin xarakterik xüsusiyyətlərini özündə əks etdirən çoxlu folklor mətnləri vardır. Demək olar ki, bütün janrlarda, o cümlədən rəvayətlərdə bu tipli mövzular diqqətçəkəndir. Belə rəvayətlərdən birində göstərilir ki, evinə qonaq gələn bir kişi yemək zamanı arvadına evin damından qarpız gətirməyi tapşırır. Ərinin göstərişinə görə qadın qarpızı gətirir. Kişi bu qarpızı yox, o biri böyük qarpızı gətirməyi tapşıraraq qadını geri qaytarır. Qadın hamilə imiş. Çox get-gəldən sonra kişi deyir: – “Hə, bu qarpızı deyirdim”. Sən demə, evin damında elə əvvəldən bir qar-

pız var imiş. Kişi qadını sınağa çəkirmiş ki, görüm bu qadın bezib dillənəcək ki, axı orda cəmi bir qarpız var, məni eyni qarpızın dalınca neçə dəfə yollayacaqsan?! Xoşbəxtlikdən qadın böyük hövsələ sahibi imiş. Ərinin sözündən çıxmayıb qarpızın ardınca dəfələrlə gedib-gəlir, ərinə etiraz etmir. Sınaqdan yaxşı keçir. Bu rəvayəti danışan söyləyici mətnin sonunu alqışlarla bitirdi (49). Qeyd edək ki, bu mətni ərazidən 3 variantda qeydə almışıq.

Salyanlılar nəzakət və davranış qaydalarına, nitq etiketlərinə o qədər aşırı riayət edirlər ki, bu, ətraf bölgələrdə salyanlı xarakterinin lətifə mövzusu olmasına gətirib çıxarmışdır. Belə lətifələrdən birini Tofiq Hacıyevdən qeydə almışdıq. "İki salyanlı dəmiryol stansiyasında dayanıb qatar gözləyir. Qatar stansiyaya çatır, dayanır. Düşən düşür, minən minir, salyanlının biri o birinə deyir: buyur, sən min. O biri salyanlı deyir: yox, zəhmət olmasa, sən buyur. Bu ona deyir, yox, birinci sən buyur. Bir də görürlər ki, qatar yola düşdü. Salyanlıların heç biri qatara minə bilmir, stansiyada qalıb növbəti qatarı gözləməyə məcbur olurlar" (49).

Salyan və Neftçala ərazisinin əhalisi Azərbaycanın digər bölgələri kimi etnik mədəniyyətə, ümummilli dəyərlərə sıx bağlı olan əhalidir. Ə.Əsgər etnik mədəniyyətin xalqın həyatında mühüm rol oynadığını belə ifadə etmişdir: "Xalqın bir xalq kimi mövcudiyyəti etnik mədəniyyətin mövcudiyyətindən asılıdır. Etnik mədəniyyət dəyərlərinin ölməsi xalqın tarix səhnəsindən çıxması ilə nəticələnir. Tarixdən məlum olan bir çox xalqların assimilyasiyası məhz etnik mədəniyyət dəyərlərinin itirilməsinin qanunauyğun nəticəsidir" (57, 4).

Etnoqrafiyaya, milli-mənəvi dəyərlərə, adət və ənənəyə bağlılıq, digər regionlarda olduğu kimi, bu bölgədə də çox güclüdür. Hər bir azərbaycanlı ailəsinə məxsus ailədaxili yazılmamış qanunlar, ailə mühafizəkarlığını səciyyələndirən folklor mətnləri regionda kifayət qədərdir. Bu baxımdan, atalar sözləri və deyimlər fikrimizi daha aydın əks etdirir.

Anasına bax, qızını al, qırağına bax bezini;
Anası gəzən ağacı balası budağ-budağ gəzər;

Analı qızın özi böyük, anasız qızın sözü böyük;
Vaxtında qızın döymiyən sora dizin döyər;
Əzizim əzizdi, tərbiyəsi onnan da əzizdi;
Qadın papağ döyül ki, başdan-başa qoyulsun;
Ərsiz arvad – yüyənsiz at və s. (49).

Qeyd edək ki, bu örnəklər Azərbaycanın bir çox bölgələrində, o cümlədən digər türkmənşəli xalqlarda da mövcuddur. Böyüyə, ağsaqqala hörmət etmək, valideynin, qayınata və qayınananın, el dili ilə desək, "yolunu tutmaq" bütün Azərbaycan türkləri kimi salyanlılar üçün də xarakterikdir.

Böyüyün sözünə baxmıyan böyürə-böyürə qalar;
Ağıl yaşda deyil, başdadı;
Qanan qanmıyana borjdıdı;
Hər sakqallının sözi keçsiydi, keçi birinci olardı;
Böyüksüz öydə xeyir-bərəkət olmaz;
Böyük olan yerdə kiçik danışmaz;
Böyüyün üzünə ağ olan çörəy tapbaz (49).

Ailədaxili münasibətlərin əks olunduğu folklor mətnləri arasında rəvayətlər və lətifələr xüsusi çəkiyə malikdir. Belə rəvayətlərdə ana-övlad, qayınana-gəlin münasibətləri üstünlük təşkil edir. Bunlardan "Lal gəlin, kar gəlin", "İz eşşəyin, feil gəlinin", "Halım budu, ay Mahmud", "Altı daş, üstü aş – yenə oğul yaxşıdı", "Hərtdi bacı, hürtdi bacı, qorxma, bağı bərkdi, bacı" və s. rəvayətlər bu ərazidə geniş yayılıb. Ünsiyyətdə olduğumuz söyləyicilərin böyük əksəriyyətinin repertuarında bu tipli ailə-məişət mövzularını əks etdirən mətnlər çoxdur. Demək olar ki, hər üç söyləyicidən biri adını çəkdiyimiz mövzularla bağlı mətn danışırdı. Bu isə göstərir ki, ailə-məişət mövzulu mətnlər sözügedən bölgədə aktiv söylənən folklor nümunələridir.

### 1.2.1. Bölgədən toplanmış folklor mətnlərində etnik, etnoqrafik və dini qarşılaşdırmalar

Yuxarıda qeyd olunduğu kimi, sözügedən regionun əhalisi, əsasən, Azərbaycan türkləridir, burada sonradan gəlmə ruslar və bəzi azsaylı etnik qrupun nümayəndələri çox cüzi saydadır. La-

kin bu, bir reallıqdır ki, "fərqli həyat tərzi istər-istəməz hətta eyni etnik qrupun da mədəniyyətində müəyyən fərqlər yaradır" (125, 24). Bu baxımdan, demək olar ki, fərqli etnosun, fərqli dini baxışların daşıyıcısı olan, müxtəlif dünyagörüşə və düşüncə tərzinə malik insanların bir arada yaşadığı zaman, sözsüz ki, atmacalar da yaranacaq, lətifələr də...

Gəlmə ruslarla azərbaycanlıların mətbəxi arasındakı fərqin özü də sonradan lətifələşmişdir. Uzun müddət sevdiyi azərbaycanlı oğlanın ailəsində qonaq olan rus qızı görür ki, bunlar hər gün yemək zamanı süfrəyə şor qoyurlar. Kasıb ailənin mətbəxində şorla çörək yaxmacı xüsusi yer tuturmuş. Rus qızı şor-çörək yeməkdən təngə gəlir, getməyə qərar verir. Gedərkən deyir: "Bu ağ şey nədisə, sizin axırınıza çıxacaq" (49). Digər lətifədə isə əsgərlikdən gələndə özü ilə sevdiyi rus qızını da gətirən salyanlı oğlan kənddə Musa kişinin nar bağının yaxınlığından keçəndə deyir: – Astarojna, Lyuba, Musaan qranatı qlazua batar (49).

Talışlarla yerlilər arasındakı münasibətlər lətifələr üçün maraqlı mövzu olmuşdur: İki talış Salyana gəlir, küçədə lovğa-lovğa gəzirlər. Salyanlılar bunlara "dərs vermək" istəyir. İkisinə də küçənin ortasında yerə uzanıb guya dənizdəki kimi üzməyi tapşırırlar. Bu iki talış çarəsizlikdən deyilənləri yerinə yetirməyə başlayır. Quru asfaltın üzərində guya üzürlər. Birdən talışlardan biri gülməyə başlayır. Səbəbini başa düşən olmur. Salyanlıların verdiyi "cəza" bitəndən sonra lal-dinməz ordan uzaqlaşırlar. Yolda talışın biri dostundan gülməyinin səbəbini soruşur. Oğlan cavab verir ki, mən ona görə gülürdüm ki, birdən bunlar bizə "bat" desələr, neyniyərdik?! (49).

Bir salyanlı ilə talış yol yoldaşı olur. Qış fəsli imiş. Talış salyanlıya deyir ki, yolda qarpız qabıqlarını gördün? Salyanlı deyir: qışdı, qar yağıb, bu vaxtı qarpız olmaz. Talış deyir, gedib qarpızın qabıqlarını gətirsəm, inanarsan? Salyanlı deyir, get gətir. Talış deyir: gördüm, qarpızın toxumu düşüb yerə, qar yağıb üstünə, toxum göyərib, qarpızın tağı uzanıb, yekəlib üstündə də qarpız var. İstədim, qarpızı dərib gətirəm, tağ uzandı, mən bir addım atdım, tağ iki addım uzandı, mən iki addım atdım, tağ

dört addım uzandı, Astarada qarpız tağı, üstündə də qarpızla bir yerdə, keşdi İran tərəfə, əlim çatmadı dərib gətirəm.

İndi salyanlı başlayır söhbətə. Deyir, qış idi, bir gün 7 nəfər qonağım gəldi. Getdim, tor atdım, bir şayı-mayı balığı tutdum. Gətirdim, arvad bu balığı bişirdi. Balığın nə qədər yağı çıxdı. Bir üç kiloluq balona yığdıq, tutmadı, ikinci balon, üçüncü balon, düz yeddi balon yağ çıxdı bu balıqdan. Qonaqlar balığı yidilər, artığı da qaldı. Talış deyir, hərə balıqdan bir az yiyər, çəkilər qırağa, artığı qalar. Ancaq sən gəl, yağ balonlarının sayını azalt. Bir balıqdan bu qədər yağ çıxmaz. Salyanlı deyir: sən qarpızın tağını qısaltmasan, mən də balonların sayını artıracam" (49).

Oxşar süjetli lətifə mətni ilə L.Vaqifqızının "Şəki folklor mühiti" kitabında rastlaşırıq. Həmin lətifədəki hadisələr Divoolu Yunusla şəkilinin başına gələn əhvalatdır. Divoolu guya meşədə yetmiş canavarı bir yerdə görmüşdü. Şəkili Divoolunun yalan danışdığını bilir, o da deyir ki, guya əkdiyi qavaxın tağı 2 km-ə qədər uzanıb. Divoolu qavax kolunun uzunluğuna inanmayanda şəkili də, "bəs necə olur, sən 70 canavarı bir yerdə görə bilirsən?" deyir (125, 49-50). Göründüyü kimi, Divoolu Yunus ilə şəkilinin başına gələn hadisə bizim topladığımız lətifədə salyanlı ilə talışın başına gələn hadisənin oxşar variantıdır.

Fərqli dini baxışlar, fərqli dünyagörüş, fərqli adət və inanclar folklor mətnlərində mütləq öz əksini tapır. Məlumdur ki, Neftçala və Salyan regionunda yaşayan əhalinin böyük əksəriyyəti şiələrdir. Burada az sayda sünnü məzhəbindən olanlara rast gəlinir. Bəzi mövhumatçı insanlar sünnülərin tərs olduğunu deyir, "onların sünnü damarı tutmasın, tutdusa qurtardı, qanın gedəcək" deyirlər. Sünnülərlə şiələrin məzhəb fərqliliyini əks etdirən bir çox faktları sadalayan söyləyicilər bəzən onları da lətifə qəhrəmanına çevirirlər. Bölgədə əvvəllər bəzi cahil insanlar sünnüləri "xaçpərəstdən də betər" adlandırır, onlarla qız verib-qız almaqdan yayınırmışlar.

Biri-birinə "ağız büzmək", şəhərlinin kəndlini bəyənməməsi və d. bu kimi faktlar bölgə üçün xarakterikdir. Bu mənada rayon mərkəzində yaşayanlar özlərini şəhərli sayır, kəndlərdə yaşayan

əhaliyə köhnə düşüncəli kimi baxırlar. Kəndlilər də əvəzində rayon mərkəzində yaşayanlara "ac şəhərli" deyirlər. Xolqarabucaqlılar qonşu Xolqaraqaşlı kəndində yaşayanların xasiyyəti ağır olduğuna görə, onlara "it qarağaşdı", qaçaqkəndlilər isə xolqarabucaqlılara "Qarabucağ – öyləri bucağ, bucağ" – deyərək cırnadırlar. Ətraf kəndlərin adamları Qoltuq kəndinin camaatına "ayaqyalın qoltuqlu" deyirmişlər. Deyilənə görə, qoltuqlular heyvandarlıqla məşğul olmadığı üçün onların çarıq tikməyə gön-dəri məmulatları olmazmış, "ayaqyalın qoltuqlu" ifadəsi bu səbəbdən yaranmışdır. Salyanın Xələc kəndinin camaatı üzümçülüklə məşğul olur, bu isə ağır zəhmət tələb edir, qonşu kəndin qızlarından Xələcə ərə verəndə "Xələcə gedən qız türməyə düşür, Xələcdən gedən qız türmədən çıxır" deyirlər. Qonşu rayonlarda yaşayanlar salyanlılara "balıq başı yeyən salyanlı" deyirlər.

### 1.2.2. Qərbi azərbaycanlılardan və qarabağlılardan toplanmış mətnlərin səciyyəvi xüsusiyyətləri

Region ərazisində 1946-48, 1950-52-ci illərdə Qərbi Azərbaycandan deportasiya olunmuş əhali də yaşayır. Onlar Salyanın Yenikənd, Arbatan, Şorsulu kəndlərində, Neftçalanın Mirzəqurbanlı, Kürqaraqaşlı, Astanlı kəndlərində yerli əhali ilə birgə yaşayırlar. Bu ərazidə yarım əsrdən çox yaşamalarına baxmayaraq, onlar bu gün də öz ləhcələrini, mətbəx mədəniyyətlərini, yaşayış tərzlərini qoruyub saxlaya biliblər. Yerli əhali ilə eyni coğrafi məkanı paylaşsalar da, Qərbi azərbaycanlılar məskunlaşdıqları ərazidə kompakt halında yaşayır, öz aralarında qız verib, qız alıb qohumluq edirdilər. Əvvəllər yerlilərlə qohum olmaq istəməyən Qərbi azərbaycanlılar son zamanlar kənd əhalisi ilə daha çox qaynayıb-qarışmışlar. Yerlilərin dediyinə görə, bu qohumluğun baş tutmasına gənclərin təkidi ilə razılıq verilmişdir. Salyanın Yenikənd kəndində məskunlaşan Qərbi azərbaycanlılar Zəngibasar mahalından köçürülənlərdir. Yerli kənd əhalisi onları "yerevanlılar" adlandırırlar. Onların arasında aktiv folklor söyləyicilərinə rast gəlmək mümkündür. Onlardan 1932-ci il təvəllüdlü Həsənova Nəzakət Məmməd qızının və 1934-cü il təvəllüdlü Məhərrəmova

Zeynəb Yusif qızı ilə görüşdük. Onlardan iyirmi bayatı, bir nağıl, xeyli sayda inanclar və rəvayətlər, etnoqrafik mətnlər əldə etdik. Rəvayətlərin arasında Beçəxorla bağlı mifoloji rəvayət də vardı. Bu mətndə də Beçəxor yerli əhalinin təsvir etdiyi formadadır və eyni funksiyanı yerinə yetirir. Bundan başqa, Həsənova Nəzakət Məmməd qızı "Dərzi qızının nağılı"nı danışdı. Nağıl süjet xəttinə görə çox zəngin və maraqlıdır. Məhərrəmova Zeynəb Yusif qızı daha çox bayatı söyləməyə həvəskar idi. Bayatıların məzmununda vətən həsrəti, yurd sevgisi aşkar duyulur:

Gedərəm, ölkə, sənnən,
Qorxuram yol kəsənnən.
Ay qohumum, qardaşım, gəl görüşəy,
Bəlkə, ayrıldım sizdən (49).

Qərbi azərbaycanlılardan qeydə aldığımız bayatıların bəzilərində cırnatma məzmunu duyulur:

Acı-qıcılar yarpağı,
Astanalar torpağı.
Hər kəs məni istəmir,
Gözünə bibar yarpağı (49).

Qeyd edək ki, bayatının oxşama variantını institutumuzun əməkdaşları Naxçıvanın Şərur rayonundan toplamışlar.

Acı-qıcılar yarpağı,
Astanalar torpağı.
Kim ki balamı istəmir,
Gözünə bibar yarpağı.

Üçüncü misranın dəyişməsi ilə məzmun dəyişir və uşaqlar üçün oxunan oxşama mətni yaranır.

Əslən Qərbi Azərbaycandan olan söyləyicilərin uşaq vaxtı Zəngibasarda şahidi olduqları bəzi hadisələr etnoqrafik mətnlər kimi dəyərlidir. Mətnlərdən birində söyləyici uzun illər əvvəl Kəlbeysər adlı mollanın dua oxuyaraq arpanı divarda yeritdiyini öz gözlərilə gördüyünü dedi. Digər mətndə isə molla uşaqlardan birinə deyib ki, get, ananın saçından bir az kəsib mənə gətir. Uşaq gəlir, anasına bu sözləri olduğu kimi çatdırır. Məsələdən

duyuq düşən ana öz saçının əvəzinə dananın dərisindən bir parça tük kəsib verir. Molla həmin bir parça tükə dua yazır, ovsun oxuyur. Camaat görür ki, dananın dərisi yellənə-yellənə mollanın qapısına gedir. Sən demə, molla dananın tükünü həmin uşağın anasının saçı zənn edərək ona "şirnik" duası yazıbmış (49).

Əslən Vedi rayonunun Kolanı kəndindən olan Hüseynova Səkinə Nəsib qızı, Abdullayeva Bəsti Heydər qızı 1950-ci ildə Salyan rayonunun Şorsulu kəndinə köçürülənlərdəndir. Onlardan da vətən həsrətli bayatılar, rəvayətlər və bir dastan mətni qeydə aldıq.

Ötən əsrin sonlarında Qarabağda baş verən qanlı müharibələr nəticəsində doğma yurdundan didərgin düşənlər də Neftçala və Salyan ərazisində pərakəndə halda məskunlaşmışlar. Lakin bölgənin qızmar yayı, həddindən artıq isti iqlimi səfalı Qarabağdan gələn əhalinin burada daimi məskən salması üçün əlverişsiz olmuş, onların böyük əksəriyyəti buranı tərk etmişdir. Bu gün bölgədə, az sayda da olsa, qarabağlı qaçqınlar vardır, onlardan toplanan folklor nümunələri səciyyəvidir. Neftçala rayonunun Xolqaraqaşlı kəndində məskunlaşan əslən Ağdamın Keşrazlı kəndindən olan Məmmədov Əliş Səlim oğlu və Məmmədova Tovuz Əliş qızından, Qaçaqkənddə məskunlaşan əslən Cəbrayılın Çullu kəndindən olan Aslanova Ayna Süleyman qızından qeydə alınan folklor mətnləri onların vətən həsrəti, yurd sevgisi ilə çırpınan ürək döyüntülərindən xəbər verirdi. Doğma elə bağlılıq, sevgi hissi, torpaq nisgili onların danışdıqları bütün mətnlərə hopmuşdu. Tovuz Məmmədovanın söylədiyi bayatılarda bu, aşkar görünürdü.

Gəncənin boz dağları,
Basıfdı toz dağları.
Deyiydilər, Ağdam verilir,
Onda aşıydım tez dağları (49).

Cəbrayıllı Ayna Aslanovanın eyni bayatını fərqli variantda söyləməsi də yurda bağlılığın bariz nümunəsidir. Söyləyici bu bayatını deyərkən qəhərləndi və bayatını sona çatdıra bilmədi. Amma mətnin canlı olmasını, konteksti nəzərə alaraq bu bayatını yuxarıdakı bayatı ilə müqayisə etməyi məqsədəuyğun sayırıq:

Cəvrayılın boz dağları,
Bürüyüfdü toz dağları.
Yolların gavırrar kəsdi,
(Sizə nə deyim, nejə deyim,
Cəvrayıl heylə iydi) (49).

Qeyd edək ki, bu bayatının fərqli variantlarına digər bölgələrdən toplanılıb nəşr olunan folklor kitablarında tez-tez rast gəlmək olur. Məsələn, Şəki-Zaqatala bölgəsindən toplanılmış varianta baxaq:

Şarəyin boz dağları,
Bürüdü toz bağları.
Əlini ver əlimə
Keçək tez bu dağları (24, 7).

Bayatının yuxarıdakı iki variantında vətən həsrəti daha qabarıqdır, çünki həmin bayatılar Qarabağdan didərgin düşən qaçqınların dilindən qeydə alınıb. Üçüncü variant isə sübut edir ki, bu bayatı, ümumiyyətlə, Azərbaycanın bütün bölgələrində aktiv rast gəlinən nümunədir, sadəcə hər bölgə öz toponimik möhürünü vurmaqla onu özününküləşdirir.

Qarabağlı söyləyicilərdən Halla bağlı iki mifoloji mətn, ağdamlı qaçaqlar Kolanı İsmayıl, Kolanı Məhəmməd haqqında rəvayətlər, Abdal Qasım haqqında lətifələr, ağdamlı Seyid Lazım ağanın, Fığara Seyidin, Seyid Mənəf ağanın, cəbrayıllı Hacı Qaraman ocağının, Şıx Əzəddin, Seyid Həsən ağa, Dərviş Pürüm pirlərinin möcüzə və kəramətləri haqqında, Qodu gəzdirmək mərasimi, Novruz bayramı haqqında mətnlər topladıq. Qeyd edək ki, Xolqaraqaşlı kəndində yaşayan Tovuz Məmmədova burada nəzər götürməklə, sınıqçılıq və türkəçarə ilə də məşğul olur.

Göründüyü kimi, Qərbi Azərbaycandan buraya deportasiya olunan və Qarabağdan qaçqın gələn əhalinin yaddaşında vətən həsrətli bayatılarla yanaşı, həmin əraziyə məxsus rəvayətlərə, lətifələrə də rast gəlinir. Vətən, torpaq nisgilinin bayatılarda ifadəsi, doğma yurdla bağlı mətnlərin söyləyici yaddaşına həkk olunması bu mətnlərin özünəməxsusluğundan xəbər verir.

### 1.3. Bölgə folklorunun toplanması və söyləyici özünəməxsusluğu

Folklorun regionlar üzrə toplanması, nəşri və araşdırılması çox mühüm və vacib məsələlərdəndir. Folklorşünas S.Orucova "müxtəlif regionlardan toplanmış materialların "Azərbaycan folklorunun regional kontekstdə öyrənilməsi" prinsipinin ilk dəfə SMOMPK məcmuəsində tətbiq olunduğunu" yazır (100, 18). Məlumdur ki, folklorun regional toplanması işini təşkil etməklə, toplanılan mətnləri araşdırmaya cəlb etməklə Azərbaycan folkloru haqda dolğun fikir formalaşır. Bu baxımdan, son illər AMEA Folklor İnstitutunun gördüyü işlər, rayonlara təşkil olunan folklor ezamiyyələri, xüsusilə Qarabağ layihəsi ilə bağlı atılan addımlar təqdirəlayiqdir (77; 78; 79; 80; 81; 82).

"Bölgələrdə folklor materiallarının toplanması, öyrənilməsi ümumfolklor fondunun yayılma dərəcəsini, janrların semantik-funksional özəlliklərinin öyrənilməsi, nəhayətdə folklor xəritələrinin hazırlanmasına gətirib çıxaracaqdır. Bu isə Azərbaycan folklor materiallarının janrlar üzrə yayılması, folklorumuzun ümumtürk kontekstində yerini, etnik-mədəni kimliyini öyrənməkdə başlıca cəhət olacaqdır" (45, 15).

Folklorun regionlar üzrə öyrənilməsinin bir çox müsbət yönləri vardır. Birincisi, ona görə ki, aparılan iş sistemli şəkildə icra olunduqda ortaya daha keyfiyyətli iş çıxarılır. Eyni zamanda "Azərbaycan folklorunun regional mühitlər kontekstində öyrənilməsi birbaşa milli-mənəvi dəyərlərimizin bərpası deməkdir... Milli folklorun regional mühitlər kontekstində tədqiqi dövlət və dövlətçiliyin milli-mənəvi əsaslarının möhkəmləndirilməsinə xidmət edir" (109, 32).

Folklor materiallarının regionlar üzrə araşdırılması və öyrənilməsi həm də ümumtürk və ümumazərbaycan folklor örnəklərinin variantlarının aşkarlanması baxımından əhəmiyyətlidir. Bununla bağlı M.Abdullayeva yazır: "hər bir regionda söylənən folklor örnəklərinə həmin regionun "möhürü" vurulmuş, müxtəlif variantlı nümunələr yaranmışdır. Məhz buna görə də örnəklərin regional baxımdan öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir" (5, 4).

Bu məqsədlə biz də 2002-ci ildən bəri Neftçala və Salyan ərazisinin folklorunu toplamağa başladıq. Dissertasiya mövzumuzun "Neftçala-Salyan folklor mühiti" olması səbəbindən toplama işinə daha ciddi yanaşdıq. Məqsədimiz həmin bölgənin folklorunu yaşlı nəslin nümayəndələrindən vaxtında əldə etmək, ərazinin folklor mühitini ətraflı araşdırmaq, regionun özünəməxsus xüsusiyyətlərini aşkarlamaq olmuşdur. Belə bir mövzuya müraciət etməyimizin səbəbi bir tərəfdən doğma torpağın insanlarının yaddaşındakı söz xəzinəsini itib-batmaqdan qorumaq, digər yandan həmin söz xəzinəsinin ümumazərbaycan folklor müstəvisində yerini, özünəməxsus cizgilərini aramaq, onları digər regionlardan toplanmış folklor nümunələri ilə qarşılaşdıraraq oxşar və fərqli cəhətlərini üzə çıxarmaqdır. Toplama işinin vacibliyini vurğulayan M.Kazımoğlunun bu işin təxirəsalınmazlığının əsas səbəblərindən biri kimi göstərdiyi faktlar folklorşünaslıqda kifayət qədər ciddi məsələdir: "Çağdaş informasiya bolluğu şəraitində şifahi söz sənətinin meydanı daralır. Layla və oxşamaya, yanıltmac və tapmacaya, nağıl və dastana... marağın azalması, peşəkar söyləyicilərin çox çətinliklə tapılması məhz meydanın daralmasına, folklor od-alovunun səngiməsinə dəlalət edən faktlardır (73, 5).

Bu gün bölgədə peşəkar söyləyicilərə çox az-az rast gəlinməsi, söyləyici repertuarının zaman-zaman zəifləməsi, adət-ənənələrin bir çoxunun unudulması və digər faktlar sözügedən problemin həlli ilə bağlı düşünməyin vacib olduğunu şərtləndirir. "Tək-tək ələ alınıb incələdikdə bütün folklor örnəkləri insana dəyərsiz və mənasız şeylərin bir yığını kimi görülə bilər. Amma həmin örnəklər bəlli bir sistemlə incələnib araşdırıldıqda bu işi dünyada ilk dəfə çözməyə çalışan və əlindəki folklor mətnlərini bir-birinə toxumağa çalışan Qrimmin düşündüyü kimi, insanın xəyallarında belə görə bilməyəcəyi böyük bir dəyər qazanır" (129, 42). Doğrudan da, folklor ucu-bucağı görünməyən, sonsuz bir ümmanı xatırladır. Bu ümmanı vaxtında xalqın arasından toplamaq, xalqın malını yenidən xalqın özünə qaytarmaq bütün folklorçuların mənəvi borcudur. Türk folklorşünası S.Sakaoğlunun Əflatun Cem Güney-

dən verdiyi istinadda folklor örnəkləri yeraltı xəzinə ilə müqayisə olunur. "Folklor milli mədəniyyət xəzinəsidir, lakin gündən-günə tükənən bir xəzinədir... Folklor örnəklərinin toplanaraq nəşr olunması, araşdırılması, dəyərləndirilməsi milli mədəniyyətə böyük töhfədir... Bunun üçün yeraltı cövhərlərimizi necə axtarıb tapıb toplayırıqsa, bu milli-mənəvi cövhərlərimizi də o şəkildə axtarmalı, toplamalıyıq" (139, 58). Məlumdur ki, folklor toplanması zamanı bəzi mühüm şərtlər nəzərə alınmalıdır. Folklorşünas F.Bayatın göstərdiyi kimi, "toplama işi əsasən, müşahidə və müsahibə yolu ilə aparılmalıdır" (44, 375). Biz də toplama zamanı hər iki üsuldan istifadə etmişik. Bir çox mərasimlərin iştirakçısı olmuşuq, müşahidələr aparmışıq. Yaxud ənənəvi müsahibə yolu ilə söyləyicilərdən diktafon vasitəsilə mətnləri qeydə almışıq. Y.Q.Kruqlov yazır ki, "folklor toplanılmasının əsas qaydası kənddə yaşayan istedadlı ifaçıları aşkara çıxarmaqdır. Yaxşı söyləyicilərin şöhrəti adətən yaşadığı bölgənin hüdudlarından kənara çıxır, ona görə də bir kənddən toplayarkən digər kənddə yaşayan söyləyicilər haqqında məlumat əldə etmək lazımdır" (142, 26).

Toplama işinə təxminən on dörd il əvvəl başlamağımızın müsbət yönləri çoxdur. On dörd il ərzində ünsiyyətdə olduğumuz söyləyicilərin bir çoxu artıq dünyasını dəyişib. Həmin söyləyicilərin yaddaşındakı folklor mətnlərini yazıya almaqla dəyərli nağıl və rəvayətləri, əfsanələri, bayatıları, atalar sözlərini itib-batmaqdan qorumuş olduq. Bəzən isə "bir az tez gəlsəydin, bala, qonşuda nağıl bilən insanlar çoxuydu, indi rəhmətə gediblər, vaxtında gəlsəydin, daha çox nağıl yazardın" və s. bu tipli qınaqlarla qarşılaşırdıq. Söyləyicimiz, Salyan rayonu Şorsulu kənd sakini 79 yaşlı Narınc Yahyayeva qayınanasının vaxtilə gözəl nağıl söyləmək bacarığı olduğunu dedi və qeyd etdi ki, mərhum qayınanası öz nəvələrinə uzun-uzadı nağıllar danışaraq uşaqları ev işlərini görməyə həvəsləndirirmiş. Nənə hər dəfə nağılın qalan hissəsini növbəti günə saxlayırmış. Uşaqlar həsrətlə nağılın ardını gözləyirmişlər. Bu, uşaqların nağıl üçün darıxmalarının səbəbi olurmuş. Narınc nənə mərhum qayınanasının danışdığı nağıl-

lardan bəzilərinin adlarını yadında saxlamışdı: "Qulaq Əhmədin nağılı", "Məliy Əhmədin nağılı", "Məliyməmmədin nağılı". Narınc Yahyayevanın özünün yaddaşından 24 bayatı, 3 nağıl, 6 rəvayət, 1 əfsanə, 20-yə yaxın atalar sözü və məsəl yazıya aldıq.

Neftçala rayonunun Qaçaqkənd sakini 1930-cu il təvəllüdlü Orucov Alşan Qədir oğlunun (2010-cu ildə dünyasını dəyişib) repertuarından bir dastan, üç nağıl, ona yaxın rəvayət qeydə almışıq. Söyləyicinin danışdığı mətnlərin məzmunu, süjet xətti çox mükəmməl idi. Söyləyici danışdığı mətnlərə yeri gəldikcə öz əlavələrini də edirdi. Məsələn, "İskəndər şahın nağılı"nı danışarkən atlarla bağlı maraqlı informasiyanı nağılın içərisinə əlavə etmişdi. Söhbət əsnasında məlum oldu ki, bu improvizə ömrünü-gününü at belində keçirmiş bir insanın atlara olan xüsusi marağından irəli gəlirdi. Rus folklorşünası A.Samoşkin yazır: "İmprovizasiya – söyləyici yaradıcılığının mühüm xüsusiyyəti kimi, mətnin forma və məzmunu ilə xarakterizə olunur. İfa prosesindəki belə yaradıcılıq xüsusi yaddaş tələb edir" (148, 7).

Neftçala rayonunun Xolqarabucaq kənd sakini Əsədov Məmmədqulu Dadaş oğlunun yaddaşında epik folklor mətnləri üstünlük təşkil edirdi. Çoxlu sayda nağıl, rəvayət və lətifə örnəkləri danışan Məmmədqulu Əsədovun repertuarında dini və mifoloji obrazlarla bağlı rəvayətlərə az rast gəldik. Söyləyici özü bunu miflərə və mifoloji personajlara olan inamsızlığı ilə əlaqələndirdi.

Xolqarabucaq kənd sakini Əhədova Adilə Qurban qızının, Kürqarabucaq kəndində yaşayan Mirbəyim Mirəziz qızının, Xələc kəndində yaşayan Səlimova Zenfira Balağa qızının, Xolqarabucaq sakini Qədirova Laləzər Alşan qızının yaddaşından maraqlı nağıl və rəvayətlərlə yanaşı, həm də bölgənin ziyarətgahları, ocaqları, seyidlər və onların möcüzələri ilə bağlı örnəklər də qeydə aldıq.

Xolqaraqaşlı kəndində yaşayan 1942-ci il təvəllüdlü Səfərova Mərifət İbrahim qızından folklorun həm epik, həm lirik növünə aid örnəklər qeydə aldıq. Bundan başqa, söyləyici folklor məclisləri arasında özünəməxsusluğu ilə seçilən kilim toxuma

ənənəsilə bağlı məlumat verdi, həmin işi icra edərkən bir yerə toplaşan qız-gəlinlərin danışdığı maraqlı söhbətləri xatırladı.

Qaçaqkənd sakini 1960-cı il təvəllüdlü Orucov Ədalət Alşan oğlundan xeyli lətifə mətni qeydə aldıq. Həmin lətifələrin bir çoxu bölgədə yaşayanların etnik və etnoqrafik münasibətlərini əks etdirir. Qeydə aldığımız lətifələrin bəziləri heyvandarlıqla, yaxud elat həyatı ilə, bəziləri isə dəlilərin sərgüzəştlərilə bağlı idi.

Qeyd edək ki, toplama zamanı söyləyicilərin danışdıqları folklor materiallarını əvvəlcə diktafona yazıb sonra yazıya köçürmüşük. Köçürmə zamanı mətnlərin dialekt və şivə xüsusiyyətlərini qorumuş, söyləyicinin dil və üslub tərzinə toxunmamışıq. Mətnləri ifa edən hər bir söyləyicinin özünəməxsus ifa tərzini, spesifik danışıq xüsusiyyətlərini saxlamağa səy göstərmişik.

"Qarabağ: folklor da bir tarixdir" kitabında qeyd edildiyi kimi, "toplayıcılıq elə bir prosesdir ki, o, hər bir potensial söyləyici ilə mütəmadi təmasda olmağı tələb edir. Məhz bu zaman söyləyici ilə toplayıcı arasındakı təmas daha səmimi və inandırıcı olur, söyləyici toplayıcıya artıq yad bir adam kimi deyil, doğma şəxs kimi baxır. Söyləyicinin toplayıcıya inamı artdıqca daha səmimi bir mühit yaranır ki, bu da çox vaxt toplayıcıya öz istədiklərini almaq imkanı verir" (108, 9).

Söyləyicilərimizin böyük əksəriyyəti yaşlı nəslin nümayəndələridir. Ara-sıra gənc və orta nəslə aid söyləyicilərlə də görüşmüşük, onlardan da material əldə etmişik. Məlumdur ki, söyləyicilik qabiliyyətinin mükəmməlliyi yaddaşın güclü olması ilə sıx bağlıdır. Yaddaşı zəif olan söyləyici mətni istənilən halda ya qırıq-qırıq xatırlayır, ya da mətnin ümumi məzmunu haqda qısa məlumat verə bilir. Rus folklorşünası M.M.Pliseyski bununla bağlı yazır: "Folklor prosesində yaddaş böyük rol oynayır. Folklor prosesi fasiləsiz yenidənqurma prosesi olub bədii-şifahi obrazların yaddaşa əsaslanmasıdır. Folklorun ənənəvi poetikası əhəmiyyətli ölçüdə bu faktorun təsiri altında əmələ gəlmişdir" (145, 58). Apardığımız müşahidələr göstərir ki, söyləyicilərin böyük əksəriyyəti folklorun ya lirik növə aid nümunələrini,

yaxud da epik növə aid nümunələrini danışmağa meyllidirlər. Elə söyləyici vardır ki, 30-40 bayatını ard-arda söyləyə bilir, lakin bir nağılı yadına sala bilmir. Bəzən əksinə də olur. Bir neçə nağılı, rəvayəti danışan söyləyici yalnız 2-3 bayatı deyə bilir. Az-az hallarda eyni söyləyicidən həm epik, həm də lirik folklor mətnləri toplaya bilmişik. Fikrimizcə, bu, söyləyicinin xarakteri ilə bağlıdır. Y.Q.Kruqlov göstərir ki, "folklor ifaçısının söhbəti hansı tərzdə başlaması onun yaşı və əhvalı, sözügedən bölgədə hansı folklor ənənələrinin qorunması ilə bağlıdır" (142, 29). Bu mənada İ.Rüstəmzadə yazır: "söyləyici repertuarının formalaşmasında onun maraq dairəsi, hansı mətnlərə daha çox həvəs göstərməsi mühüm rol oynayır" (107, 148).

Müşahidə etdik ki, bəzi söyləyicilər çox utancaq olduqları üçün öz doğmalarının yanında söhbət etmək istəmirdilər. Belə olan halda söyləyici ilə ikilikdə qalmaq üçün evin boş otaqlarından birinə keçirdik ki, söyləyici özünü daha sərbəst hiss etsin. Bəzən isə əksinə olurdu. Söyləyici öz doğmalarının yanında daha da ürəkli olur, bildiklərini daha böyük şövqlə danışırdı. Rus folklorşünası Gekmanın yazdığına görə, "Sibir xalqlarının mədəniyyətində söyləyici və söyləyicilik vergisi haqqında əfsanələr mövcuddur" (143, 79). Folklorşünasın qeyd etdiyinə görə, "söyləyici öz nitqini düşdüyü şəraitə görə formalaşdırır (143, 79)". Maraqlı məqamlardan biri bir neçə söyləyicinin bir arada oturub mətn danışmasıdır. İki və daha artıq söyləyici ilə bir yerdə söhbət edərkən maraqlı hadisə ilə üzləşdik. Neftçalanın Qaçaqkənd kəndində folklor toplayarkən Babayeva Ceyran Həzrəti Əli əleyhissalam haqqında dini rəvayəti danışanda digər söyləyici Mirzadə xanım danışılan mətnə müdaxilə edərək bəzi hissələrin səhv olduğunu, hadisələrin belə yox, başqa formada baş verdiyini söylədi. Bu zaman biz söyləyici Mirzadə xanımdan həmin mətni fərqli formada təkrar qeydə aldıq ki, bu da eyni mətnin ikinci variantının ortaya çıxması ilə nəticələndi. "Təbiidir ki, yaddaş əsasında icra olunan belə ifaçılıq əvvəllər eşidilmiş və ya görülmüş əsərin bilərəkdən müəyyən qədər dəyişilməsinə səbəb olur. Bununla belə,

qeyd etmək lazımdır ki, yaradıcı ifaçı improvizasiya edərkən də ənənələrin çərçivəsindən kənara çıxmır" (140, 19).

Ünsiyyətdə olduğumuz gənc söyləyicilər yaşlıların yanında danışmağa cəsarət etmirdilər. Ancaq onları həvəsləndirərək söhbətə tuturduq. Belə həvəskar söyləyicilər çox zaman öz nənə-babalarından eşitdikləri nağıl və rəvayətləri danışırdılar.

Müşahidələrimiz göstərir ki, Neftçala və Salyan folklor söyləyicilərinin repertuarında məişət mövzulu mətnlər daha üstünlük təşkil edir. Ünsiyyətdə olduğumuz hər iki söyləyicidən biri mütləq ailə-məişət mövzusunda olan əfsanə və rəvayətlər danışırdı. Bölgədən qayınana-gəlin, qayınana-kürəkən, ana-oğul münasibətlərini əks etdirən xeyli mətn toplamışıq. Belə mətnlərdən "Keçinin qəhrəmanlığı", "Lal gəlin, kar gəlin", "İz eşşəyin, feil gəlinin", "Altı daş, üstü aş, yenə oğul yaxşıdı", "Hərtdi, bacı, hürtdi, bacı, qorxma, bağı bərkdi, bacı", "Üç gəlin və qayınana", "Halım budur, ay Mahmud" və s. misal göstərə bilərik.

Bölgədə məişət mövzusunda olan əfsanə və rəvayətlərlə yanaşı, dini rəvayət və nağıllar da geniş yayılmışdır. Dini mövzuları əks etdirən rəvayət və nağıllarda Peyğəmbərin, Həzrəti Əlinin, imam Hüseynin, Fatimeyi-Zəhranın və b. müqəddəslərin həyatından, onların başına gələn əhvalat və hadisələrdən söhbət açılır. Belə dini mövzulu mətnlərə folklorun həm epik, həm lirik növə aid nümunələrində rast gəlmək olur. Bu mənada çoxlu sayda bayatı-ağı və rəvayətlər əldə olunmuşdur. Bu tipli mətnlər bölgədə həm yas məclislərində, həm də Məhərrəm ayında icra olunan mərasimlərdə ağızdan-ağıza keçərək daha çox yayılır. Materiallardan görünür ki, dini mövzulu mətnlərin bir çoxunun mövzusu yazılı ədəbiyyatdan gəlmədir. Belə mətnlərin çoxu peyğəmbərlərin həyatından bəhs edir və bu tipli mətnlər dini kitablardan götürülmüşdür. Müqəddəs kitabımız "Quran"dan, "İbrətnamə"dən gələn hədislər, Q.Zakirin, Qumrunun və başqa şairlərin yaradıcılıqlarından götürülmüş mərsiyələr də söyləyicilərin repertuarında geniş yer tutur.

Bölgədən qeydə aldığımız materiallar arasında bayatı janrı xüsusi çəkiyə malikdir. Yaşlı söyləyicilər arasında bayatılar,

xüsusilə də ağılar, oxşamalar geniş yayılıb. Bununla yanaşı, bölgədən yazıya aldığımız örnəklər özünəməxsus xüsusiyyətlərə malikdir. V.Vəliyev Azərbaycan bayatılarının “əzizinəm”, “eləmi”, “mən aşiq” kimi şablon kəlmələrlə başladığını söyləyir (126, 4). Bizim bölgədən topladığımız folklor örnəklərinin içərisində belə şablon kəlmələrin olmasına az-az hallarda təsadüf olunur, şablon kəlmələrlə başlayan bayatıları nisbətən gənc nəslə aid söyləyicilər deyir. Yaşlı nəslin söylədiyi bayatılarda isə, demək olar ki, heç bir şablon kəlmələrə təsadüf olunmur.

Mən qaldım aran yerdə,
Miçəy qan soran yerdə,
Anam, bacım ağlasın
Qanım göl olan yerdə.

Şirəni şana çəkər,
Hər öölad qana çəkər.
Balanın qəm yükini
Ölincə ana çəkər.

Pərişanam, pərişan,
Yoxdı halımı soruşan.
Hardadı məni kimi
Dərdi dərdinə qarışan (49).

Maraqlı cəhət odur ki, bölgədə xoryat şəklində olan bayatılarla sıx şəkildə qarşılaşırıq. Belə bayatıları əsasən yaşlı söyləyicilərdən eşitmək mümkündür.

Getmə,
Səbrim, qəralım,getmə.
Sən ol cənnət bülbili,
Mənnən aralı getmə.

Qar daşı,
Qarrı dağdan qar daşı.
Bacılar onda bayram elər,
Haçan görsə qardaşı.

Maşad olsun,
Çək sürmə qaşa, dolsun.
Səni mənnən ayrı salan
Nə gülsün, nə şad olsun (49).

Söyləyicinin improvizasiya bacarığını müşahidə etmək baxımından qarşımıza çıxan bir fakt xüsusi maraq doğurur. Bir bayatını əvvəlcə ağı kimi söyləyən 89 yaşlı Fatma Xankişiyeva az sonra həmin bayatının içərisində xırda dəyişiklik edərək ona şikayət məzmunu verir:

Ağı kimi: Ay bala, hayıf sənin canunnan,
Qaşua bərəkanna,
Gözüə bərəkanna.
Bala, boyun kimi boy görsün,
Boyua bərəkanna (49).

* * *

Qaşua bərəkanna,
Gözüə bərəkanna.
Özün toyda-dügündə,
Məni qoydun bu gündə,
Səbrüə bərəkanna (49).

Oxşar hadisə ilə qarşılaşan araşdırıcılar məsələyə münasibət bildirərək yazırlar: "Bayatıları səciyyələndirən cəhətlərdən biri onun ağılardan sayaçı sözlərinədək olan geniş məzmun diapazonluluğudur. Bayatı hər dəfə yeni, fərqli məzmun, mövzu məkanına düşdükdə də öz əzəli quruluşunu, biçimini qoruyub saxlasa da, məzmununu dəyişdirir" (66, 6).

Bölgəyə məxsus özəlliklərdən biri yeni nağıl süjetlərinin, maraqlı nağıl qəhrəmanlarının ortaya çıxmasıdır. Buna "Ahu balanın nağılı"nı, "Pərəqulağın nağılı"nı, "Dərzi qızının nağılı"nı misal göstərmək olar. Toplanılan nağıllarda az-az olsa da, kontaminasiya hadisəsi ilə rastlaşırıq. "İskəndər şahın nağılı", "Məlikməmmədin nağılı" bu baxımdan səciyyəvidir. Söyləyicilər arasında "Kəlilə və Dimnə", "Min bir gecə" nağıllarını söyləyənlərə də rast gəlinir. Söyləyicilərdən iki nəfər "Yusif və Züleyxa" nağılı adı ilə bir neçə il əvvəl televiziya kanallarından birində yayımlanan eyniadlı çoxseriyalı televiziya filmini nağıl etdi. Ümumiyyətlə, nağıl danışan söyləyicilər çox vaxt nağılları adlandırmır, birbaşa mətni danışmağa başlayırdılar. Ona görə də mətnlərin adlandırılması bizim üzərimizə düşüb.

Bölgədən yazıya aldığımız mətnlərin içərisində mifoloji rəvayətlər xüsusi yer tutur, mifoloji rəvayətləri danışan söyləyicilər çox zaman mifik ruhların varlığına inanmır, buna görə də söhbətə "guya" kəlməsi ilə başlayırdılar. Məsələn, "guya bizim

ulu babamız Al arvadı tutmuşmuş" deməklə söyləyici özü də mətnə inanmadığını təsdiqləyir. Bu faktın özü söyləyici tipini aşkar şəkildə göstərir. Al arvadı və digər mifoloji ruhlar haqqında söhbət açılanda söyləyicilərdən biri digərinin inanmamasına etiraz edərək ətrafda mövcud olan bütün əşya və varlıqların özünəməxsus adı olmasını əsas gətirdi və həmin gözəgörünməzlərin əslində mövcud olduğunu qeyd etdi.

Bölgədə geniş yayılan mifoloji obrazlardan biri Beçəxordur. Toplama zamanı Beçəxor haqqında məlumat verən yaşlı söyləyicilər qonşudakı qadınlardan birinin adını çəkərək "filankəs də Beçəxor doğmuşdu" deyirdilər. Bu məqamda L.Vaqifqızının fikri yerinə düşür. "Söyləyicinin mətnə münasibəti, mətndə baş verən hadisələrə inanıb-inanmaması onun xarakterindən, yaşından, eləcə də folklor mətninin janrından asılıdır. Mifoloji rəvayətləri danışan söyləyicilərin böyük əksəriyyəti mətni həqiqətdə olmuş hadisə kimi danışırlar" (125, 174). A.Əhmədli qeyd edir ki, söyləyicinin mətnə münasibəti ayrıca bir məsələdir, hətta mühüm folklor hadisəsidir... Söyləyici folklor nümunələrini çox böyük məhəbbətlə dinləyicilərinə söylədiyi zaman yeni-yeni improvizələr edərək folkloru yaşatdığı qədər də yaradır, inkişaf etdirir (55, 89). Bu barədə A.Samoşkin yazır ki, folklor yaradıcılığı prosesi improvizasiya və ənənənin qarşılıqlı əlaqəsi kimi gerçəkləşir (148, 12).

Müşahidələrimiz göstərdi ki, Neftçala və Salyan ərazisində bu gün lətifələr daha geniş yayılan folklor nümunələridir. Burada Molla Nəsrəddinlə, Bəhlul Danəndə ilə bağlı lətifələrlə yanaşı, digər mövzulu lətifələr də vardır. Ə.Əsgərin dediyi kimi, "müasir lətifələrin bir çoxu lokal xarakter daşıyır və konkret bölgələrdən kənara çıxmır. Onlardan bəziləri bölgənin hüdudlarını aşaraq başqa bölgələrə də yayılır" (58, 15). Folklorşünas alimin XX əsr lətifələrimizdə klassik lətifələrə məlum olmayan qazaxlı, qarabağlı, şirvanlı və s. sadaladığı bölgələrin siyahısına bu bölgənin də adını əlavə etmək olar. Bölgəyə məxsus lətifələrdən bəziləri Aşağı Surra kəndinin əhalisi ilə bağlı mətnlərdir. "Surranın quru bəyləri" – yəni əvvəli varlı olub sonradan müflisləşən bəylərlə bağlı

lətifələr bölgənin folklor mühitinin özünəməxsusluğunu göstərmək baxımından səciyyəvidir.

Söyləyicilərdən danışarkən ərazinin aşıqları haqqında bir neçə kəlmə deməyi borc bildik. Məlumdur ki, Neftçala və Salyan ərazisində yaşayıb-yaradan aşıqlar Şirvan aşıq məktəbinin nümayəndələridir. Aşıq Qurbanxan Sadıqov, Aşıq Pənah Pənahov, Aşıq Bəylər Qədirov, Aşıq Kamil Zülfüqarov, Aşıq Valeh Quliyev, Aşıq Ramiz Bankəli, Aşıq Əvəz Quliyev və b. Şirvan aşıq məktəbinin yetirmələri olmuşlar. Əvvəllər bu bölgənin toyları adlarını sadaladığımız aşıqların müşayiətilə keçirilmişdir. Ancaq bu gün həmin ənənə tamamilə unudulmuşdur, "aşıq gözümüzün qarşısında iflasla üz-üzədir" (58, 14). Biz 2012-ci ildə bölgədə folklor toplayarkən "Neftçalanın sonuncu aşığı" Aşıq Əvəzin evində olduq və onunla xeyli söhbət etdik. Aşıq Əvəz özü Aşıq Pənahın şagirdi olduğunu qeyd etdi. Lakin son illərdə ənənə itdiyindən, aşıqlıq etmək "dəbdən düşdüyündən" Aşıq Əvəzin bir şagirdi belə yoxdur. Bu, bir daha sübut edir ki, "Azərbaycan aşıq ənənəsi zəiflədiyi üçün aşıqlar bizim əvvəllər gördüyümüz aşıqlar deyillər və bu sənətin daşıyıcıları da aşıq sənəti ənənələrindən uzaq düşmüşlər (125, 126).

Qeyd edək ki, bütün bölgələrin folklorunun toplanması Azərbaycan folklorunda baş verən prosesləri izləmək baxımından əhəmiyyətlidir.

# II FƏSİL

# MİFOLOJİ MƏTNLƏR

## 2.1. Mifoloji mətnlər və personajlar

Azərbaycanın cənub-şərq hissəsində yerləşən Salyan və Neftçala rayonlarından topladığımız folklor mətnləri ümumtürk folklor nümunələrinin kiçik qəlpələridir. Ərazidən toplanılan mətnləri incələyərkən buradakı mifoloji rəvayətlərin və personajların digər türk xalqlarına məxsus folklor mətnləri ilə səsləşdiyini gördük. Eyni etnosa aid olan miflərin və mifoloji personajların oxşar və fərqli variantları olduğunu aşkarladıq.

Mifoloji mətn – mifoloji təsəvvürlərin, ümumiyyətlə, mifoloji dünya mənzərəsinin yığcam, qısa və aydın, sözlü ifadəsidir. İnformasiya daşıyan mifoloji məna yüklü bu mətnlərin öz daxili qanunauyğunluqları var (47, 25). Burada Neftçala-Salyan bölgəsindən toplanılan mifoloji mətnlərin təsvirini verməklə yanaşı, həm də onların digər ərazilərdən toplanmış mətnlərlə və mifoloji personajlarla müqayisəsini aparacağıq.

Bölgədən topladığımız bəzi mifoloji mətnlərə və mifoloji personajlara digər bölgələrə məxsus olan folklor nəşrlərində, demək olar ki, rast gəlmədik. Doğrudur, topladığımız materiallar arasında bir çox mifoloji obrazlar və mif mətnləri vardır ki, onlar respublikanın digər regionlarından toplanılan mətnlərlə çox yaxındır. Cin haqqında, Hal // Al arvadı // Hal anası haqqında olan mətnlərin bir çoxu ümumtürk mifoloji mətnlərinin variantlarıdır, lakin burada bölgəyə məxsus olan və bu vaxta qədər heç bir nəşrdə rast gəlmədiyimiz mifoloji obrazlar da vardır.

### 2.1.1. Beçəxor

Ərazidən Beçəxorla bağlı ondan çox mətn qeydə alınıb. Həmin mətnlərdə və söyləyicilərin verdiyi bilgilərdə Beçəxor müxtəlif varlıqlara bənzədilir. Guya o, hamilə qadınların bətnində uşaqla birgə, uşağın əkiz tayı kimi əmələ gəlir. Doğulan kimi sürətlə

qaçaraq evdəki sandığın altına girir, onu tapmaq mümkün olmur. Bəzi söyləyicilər onun siçovul formasında, bəziləri kərtənkələ, bəziləri də kirpi formasında olduğunu söyləyir. Bəzi söyləyicilər isə Beçəxorun təxminən toyuğa və ya xoruza bənzər olduğunu deyir, adının da formasına, görünüşünə uyğun olması qənaətindədirlər. Xarici görünüşü baxımından müxtəlif formalarda təsvir olunsa da, mahiyyətcə eyni funksiyaya malik olan Beçəxor ziyanvericidir. O, ya ana bətnindəki körpəni yeyərək məhv edir, uşağın əvəzində özü doğulur, ya da doğulacaq körpənin əl-ayaq barmaqlarını yeyir, uşaq doğulduqdan sonra görürlər ki, Beçəxor körpəyə zərər yetirib. El arasında yayılmış fikirlərə görə, hamilə qadınlar yerikləyən vaxtı közün üstündə ət və ya mal ciyərini ala-çiy bişirib yeyərsə, bu zaman qadının bətnində Beçəxor əmələgəlmə ehtimalı böyükdür. Buna görə də hamilə qadınların qidalanması üçün əti tam bişirmək, ümumiyyətlə, köz üstündə bişmiş yeməklərdən istifadə etməmək vacibdir. Söyləyicilərdən bəziləri Beçəxorun civə kimi çox sürətlə hərəkət etdiyini, onun bu günə qədər gizli – qaranlıq yerdə, köhnə sandıq altında yaşadığını söyləyir, bəziləri onun müasir zamanda hamilə qadınların qanında aşkarlanan virusla əlaqəli olduğunu söyləyirlər.

Bir çox söyləyicilər yaxın qonşusunun və ya qohumunun da Beçəxor doğduğunun şahidi olduğunu söyləyirdi. Beçəxorla bağlı rəvayətləri əsasən yaşlı qadın söyləyicilərdən qeydə almışıq. Orta və gənc yaşlı söyləyicilərin çoxu bu personajla bağlı məlumat verə bilmir.

### 2.1.2. Hal

Türk xalqları arasında yayılmış bəzi mifoloji personajlar vardır ki, onlara sözügedən ərazinin folklor mətnlərində tez-tez rast gəlmək olur. Belə mifoloji obrazlardan biri Hal arvadı // Al arvadı // Hal anasıdır. Bölgədən Halla bağlı otuza yaxın mətn topladıq. Burada personajın adına əsasən Al arvadı şəklində rast gəlinir. Ərazidə Al arvadı ilə bağlı ən yayğın mətnlərə görə, o, hər gecə ev sahibinin atını minib aparırmış. Atı xeyli çapıb yorur, tər

içində gətirib tövlədə öz axuruna bağlayıb yoxa çıxırmış. Bu məsələdən duyuq düşən at sahibi atının belinə qır çəkir və Al arvadını tutur, onun yaxasına dəmir iynə və ya sancaq taxaraq evində saxlayır, ev işləri gördürürmüşlər. Deyilənə görə, Al arvadı iynənin üstünə sap keçirib çəkib tullaya bilirmiş. Ona görə çox vaxt onun yaxasına dəmir sancaq taxırmışlar. Folklorşünas F.Bayat "Hal anasının yaxasına iynə taxmaqla onu ev sahibinə xidmət göstərməyə məcbur edilməsini dəmirçilik kultu ilə bağlayır və bütün demonik varlıqların dəmir və ya dəmirdən hazırlanmış əşyalardan qorxmasını dəmirçiliyin ön plana çıxması ilə, kişi hegemonluğunun sabitləşməsi ilə əlaqələndirir" (131, 328-329). Al arvadını təsvir edən söyləyicilər qeyd edirlər ki, onun qucağında körpə uşağı varmış. Bir mətndə isə uşaqlı deyil, hamilə olduğu deyilir.

Mətnlərin əksəriyyətində göstərilir ki, Al arvadı onu tutub saxlayan ev sahibindən körpəsinin beşiyinin və ya yüyrüyünün altına süpürgə vurulmamasını istəyir. Həmin mətnlərdə bu qadağa pozulur. Al arvadının körpəsinin yatdığı beşiyin altı ev sahibinin arvadı, yaxud qızları tərəfindən süpürüldükdən sonra onun körpəsi ölür. "Azərbaycan mifoloji mətnləri" kitabındakı 169 saylı mətndə də bu yasaq pozulur, evdəkilər bilmədən yüyrüyün altını süpürürlər, Hal anasının uşaqları donmuş qan parçasına dönərək məhv olurlar (35, 95).

Mətnlərdə Al arvadının qeyri-adi gücə, qüvvəyə malik olması, iş görməklə yorulmaması haqqında bilgi verilir. Guya Al arvadı hər gün ev sahibinin bütün işlərini görür, çöldən odun daşıyır, su daşıyır, evi şirələyir, kilim-palaz toxuyur. Söyləyicilər arasında Al arvadını müasir robotla müqayisə edərək onun robotun görəcəyi işdən daha çox iş görə bilməsini söyləyənlər də vardır. Al arvadının xarici görünüşünün təsvirinə gəlincə onun iri döşlü, eybəcər görünüşlü, ağ, uzun paltarlı qadın formasında olduğunu göstərirdilər.

Məlumdur ki, Hal mifoloji obrazı türk xalqları arasında geniş yayılmışdır. A.İnan yazır ki, Al qarısı//Al adətən sarı, sarışın qız, hərdən keçi şəklində, hərdən isə sallaq döşlərini dalına atmış qadın kimi təsəvvür edilirmiş və evlənməyə düşmən imiş (133, 162).

M.Seyidov isə Al və ya Al arvadı mifoloji varlığı ilə bağlı göstərir ki, türk xalqlarında bu inam əsasən 3 formada yayılmışdır:

1. Albas-Al arvadı günəş və su ilə ilişgilənmişdir;
2. Heyvan (keçi, inək, öküz) şəklində (zoomorf);
3. Antropomorf obrazı, yəni insan cildində təsəvvür olunmuşdur (113, 11).

Neftçala və Salyan ərazisindən qeydə aldığımız mətnlərdə o, əsasən qadın formasındadır, özü də uşaqlıdır. Yüyrüyün altını süpürmə qadağasının pozulmasından sonra uşağı ölən Al arvadı evdəki hər kəsi qarğayır, gedir. Bəzi mətnlərdə hamının toyda olduğu vaxt qonşu qızlardan birinə yaxasındakı sancağı açdıraraq qaçıb getdiyi söylənilir. Gedərkən ev sahibini və ailənin bütün üzvlərini qarğayır. Bir mətndə Al arvadı belə qarğış edir: "Görüm sizin cavanlarınızın beli bükülməsin, yükünüz heç vaxt düz dayanmasın" (49). Həmin mətnə görə, doğrudan da, o nəslin heç bir nümayəndəsi uzunömürlü olmur, hamısı gənc yaşlarda dünyasını dəyişirmiş, ev-eşiyi nə qədər səliqəyə salsalar, evdə heç vaxt səliqə-sahman olmurmuş. Başqa bir mətnə görə, Al arvadını ancaq anasının südünə and içdirəndən sonra buraxsan, adama ziyan yetirməzmiş. Bütün digər hallarda ona inanmaq doğru olmaz (49).

Al arvadı//Hal//Al ilə bağlı Türk mifoloji sözlüyündə də məlumat verilmişdir. "Türk xalqlarının demonoloji təsəvvürlərində geniş yer tutan, su, dağ, yer stixiyaları ilə bağlanan mifoloji varlıq Al ruhu dizlərinəcən sallanan döşlərini çiyinləri üstündən geriyə tullayan, pırtlaşıq saçlı, eybəcər görünüşlü bir qadın kimi təsəvvür olunur... Bu ruh türk xalqları arasında Albastı, Al qarısı, Albız, Albıs, Almıs, Almas, Abaası və başqa bənzər adlar altında bilinir" (47, 22).

Rəvayətlərdən birində göstərilir ki, Hal uzun müddət onu tutub saxlayan ailədən uzaqlaşıb gedir, illər sonra, yaşlananda halallaşmağa gəlir. Ev sahibinə deyir: "Heç mənə demədin ki, get axça gətir, boxça gətir. Elə dedin, odun gətir, su gətir. Odun gətirdim, kül oldu, su gətirdim, sidik oldu" (49). "Zəngəzur folkloru" kitabında Halla bağlı mətnlərdən birində deyilir ki, halallaşıb gedəndə saxlandığı evin adamına deyir, "mənnən hər şeyi soruş-

duz, amma uşaxların, cavannarın ölümünün çarasını soruşmadız" (23, 65). Mətndən anlaşılır ki, guya Al arvadı əbədi yaşamın sirrini, yaxud ölümsüzlüyün çarəsini bilirmiş.

Neftçala-Salyan ərazisindən toplanılan bir mətndə göstərilir ki, Al arvadı tutulub saxlandığı evdə çox işlər görüb. Kilim-palaz toxuyub, evi şirələyib və s. Ancaq yaxasındakı sancaq açılıb buraxıldıqdan sonra onun gördüyü işlər yox olub, toxuduğu kilimlər sap-sap olub tökülüb, təmizlədiyi ev-eşik zibil içində olub (49). Rəvayətlərdən birində deyilir ki, onun yerlisi və xaricisi də olur. Söyləyicinin məlumatına görə, Yerli Al arvadı insanlara rast gələndə zərər vurmur, amma xaricisi olanda o, mütləq onu tutub işlədən adama ziyan vurur. Bu barədə "Türk mifoloji sözlüyü"ndə bəhs olunur. C.Bəydilinin yazdığına görə, "Gavur Al" uşaqları oğurlayıb aparır, qayadan atıb öldürür. "Müsəlman Al" isə insan dara düşəndə köməyə gəlir. İnama görə, "Al"ı tutmaq dünyanın ən böyük sərvətini əldə etməyə bərabərdir. Çünki onun olduğu yer bərəkətin qaynağı sayılır. Olduğu evdə əli nəyə dəyərsə, bitib-tükənməz" (47, 22).

Neftçala-Salyan bölgəsindən bu obrazla bağlı qeydə alınmış rəvayətlərdə Al arvadının insanlara bol ruzi-bərəkət verməsindən danışılır. Belə mətnlərdən birində deyilir, biz onu bir çörək dalınca göndərərdik, o gedib kisə-kisə çörək gətirərdi. S.İsayevanın Gədəbəydən qeydə aldığı oxşar məzmunlu mətnə görə, Halın yoğurduğu xəmiri yığıb-yığışdırmaq olmurmuş, kündələrin sayı hesaba gəlmirmiş. Neçə qadın yığılırmış ki, həmin xəmirin çörəyini bişirsin. Axırda Hal gəlib başını bacadan uzadıb deyir ki, xəmirdən balatı (yəni maya) kəsib ayırmasanız, o xəmir qurtarmayacaq. Mətndə verilən məlumata görə, qadınlar xəmirdən bir hissə, yəni balatı kəsib ayırdıqdan sonra, doğrudan da, xəmir tükənir (49). "Zəngəzur folkloru" kitabında Halla bağlı verilmiş dördüncü, yeddinci, on ikinci, on səkkizinci mətnlərdə də onun yoğurduğu xəmirin bitib-tükənmədiyi haqqında məlumat verilir. Adamlar axırda Halın özündən soruşurlar ki, xəmirin kündəsini necə bitirmək olar? Bir mətnə görə, kündənin

dalından kəsmək lazımdır, on səkkizinci mətnə görə isə çörəyin bir tikəsini itə atmaq lazımdır ki, xəmir tükənsin (23, 66).

Bəzi rəvayətlərdə Al arvadı tapşırılan işin əksini yerinə yetirir. Mətnlərdən birində deyilir ki, əgər ona desəydik, get evə tez qayıt, gedərdi, axşam çağı gələrdi. Gec gələrsən deyəndə bir saat sonra evdə olardı. "Xtonik aləmdən gəlmə bütün varlıqlar kimi ona da nə deyilərsə, tərsinə eləyər. Məsələn, "get" deyiləndə gələr, "gəl" deyiləndə gedər. Hal anası boylu qadınların düşmənidir, özü də gəlin ciyərinə yerikləyir" (47, 43).

Mətnlərin bir çoxunda Al arvadının // Hal anasının, əsasən, hamilə və ya yeni doğmuş, zahı qadınların gözünə görünməsi faktına tez-tez rast gəlinir. Bu tipli mətnlərdən birini söyləyici öz başına gələn hadisə kimi nəql etdi. Məlumata görə, Al arvadı yaxınlıqda yaşayan qonşunun cildinə girərək zahı qadının pəncərəsini döyür, yeni doğulan uşağın qız, yoxsa oğlan olduğunu soruşur. Əvvəlcə zahı onu, doğrudan da, qonşusu zənn edərək təəccüblənir: " – Sən ki bütün günü bizdə olmusan, uşağı özün açıb-bələmisən, nə əcəb uşağın oğlan olduğunu bilmirsən?!" Eyni hadisə bir neçə dəfə təkrarlanır. Uşağın qız, yoxsa oğlan olmasını zahıdan bir gündə bir neçə dəfə soruşandan sonra qadın başa düşür ki, bu, qonşu qadın deyil, Al arvadıdır, onu aparmağa gəlib ki, öldürüb, ciyərini çəksin. Söyləyici bunu duyanda Al arvadına "gəlirəm, sac əlimdədir, özüm də duz əzirəm" dediyini, bununla da onun yoxa çıxdığını söylədi. Mətnin sonunda verilən bilgidən məlum olur ki, Al arvadı sacdan və duzdan qorxub qaçır (49). F.Bayatın qənaətinə görə, mifoloji personajlardan biri sayılan "Yol Azdıranın israrlı çağırmalarından yorulan insan dəyirmana duza gedirəm cavabını verərsə, ona heç bir zərər toxunmaz" (131, 302). Müəllif "duzun pis ruhları qovması inancını qorxulu yuxu görənlərin yastığı altına duz qoyulması" ilə əlaqələndirir və həmin hadisələrin eyni inancla bağlı olduğunu qeyd edir (131, 302).

Bölgədə Al arvadı ilə bağlı inanclar da vardır. Xüsusilə yeni doğulmuş körpəni və zahı qadını Al arvadından qorumaq məqsədilə icra olunan faktlar maraqlıdır. Misal üçün:

1. Yeni doğulmuş körpənin və zahı qadının üstünə dəmir sancaq taxılır.

2. Körpənin yastığının altına bir parça çörəklə bıçaq və ya qayçı qoyulur.

3. Körpənin yatdığı otağın döşəməsində giriş qapısından üzü körpə yatağına doğru bir ucuna soğan keçirilmiş şiş və ya iri kəfkir qoyulur.

4. Gözünə qəribə varlıqların göründüyünü hiss edən kəs üç dəfə "Bismillah" deməlidir.

5. Axşam vaxtı həyətə isti su tökmək yasaqdır, yoxsa Al arvadının uşaqları həmin suda yanır. Al arvadı isti su tökən adamı qarğıyır.

6. Axşam vaxtı bağı, həyəti şumlamaq yasaqdır. Torpağa vurulan bel Al arvadına və uşaqlarına xətər yetirir. Ona görə də Al arvadı şum şumlayan adamı qarğıyır.

7. Saçın kəsilmiş və ya tökülmüş hissəsini həyətə atsan, Al arvadının ayağına ilişir. Al arvadı həmin saç sahibini qarğıyar. İnanca görə, belə adamların başına hava gələr, çöllərə düşər. Ona görə də saçı torpağa basdırarlar (49).

Yuxarıda bəhs edilən Al arvadının zahıya ziyan vurma məsələsi ilə bağlı C.Bəydilinin yazdıqları diqqəti çəkir: "Hal yaxın gəlməsin deyə zahının başı altına köhnə-külə süpürgə, çörək, soğan və ya ayağının altına qayçı-bıçaq, tüfəng qoyar, yaxasına iynə-sancaq taxar, yastığının altına duz-çörək qoyarlar. Yatdığı yerin dörd bir yanına ağ cızıq çəkər və ya sicim sərərlər. …Halın boynundakı muncuğu götürüb evdə saxlayanda Hal bir də o evə yaxın düşməz. Axısqa türklərinin inanışına görə, Halın (Al anasının) basdığı adamı qurtarmaq üçün "al gəmüyü" və ya "al muncuğu"ndan istifadə olunurmış" (47, 143). "Göyçə folkloru" kitabında göstərilir ki, onun boynundakı muncuğu qıra bilən adama Hal heç vaxt yaxın düşmür, həmin adamın qohum-əqrəbasına ziyanlıq vura bilmir (14, 66-67).

Türkiyəli folklorşünas Y.Kalafatın yazdığına görə, Aladağ yörüklərində Al qarısı quşa bənzədilir, evə hər yerdən girə bilir. Za-

hının üzərinə çökür, əlində bir muncuğu vardır. Zahı qadın su qablarını açıq qoyubsa, Al qarısı həmin evə girə bilməz. Al qarısı atdığı muncuq zahıya yalvarmağa başlayar. Al qarısından qorunmaq üçün “alçılar” deyilən ocaqlı qadınlara gedərlər (135, 153-176).

Neftçaladan toplanılan mətnlərdən birində Alın dişi haqqında məlumat verilir. Guya falçı insanın başına gələcək fəlakət və pis hadisələrdən qorumaq üçün Alın dişindən istifadə edir (49).

Maraqlı məqamlardan biri Al arvadının Neftçala və Salyan bölgəsində müxtəlif adlarla tanınmasıdır. Burada onun ən geniş yayılmış adlarından biri Pissimilladır. Fikrimizcə, Pissimilla adının daha geniş yayılmasının səbəbi əslində bu gözəgörünməz varlığın vahiməsini duyarkən “Bismillah” kəlməsinin üç dəfə deyilməsi, təkrar olunması ilə əlaqəlidir. İnanca görə, Al arvadı gözə görünəndə üç dəfə “Bismillah” desən, o, yoxa çıxır. Düşünürük ki, bu mifoloji ruhun ərazidə Pissimilla adı ilə tanınması məhz Bismillah sözünün sonradan Pissimilla formasında səslənməsi ilə nəticələnmişdir. Qeydə alınan mətnlərin bir çoxunda Al arvadı adı tamamilə unudulmuş, mətnlərdəki hadisələr digər mifoloji varlığın üzərinə köçürülmüş, Al arvadının adı Pissimilla kimi verilmişdir.

Söyləyicilərin bir çoxu mətni danışdıqdan sonra həmin hadisələrin eyni mifoloji ruhla bağlı olduğunu, yəni Al arvadı – Pissimilla – Quleybanı adlarının bir varlığa aid olduğunu söylədilər. Söyləyicilər arasında Quleybanı ilə yanaşı Aleybanı adlı mifoloji ruhun da adını çəkənlər oldu. Həm də Quleybanının kişi cinsinə, Aleybanının isə qadın cinsinə aid olduğunu qeyd etdilər. Bununla bağlı Ş.Albalıyevin fikri diqqət çəkir: “Halın erkəyi də olur, dişisi də. Erkək hal kişilərin qənimidi, dişi hal isə arvadların” (7, 14).

Folklorşünas C.Bəydili “Türk mifoloji sözlüyü”ndə Quleybanı // Qulyabanı haqqında yazır: “Adı xurafatla əlaqələndirilən Qulyabanı qorxunc bir varlıq olub, guya qaranlıqda çöldə-biyabanda, qəbiristanlıqda vahiməyə düşən adamın gözünə canlı kimi görünər… Etnik-mədəni ənənədə isə haqqında bəzən: “Alyabanı, Qulyabanı elə Al arvadıdır. Daha beş-altı cürə deyil…” – deyə demonik Qulyabanı obrazının Al ruhu, Al anası və Al arvadı ola-

raq bilinən və əski mifoloji kompleksdən gələn demonik personajla eyniləşdirilməsi də, görünür, məhz aralarındakı funksional-semantik eyniyyətə və ya tam yaxınlığa görədir (47, 226).

Ş.Albalıyevin fikrinə görə, "Quleybanı sözü Hal-Hal arvadı sözünün Bakı dialektində ümumişlək şəklidir" (7, 14). Müəllif Hal – Quleybanı obrazlarının eyniliyi, yaxud ad variantları olması barədə mülahizələrini əyani dil hadisəsi hesab edir, Cəbrayıl rayonunda Hal adlandırılan varlığın Bakı dialektində Quleybanı adı ilə tanındığını iddia edir (7, 14). Əslində, bizim də söyləyicilərdən qeydə aldığımız informasiya, yəni Quleybanı – Al arvadı mifoloji varlığının adı ilə bağlı fikirlər C.Bəydilinin və Ş.Albalıyevin fikirləri ilə üst-üstə düşür. Müşahidələrimizə görə, oxşar məzmunlu rəvayətlərdə, inam və yasaqlarda Halın və Qulyabanının eyni varlıq olması qənaətinə gəlirik.

L.Vaqifqızı Şəki folklor mühitini araşdırarkən Halın keçi, pişik, xoruz və qadın formalarında təsadüf olunduğunu göstərir, həmin dönərgələrin bu bölgə üçün spesifik olduğunu qeyd edir (125, 60).

Neftçala və Salyan ərazisindən toplanılan materiallarda Halın müxtəlif heyvan dönərgələrinin bu bölgə üçün səciyyəvi olmadığı qənaətinə gəldik. Ancaq bir mətndə Halın pişik dönərgəsi ilə, digər mətndə isə it dönərgəsi ilə bağlı məlumat verilir. Həmin mətnlərdən birində söyləyici körpə uşağını yüyrükdə yatırdıb gündəlik ev işləri gördüyünü danışır. Uşaq yuxudan ayılıb elə hey ağlayır, günü-gündən geriləyirmiş. Anası uşağın hündürdən asılan yüyrüyündə tez-tez bir pişiyin oturduğunu görür. Yüyrüyün yerini dəfələrlə dəyişsələr də, pişik uşağın yüyrüyündən və uşaqdan əl çəkmir. Uşağın zəiflədiyini görən ana qonşu kənddəki mollaya gedib Quran açdırır. Molla Halın pişik cildinə girdiyini, uşağı incitdiyini deyir, onu pişikdən qorumaq üçün "qələm çalır"* və pişik uşaqdan uzaqlaşır (49).

Halın pişik dönərgəsi ilə bağlı Şəkidən qeydə alınmış mətnlərdə o, pişik cildində zahı qadınların gözünə görünərək onları

---------------------------------
*Qələm çalır – dua yazır

qorxudur. Başqa bir mətndə pişik cin kimi adamı aldadaraq aparır. Mətnlərdən birində Hal pişik formasındadır və insanlarla birgə yaşayır. Ev sahibinin paltarını oğurlayıb geyəndən sonra gətirib yerinə qoyur və bu sirri açan adamı cəzalandırır (125, 64).

Halın ev sahibinin paltarını geyinməsi ilə bağlı bir çox informatorlar məlumat verir. Guya Hal yeni alınmış və ya təmiz yuyulub qoyulmuş paltarı aparıb geyinir, sonra qaytarıb yerinə qoyur. İnanca görə, paltarlarının Hal tərəfindən geyilməsini istəməyən kəs gərək paltarının üstünə dəmir sancaq taxsın. Üzərində sancaq taxılmış paltarı Hal apara bilmir (49).

Neftçaladan toplanılmış bir rəvayətdə Hal it şəklində gözə görünür. Rəvayətə görə, Məşədi Əlabbas gecə vaxtı Bayat kəndindən Xıllıya gedirmiş. Kür qırağı yolda bədheybət bir itin çaya yaxın yerdə şöngüdüyünü görür. O, əlindəki çomağı itə vuranda görür ki, bu, it cildinə girmiş Quleybanıdır. Çomağın zərbəsindən diksinən Quleybanı arxaya hoppanıb qarğış edir: "Yandım, ay Məşədi Əlabbas, səni yanasan. Görüm səndən törəyənlər asmalığ* üzünə həsrət qalsın!" Həmin kişi səhəri günü kənddə eşidir ki, keçən gecə bir qadın doğarkən ananı da, uşağı da Hal aparırmış, möcüzə nəticəsində onlar ölümdən qurtarıblar. Məşədi Əlabbas gecə başına gələnləri danışır. O hadisədən sonra kənddə kimin evində qadın doğurmuşsa, Məşədi Əlabbasın papağını doğan qadının yanına qoyurmuşlar ki, salamatlıq olsun (10, 21-22).

Neftçala və Salyan ərazisindən qeydə alınmış mifoloji varlıqlardan biri də Əmeyğanıdır. Bu obrazla bağlı mətn əldə edə bilməsək də, hazırda onun adı ən çox üst-başı səliqəsiz, zövqsüz geyinən, saçları dağınıq və ya pırtlaşıq olan qadınların adı ilə əlaqələndirilir. Bölgədə "filankəs geyimini bilmir, elə bil Əmeyğanıya oxşayır" fikri ilə rastlaşmaq olur. Qonşuların qapısını gəzən adama Şulum və ya Qapılar şulumu deyirlər. Arıq, həddən çox işləyən adama Qayışbaldır deyirlər. Təəssüf ki, Neftçala-Salyan bölgəsindən Qayışbaldırla bağlı mətn toplaya bilmədik. Folklorşünas F.Bayat Qayışbaldır və ya Qayışbucak adlandırılan

---------------------------------

*Asmalıq – asılqan

bu demonik ruhun göl və ya dərə kənarında yaşlı və zəif bir insan kimi görünməsini qeyd edir. Onun yoldan keçənlərə yalvarmasını, yolçuların kürəklərinə minərək qarnından çıxan qayışa bənzər ayaqları ilə insana sarılmasını və onlardan öz istəklərini yerinə yetirməyə məcbur etmələrini göstərir (131, 310).

### 2.1.3. Cin

Mifoloji mətnlərdə tez-tez rast gəlinən obrazlardan biri Cindir. Cinlər əsasən köhnə hamamlarda, dəyirmanlarda gecə vaxtı gözə görünürlər. Onlara çox zaman tək halda deyil, cəm şəkildə rast gəlmək olur. P.N.Boratavın "Yüz soruda Türk folkloru" əsərində də cinlərin toplu halda yaşadıqları deyilir. "Cinlər toplu şəkildə yaşarlar, bütün işlərini gecə görərlər, xoruz səsi, ya da sabah azanı eşidilincə dağılışıb öz evlərinə gedərlər. Yaşadıqları, yaxud əylənmək üçün toplaşdıqları yerlər dəyirmanlar, hamamlar, tərk edilmiş evlər (əsasən qədim və böyük evlər), məzarlıqlar, kənd evləri, böyük ağacların altıdır" (132, 88).

Sözügedən bölgədən qeydə alınmış mətnlərdə Cin obrazına tez-tez rast gəlinir. Söyləyicilər bəzən Cin və Hal mifoloji varlıqlarını eyniləşdirir, eyni mətni həm Cinə, həm də Hala aid edirlər. Belə mətnlərdə göstərilir ki, Cin də üzərinə qır çəkilmiş atın belinə yapışır, at sahibinin həyatinə gəlir. Hal kimi onun da üstünə iynə və ya qıyıq sancıb, həyətdə işlədirlər. Ev sahibi üçün odun daşıyır, su daşıyır, həyət-bacanı səliqəyə salır. Bir müddət qaldıqdan sonra üzərinə sancılmış iynəni çıxartdırıb oradan uzaqlaşır (49).

Rəvayətlərdə Cin yığnağı və ya Cin toyu ilə bağlı məlumat verilir. Rəvayətə görə, biri kənddəki köhnə hamamın yanından keçirmiş, qarşısına çıxıb ona salam verib içəriyə – yeyib-içməyə çağırırlar. Adam içəriyə girir, görür ki, burda toydur, camaat yeyir-içir, çalır-oynayır. Bu da oturur, qabağına yemək-içmək qoyurlar, əlini yeməyə uzadanda "pissimilla" deyir. Qabağındakı yeməklər mal təzəyinə dönür. Kişi ayılıb özünə gəlir ki, bura haradı, bu nə işdi başına gəlib?!(49)

Digər mətnə görə, kənddən bir neçə kilometr uzaq məsafədə – əkin sahəsində kombaynla taxıl biçən kişi axşam hava qaralan vaxtı görür ki, it sürüsü bir dəstə adamı qova-qova ona tərəf gəlir. Adamların arasında qadın, kişi – hamı yalvarır ki, ay aman, qoyma, itlər bizi tutacaq. Kişi vahimə ilə baxır ki, çölün düzündə bu qədər adam hardan peyda oldu?! Tez dua oxuyur, bir anın içərisində adamlar da, itlər də yoxa çıxır (49). C.Bəydili "Türk mifoloji sözlüyü" kitabında cinlərin dəstə ilə, özü də ən çox köhnə qəbristanlıqlarda, xarabalıqlarda, çöllük biyabanlarda yaşadığını qeyd edir (47, 77).

Bölgədən toplanılmış başqa bir rəvayətdə Cin dəyişiyi haqqında məlumat verilir. "Bir qadın yeni doğulmuş uşağının başının altına qayçı-bıçaq qoymayıbmış. Səhər görür ki, bunun uşağını gecə oğurlayıblar, əvəzinə başqa uşaq gətirib qoyublar. Uşağın başı ağappaq, qaşları, gözləri boz rəngdə, əli-ayağı yekə, eybəcər haldadır. Qadın haray salıb, ay aman, ay dad, uşağa nəsə olub?! Uşağı mollaya aparıblar. Molla deyib ki, uşağı cinlər dəyişdiriblər". Uşağın anasının dediyinə görə, yuxuda bir qadın ona uşaqlarını dəyişmək istədiyini deyirmiş. Qadın razı olmurmuş. Söyləyicinin dediyinə görə, dəyişdirilən uşaq qalıb böyüyübdü. Qəribə caynaqları varmış, adamları cırmaqlayırmış" (49). F.Bayat "Türk mitolojik sistemi" əsərində Cin dəyişiyi adlı mifoloji personajın yol azdıran varlıqlardan biri olduğunu, xarabalıqlarda və ya qayalıqlarda yaşadığını qeyd edir. "Cin dəyişiyi aylı gecələrdə qarşısına çıxan adamı adı ilə çağırır. Cindən əsas fərqi dəyişik dona girə bilməməsidir. Buna görə də adamı uzaqdan-uzağa aldadıb qayadan, dağdan uçuruma itələyir. Cin dəyişiyi arıq, tüklü və qorxuncdur" (131, 300).

Ərazidə yayılmış inama görə, axşam vaxtı həyətə isti su tökmək olmaz. Bu zaman Cinin balaları yanır. Həyətə isti su tökəndə "Bismillah" deyilməlidir. Qeyd edək ki, Cin və Al arvadı mifoloji varlıqları ilə bağlı rəvayətləri əsasən yaşlı söyləyicilərdən əldə etmişik. Bu tipli rəvayətlərə həm kişi, həm də qadın söyləyicilərin repertuarında rast gəlmək olur.

### 2.1.4. Əzrayıl

Ümumtürk mifologiyasında tez-tez rastlanan mifoloji personajlardan biri də Ölüm mələyi – Əzrayıldır. Əzrayılın əsas funksiyası əcəli, yəni ölümü yetişən adamın canını almaqdır. Məlumdur ki, İslam dini bizim insanların min ildən artıq inandığı, tapındığı dindir. Ona görə də Əzrayıl obrazı digər mifoloji ölüm obrazlarını sıradan çıxarmış və onu tamamilə əvəz etmişdir. Ölüm və ya Ölüm mələyi islama transformasiya olunmuşdur, buna görə də Azərbaycanda Altay və ya Sibirdən toplanmış mətn tiplərinə rast gəlmək mümkün deyil. Türk mifologiyasında Ölüm mələyi Erlikdir. F.Bayat yazır: "Erlik xan Şaman folklorunda yeraltı dünyanın tək və ortaqsız hakimi kimi tanınır. Mifoloji inanclara görə, Erlik o biri dünyanın hakimi olmadan və ya ora sürgün edilmədən əvvəl yeraltı dünyada başqa güclər də varmış. Zamanla bu güclər Erlikin köməkçilərinə, qardaşlarına və ya oğullarına çevrilmişlər" (130, 337). Erlikin və oğullarının tək məqsədləri vardır. İnsanların və canlıların ölümünü sürətləndirmək. İnsanlar nə qədər tez ölüb o biri dünyaya gedərsə, bir o qədər onlar üçün yaxşıdır.

Ölüm mələyi – Əzrayılla bağlı mətnlərə Neftçala-Salyan bölgəsində də rast gəlinir. Bu obrazla bağlı bölgədən iyirmiyə yaxın mətn qeydə alınmışdır. Həmin mətnlərdə Əzrayılın can alma funksiyası qeyd edilməklə yanaşı, onun müxtəlif formalarda təzahür olunması göstərilir. Mətnlərin bir çoxunda Əzrayıl yaxşı, əməlisaleh adamları incitmədən, əzab vermədən, gül iylədərək canını aldığı göstərilir. Onlardan birində deyilir ki, Məhəmməd peyğəmbər Əzrayılı böyük bir tablonun qarşısında oturan görüb soruşur: – Ya Əzrayıl, sən orda nəyə baxırsan? Əzrayıl cavab verir: – Yer üzündə olan canlıların hamısı bu tabloda görünür. Baxıram, Allaha layiq, Peyğəmbərə layiq, mənim ora getməyimə layiq adamdırsa, özüm gedirəm. Yox olmasa, orda cəllad var, onu göndərirəm (49). Mətndən anlaşılır ki, hər kəsin canını almağa Əzrayıl getmir. O, ancaq yaxşı adamların canını almağa gedir. Əməlisaleh olmayan adamların canını almağa cəlladı göndərir.

Əzrayılla bağlı geniş yayılmış rəvayətlərdən birində isə Əzrayıl bir qadından hansı yaxın adamının canından keçə bilər deyə soruşur. Deyir, ya qardaşının, ya balanın, ya da ərinin – üçündən birinin canını almalıyam. Çarəsiz qadın bilmir ki, bu doğmalarından hansının canına qıysın. Əslində hər üçü onun üçün çox əzizdir. Qadın belə cavab verir:

"Qardaş qannandı,
Oğul cannandı,
Ər yannandı".

Yəni əri sonra da tapmaq olar, ər olandan sonra oğulu da qazanmaq olar, amma qardaşı qanından bilib daha əziz tutur (49). Bu mətni bölgədən üç variantda qeydə almışıq. O biri mətnlərdə qardaş əvəzinə ata nəzərdə tutulur.

Digər mətndə xeyli müddət işsiz qalan gənc oğlana Əzrayıl işləmək təklif olunur. Oğlan əvvəlcə razı olmasa da, sonradan işə başlamağa qərar verir. Anası deyir ki, mən də səninlə gedib hansı işlə məşğul olduğunu bilmək istəyirəm. Əcəl vaxtı tamam olmuş balaca bir uşağın evinə gəlirlər. Anası deyir, ay oğlum, bu ki lap balaca uşaqdır, gəl ona dəymə. Əzrayılın funksiyasını icra edən oğlan deyir, ana, məni günahkar bilmə, o uşaq öz anasının əlilə öləcək. Uşağın anası xəmirdən yuxa yayırmış. Uşaq əlini tez-tez xəmirə atır, nadinclik edirmiş. Ana oxlovla yüngülcə uşağa vurur ki, bəsdir, xəmirə əl vurma. Uşaq dünyasını dəyişir. Əzrayıl öz anasına deyir, gördün, məndə günah yoxdur, o uşağı mən yox, öz anası öldürdü (49).

Başqa bir mətnə görə, Əzrayıl bir qadının gözünə görünür. Qadının dediyinə görə, Əzrayıl onun ayağı tərəfdə dayanıbmış, deyirmiş ki, vaxtdır, səni aparmağa gəlmişəm. Qadın da cavab verir ki, bir şey ki, Allah tərəfdən göndərilə, mən nə karəyəm. Bu anda qara çarşablı bir qadın gəlib Əzrayıla deyir ki, səhv gəlmisən, bunun ömrü Allah tərəfdən qurtarmayıb. Həmin qadının dediyinə görə, böyük qaynı da yuxuda Əzrayılı gördüyünü deyir. Lakin onun təsvirinə görə, Əzrayıl uzun barmaqları, iti caynaqları olan bir varlıqdır, adamı cırmaqlayır (49).

Əzrayılın can alması ilə bağlı rəvayətlərə digər bölgələrdən qeydə alınmış mətnlərdə də rastlaşırıq. Tərtərdən toplanmış rəvayətdə peyğəmbər ölüm ayağında Allahın göndərdiyi mələkdən soruşur ki, mən öləndən sonra mənim ümmətimin canını necə alacaqsan? Əzrayıl cavab verir ki, sənin ümmətinin əlini-ayağını bağlayıb, başını kəsərəm, canlarını belə alaram. Əzrayıl can almaq üçün doqquz belə vasitə sayır, ancaq peyğəmbər qəbul etmir. Axırda Əzrayıl canalma məqamında canverənin gözünün qabağına cənnətdən alma göstərərək aldadıb canını alacağını deyir" (123, 182).

Əzrayılın can alarkən eynilə yuxarıda deyildiyi kimi, alma göstərərək aldadıb can alma motivi bizim topladığımız "Əzrayıl" adlı rəvayətdə də göstərilmişdir. Rəvayətə görə, can üstə olan yaşlı qadın övladlarına deyir ki, molla çağırın, mənim üçün Quran oxusun. Mollalar gəlib cərgəylə oturur, növbəylə Quran oxuyurlar. Arvad qəfildən deyib ki, mən uşağam, məni almayla aldadırsan? Əzrayıl bunun gözünün qabağına almanı gətirib əlindən tutub. Ona görə arvad deyirmiş ki, mən uşağam, məni alladırsan, deyib canını tapşırıb (49). Hər iki mətnin verdiyi informasiyaya görə, Əzrayıl insanları alma ilə aldadaraq, əziyyət və işgəncə vermədən canını almışdır.

Mətnlərdən anlaşılır ki, Əzrayıl can üstə olan adamın gözünə bəzən müxtəlif formalarda da görünə bilir. Salyandan qeydə alınmış başqa bir mətnə görə, Əzrayıl qartal cildində təsvir olunur. Səhər sübh çağı həyətə düşən hamilə qadının gözünə görünən qartal caynağındakı daşı qadının üzərinə atır, oradan uçaraq uzaqlaşır. Həmin gün qadın bətnindəki uşağını itirir. Mətni danışan söyləyici qartalı Əzrayıla bənzətdiyini söyləyir və itirdiyi uşağının həmin qartal – Əzrayılın məhv etdiyini deyir. Bulqar abidəsi olan "Şan qızı dastanı"nda da ölülərin ruhunu daşımaq missiyasını qartal yerinə yetirirdi (59, 311).

Əzrayılın quş donunda təsvirinin arxaik süjet olduğunu göstərən L.Vaqifqızı Şəkidə oxşar motivlə qarşılaşdığını qeyd edir. Onun Şəkidən qeydə aldığı mətnlərin dördündə Əzrayıl quş formasındadır. Həmin mətnlərin birində bülbül, birində sərçə,

birində ağ toyuqdur. Dördüncü mətndə isə quşun növü göstərilmir (125, 72).

Əzrayıl obrazı ilə bağlı faktlara oğuz türklərinin möhtəşəm abidəsi sayılan "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlirik. "Duxa Qoca oğlu Dəli Domrul boyu"nda göstərilir ki, Dəli Domrul çayın üstündəki körpüdən keçən və keçməyən hər kəsdən pul alır. Günlərin birində körpünün yaxınlığında igid bir oğlan can verir. Dəli Domrul igidin kim tərəfindən öldürüldüyünü soruşanda ona "alqanadlı Əzrayıl öldürdü" cavabını verirlər. "Əzrayıl dediyiniz nə kişidir ki, adamın canını alır? Ya qadir Allah, birliyin, varlığın xatirinə, Əzrayılı mənim gözümə göstər, vuruşum, güləşim, döyüşüm – yaxşı igidlərin canını qurtarım" (75, 241). Dəli Domrul Allaha yalvarır ki, Əzrayılı ona göstərsin. Domrulun məqsədi Əzrayıla "dərs vermək" idi ki, o, bir də heç bir igidin canına qıymasın. Allah-taala Əzrayıla əmr edir ki, gedib Domrulun canını alsın. Əzrayıl Dəli Domrulun yanına gəlib deyir: "Ay dəli axmaq, öyünüb deyirdin al qanadlı Əzrayıl mənim əlimə düşəydi, öldürəydim; yaxşı igidin canını onun əlindən qurtaraydım. İndi, ay dəli, gəlmişəm ki, sənin canını alım" (75, 242). Domrul Əzrayılı öldürmək istəyir, bu zaman Əzrayıl göyərçinə dönüb, pəncərədən uçub gedir (75, 242). Göründüyü kimi, burada da Əzrayılın quş donuna girməsi faktı vardır. Dastanda Əzrayıl həm də "dombagöz, ağsaqqallı qoca" formasında təsvir olunur (75, 244).

Folklorşünas M.Kazımoğlu eposun "Dəli Domrul" boyundakı Əzrayıl obrazının bədxah qüvvə olmadığını qeyd edir. Göstərir ki, "o süjetdə Dəli Domrulun Əzrayıla meydan oxuması, sadəcə olaraq dəli igidi, yəni ipə-sapa yatmayıb yerlə-göylə əlləşən bir bahadırı mübaliğəli şəkildə təqdim etmək formasıdır. Dəli Domrulun Əzrayılla qarşılaşması bədxah qüvvə ilə qarşılaşma mənası daşısaydı, onda boyun axırı tərəflərin barışığı ilə bitməz və bu barışığın nəticəsi kimi, Dəli Domrula uzun ömür verilməzdi" (72, 161). Müəllif daha sonra mifoloji düşüncədə də Ölüm mələyinin bədxah qüvvə olmadığını qeyd edir: "Yaradanın buyruğunu yerinə yetirən bu mələk hardasa haqq-ədaləti

bərpa edən bir qüvvədir... Ölüm mələyi bədxah qüvvə sayılsaydı, adamlarda düzlük, etibar görməyən nağıl qəhrəmanı Əzrayılla kirvə olmaq fikrinə düşməzdi. Ölüm mələyi bədxah qüvvə sayılsaydı, əcəl vaxtı Əzrayılın pis adamlara əzab-əziyyət verməsi, yaxşı adamlara isə gül iylətməsi ilə bağlı motiv mifoloji mətnlərdə bu qədər təkrar olunmazdı (72, 160-161).

Azərbaycan folkloru antologiyasının XII cildində – "Zəngəzur folkloru" kitabında Əzrayılla bağlı nağıllar vardır. "Əzrayılın kirvəliyi" (23, 218-219), "Əzrayılın kələyi" (23, 219-220), "Əzrayılın ədaləti" (23, 220-222) nağılları Ölüm mələyinin funksiyasını qabarıq şəkildə ifadə edir.

Neftçaladan qeydə alınmış inanclarda, atalar sözü və məsəllərdə də Əzrayılla bağlı informasiya verilir. İnanca görə, yuxuda camış görmək Əzrayıl deməkdir.Yuxuda camış qovan adamı əslində Əzrayıl qovur. Əgər camış həmin adama çatıb onu buynuzlasa, o adam ölməlidir. İnanca görə, qonşuda iki və daha artıq ölüm hadisəsi olubsa, insanlar Əzrayılın həmin məhəllədə olduğunu düşünürlər. Bundan başqa, çox uşağı doğulub, tələf olan ailələrdə "filankəs Əzrayıldan bir uşağı güclə oğurlaya bilib", deyirlər.

Bölgədən qeydə alınan bayatılarda da Əzrayıl obrazına rast gəlinir:

Əzrayıl, ağzun yekə,
Dadandun bizim kökə.
Dəymiş qoydun, kal dərdün,
Qoymadun kama yetə (49).

Bayatının başqa bir variantında Əzrayıl bostançıya bənzədilir.

Əzrayıl bostançıdı,
Qapıda dastançıdı.
Yetişmiş yox, kal dərir,
Bu necə bostançıdı?!

A.Xürrəmqızı bu bayatıda Əzrayıla tənəli münasibətin bədii sual şəklində qurulmasını qeyd etməklə yanaşı, həm də onu vəzifəsini qələt icra edən, yəni yetişmiş dura-dura kal dərən bostançıya bənzədildiyini vurğulayır (69, 184).

Yaxud bölgədən qeydə aldığımız başqa bir bayatıda deyilir:

Dağlara dolı düşdi,
At getdi, nalı düşdi.
Öy tikdim, yar gözzədim,
Əzrayılın yolı düşdi (49).

Atalar sözlərinin birində Əzrayılla bağlı deyilir: "Yetim böyüyəcək, yamannığ Əzrayıla qalacaq" (49).

**2.1.5. Qaraçuxa**

Azərbaycan folklorunda maraqlı mifoloji personajlardan biri Qaraçuxadır. Bu obraza Qarabağ, Naxçıvan, Neftçala-Salyan bölgələrindən toplanmış folklor materialları arasında rast gəlmək olur. Qaraçuxa ilə bağlı toplanmış ilk mətnlər 1995-ci ildə nəşr olunmuş "Bu yurd bayquşa qalmaz" kitabında işıq üzü görmüşdür. Buradakı mətnləri V.Nəbioğlu, M.Kazımoğlu və Ə.Əsgər Laçın, Qubadlı, Zəngilan və Cəbrayıl rayonlarından birlikdə toplayıb tərtib etmişdilər. Kitabda Qaraçuxa obrazı ilə bağlı 6 mətn verilmişdir (48, 21-23).

2003-cü ildə nəşr olunmuş Azərbaycan folkloru antologiyasının VIII cildində – "Ağbaba folkloru"nda Qaraçuxalı adlı bir mifoloji mətn yer almışdır (19, 55). C.Bəydilinin 2003-cü ildə nəşr etdirdiyi "Türk mifoloji sözlüyü" kitabında Qaraçuxa haqqında məlumat verilmiş, onun insan həyatındakı rolu və funksiyası ilə bağlı bilgilər yer almışdır. Müəllif Qaraçuxanın Azərbaycan turkləri arasında yayılaraq gözəgörünməzlərdən biri olduğunu, övliya adı ilə tanınan demonoloji varlıq kimi bilindiyini göstərmiş, onun bəxt və tale anlayışları ilə bağlı olduğunu qeyd etmişdir (47, 215).

AMEA Folklor İnstitutunda 2005-ci ildə nəşr olunmuş Azərbaycan folkloru antologiyasının XII cildində – "Zəngəzur folkloru"nda Qaraçuxa ilə bağlı 7 mifoloji mətn çap edilmişdir. Folklorşünas Ə.Əsgər həmin kitaba yazdığı ön sözdə Qaraçuxanın insan taleyindəki rolundan danışmış, Şirvan bölgəsindəki Qaraçuxa ilə adekvat funksiya daşıyan Naxış adlı obrazdan söhbət açmışdır. Müəllif göstərmişdir ki, "hər insanın bir Qaraçuxa-

sı var. İnsanın işlərinin uğurla getməsi Qaraçuxadan asılıdır. Qaraçuxası oyaq olan adamın işləri ugurla gedir, varlı-dövlətli olur. Qaraçuxası yatan adam kasıb olur, ağır günlər keçirdir" (58, 23).

Qaraçuxa obrazı Neftçala və Salyan ərazisindən toplanılmış folklor materialları arasında özunəməxsusluğu ilə seçilir. Qaraçuxa, adından göründüyü kimi, əyninə qara rəngli, uzun paltar geyinmiş mifoloji personajdır. O, çox vaxt gözə görünmür, ancaq sahibinin arxasınca gəzir. Dara düşəndə, köməyə ehtiyacı olanda Qaraçuxa öz sahibinə kömək edir, onu dardan qurtarır. Bu obraz bəzi mətnlərdə insanı qoruyan hami ruh kimi təsvir olunur, bəzi mətnlərdə isə körpə doğulduğu zaman onun taleyini, bəxtini yazan mifoloji varlıq kimi həmin məkanda peyda olur. Bir mətndə göstərilir ki, körpə doğulan kimi Qaraçuxa həmin evdə peyda olur və yeni doğulmuş körpənin gələcək taleyini yazır (49). Başqa bir mətndə isə Qaraçuxa yeni doğulmuş körpənin bəxtini, taleyini yazmaqla yanaşı, həm də uşağın doğulması ilə ailəyə ruzi-bərəkət gətirəcəyi, valideynlərini maddi sıxıntıdan qurtaracağı göstərilir (49).

Neftçalanın Xolqarabucaq kənd sakini Gülbala kişidən qeydə aldığımız mətndə "Qaraçuxanın durması" deyimi ilə paralel "yarımərşini gətirmək" ifadəsinin işləndiyini müşahidə etdik. Həmin mətndə işləri düz gətirməyən kişinin sonradan taleyi üzünə güləndə "yarımərşini gətirdi" deyirlər (49).

Qaraçuxa ilə bağlı bu bölgədə rəvayətlərlə yanaşı, inanclar da geniş yayılmışdır. Burada Qaraçuxası yatan adamın işlərinin tərs gedəcəyinə inanılır. Gərək hər kəsin Qaraçuxası həmişə ayıq olsun. Qaraçuxası yatan adam onun üçün "Yasin" surəsini oxutdurmalıdır. Sonra Qaraçuxanın oyanacağına inanılır. "Azərbaycan folkloru antologiyası"nın I cildində verilmiş bir holavar mətnində mal-heyvanın çox olmasının özü də Qaraçuxanın durması kimi düşünüldüyü göstərilmişdir:

Öküzüm birdi mənim,
Taleyim kürdü mənim.
İki oldu öküzüm,
Qaraçuxam durdu mənim (11, 9).

Bölgədə Qaraçuxanın adına qazan asılması, ət xörəyi və ya plov bişirilməsi adəti də mövcud olmuşdur. Neftçalanın Xolqarabucaq kənd sakini Adilə Əhədovanın verdiyi məlumata görə, Qaraçuxasının yatdığını hiss edən kəs (işləri düz gətirməyənlər – A.S.) onun adına xörək asır, süfrəyə Qaraçuxa üçün də ayrıca pay çəkib qoyur. Bununla inanılır ki, həmin gün Qaraçuxa gəlib o süfrədə qonaq olur. Qaraçuxanın adına bişirilmiş xörəyi fağır-füqəraya, kasıb ailəyə verirlər (49).

Salyanın Şorsulu kəndində yaşayan Misgərli Səfiyyənin Qaraçuxa ilə bağlı danışdığı mətn diqqətçəkəndir. Məlumata görə, hadisə söyləyicinin özünün başına gəlmişdir. Uşaqları ilə birlikdə yatan qadın yuxuda görür ki, evi yanır. Hər tərəfi alov bürüyür. Qonşuluqda yaşayan qayınata gəlib pəncərəni döyüb gəlini oyandırır ki, ev yanır. Gəlin ayılıb görür ki, doğrudan da, elektrik sobasından başlayan yanğın ətrafa yayılıb. Maraqlısı budur ki, əslində qayınata həmin hadisə baş verməzdən bir neçə il əvvəl dünyasını dəyişibmiş. Söyləyici mərhum qayınatasının ailəsini həmişə pis hadisələrdən hifz etdiyini, özü və ailə üzvləri üçün Qaraçuxa funksiyasını yerinə yetirdiyini qeyd etdi (49).

Azərbaycan folkloru antologiyasının XVII cildinə yazılmış ön sozdə – "Muğan ərazisində yaddaşlaşan folklor" yazısında oxuyuruq. "Əsatirlərdə "əyə"lər insanın sağlamlıq və səadətinin, evin bin-bərəkətinin qoruyucusu, ailənin mifik sahibi, başqa sözlə, ev tanrısıdır. Ona iman gətirdikdə, hörmətlə yanaşdıqda ailənin səadəti təmin olunur. Yox, əgər evdən kimsə itaət göstərməsə, inamını itirsə, bu hami ruh onlardan üz döndərər, beləliklə, şər qüvvələr ailəyə bədbəxtlik gətirə bilər. Muğan folklorunda bu funksiyanı Qaraçuxa yerinə yetirir. Qaraçuxa mifik inama görə hami ruhdur. İnsanların tale, bəxt tanrısıdır. İnsan öz "tale tanrısı"na iman gətirsə, şər qüvvələrdən uzaq olsa, onda onun Qaraçuxası daim oyaq qalır və onu hər bəladan hifz edir" (28, 14).

Müəllif Qaraçuxa ilə "əyə" arasındakı yaxınlığı, eyniyyəti göstərmiş və hər ikisinin qoruyucu funksiyaya malik olduğunu vurğulamışdır. A.Acalovun toplayıb tərtib etdiyi "Azərbaycan mi-

foloji mətnləri" kitabında 47 və 48 saylı mətnlərdə də "əyə"lər – evin, bağın, həyətin, suyun, yolun, dağın – hər şeyin "əyə"si olduğu haqda məlumat verilir. Göstərilir ki, gərək bağa girəndə bağ əyəsinə salam verəsən, bağdan meyvə yığanda gərək bağ əyəsindən icazə alıb sonra bağın meyvəsini dərəsən. Belə olanda bağdan əldə olunan məhsul, gəlir daha çox olar (35).

Materiallardan görünür ki, Qaraçuxa ilə əyə arasında oxşar, eyni zamanda fərqli məqamlar mövcuddur. Oxşar cəhətlərə nəzər salaq:

1. Hər iki obraz hami ruhdur, qoruyucu funksiyaya malikdir.
2. Həm Qaraçuxanın, həm də əyənin sahibinə ruzi-bərəkət vermə funksiyası da vardır.
3. Hər ikisinə salam vermək vacibdir.

Fərqli cəhətlərinə gəlincə:

1. Qaraçuxanın yatması ilə bağlı informasiyaya mətnlərdə tez-tez rast gəlinir. Ancaq əyənin yatması ilə bağlı fikrə rast gəlinmir.
2. Əyədən bir iş görmək üçün icazə almaq lazımdır (məsələn, bağdan meyvə dərmək istəyəndə), ancaq Qaraçuxadan icazə alınması faktını müşahidə etmirik və s.

L.Süleymanova bu obraza ayrıca məqalə həsr etmişdir. O, "Azərbaycan nağıllarında Naxış obrazı" adlı məqaləsində Qaraçuxa ilə Naxışın eyni funksiyaya malik olmasını göstərmiş, bu obrazın Azərbaycanın bəzi bölgələrində (Balakən, Zaqatala, Qax, Şəki, Ağdaş və s.) Naxış, Qarabağ, Zəngəzur bölgəsində Qaraçuxa adlandırılmasını qeyd etmişdir. Həm Naxış, həm də Qaraçuxa adları ilə tanınan personajın bəxt, tale məfhumlarını ifadə etdiyini vurğulamışdır. Daha sonra müəllif Naxışın paylanması, insanın öz Naxışı ilə rastlaşması, Naxışın insana xoşbəxtlik gətirməsi, Naxışın sahibini tərk etməsi və s. məsələlərə toxunmuşdur (117, 88).

Qeyd edək ki, Naxış obrazı ilə bağlı mətnlərə folklorşünas İ.Rüstəmzadənin toplayıb tərtib etdiyi "Azərbaycan folkloru antologiyası" seriyasından nəşr olunan "Ağdaş folkloru" kitabında da rast gəlinir (27, 41, 387-389, 413-416).

AMEA Folklor İnstitutunun 2012-ci ildə "Qarabağ folklorunun toplanması, sistemləşdirilməsi və araşdırılması" adlı layihə əsasında nəşr olunmuş "Qarabağ: folklor da bir tarixdir" kitabında Qaraçuxa ilə bağlı mətnlərə geniş yer verilmişdir. Burada Qaraçuxadan bəhs edən 12 mifoloji mətn, 5 nağıl vardır (77; 78; 79).

Mifoloji mətnlərdə Qaraçuxa daha çox sürünün, naxırın örüşdə olduğu vaxt heyvanları vəhşi yırtıcılardan, oğrulardan qoruyan qara yapıncılı adam formasında təsvir edilir. Söyləyicilərdən bəziləri həmin qara yapıncılı adamı – Qaraçuxanı öz gözləri ilə gördüklərini, onu əvvəlcə mal-heyvan sahibinin özü olduğunu hesab etdiklərini deyirlər. Sonradan məlum olur ki, mal sahibi deyil, onun Qaraçuxası imiş (77). Qaraçuxa ilə bağlı bu tipli mətnlərə çobanların danışığında sıx-sıx rast gəlinir. Ən maraqlısı Qaraçuxa ilə bağlı Qarabağdan toplanılmış nağıllardır. Kitabın 1-ci cildindəki "Qaraçuxasını axtaran kasıb" nağılı ilə 3-cü cilddəki "Qaraçuxasını axtaran oğlan" nağılları süjet xəttinə görə eynidir. Hər iki nağılda gənc oğlan öz Qaraçuxasını axtarmağa gedir. Onu tapandan sonra tale üzünə gülür. Qarşısına çıxan bir çox şansları dəyərləndirə bilməyən kasıb oğlanı axırda canavar yeyir (77, 188-192).

"Qaraçuxa və ağıllı qız" nağılında isə evin gəlini çox ağıllı qız olur. O, evlərinin Qaraçuxasını qaranlıq vaxtı evə qonaq çağırır. Gəlin Qaraçuxa üçün ortalığa duz və un qoyaraq ona and içdirir ki, gəlmisən, bir də getməyəcəksən. Qaraçuxa duza və una and içir ki, bir də heç yerə getməyəcək. Ondan sonra Allah bu ailənin başından ruzi-bərəkət tökür, onların günü-güzəranı firavan olur (79, 296-298).

"Qaraçuxasını yatıran şəxs" nağılında padşahla dostluq edən bir tacirin başına gələn əhvalatdan söhbət açılır. Qaraçuxasını meşədə bir dəstə təpik döyən adamın içərisindən çıxarıb zorla yatırdan tacir şərə düşür, peşman olur. Həmin vəziyyətdən çıxış yolunu yatmış Qaraçuxasını ayıltmaqda görən tacir tez meşəyə gəlir. Qaraçuxasını ayıldıb təpik döyənlərin dəstəsinə qoşur. Bundan sonra tacirin işləri yenə də öz qaydasına düşür (79, 269-275).

"Taxtım taxt olunca, baxtım baxt olsun" mətnində Qaraçuxanın bəxt, tale funksiyasından bəhs edilir. Mətnə görə, çox

çirkin bir qızla yaraşıqlı oğlan ailə qururlar. Qız düşünür ki, bu oğlan gec-tez ondan ayrılacaq. Bir gün yoldaşı yatandan sonra gəlin evdən qaçır, yolda çox gözəl bir qızla rastlaşır. Çirkin qız bu qızın gözəlliyinə heyran qalır, düşünür ki, kaş onun gözəlliyinin yarısı məndə olaydı. Gözəl qız çirkin qıza yaxınlaşıb deyir: Mən sənin baxtınam, sən ərinin gözunə mənim donumda (yəni mənim sifətimdə) görünürsən. Mətni danışan söyləyici mətnin əvvəlində də, sonunda da hər kəsin öz bəxti, taleyi, öz Qaraçuxası var deməklə bəxt, tale və Qaraçuxa məfhumlarını bir-birinə uyğun mənada, sinonim kimi işlədir (77, 38-39). Bu nağılda Bəxt gözəl gəlin şəklində təsvir olunur. Qeyd edək ki, bu nağıl süjeti Azərbaycan folklorunda yayğındır. Qarabağ folklor nümunələrindən başqa, bu süjetə "Ağbaba folkloru" kitabında "Baxt" (19, 176) adlı nağılda da rastlamaq mümkündür.

"Baxdını gəzənin nağılı"nda bəxt Qaraçuxa ilə oxşar funksiyanı yerinə yetirir. Heç bir işdə bəxti gətirməyən kişi qərara gəlir ki, gedib bəxtini axtarsın. Çox axtarandan sonra onu yatmış halda tapır, əsa ilə vurub ayıldır, yatdığına görə onu qınayır. Geri qayıdarkən yolda yorulub əldən düşən kişi qurumuş ağaca söykənib dincini alır, bu vaxt ağac kökündən qopub yerə yıxılır. Kişi baxıb görür ki, ağacın kökündə qızıl küpəsi varmiş. Qızıl küpəsini götürən kişi varlanır, kasıblara da köməyini əsirgəmir (78, 281-282).

Bəxt ilə Qaraçuxanın eyni funksiyanı yerinə yetirməsi faktına Şəki-Zaqatala folklor örnəkləri arasında da rast gəlirik. Həmin bölgədən toplanılan "Bəxtini axtaran kasıb" (24, 248) və "Bəxti yatmış cavan" (24, 253) nağıllarında Bəxtin Qaraçuxa ilə oxşar funksiyası göz qarşısındadır. "Bəxtini axtaran kasıb" nağılında bir kişinin ailəsini dolandırmaq üçün başqa bir şəhərə gəlməsindən, orada nurani bir qocaya kömək edib nar sataraq ailəsini saxlamasından söhbət açılır. Satdığı nardan bir dənə artıq qalanda ailəsinə yollayan kasıb kişinin üzünə bəxti gülür. Arvadı və uşaqları narı qıranda görürlər ki, içi ləl-cəvahiratla doludur. Köhnə, kasıb komanın yerində "altı dəryadan, üstü buluddan

nəm çəkən" ev tikdirirlər, kasıblığın daşını atırlar. Burada isə Bəxt nurani kişi formasında təsvir olunur (24, 248).

Bütün bu nağıllar və mifoloji mətnlər göstərir ki, Qaraçuxa həm Neftçala-Salyan, həm Qarabağ, həm də ümumiyyətlə, Azərbaycan folklorunda geniş yayılmış obrazdır. Araşdırılan bölgədə Qaraçuxa ilə bağlı rəvayətlər, inanclar daha aktiv söylənilir. İnformatorlar Qaraçuxanın bir çox funksiyalarını sadalamaqla yanaşı, Qaraçuxaya salavat göndərməyin vacib olduğunu deyirlər. Bölgəyə məxsus alqış və qarğışlarda Qaraçuxanın adı xatırlanır. Salyan rayonu Şorsulu kənd sakini Miriyeva Sehrayənin dediyinə görə, Qaraçuxanın gül camalına, üzünün nuruna salavat göndərəndən sonra "heç kəsin Qaraçuxası yatmasın inşallah" demək lazımdır.

Neftçala və Salyan ərazisindən qeydə alınmış mifoloji mətnlər və mifoloji obrazlar özünəməxsusluğu ilə seçilir. Bu gün elmin və texnologiyanın inkişafı ilə bağlı sıradan çıxmaqda olan belə mifoloji mətnlər xalqın, millətin keçmişi, tarixi və etnoqrafiyası ilə bağlı bilgi verdiyi üçün onlar toplanmalı və gələcək nəsillərə ötürülməlidir.

## 2.2. Ocaqlarla bağlı inanclar və rəvayətlər

Neftçala-Salyan bölgəsindən toplanmış folklor materialları arasında diqqətçəkən məqamlardan biri bu bölgənin pirləri, ziyarətgahları ilə bağlı olan mətnlərdir. Bu mənkabələrdə pir sahiblərinin qeyri-adi möcüzələri, ziyarətgahların insanlara şəfa verməsi və s. faktlar təsvir olunur.

Bölgədə məşhur Pirətavan piri, Sarı Seydan ocağı, İlan ocağı, Xilaşəkər piri, Mirbağır ağanın ocağı, Kürqaraqaşlı kəndində Seyidnənənin ocağı, Xol zonasında Ağadədənin ocağı, Pəricahan nənənin ocağı, Qaçaqkənd kəndində Mirəziz ağanın ocağı, Qırmızıkənddə "Xal-xal" ocağı və s. ziyarət yerləri bu ərazinin insanları tərəfindən müqəddəs bilinərək qorunur, ziyarət olunur, burada qurbanlar kəsilir, nəzirlər qoyulur.

Neftçala rayonundakı Pirətavan piri bu bölgədə çox məşhurdur. Pirin ziyarətgaha çevrilməsi ilə bağlı rəvayətlər vardır... İnsanlar pirin adının "Piri-taun" sözündən əmələ gəldiyini, taun xəstəliyini sağaldan pir anlamında olduğunu deyirlər. Pir haq-

qında Kalaşevin 1885-ci ildə nəşr olunmuş “Bakı quberniyası Cavad qəzası Salyan qəsəbəsi” məqaləsində yazılib: “Salyanın 22 verst cənubunda, Kürün sağ sahilində əvvəlki Salyanın yerində müsəlmanların sitayiş etdikləri və il yarasından, taundan zərər çəkənlərə şəfa verdiyinə inandıqları müqəddəs bir yer var... Haqqında söhbət gedən yer indi Pirə-Tavan, yaxud Pir-Taun adlanır. Bu yerdə qədim abidə yoxdur. Ziyarətgah kimi inandıqları yer isə ətrafı qum təpəsi ilə əhatə olunmuş çuxurdan ibarətdir” (141, 72). 1891-ci ildə Heydər Almazov adlı xeyriyyəçi bu pirə nəzir deyir, nəziri qəbul olunduğuna görə buradakı müqəddəs məzarların üzərində türbə tikdirir. Deyilənlərə görə, pirin içərisində uyuyan adam boyca çox uca imiş (99, 111).

El arasında pirə həm də Soltani-Pirətavan deyirlər. “Nəsildən-nəsilə, ağızdan-ağıza keçən rəvayətlərə görə, bir vaxt burada möcüzəyə bənzər hadisə baş vermiş, Soltani Qeyzin, Xızır peyğəmbərin gözə görünməsi haqqındakı söyləmələr yaddaşa da, xalq danışıq dilinə də iz salmış, beləliklə, Pirətavan sözünün önünə “Soltan” sözü də əlavə edilmişdir. İndi də yaşlı nəsil and içəndə bu ifadəni müqəddəs bilirlər: “Soltani-Pirətavan haqqı!” (53, 19). Ərazidə yaşayanlar bu ziyarətgaha hər niyyət üçün gəlirlər. Söyləyicilərin bir çoxunun məlumatına görə, övladı olmayan ailələr buranı ziyarət edərək övlad sahibi olmuşlar. Ziyarətgahın içərisindəki qəbrin ətrafı məhəccərdir. Övlad arzusunda olan ziyarətçilər həmin məhəccərdən uşaq yüyrüyü düzəldib asırlar. Kiçik ölçülü çör-çöpdən guya uşaq düzəldib bələyir, üstündən xırdaca köynək tikib həmin yalançı uşağa geyindirib yüyrüyün içərisinə qoyulur, amma köynəyin boynu açılmır. İnanca görə, əgər ziyarətçinin arzusu yerinə yetəcəksə, həmin balaca köynəyin boynu açılır, əgər uşağı olmayacaqsa, köynəyin boynu açılmır (49). Başqa bir söyləyici bu ritualı bir qədər fərqli formada nəql etmişdir. Həmin məhəccərdən asılmış yalançı uşaq yüyrüyü əgər yellənərsə, deməli, ziyarətçinin övladı olacaq, yüyrük yellənmədisə, ailədə övlad doğulmayacağına işarədir (49).

Pirətavanla bağlı bölgədən toplanmış mətnlərdə göstərilir ki, övladını əsgərliyə yola salanlar, ali məktəbə qəbul olunmaq is-

təyənlər pirə nəzir gətirir, burda qurban kəsir, yeddi qapıya pay göndərirlər. Mətnlərdən görünür ki, bölgə əhalisi müqəddəs bildiyi, pənah apardığı ziyarətgahlara, ocaq və pirlərə çox inanclıdır.

Ərazidəki müqəddəs ocaqlardan biri Sarı Seydan ocağıdır. Məlumatlara görə, Sarı Seydan ocağına, əsasən, sarılıq xəstəliyinə tutulanlar gəlir, burada şəfa tapırlar. El arasında Sarı Seydan ocağının yaranma tarixi ilə bağlı rəvayətdə deyilir ki, rusların Azərbaycana hücumu zamanı İrandan bura yerli əhaliyə kömək məqsədilə seyidlər gəlmişlər. Buna görə həmin il Salı-Seyidan, yəni seyidlər gələn il mənasında anlaşılmışdır. Həmin döyüşdə seyidlərə rəhbərlik edən seyid Saləddin qəhrəmancasına şəhid olmuş, Xalac kəndi ərazisində dəfn edilmişdir (64, 65). Ehtimal olunur ki, həmin məzar indiki ziyarətgahın yeridir. Ziyarətgahın adı ilə bağlı verilən bu şərh bizim üçün qənaətbəxş olmadığından kiçik bir araşdırmaya ehtiyac gördük. Folklorşünas Ə.Əsgərin "Zəngəzur folkloru" kitabına yazdığı ön sözdə maraqlı bir fakt diqqəti çəkir. "Ağ baba-qara baba, ağ şıx-qara şıx, ağ (sarı) seyid-qara seyid, ağ molla-qara molla, ağ pir-qara pir kimi ocaq və şəxs adları ağ şaman-qara şaman kultunun yuxarıda söz açdığım hadisə (Ocaq başçıları – ərənlər özlərini qamlara bənzər şəkildə aparırdılar. Şamanlar kimi güclərini nümayiş etdirir, düşmən pirlərlə mübarizə aparırdılar) ilə bağlı islam müstəvisində transformasiyasıdır (58, 25).

Düşünürük ki, müəllifin ağ (sarı) şaman-qara şaman qarşılaşdırması, eyni zamanda Ağ Aşıq, Sarı Aşıq antroponimlərinin də oxşar hadisə ilə bağlılığı" (58, 25) Sarı Seydan adındakı sarı sözünün həmin fikirlə səsləşdiyini göstərir. Söyləyicilərin dediyinə görə, Sarı Seydan ocağına əsasən sarı plov bişirib gətirirlər, həmin plov burada ehsan kimi paylanılır.

XX əsrin əvvəllərində Salyanda yaşamış Mirbağır ağanın əlində qeyri-adi güc var imiş. Deyilənlərə görə, yaz aylarında Kür çayı daşanda ağa gəlib barmağını Kürə vururmuş, su qayıdırmış. İşıl Altunun Türkiyə ərazisindəki Kocaelinin türbələrilə bağlı apardığı araşdırmasında buna bənzər inanclar mövcuddur. "Sultan baba zəlzələdə türbəsindən çıxaraq dənizdən gələn nəhəng dalğa-

ları əli ilə dayandırmış və dənizin Gölcükü tamamən udmasına mane olmuşdur. Zəlzələ gecəsi Sultan Baba və türbənin məzarlığındakı bütün övliyalar ayağa qalxaraq dua etmiş, birlikdə namaz qılmışlar" (8, 72). Baş verə biləcək böyük fəlakətlərin qarşısını alacaq qədər fövqəladə gücə malik olan övliyalardan geniş söhbət açan Türkiyəli alim İ.Altun "Övliya yaxınlarını qoruyar" (8, 72) məsəlinin bu məqamda yerinə düşdüyünü göstərmişdir.

Folklorşünas F.Bayat müqəddəs insanların – övliyaların kəramətləri ilə bağlı yazır: "Övliyaların göstərdikləri kəramət motivləri olduqca rəngarəngdir: qayanı yürütmə, əlini yerə vurmaqla su çıxartmaq, bir anda çox uzaq yolu qət etmək, cümə namazını Kəbədə qılıb anında öz məmləkətinə dönmək, dəyişik quş və ya heyvan donuna girmək, kəsilib yeyilən quzuları diriltmək, batan gəmini qurtarmaq, ölən uşağı diriltmək, qızı oğlana çevirmək və s." (43, 17). Bu mənada fantastik hesab edilən bu tipli motivlər kəramət sahiblərinin qeyri-adi gücə, qüvvəyə sahib olduğunu, qeyri-mümkün hadisələrin mümkünə çevrilməsini göstərir.

Mirbağır ağanın kəramətləri ilə bağlı bir mətndə deyilir ki, müharibə zamanı birinin arvadı balığa yerikləyirmiş. Mirbağır ağa əlini Kür çayına vurub deyir, götür bu balıqları. Baxırlar ki, burada bir neçə balıq var, götürüb, ağaya dua edirlər. Deyilənlərə görə, Mirbağır ağanın ölümü də qeyri-adi, möcüzəli olubdur. 1937-ci ilin repressiya qurbanlarından olan Mirbağır ağa Sibirə sürgün edilib. Onunla eyni kamerada olanların dediyinə görə, ağa orada da ibadətini edirmiş, islam dini haqqında oradakı qeyri-müsəlmanlara danışır, dinimizi təbliğ edirmiş. Deyirlər ki, ağa öləcəyi günü əvvəldən bilib və başına qoyduğu əmmaməsini kəfən əvəzi istifadə edilməsini tapşırıb. Ağanı dəfn edən zaman, "ilahi tərəfindən yüzlərlə quş peyda olmuş, tabutun üstündə uçaraq ağanı seyr etmişdir. Hamı bu mənzərəni dəhşət içərisində müşahidə etmişdir" (64, 95). Başqa bir mətndə isə deyilir ki, ağanın cəsədini dəfn edərkən güclü qasırğa qopdu, tufan oldu və cənazə yoxa çıxdı. Ona görə bu gün bölgədə Mirbağır ağanı "qeyb olmuş ağa" deyərək xatırlayırlar (49).

Xilaşəkər piri sözügedən ərazinin müqəddəs pirlərindəndir. El arasında bu pirin yaranması, möcüzələri haqqında müxtəlif rəvayətlər mövcuddur. Söyləyicilərdən biri pir sahibi Xilagilin 9 qardaş olduğunu danışır. Deyir ki, həmin qardaşlardan birinin adı Şəkər olmuşdur və o, burada dəfn edilmişdir. Xilaşəkər pirinə əsasən ürəyi gedən, ürək xəstəliyi olan adamlar, övladı olmayanlar gedir. Niyyət edib başının şalını, örpəyini həmin məzarın üstünə sərərək nəzir verirlər. Övladı olmayanlar burada yüyrük düzəldib asırlar, əgər yüyrük yellənsə, demək, övlad sahibi olacaq. Digər bir rəvayətə görə, bu məzar Xiləli Şəkər bəyin qəbridir. Bura Şəkər bəyin qışlağı imiş, mal-heyvan sürüsünü burada saxlayırmış. Bir gün Şəkər bəy xəstələnib, dünyasını dəyişir, onu burada dəfn edirlər. Uzun illər onun qəbri qəriblikdə kimsəsiz qalır, heç gələn-gedən, ziyarət edən olmur. Kənddə bir qadın xəstə imiş. Nə qədər həkimə göstərilsə, müalicə alsa da, xeyri yox imiş, sağalmırmış. Bir gün qardaş görür ki, bacısı evdə yoxdur, nə qədər axtarsa da, tapa bilmir. Səhəri gün xəstə qız həmin qəbrin üstündə yatmış vəziyyətdə tapılır. Məlum olur ki, əvvəlki xəstəlikdən əsər-əlamət qalmayıb. Bundan sonra onlar həmin qəbrin üstünü düzəltdirirlər. Ətraf kəndlərdə xəbər yayılır ki, burada belə bir möcüzə var. Sonra həmin qəbir ziyarətgaha çevrilir, insanlar buranı ziyarət edərək nicat tapırlar (49). "Pir əslində təriqətin başçısına verilən addır. Amma sufi anlayışa görə, təriqətə mənsub olan mürşidlər özlərində aid olduqları sufi sülalənin başçısını ruhən yaşadırlar. Çünki pir həmin sülalədən olan övliyalarda təcəlla edir. Pirə məxsus olan kəramət itmir, nəsildən-nəslə keçərək yaşayır. Digər tərəfdən bu kəramət övliyanın dəfn olunduğu torpağa da keçir (28, 13). Bölgədə yayılmış inama görə, seyid-peyğəmbər nəslinə mənsub insanlar müqəddəs hesab edilir. Söyləyicilərin verdiyi informasiya yuxarıdakı fikrimizin təsdiqi baxımından səciyyəvidir. Səksən yaşlı söyləyici A.Əhədova deyir: "Bizim kətdə Mirhəsəngil, Mirheydargil, irəhmətdiy Seyidnənə, Seyidnisə, Mirzada, Ağadədə ağır ocağdılar. Bizim uşağlar həməşə bu ocağlara gedillər, ziyarat eliyillər, nəzir verillər. Bılar ağır ocağdılar. Gedirsən də, xeyrin tapırsan da.. Seyiddər imam öladıdı, adama yaxşı

köməyliyləri dəyir, elədiyin nəzir qəbul olır. Ancağ nə niyyət eləsün, Allahı tutursan əlündə. Hər şey Allahın əlindədi... (49)

Peyğəmbər nəslindən törəyən seyidlərin müxtəlif xəstəlikləri sağaltmaq gücünə malik olması da məlumdur. "Kətdə Mirbağır ağaan qızı variydi, kimi dəmro tutırdı, aparırdun ona, dəmronı kəssirirdün. O gedirdi, tüpirirdi ocağa, ordan-küldən götirirdi, çəkirdi o yaraan üssinə. Onnan bi gün görirdün ki, suyi çəkildi, qurıdı, sağaldı. O ocağ dəmro ocağı iydi. Başqa ocağlar da var. Əvvəllər adamın boğazında yara olırdı, deşdəməz yarası diyilirdi ona. Gedirdün ocağa, səni kimyəliyirdi. Yeddi gün gərəy şit şey yiyiydün. Şit fətir, şit yiməy, şit çörəy. Ona diyirdilər, kimyə yarası. Kimyələnirdün, ancağ 40 gün çiləsin saxlıyırdun. 40 gün gərəy mındar görmiyə. Onı mındara görkəzdün, dəəşilirdi... Belə-belə seyitdərin möcüzələri var. Dəmro ocağı ayrıdı, kimyə ocağı ayrıdı. Kimyə yarası ... deşdəməz diyillər ona" (49).

Kimyə əsasən seyidlərin yaşadığı evdən, həyətdən götürülən torpaq, yaxud ocaq altından, təndirdən və ya köhnə evlərdəki ocaqlıqdan götürülən küldür. Seyidnənənin ocağının kimyəsi ilə bağlı danışılır ki, Seyidnənə ailəsi ilə başqa kəndə köçüb yaşayır, ancaq ocağın kimyəsi bura gəlmir. Sonra digər kəndə köçürlər, ocağın kimyəsini gözləyirlər ki, görəsən kimyə gələcək, ya yox? Avqust ayı imiş, birdən göy guruldayır, ildırım çaxır. Seyidnənə ərinə deyir ki, əvvəlcə sən gir ocağı ziyarət elə, sonra qonşuları çağır, onlar gəlib ziyarət etsinlər. Baxıb görürlər ki, evin arxa tərəfində, künc tərəfdən kimyə axır, yazılır "Allah, Məhəmməd, ya Əli". Bu ocaq beş kimsənə xatirinə verilir. Məlumdur ki, beş kimsənə Allahın iradəsi ilə Məhəmməd peyğəmbərin özü tərəfindən seçilmişdir. "Ali-əba" İslam mədəniyyətində beş nəfər üçün işlədilən bir addır. Bu beş nəfər Hz.Məhəmməd, Hz.Əli, Hz.Fatimə və onların 2 övladı – imam Həsən (ə.), imam Hüseyndir (ə)" (104, 8).

Bəzən dünyasını dəyişmiş pir sahiblərinin, seyidlərin dəfn olunduğu məzarın torpağından da kimyə götürülür. Qəfil bir hadisədən qorxanda və ya xəstələnəndə həmin kimyəni suya qarışdıraraq qorxmuş və ya xəstələnmiş insana içirirlər. H.İsmayılov

yazır: "Müqəddəslərin məzarından götürülən torpaq müqəddəs sayılır və dərman kimi istifadə olunur. Xalq dilində buna kimyə (müqəddəs yerdən götürülən torpaq; hər torpağa və ya hər hansı bir əşyaya kimyətəbərrik deyilir) deyilir. Xalq təbabətində kimyətəbərrik xüsusi yer tutur (28, 13).

X.Məmmədova Quba rayonu ərazisindəki pirlərlə bağlı materialları araşdırarkən kimyə – tütyə ilə bağlı mətnləri diqqətdən qaçırmamışdır. "Daha çox cavan oğlan-qızdər gələdi bu pirin üstünə. Soram müceyir hamısına tütyə (tütyə-tutya – pir üstündən torpaq götürülür və bulağın suyu ilə qabda qarışdırılır) içirtedi. Tütyəni başa-kürəyə, əl-ayağlara da sürteller ki, qorxuluğ və xəstəliy varsa, cannan çıxsın" (90, 90). Göründüyü kimi, kimyə və tütyə mahiyyətcə eyni nəsnədir, lakin adlandırılması bölgələr üzrə fərqlidir.

Region ərazisində pir sahibləri və onların möcüzələri ilə bağlı mənqəbələrə geniş şəkildə rast gəlinir. Onların bir qismi pir sahiblərinin vergi verməsi ilə bağlıdır. Bu tip mətnlər digər regionlarda da geniş yayılıb.

Neftçala və Salyan ərazisindən toplanılan mətnlərdə pir sahiblərinin başına gələn möcüzəli, qeyri-adi əhvalatlardan birində deyilir: "Seyidnənənin atasının gözləri tutulur, qızına deyir ki, məni apar babamın qəbri üstünə, gözlərim orda açılacaq. Seyidnənə azyaşlı imiş. Atasının əlindən tutur, babasının qəbrinin üstünə ziyarətə gedirlər. Burda atası qəbrin üstünə uzanıb yatır. Seyidnənə görür ki, Göy aləmindən sanki Günəş doğur, buna tərəf gəlir. Günəş nuru gəlib yaxınlaşdıqca iki nəfər üzürübəndli adam deyir ki, "qızım, qorxma, biz sənin atanın gözlərini sağaldacağıq, sənə hökm verəcəyik. Seyidnənənin ağzına tüpürüllər, atasının gözlərinə əllərini çəkib yenidən nura dönüb yuxarı çəkilib yox olurlar. Sonra Seyidnənənin ürəyi gedir, yıxılır. Ayılandan sonra kəndə gəlirlər. Kənd camaatı bu olanları eşidəndən, biləndən sonra onu müqəddəs sayır, əyninin paltarından və ya şəxsi əşyalarından alıb müqəddəs bir şey kimi özləri ilə aparır, "sənə qurbanı olduğlarımızın əli dəyib" deyirlər (49).

Başqa bir rəvayətə görə, uşaq vaxtı Seyidnənə həyətdə oynayırmış. Nənəsi təndirdə çörəyi bişirib evə apardıqdan sonra uşaq gəlib isti təndirin içərisinə girir. Seyidnənənin itdiyini görüb hamı axtarır. Nə qədər axtarsalar da, tapılmır. Qonşudakı qadınlardan biri uşağın təndirin içində olduğunu deyir. Tez uşağı təndirdən çıxarırlar. Sonralar Seyidnənə özü bu hadisəni xatırlayıb deyirmiş ki, mənə həmin təndirin – alovun içərisində min bir dərdin dərmanını öyrədirdilər, camaat haray salıb məni təndirdən tez çıxardı (49). Folklorşünas F.Bayat yazır: "Türk mifoloji görüşlərinə görə, atəş xoşniyyətli ruhların yanında yer alır, pis ruhlara qarşıdır" (131, 126). Şaman inanclarında şamanların atəşdə yanmamalarının geniş yayıldığını qeyd edən müəllif, eyni hadisənin övliyalara da aid olunduğunu isbatlamışdır. "Qazana girib qaynamaq və ya atəşin içində yanmamaq motivləri bir çox övliyalara məxsus kəramət göstərmə yöntəmlərindəndir" (131, 127).

Deyilənlərə görə, Seyidnənə kimin üzünə baxsaydı, həmin adamın hansı xəstəliyi olduğunu bilirmiş. Xəstə adamın ağrıyan yerinə əlini çəkir, sığallayırmış, xəstə sağalırmış. Seyidnənə on ildən artıqdır ki, dünyasını dəyişib, onunla bağlı əhvalatların bir qismi qızı Mirbəyim xanımdan qeydə alınmışdır.

El arasında yayılan fikirlərə görə, pir sahiblərinin möcüzələrinə, müqəddəsliyinə şəkk edib inanmayanlar həm bu dünyada, həm o biri dünyada cəzalanırlar. Toplanılan folklor mətnləri arasında bu tipli inanclara geniş rast gəlinir. Seyidnənənin möcüzələrinə inanmayan bir qadını inək buynuzu ilə vurub yaralamışdı. Seyidnənənin ocağından axıb tökülən kimyəyə şəkk edən başqa bir qadının qolları yara tökübmüş. Hər iki qadın başlarına gələn əhvalatdan sonra yenidən ocağa gəlmiş, dizlərinin üstündə sürünərək ocaq sahibindən günahlarının bağışlanmasını istəmişlər (49).

Xolqaraqaşlı kəndindən qeydə alınmış mətnə görə, seyid Ağadədənin evinə gecə oğurluğa gələn adam döşəmədəki kilimi yığmaq istəyəndə beli, əli-qolu quruyub, yerindən qalxa bilməyib. Səhər yuxudan qalxanlar bunu görüb, məsələdən agah olublar. Oğurluq etmək istəyən şəxs ömürlük şikəst qalıb. Bölgədə hər kəs

Ağadədənin qeyri-adi şəxs, övliya olduğunu, onun istənilən xəstəliyə əlini çəkərək sağaltmaq gücünə malik olduğunu söyləyir. Deyilənlərə görə, əkin sahələrində yetişmiş məhsulu – taxılı dağıdan həşəratları məhv etmək istəyənlər oraya Ağadədəni aparıb tüpürtdürürdülər. Həmin sahədəki ziyanverici həşəratlar məhv olurdu. Həyətində çox sayda ilan olanlar da seyid Ağadədəni aparıb tüpürtdürürdülər ki, ilanlar o həyətdən uzaqlaşsın (49).

Xolqarabucaq kəndində Pəricahan nənənin ocağı da müqəddəs ocaqlardan sayılır. Ərazidəki insanların dediyinə görə, Pəricahan nənənin oğlu Mirqasım ağır seyid olub. Əvvəllər kəndin ərazisindən keçən Akkuşa çayında kiçik gəmilər üzürmüş. Həmin gəmilərdən birində belə bir əhvalat baş verib. Gəmidəkilər Mirqasımın seyidliyinə, möcüzələrinə inanmayıblar. Mirqasım yanan közü ağzına qoyub çıxarıb. Hamı baxıb ki, doğrudan da, bu, yanan közdür. Seyid Mirqasım gənc yaşlarında dünyasını dəyişib. Camaat mərhumu dəfn etmək üçün qəbiristanlığa götürür. Anası Pəricahan nənə ah-vay edir, "bala, dayan, mən də gəlirəm". Həmin gün oğlunun ardınca dünyasını dəyişən ananı da dəfn ediblər. Deyilənlərə görə, Pəricahan nənənin qəbrinin üstündə həmişə işıq, alov görünürmüş, ananın qəbri nakam oğlu Mirqasıma görə yanırmış (49). "Şaman əfsanələri və söyləmələri" kitabında verilmiş mətndə ölmüş şamanın tabutunun yanında onun ruhu alov şəklində peyda olaraq 7 gün orada qalır (119, 118). "Azərbaycan folkloru antologiyası"nın XVI cildində – Ağdaşdan toplanmış örnəklər arasında da pir sahiblərinin alov kimi görünmələrilə bağlı mətnlər vardır (27, 109, 112).

Neftçalanın Qaçaqkənd kəndində seyid Mirəziz ağa, Xolqarabucaq kəndində seyid Ağadədə adlı müqəddəs insanlar – övliyalar vardı. Əhali onlara çox inanır, ocaqlarını tez-tez ziyarət edir, niyyət edib nəzir aparırdılar. Adlarını göstərdiyimiz bu müqəddəslər el ağsaqqalı idilər. Onlara pənah gətirən heç kəsi qapıdan boş qaytarmaz, şəfa istəyənə şəfa verir, köməyə ehtiyacı olanlara əl tuturdular. Buranın bütün xeyir və şər işlərində hamı onların məsləhətinə qulaq asırdı. Bu müqəddəs insanlar 2013-cü

ildə dünyalarını dəyişsələr də, onların yurdları – ocaqları və məzarları bölgə əhalisi tərəfindən bu gün də ziyarət olunmaqdadır.

Bölgədə yayılmış inama görə, seyidlərin qarğışına tuş olmaq insanın bədbəxtliyinə səbəb olur, taleyi uğursuzluqla nəticələnir. Ona görə də seyidlərə və onların törəmələrinə hər kəs hörmət edir.

Qeydə aldığımız mətnlərdə pirlərin və ocaqların ziyarət olunması ilə bağlı rituallar geniş yer alır. Pirə və ocağa ziyarətə gedərkən mütləq qabaqcadan qüsl verilməlidir. Qadınlar uzunqollu, uzunətəkli paltar geyinməli, başlarını örpəklə bağlamalıdır. Ziyarətə gedən insanlar şəkk etməməli, qəlbən inanaraq getməlidir. Ziyarət etdiyin pirə və ya ocağa qurban boyun olmusansa, kəsilən heyvanın bir hissəsini ziyarət etdiyin ocaq sahibinə verməli, qalanını isə qonşuların, qohumların arasında bölüşdürməli, azı yeddi qapıya pay verməlisən. Ziyarət yerində qoyulan nəzir halal yolla əldə olunmuş qazancdan olmalıdır. Ziyarət etdiyin pirdən, ocaqdan götürülmüş torpaq və ya əşya müqəddəsdir, ona kimyə, ya da kimyətəbərrik deyilir. Kimyə təmiz yerdə saxlanılır, xəstələnən, yaxud qorxan adama şəfa tapması üçün kimyə suyu içirdilir. Seyidlərin oğul övladlarına həmişə, hər vaxt, qız övladlarına ancaq həftənin cümə günləri seyidlik düşür.

“Muğan ərazisində yaddaşlaşan folklor” məqaləsindəki fikri Neftçala və Salyana da aid edə bilərik. Bu torpaqlar Muğan ərazisinə aid olmaqla həmin fikirləri özündə əks etdirir. “Bu yerlər inanc tariximizin bir neçə qatını əhatə edir. Burada ən əski türk inanclarının izlərini aşkarlamaq mümkündür. Bu inanclar zaman-zaman sonrakı inanc sistemlərinə transformasiya olunmuş və müxtəlif təzahür formalarını saxlamışdır. Bölgədə islami dəyərlər mükəmməl bir şəkildə olsa da, xalq inancları ilə qovuşmuş təriqət dəyərləri də müşahidə olunmaqdadır. Haqqında bəhs etdiyimiz ocaqlar bu silsiləyə aiddir” (28, 14).

Müşahidələr göstərdi ki, ərazidə pirlərlə, övliyalarla, seyidlərlə bağlı mətnlər çoxdur. Seyidlər və onların şəcərəsi ilə bağlı möcüzələrdən bəhs edən rəvayət və inanclar bölgənin özünəməxsusluğunu əks etdirmək baxımından gərəklidir.

# III FƏSİL

# MƏRASİM FOLKLORU

## 3.1. Bölgənin məişət mərasimləri

### 3.1.1. Toy mərasimi

Hər bir xalqın özünəməxsus mərasimləri vardır. Hər xalq, hər bir etnos mərasimləri öz milli psixologiyasına, etnik düşüncə tərzinə, milli-mənəvi dəyərlərinə uyğun icra edir. Prof. Q.Paşayevin qeyd etdiyi kimi, “xalqın əxlaq təcrübəsi, adət-ənənəsi, inam və etiqadları əsasında yaranan, insan ömrünün hər bir mərhələsini özünəməxsus bir tərzdə əks etdirən məişət mərasim və nəğmələri, hər şeydən əvvəl, əcdadlarımızın həyatı ilə bağlı etnoqrafik informasiya ilə zəngin və qiymətlidir” (102, 6). Hamıya məlumdur ki, müasir günümüzdə bu adətlərin bəziləri unudulur, tamamilə sıradan çıxır. Dünyada yaşanan qloballaşma səbəbindən sözügedən bölgənin mərasimlərinin, eləcə də toy adətlərinin tamamilə dəyişdiyini müşahidə edirik. Qədim Salyan toyları indiki dövrlə müqayisədə olduqca zəngin olmuşdur. Biz burada qədim Salyan toylarının təsvirini verməyə çalışmışıq.

Toy bir neçə mərhələdən ibarətdir: elçilik, nişan, qız toyu, xınayaxdı, oğlan toyu (gəlinaparma), əlgördü.

Oğlunu evləndirmək istəyən valideynlər əvvəlcə oğlanın gözaltısı olub-olmadığını öyrənirlər. Əgər oğlanın sevdiyi qız varsa, həmin qıza elçi düşürlər, əvvəllər isə çox hallarda qız bəyənməni oğlanın anası və ya bacısı öz üzərinə götürürdü. Qızı bəyənərkən onun xarici görünüşü ilə yanaşı ağıllı, ədəb-ərkanlı, əxlaqlı, təmizkar olması mühümdür. Qeyd edək ki, son zamanlar evləndirmə zamanı daha çox oğlanın özünün seçib-sevdiyi qıza elçi düşürlər.

Qız bəyənildən sonra onun valideynlərinə xəbər yollanır ki, elçiliyə gələcəyik. Ailənin yaxın adamlarından üç-beş nəfər hörmətli ağsaqqal qız evinə elçiliyə gedir. Onlar “Allahın əmri, peyğəmbərin iznilə sizin qıza elçiliyə gəlmişik”, deyirlər. Qızın valideynləri adətən birinci elçilikdə “hə” cavabı vermirlər. Ya-

xın qohumlara, ağsaqqallara məsləhət edərik, sonra cavab deyərik, deyirlər. Əgər qızın özü və ailəsi tərəfdən razılıq yoxdursa, oğlan tərəfə “sizin itiyiniz bizdə tapılmaz” deyirlər. Qız evinin razılığı olarsa, oğlan adamlarına xəbər yollanır, elçilər “hə” cavabını almağa gəlirlər. Qızın atası elçilərə “Allah xeyir versin, Allah mübarək eləsin” deyərək razılığını bildirir. Süfrəyə şirin çay gətirilir. Şirin çayın içilməsi ilə qohum olacaq ailələrin arasında şirinliyin, mehribanlığın təməli qoyulur. Salyan və Neftçala rayonlarında bu mərasimə “xatircamlıq” deyilir.

Əvvəllər bəzi bölgələrdə “hə” cavabı alındıqdan sonra “qız üçün “bəlgə” qoyulur, yəni üzük, kələğayı və bir qədər də şirniyyat gətirirdilər... Bu zaman mehr və başlıq məsələsi də həll olunurdu. Ağsaqqallar burada bir növ vasitəçi rolunda çıxış edirdilər. Mehrin miqdarı toy ərəfəsində bağlanan kəbin müqaviləsində qeyd olunurdu. Mehr – ərin öz arvadını boşayacağı zaman ona verəcəyi pulun miqdarı idi. Başlıq isə bir növ qız üçün alınan ödənc idi. Bu ödənc Azərbaycanın müxtəlif rayonlarında müxtəlif cür adlanırdı. Ona “süd pulu”, “qız pulu”, “xərc”, “yol pulu”, “rah pulu”, “bahaşir” deyilirdi (63, 214). Qeyd edək ki, son vaxtlar bir çox bölgələrdə, o cümlədən Neftçala-Salyan ərazisində belə adətlər tamamilə unudulub.

Razılıqdan sonra nişan günü təyin olunur. Həm qız evində, həm də oğlan evində nişan üçün hazırlıqlara başlanır. Oğlan tərəfi qız üçün nişan üzüyü, digər qızıl əşyalar (boyunbağı, sırğa, bilərzik və s.), bahalı parçalar, gəlinlik güzgüsü və digər əşyalar alır. Bütün alınanlar xonçalara bəzənir, şirni və konfet xonçaları ayrıca hazırlanır, nişan günü qız evinə gətirilir. Qız evində nişan üçün hazırlıqlar görülür, nişanlı oğlan üçün nişan üzüyü alınır.

Nişan mərasimində əvvəllər nişan üzüyünü qızın barmağına oğlanın bacısı və ya ağbirçək qohumlardan biri taxardı. İndi bu işi nişanlanan cütlük özü icra edir. Oğlan qızın, qız oğlanın barmağına nişan üzüyü keçirir, onlar nişanlı sayılırlar.

Nişanlanan qızı gəlin aparanadək təqvimdə nə qədər bayram olursa, oğlan tərəfi qız evinə bayram xonçaları, hədiyyələr

gətirməlidir. Müsəlmanların müqəddəs bayramlarından olan Qurban bayramında oğlan evi nişanlı qız üçün qurbanlıq qoç gətirir. Milli bayramımız Novruzda ənənəvi bayram şirniləri – şəkərbura, paxlava, şorqoğalı digər hədiyyələrlə birlikdə xonçalarda qız evinə gətirilir.

Bəzi regionlarda, xüsusilə də Bakı ərazisində "oğlan evi qız üçün ilin nübar – ilkin mer-meyvəsindən də göndərir ki, el arasında buna "bağbaşı" deyirlər (4, 90).

Bəzi ailələrdə uzun müddət nişanlı saxlamazlar, toyu tez edərlər. Əvvəl qız toyu üçün hazırlıqlar başlanır. Qız toyuna Salyan və Neftçala ərazisində şirni içmək, yaxud paltarkəsdi deyirlər. Bura yaxın qohumlar, qonşularla yanaşı qızın rəfiqələri dəvət olunur. Əvvəllər (yəni təxminən 2000-ci illərə qədər) qızlar, qadınlar üçün qızın ata evində toy mağarı qurulurdu. Mərasimi musiqiçilər icra edirdi. Dəvət olunan qonaqlar yemək süfrəsindən sonra mağara yığışır, çalıb-oynayırdılar. Toy şənliyi gecə uzunu davam edərdi. Qız toyunun sonuna yaxın gəlini tərif edirdilər. Xanəndə bir-bir qohum-qonşuların adını çağırır, onlar gəlinə xələt verirdilər. Xələt dedikdə cürbəcür parçalar, yaxud az məbləğdə pul nəzərdə tutulur. Ümumiyyətlə, toya çağırılan qonaqlar toy sahibinə müəyyən məbləğdə pul və ya cürbəcür hədiyyələr gətirirlər. Bu hədiyyələr yeni evlənənlərin gələcək birgə həyatında onlara kömək məqsədilə verilir. Qız toyunun səhəri günü gəlin üçün gətirilən xonçalar açılırdı. Təzə gəlinə alınmış hədiyyələr bir-bir mərasim iştirakçılarına göstərilirdi. Bu, gəlinin qış paltarları, bu, gəlinin yay paltarları və s. Gəlinə alınmış hədiyyələrlə yanaşı oğlan tərəfi gəlinin ata-anasına, bacı və qardaşına da hədiyyələr gətirirdi. Hazırda bu tipli qız toyları sıradan çıxmışdır. İndi qız toyları ya şadlıq evlərində ayrıca təşkil olunur, ya da oğlan tərəfin toyu ilə birlikdə icra olunur.

Qızını gəlin köçürən valideynlər cehiz verməlidir. Bura yeni evlənənlərin istifadə etməsi üçün bütün gərəkli məişət əşyaları aid edilir. Qıza alınan cehizlər xınayaxdıdan bir neçə gün əvvəl oğlan evinə gətirilir, təzə gəlin üçün hazırlanan otaqlara yığılır.

Cehizi yerbəyer etmək üçün qızın bacıları və qohumlar oğlan evinə gəlir. Qız evindən gəlib gəlin otağını bəzəyən adama bəy hədiyyə verir. Qıza cehiz vermə adəti bu gün təkcə Azərbaycan türkləri üçün deyil, həm də digər türk xalqları üçün xarakterikdir. Türkiyənin Qaziantep yörəsində qıza cehiz verməd bəzi əski adətlər öz ağırlığını saxlayır. Cehizlərin yığıldığı evdə sandığın üzərinə qızın qardaşı, yaxud yaxın qohumlarından biri oturur. Oğlanın atası və ya ailənin böyüyü sandığın üstündə oturan adamı qaldırmaq üçün müəyyən məbləğdə pul verir (151).

Qız toyu ilə oğlan toyu arasında, qızın gəlin köçməsindən əvvəl xınayaxdı mərasimi icra olunur. Xınayaxdı mərasimlərinin icrası ta qədimdən günümüzə qədər davam etməkdədir. Bu mərasim qız evində təşkil olunur. Bəyin bacıları və yaxın qohumları xına xonçası hazırlayıb qız evinə gətirir. Hazır xınanı bəyin bacısı və ya qardaşı arvadı gəlinin saçlarına, əlinə, ayağına yaxır. Qızın anası və yaxınları xına yaxan adama xələt verir. Xınayaxdıya gələn qonaqlar saçlarına, ovuclarına xına yaxır, çeçələ barmaqlarını xınaya batırırlar. Azərbaycanın bəzi bölgələrində xınayaxdı mərasimində qız evi ilə oğlan evi arasında deyişmələr təşkil olunur. Bu tipli deyişmələr xüsusilə Naxçıvan bölgəsi üçün xarakterikdir. Buna həmin ərazidə haxışta deyilir. 2012-ci ildə nəşr olunmuş “Naxçıvan folklor örnəkləri” kitabında 74 haxışta mətni verilmişdir.

Üstüpünün gülləri, haxışta,
Oxuyar bülbülləri, haxışta,
Gəlinə qurban olsun, haxışta,
Oğlanın bibiləri, haxışta (33, 267).

Müasir günümüzdə Salyan və Neftçala ərazisində icra olunan xınayaxdı mərasimlərində tək-tək hallarda haxışta deyilməsilə qarşılaşırıq. Haxışta deyilməsi əvvəllər bu bölgə üçün xarakterik olmamışdır. Son zamanlar respublikanın bir çox bölgələrində xınayaxdı mərasimlərində Naxçıvana məxsus haxıştaların ifa olunması dəb halını almışdır.

Türkiyənin Adana bölgəsində də xına mərasimi ilə bağlı icra olunan adətlər maraqlıdır. “Xınaçılar davul çala-çala gəlinin

evinə gəlir, ev adamları onları qarşılayır. Onlar hay-həşir salır, torpaqbasdı pulu, işğaliyə və s. cəzalar kəsirlər (127, 109). Akdəniz bölgəsində xına gecəsi oğlan evindən gəlmiş oğlanlara qız evinin adamları cürbəcür işgəncələr verirlər. Qız evinin onlara verdiyi işgəncələri oğlan evi səbirlə qarşılayır. Bunun üçün cəza verilən adamları səbirli insanların arasından seçirlər. Xınaçını yatmağa qoymurlar, türkü oxutdurur, hekayələr danışdırırlar, belindən ip bağlayaraq tavana asırlar, jaketini tərs geydirirlər, qolundan su tökürlər, oturduğu döşəkçəyə iynə batırırlar. Bütün bu işgəncələrdən sonra xınaçı ya pul verir, ya da susaraq "cəzadan canını qurtarır" (150). Axşam xına mərasimi başlayır. Əvvəlcə gəlin geydirilir, yüksək bir yerdə oturdulur. Gətirilən xına xəmir şəklində hazırlanır, gəlinin hər iki əlinə yaxılır, xına türküləri söylənir, mərasim başlayır. Xına türküsünün özəl bir məqamı var. Qadınlar tək-tək və ya xor şəklində xına türküsünü söyləyirlər. Bu arada gəlin və yaxınları ağlayır, adamların bir qismi gülüb-əylənirlər" (127, 109). Adanada icra olunan xına mərasimində də xına türkülərinin xüsusi yeri var. Məlum olur ki, xına mərasimlərində xına yaxmaqla yanaşı, haxışta demək, mahnı oxumaq, bir-birini cırnadaraq əylənmək bütün türk soylu xalqlar üçün ortaq mədəniyyət hadisəsidir.

Neftçala-Salyan söyləyicilərindən xınayaxdı mərasimi ilə bağlı aşağıdakı parçaları qeydə aldıq.

Taxdun bərəkalla, gəlin,
Baxdun bərəkalla, gəlin.
Ağ əllərə əlvan xına
Yaxdun bərəkalla, gəlin.

* * *

Xınanı yaxun dəstinə-dəstinə,
Xəbər gedsin düşmanına, dosduna... (49)

Xınanı yaxan oğlan adamına gəlinin anası, doğmaları xələt, şirinlik verirlər. Gəlin üçün hazırlanmış xınadan bəyin bacısı götürüb bəyin ayaqlarına yaxır. Oğlan toyu ilə bağlı mərhələ daha ağır, daha sanballı icra edilir. Toy günü təyin ediləndən sonra məclisə

çağırılacaq qonaqların siyahısı tərtib olunur. Toydan qabaq qonaqları dəvət etmək üçün xüsusi adam ayrılır. Əvvəllər əsasən Salyanda toya qonaq dəvət etmə mərasimi "xanda gəzdirmək" mərasimi adlanırmış. Xanda gəzdirənlər qohumların-qonşuların evinə gedərək əllərindəki sinidən noğul-nabat paylayır, hər kəsi toya dəvət edirdilər. Ev sahibi toya çağıran xandaçılara ya hədiyyə, ya xələt verirdi. Bölgənin kəndlərində isə, xüsusən Xol zonası kəndlərində ötən əsrin 70-80-ci illərində qollarına ipək xara bağlanmış xüsusi bir atlı qapı-qapı gəzərək bütün kənd camaatını toya çağırardı. Atlı "Ay ev yiyəsi, sabah axşama filankəsin oğlunun və ya qızının toyuna gələrsən" deyərək hamını toya dəvət edir, toya çağırılan adamlar atlıya xələt bağlayırdı. Hazırda bu adətlər sıradan çıxmışdır. İndi toya çağırmaq üçün, hər yerdə olduğu kimi, toy dəvətnamələri yazılır, dəvət olunanların evlərinə yollanır.

Toydan bir gün əvvəl görüləcək işlər bölüşdürülür. Aşpaza kim kömək edəcək, çayı kim dəmləyəcək, qonaqlara kim qulluq edəcək və d. işlər toy adamları, qohum-qonşu arasında paylaşdırılır. Buna bəzi kəndlərdə "yazdı-yazdı", bəzi yerlərdə isə "ciyər axşamı" deyirlər. Axşam vaxtı dana kəsilir, toy evinin adamları dana kəsilən yerdə bir ağaca xələt bağlayır, həmin xələtlər qəssaba çatır. Qəssab əti hissələrə bölərək təmiz, sərin yerdə, soyuducularda saxlanılması üçün göstəriş verir.

Toy günü ertədən gəlini bəy evinə gətirmək üçün xüsusi gəlin maşını hazırlanır, güllərlə bəzədilir. Lap əvvəllər, ötən əsrin 40-50-ci illərinə qədər gəlin atası evindən atlı araba ilə, faytonla və ya ayaqla yeriyərək gətirilərdi. Sonralar – təxminən 1980-ci illərdə gəlini gətirmək üçün üzərinə gəlincik bəzədilmiş maşınlardan istifadə edilirdi. Son illər gəlin atası evindən güllərlə, rəngli şarlarla bəzədilmiş gəlin maşınında, maşın karvanının müşayiəti ilə gətirilir.

XX əsrin ortalarında, əsasən 1970-80-ci illərdə gəlini aparmaq üçün gələn oğlan evinin adamları üstüaçıq yük maşınlarında ayaqüstə dayanır, əllərində qırmızı rəngli kələğayı yellədərək qız evinin adamlarını cırnadır, xüsusi avazla "Arazına, xan boyuna"

toy mahnılarını oxuyur, qız evinə acıq verir, bəzən onlarla deyişirmişlər. Bölgədə buna bəzi söyləyicilər "Arazına çəkməy" deyirlər.

Oğlan evi: Arazına, xan boyuna (bəzən də qanpoyna),
Yep-yepinə hurrey!!!
Mal almağa gəlmişüy,
Şal almağa gəlmişüy.
Oğlanın adamıyuğ,
Aparmağa gəlmişüy.

Qız evi: Malımızı da verməruy,
Şalımızı da verməruy.

Oğlan evi: Ay qız adamı,
Alsın qadamı.
Oğlan adamı
Yisin badamı (49).

Gəlini gətirən zaman "Arazına, xan boyuna" başlıqlı toy deyişmələrini ayrı-ayrı söyləyicilərdən qeydə almışıq. Bu gün həmin deyişmələrin bir çox bəndləri itib-batsa da, qeydə alınan bəndləri bir yerə topladıqda həmin mətnin ümumi məzmunu haqda təsəvvür yaranır. Bu şeirlər məzmunca zəif olsa da, xalqın məişəti ilə sıx bağlıdır. Qeyd edək ki, bölgənin hazırkı toylarında heç bir deyişməyə, cırnatmaya rast gəlinmir. Bu, açıq-aydın göstərir ki, toylarda qız evi ilə oğlan evinin adamları arasında deyişmə ənənəsi tamamilə unudulmuşdur.

Balakən ərazisində də toy zamanı müxtəlif toy nəğmələri oxuyurlar ki, bölgədə buna hayla deyirlər. Haylaları tənbur çalaraq oxuyurlar.

Ata vuran yüyəndi, aman, aman.
Ay, xırda-xırda diyəndi, liləyi-liləyi,
Qalsın, ax, yadımızda, aman-aman,
Ax, Ərəbi dindirəndi, liləyi-liləyi.
Əllərini yağla sən, ah liləyi,
Ağ sinələri dağla sən, ah, liləyi-liləyi (24, 41).

Türkiyənin Biləcik ərazisində keçirilən toy və xına mahnıları da özünəməxsusluğu ilə seçilir. M.Yalvaçın Biləcikdən qeydə aldığı toy mahnılarında gəlin üçün oxunan nəğmələr əsasən qız evinin adamlarını və gəlini cırnatmaq, ağlatmaq məqsədi güdür (136, 72-90). Göründüyü kimi, hansı bölgəyə məxsus olmasından asılı olmayaraq bütün toy mahnılarının mətni həmin ərazinin insanlarının həyat tərzini əks etdirir.

Digər bölgələrdə olduğu kimi, Salyanda da ata evindən yaxın qohumların iştirakı ilə ər evinə yola salınan qıza atası, yaxud nəslin ağsaqqalı xeyir-dua verir.

Ağbaxt olasan, qızım!

Xoşbaxt olasan, yoldaşınnan qoşa qarıyasan!

Suyun sərin olsun, çörəyin bişmiş!

Qaynənənin, qaynatanın hörmətini saxla!

və d. alqış və öyüdlər ailənin böyüyü tərəfindən gəlin köçən qıza nəsihət olunur. Bəyin kiçik qardaşı gəlinin belinə qırmızı rəngli kələğayı, yaxud qırmızı lent bağlayır. Lenti bağlayan oğlan uşağı aşağıdakı misraları deyir:

Anam, bacım, qız gəlin,
Əli-ayağı düz gəlin.
Yeddi oğul istərəm,
Bircə dənə qız gəlin.

Ənənəyə görə, gəlin ata evindən ər evinə yola düşərkən gəlinlik güzgüsü öndə tutulmalıdır. Çünki güzgü evlənənlərin bəxt güzgüsü sayılır. B.Abdullayevin qənaətinə görə, "güzgü əslində tamamilə unudulmuş çox qədim təsəvvürün, ibtidai dünyagörüşün məhsuludur. Adamlar belə qənaətdə olublar ki, şər, bədxah qüvvələr hər an gəlinə xətər toxundura bilərlər. Şər qüvvələr isə, məlum olduğu kimi, əsasən, oddan, işıqdan, həmçinin işığı, parıltını əks etdirən dəmir vasitələrdən qorxurlar. Odur ki, gəlinin yanında şam yandırmaqla bərabər, qarşısında güzgü də tuturmuşlar" (4, 24). Gəlin ata evindən çıxarkən icra edilən vacib şərtlərdən biri də onun üzüörtülü olmasıdır. Qədim vaxtlarda gəlinin üzünün görünməməsi üçün onu cunadan hazırlanmış miçətkənin altında aparırmışlar.

Hazırda kənd yerlərində gəlinin üzünü gizlətmək üçün başına ağ və ya qırmızı rəngli kələğayı atırlar. Atası evindən ağ gəlinlikdə yola salınan zaman "Vağzalı" havası çalınır, ardınca anası su atır ki, getdiyi ailədə xoşbəxt olsun. B.Abdullanın yazdığına görə, bəzi bölgələrdə gəlin ata evindən çıxanda sağ ovcunda artım rəmzi bilinən düyü götürür. Onun üçün ayrılmış miniyə çatana qədər tanıdığı, yadında qaldığı ərgən qızların bir-bir adını deyib və hər dəfə bir düyünü yerə atır. Bu, həmin qızların da baxtı açılsın, mənim yolumu getsin, başqa sözlə, gəlin olsunlar deməkdir (4, 95).

Gəlini aparmağa gələn oğlan adamları, bəyin dostları qız evindən "oğurluq" edirlər. Bu vaxtı kənd yerlərində adətən, ya xırdabuynuzlu heyvan, yaxud xoruz, ördək və digər ev quşu "oğurlayırlar". Bəzən qız evi daha tədbirli olur. Mal tövləsinin, toyuq hininin qapısını bərk bağlayırlar. Bəzən oğlan tərəfinin oğurlaması üçün içərisinə düyü tökülmüş, pul qoyulmuş bir stəkanla nəlbəkini əl altında qoyurlar ki, onu götürsünlər, ayrı oğurluq etməsinlər.

Kənd uşaqları gəlini aparan maşının qarşısını kəsir, qayınatadan şirinlik istəyirlər, bəyin atası uşaqlara müəyyən məbləğdə pul verir. Gəlin oğlan evinə gələndən sonra qayınata gəlinlə bəyin ayağı altında qurban kəsir. Qayınana evin astanasında gəlinin ayağı altında üzüaşağı boşqab qoyur. Gəlin həmin boşqabı sındıraraq öz otağına daxil olur. Qayınata, qayınana gəlinə xeyir-dua verir, kənddə yaşayanlar gəlninə qapıdakı mal-heyvandan pay verir, yaxud qızıl üzük, qızıl qolbaq hədiyyə verənlər də olur. Qayınana, adətən, bir dəst yorğan-döşək, bahalı xalça və kilim bağışlayır. Bölgədə bu adətə "duz ayağı vermək" deyirlər. Hədiyyəni alandan sonra gəlin oturur, onun oğullu-uşaqlı olması üçün qucağına kiçik oğlan uşağı oturdurlar.

Bölgədə qayınana-gəlin münasibətlərindən bəhs edən rəvayətlərlə yanaşı, həmin münasibətləri təsvir edən atmaca şəkilli şeir formalarına da rast gəldik. Onlardan bəzilərini burada vermək yerinə düşər:

Qayınana deyir: – Biz almışuğ gəlini iş görməyə,
Almamışuğ gündə saçın hörməyə.

Biz almışuğ qaynənəsin saxlasın,
Almamışuğ gecə-gündüz yuxlasın.

Gəlin deyir: – Mən gəlmişəm, istəkana qənd salam,
Gəlməmişəm, ürəyimə dərt salam.
Mən gəlmişəm, sarı geyəm, sallanam,
Gəlməmişəm, çitə-mitə allanam (49).

"Azərbaycan mərasim folkloru"nu araşdıran A.Xürrəmqızı bu tipli deyişmələri, toy nəğmələrini Ağbaba folklorunda "acıtmalar", Borçalı folklorunda isə "əbədə-şəbədələr" adı altında toplandığını qeyd edir" (69, 112).

Toya gələnlər yeyib-içəndən sonra oynamaq üçün mağara yığışırlar. Ötən əsrin ortalarına qədər kişi toylarına aşıqlar çağırılırmış. Üç gün, üç gecə davam edən toyu aşıqlar idarə edir, səhərə qədər dastan söyləyir, məclisə yığışanlar səssiz-səmirsiz qulaq asırmışlar. Bu ənənə (aşıqların dastan söyləməsi) bölgədə hazırda tamamilə unudulmuşdur.

Müasir toy məclislərini çox zaman tamadalar idarə edir. Toya dəvət olunan qonaqlar sağlıq deyir, bəyi təbrik edir, musiqi sifariş edib oynayırlar. Əvvəlki toy məclislərində gənclər oynayan zaman şabaş (yəni pul) verilirdi. Yığılan şabaş musiqiçilərə çatırdı. Müasir toylarda "şabaş vermə" adəti sıradan çıxmışdır.

Toyun axırına yaxın aşıqlar (müasir dövrdə xanəndə) bəyi tərif edir. Bəy tərifində yaxın qohumların, dostların adları bir-bir çəkilir, onlar bəyə, sağdış-solduşa, aşığa xələt, yaxud pul verirlər.

Vaxtilə Aşıq Qurbanxanın apardığı toy məclisində iştirak edən 1924-cü il təvəllüdlü Xankişiyeva Fatma Atababa qızından aşığın oxuduğu nəğmələrdən birini qeydə aldıq. Aşıq sanki qızın atasının dilindən deyirmiş:

Ay qızımı sevən oğlan,
Sənnən var issərəm, pıl issərəm.
Sənnən cah-calal issərəm.
İki qribi-Maskva,
Bir zəkiyə şal issərəm.
Gülməxmərlə şifon gətir,

Palto gətir, gültək yana,
Geyməmişdən şax diyana (49).

Söyləyici yaddaşından gileylənərək mahnının qalanını unutduğunu dedi.

Evlənmə mərasiminin ən vacib şərtlərindən biri dini kəbin oxunmasıdır. Molla evlənən cütlüyün adına kəbin oxuyur ki, bu nikah halal hesab olunsun. Evlənənlər dini nikahla yanaşı, dövlət nikah idarəsində qeydiyyatdan keçirlər.

Bölgədə bəzi dindar ailələrdə və seyid ailələrində toy mərasimləri fərqli şəkildə icra olunur. Burada toyu musiqiçilər deyil, mollalar və dərvişlər idarə edir. Belə toylara "dərviş toyu" deyilir. Dərviş toylarında mərsiyələr oxunur, müqəddəs "Quran" kitabından ayələr söylənilir. Bu tipli dərviş toylarına bölgədə çox az hallarda rast gəlinir.

Toy mərasimləri bitdikdən üç gün sonra yeni evlənənlər üçün "əlgördü" mərasimi təşkil olunur. Buna bəzi yerlərdə "üzəçıxdı" deyirlər. Təzə gəlinin anası və qohumları oğlan evinə xonçalarla gəlir, hədiyyə, şirni, konfet xonçaları gətirilir. Təzə gəlin qadınlar oturan məclisə gəlir, anası və qohumları ilə görüşür, hər kəsin üzərinə ətir səpir.

Y.Kalafat müasir günümüzdə qumuqların beşikkərtmə adətilə evlənməsindən bəhs edərək yazır. "Qafqaz xalqlarında bu gün az da olsa "beşikkərtmə" adəti ilə evlənməyə rast gəlinir. Qumuqlarda əmi uşaqları, dayı, xala uşaqları arasında da evliliklərin olduğunu" (134, 114) qeyd edir. Bu gün Azərbaycanda da belə qohum evlilikləri mövcuddur. Hələ körpə ikən valideynlər uşaqlarını biri-birinə adaxlayır, böyüyüncə onları evləndirəcəklərinə aid söz verirlər. Buna Salyan və Neftçala rayonlarında "göbəkkəsdi" deyirlər.

Sözügedən bölgədə yeni ailə quran gəlin qırx gün çilləli sayılır. Ənənəyə görə, çilləli gəlin axşam vaxtı ağac altından, su üstündən keçməməlidir. Əgər keçərsə, üç dəfə bismillah deməlidir. Əvvəllər çilləli gəlini atası evinə getməyə qoymazdılar. Bu gün yuxarıda sadaladığımız adətlərin çoxu unudulub. Biz

belə sıradan çıxan adətləri yaşlı söyləyicilərdən qeydə almışıq. Müşahidələr göstərdi ki, müasir günümüzdə Neftçala-Salyan ərazisində yaşayan əhali də yeniliklərə can atır, öz toy mərasimlərini müasir dövrə uyğun formada qeyd etməyə çalışır.

### 3.1.2. Qırx-bələk adəti

Bölgədə qeyd olunan mərasimlərdən biri yeni doğulmuş körpənin şərəfinə keçirilən qırx-bələk mərasimidir. Yeni doğulan körpə çiçək kimidir, deyirlər. Hər kəsə göstərmək olmaz, yoxsa tez solar. Körpə qırxı çıxanadək çilləli hesab olunur. Çilləli uşağın olduğu otağa birisi girmək istəyəndə körpəni qapı ağzına gətirib yuxarı qaldırırlar, evə girən adam sonra içəri daxil olur. Uşağı ilk dəfə doğulduğunun on günündə qüsl suyu töküb çimdirirlər, daha sonra çillədən çıxarmaq üçün qırx günündə qırx açarlı qabın suyu ilə çimdirirlər. Salyan rayonu Şorsulu kənd sakini, 1937-ci il təvəllüdlü Pakizə Quliyevanın dediyinə görə, lap qədimdə ələyi uşağın başı üstündə tuturmuşlar, qırx qaşıq suyu ələyə töküb, uşağı çimdirirmişlər. Bəzən uşağı çimdirmək üçün hazırlanmış suya qırx buğda dənəsi sayıb tökürlər. Bununla uşağın qırxı günündə çillədən çıxmasına inanırmışlar. Qohum-əqrəba – körpənin doğmaları qırx günlüyündə onu görməyə gəlirlər. Bu zaman uşağın ana nənəsi körpənin beşiyini və digər əşyalarını – yorğançasını, yastığını, döşəyini hazırlayıb gətirir. Ana nənəsi nəvəsinə qızıl hədiyyə edir. Yeni doğulmuş körpəyə "zəfər toxunmaması" üçün üstünə sancaq taxırlar, başının altına bir parça çöréklə xırda bıçaq və ya qayçı qoyurlar. Neftçala rayonunun Qaçaqkənd kənd sakini Orucova Aqibət Abzər qızının dediyinə görə, keçmişdə körpənin yatdığı otaqda mis kəfkir, yaxud bir ucuna soğan batırılmış şiş qoyurmuşlar. Bununla körpənin toxunulmazlığına inanırmışlar. Son illər, yəni 2000-ci illərdən bəri ailədə yeni uşağın doğulması daha təmtəraqla qarşılanır. Xüsusən ailənin ilk uşağı üçün qırx-bələk adlı mərasim keçirilir. Bura bəzən musiqiçilər gətirilir, uşağın doğulması münasibətilə qonaqlıq verilir, yemək-içmək hazırlanır, şadyanalıq edirlər.

Bölgədə uşağa ad qoyulması maraqlıdır. Bəzən yeni doğulmuşlara nənə, baba adlarını qoymaq adəti vardır. Bu zaman əgər nənə, baba dünyasını dəyişibsə, onların adına Yasin oxudurlar. Yaşlı söyləyicilərdən biri körpəni adlandırmaqla bağlı nənəsindən eşitdiyi rəvayəti danışdı. "Nənəm danışırdı ki, bir ayldədə əziz-girami qız uşağı doğulur. Yığılıb buna ad qoyurlar. Baba bir ad qoyur, o biri baba bir ad qoyur. Əmi bir ad qoyur, dayı bir ad qoyur. Bibi bir ad qoyur, xala bir ad qoyur, ad uzanır. O uşağı hərə öz qoyduğu adla çağırır. Kimi Mələk diyir, kimi Badsəba, Gülsəba, Töhfə, Müşərrəf, Xanım. Altı adı olur qızın. Deyirlər: Göydə Mələk, yerdə ələk, çərxi-fələk, Badisəba, Gülsəba. Töhfə, Müşərrəf, Xanım..." (49) Bu kiçik rəvayət bizə həm də bölgədə vaxtilə qız uşaqlarına qoyulan adlarla bağlı informasiya verir.

Ərazidə qız uşağı doğulanda belə bir məsəl də deyirlər:

Qızun oldu qoy beşiyə,
Cehizin yığ yeşiyə;

və yaxud "Qızun oldu, qırmızı donunu çıxart"; "Qız olsun, əli-ayağı düz olsun"; "Qızdı, qızıldı, min tümən azdı, gətirün qızılı, götürün bu qızı"; "Qız qızıla dönübdi, xəbəri yox oğlannarın" (49).

Uşaqla bağlı keçirilən mərasimlərdən biri uşağın ilk dişi çıxarkən hədik bişirmək adətidir. Hədik körpənin rahat diş çıxarması üçün bişirilir. Bişirilən hədik qonşulara paylanır. Hamı bilir ki, hədik paylayan adamın uşağı diş çıxarır. Hədik bişirmək üçün buğda tərtəmiz arıtlanır, bir gün islağa qoyulur. Şişmiş buğda dənələri həll bişincəyə qədər qaynadılır. Ayrıca qabda lobya, noxud dənələri də qaynadılır. Tam bişəndən sonra bişmiş buğda ilə qarışdırılır. Sonra üstünə süd tökülür, südlü hədik bişirilir, üzərinə bir az duz da səpilir, qonşulara-qohumlara paylanır.

### 3.1.3. Yas mərasimi

Yas mərasimləri bu gün folklorun aktiv icra olunduğu yerlərdən hesab edilir. Salyan Cümə məscidinin axundu Kərbalayi İbrahimin və Kərbalayi Rəhmanın verdiyi məlumatlara görə, bölgənin yas mərasimlərində həm şəriət qanunları, həm də ürfi

(adət-ənənə – Səfərova A.) qanunlar icra olunur. Şəriət qanunları dedikdə islam dininin buyurduğu qanunlar, ürfi qanunlar dedikdə el-obanın camaatı tərəfindən adət halına salınmış qaydalar nəzərdə tutulur. Adətə görə, dünyasını dəyişən insanın can üstə olduğunu görən yaxınları molla gətirdir, Quran oxutmağa başlayır. Bu zaman, əsasən, "Yasin" surəsi, "Ər-rəhman" surəsi oxunur. Deyilənə görə, dünyasını dəyişən insanın Allah kəlamını eşidərək can verməsi müstəbat əməldir. Yəni Əzrayıl həmin adamın canını elə alar ki, onun ruhu inciməz. İnanca görə, əməli saleh adamların canını alanda Əzrayıl əvvəlcə Allahdan salam gətirir, sonra onların ruhunu uçurur (Qeyd: Əzrayılın insanın canını alması ilə bağlı əvvəlki fəsildə bəhs etmişdik). Can üstə olan insan üzü qibləyə uzadılır, dünyasını dəyişəndən sonra gözləri basılır, ayaqları çatılır. Üzərinə xara örtülür. Yaşlı mərhumların üzərinə yaşıl və ya göy rəngdə, dünyasını gənc yaşlarında dəyişənlərin üzərinə qırmızı rəngdə xara sərilir. Sinəsinin üstünə kiçik ölçülü güzgü qoyulur. Sonra dəfn hazırlığına başlanılır. Meyit yuyulur, qüsllənir. Mərhumun yaxınları arasında halallıq suyu vermək istəyən varsa, yuyulan zaman onu da içəri çağırırlar ki, gəlib halallıq üçün bir qab suyu da o töksün. Adətən, halallıq suyunu verənlər mərhumun doğmaları olur. Sonra meyit kəfənə bükülür. Kəfən üçün təxminən 12 metrlik ağ pambıq parçadan istifadə olunur. Mərhumun qulaqları, burun deşikləri pambıqla tıxanır, başı pambıqla sarınır, yelçəklə bağlanır, əyninə əba geydirirlər, kəfənə bükürlər. Əgər dünyasını dəyişən şəxs seyid-peyğəmbər nəslindəndirsə, onun qolları altına ağac qoyulur. Sonra mərhumun cənazəsi mafaya yerləşdirilir, üzərindən xalça salınır. Doğmalarının arasında uzaqdan gələn varsa, gözləmək məqsədilə evə götürülür, yox əgər gözlənilən adam yoxdursa, həyətdə qoyulur, yaxınları mərhumla burda vidalaşır. Əgər cənazə evə aparılırsa, meyid götürüldükdən sonra yerinə daş qoyulur. Həmin daş, ehtimal ki, şamanlıqdan gələn xüsusiyyətdir. Şaman adətinə görə, o daşı orada qırx gün saxlayırlar, sonra aparıb onu qəbrin üstünə qoyurlar. Və bununla da ölənin ruhunu onun qəb-

rinə həbs eləmiş olurlar ki, evdə fırlanmasın və digər ölümlərə səbəb olmasın. Bölgənin bir çox yerlərində, eləcə də rayon mərkəzində cənazəni dəfn etmək üçün yalnız kişilər qəbiristanlığa gedirlər. Qadınların cənazə arxasınca getməsi yasaq hesab edilir. Lakin Salyanın Çuxanlı kənd sakini, kənddəki yas məclislərinə mərsiyəxan kimi gedən 1955-ci il təvəllüdlü Qədirova Səmayə Feyzulla qızından öyrəndik ki, bu kəndlərdə qadınlar da mərhumu son mənzilə yola salmaq üçün cənazənin arxasınca qəbiristanlığa qədər gedirlər. Mafanın arxasınca gedərkən doğmaların arasındakı qadınlardan bəziləri ağı deyir, mərsiyəxan yola salma mərasimi üçün xüsusi avazla nohə oxuyur. Bu nohənin məzmunundan onun sanki mərhumun dilindən deyilməsi anlaşılır:

Ötürün, ötürün, məni ötürün,
Son mənzilimə məni yetirün.
Mənnən sora siz ağlamıyasuz,
Başuza qara bağlamıyasuz.
Gedən cismimdi, ay balalarım,
Ruhum sizlədi, ay balalarım.
Ötürün, ötürün, məni ötürün (49).

Mərhumun cənazəsi qəbiristanlığa yola salındıqdan sonra qadınlar geriyə dönür, evə gəlirlər. Cənazə çıxdığı otağa ilk olaraq oğlan uşağı salırlar. Sonra digər insanlar içəriyə girə bilər. Əgər rəhmətə gedən ailənin yaşlı adamıdırsa, nəslin böyüyüdürsə, bu zaman evin damına ağac kötüyü qoyurlar. Yaşlı adamların izahına görə, yəni "evdən gedən mərhum ailənin kötüyü idi" anlamına gəlir.

1990-cı illərə kimi Salyanda rəhmətə gedənin öldüyünü hamıya bildirməkdən ötrü molla evin damına və yaxud digər hündür bir yerə qalxar, ordan azan verərmiş ki, hər kəsə həmin evdə yas məclisi olması bəlli olsun. Doxsanıncı illərdən bəri bu adət sıradan çıxıb. Salyan ərazisində də digər yerlərdə olduğu kimi cənazəni qəbrə aparana qədər molla yol boyu "Ər-rəhman" və ya "Yasin" surəsini oxuyur. Qəbiristanlıqda mafanı qəbrə qoymadan əvvəl üç dəfə götürüb qalxıtmaq ehtiramı var. Qəbrin ayaq tərəfindən meyiti götürüb bir-iki addım gəlib yerə qoyurlar, salavat

çəkirlər, yenə meyiti götürüb bir-iki addım qəbrə yaxınlaşırlar, salavat çəkirlər. Üçüncü dəfə götürüb, əhlətə qoyurlar. Əhlətə qoyarkən meyit sağ çiyni üstə qoyulmalıdır, sol çiyin yuxarıda qalmalıdır. Ondan sonra təlqin oxunmalıdır. Təlqin dedikdə "ismi-fiha" nəzərdə tutulur. Yəni ey filankəs filankəs oğlu, qadındırsa, filankəs filankəs qızı, eşit və agah ol, səndən bunu soruşacaqlar. Molla üzünü qəbrə tutaraq deyir: "Mən deyirəm, sən yaddaş elə. Qəbrin həqdir, kəfənin həqdir, üzü qiblədəsən. Peyğəmbərin budur, imamların budur, müqəddəs kitabın Qurandır. Sıratəl-müstəqim vardır, iki mələk – İnkir və Münkir gələcəy, səni sorğu-sual edəcəklər. Gördüyün işlər müqabilində sən onlara cavab verəcəksən". Sonra qəbrin üstü torpaqla örtülür. Hamı kənara çəkilir, amma molla qalır, yenə də həmin təlqini oxumağa başlayır. Deyir: – "Qohumun, əqraban, dostun-qardaşın – hamı çəkildi, getdi, mən də gedirəm, axırıncı dəfə sənə tapşırıram". Molla yenə həmin sözləri – Quranın haqq olmağını, qəbrin haqq olmağını, kəfənin haqq olmağını, üzü qibləyə olmağını deyir. Ən axırda cəhənnəmin və cənnətin də haqq olmağını deyir, molla da qəbiristanlıqdan gedir. Salyan Cümə məscidinin axundu Kərbəlayı İbrahimin dediyinə görə, qəbir evində insan günahlarına görə cavab verir. Bəzi xırda günahlar var ki, Allah-taala onları bağışlayır, bəzi günahlar var ki, məsələn, insanların haqqını yemək, kimisə günahsız yerə öldürmək, zinaya yol vermək və s. günahları isə Allah-taala bağışlamır. Həmin günahların cavabını Qiyamət günü verirlər. Bəzi rəvayətlərdə deyilir ki, kim Məşhəddə İmam Rzanın zəvvarı olsa, birinci gecə İmam Rza onun qəbrinin başı üstündə dayanır, ona zamin durur, Qiyamətdə o adam şəfa tapmışlardan olur. Qəbir evi ilə bağlı bir çox rəvayətlərin olduğunu söyləyən Kərbalayı İbrahim onlardan bir neçəsini bizim üçün danışdı. Günahsız insanların qəbri nur içində olur, işıqlı olur. Günahkar insanların qəbri daralır, qaranlıq olur, qəbir onları sıxır, əziyyət verir. İnanclara görə, İnkirlə Münkir sorğu-sual edəndə bütün əzalarımız bizə şəhadətlik edəcək. Barmaqlarımız, gözlərimiz, qulaqlarımız, əllərimiz, ayaqlarımız... Qeyd edək ki, söylə-

yicilər arasında "günahı çox olan adamları heç qəbir də götürmür" kimi inancları deyənlərə rast gəlinir.

Bölgədə mərhumun dəfn olunduğu gündən başlayaraq dörd gün hüzür məclisi saxlanır, ehsan verilir. Sonra yeddisi, qırxaqədərki cümə axşamları və qırxı daxil olmaqla yas mərasimi keçirilir. Lakin Neftçalanın Xolqarabucaq, Xolqaraqaşlı, Qırmızıkənd, Mürsəqulu kəndlərində dörd gün deyil, yeddi gün mərasim icra olunur, sonra qırxaqədərki cümə axşamları və qırx mərasimi qeyd olunur. Bir neçə il öncəyə qədər bölgənin bütün kəndlərində və rayon mərkəzində yeddi, qırx və cümə axşamları qeyd olunurdı. Hüzür məclisinin keçirilmə qaydasına görə Xol zona kəndlərində fərqliliklər vardır. Məsələn, sözügedən kəndlərdə kimin ölüsü düşübsə, bütün kənd camaatı başsağlığına gəlir, mərhumun ailə üzvlərinə yardım məqsədilə müəyyən məbləğdə pul verirlər. Lakin Salyan və Salyana yaxın kəndlərdə belə bir adət yoxdur. Amma hüzürü düşən ailənin ehsan verməsinə yardım edənlər olur.

Qadın məclisini aparmaq üçün qadın mərsiyəxanlar oturdulur. Mərsiyəxanlar əvvəlcə imamların müsibətindən, peyğəmbərin və övladlarının həyatından, onların başına gələn faciələrdən bəhs edən mərsiyələr, ağılar deyir, xanım Zəhra, qolları qələm olan Əbülfəz, toysuz Qasım və digərləri haqqında nohələr deyirlər. Məclisə gələnlər "şah Hüseyn, vah Hüseyn" deyərək yerbəyerdən onun səsinə səs verirlər, sinə vururlar. Sonra dünyasını dəyişən adamın yaşlı və ya cavan olmasından asılı olaraq qırmızı, yaxud yaşıl xaraya bükülmüş yastığın üzərində mərhumun bir dəst paltarı və böyüdülmüş şəkli qoyulur, ortalığa gətirilir. Qadın məclisində ortaya gətirilən mərhumun şəklini doğmaları götürərək öpür, qoxusunu onun paltarından alırlar, sonra biri digərinə ötürərək bayatı-ağı deyirlər. "Məhz qadın-ananın, bacı-nənənin sayəsində ölü axirət dünyasına "urvatlı" gedir (ağı söyləməklə), ölünün ruhu ehsan süfrəsindən "öz payını" ala bilir (cümə axşamları xörəyin duzunu tökərkən ölülərin adını çəkməklə); vaxtlı-vaxtında yad edilir (paltarlarının, əşyalarının müəyyən zaman çərçivəsində qorunması ilə)..." (69, 127). Bölgədə

bayatı – ağı deyilməsinə “oxşama deмək”, “dil demək” deyirlər. Eyni hadisəni Türkiyənin Adana bölgəsində də icra edirlər. “Ölənlərin yaxınları mərasimə ağıçı qadınları çağırır, ağıçının önünə ölən insanın paltarları qoyulmuş bir boxça qoyulur, qadınlar ağıları bitirincə digər qadının önünə qoyurlar, bu durum boxçadakı paltarlar bitincəyə qədər davam edir” (127, 89).

Bölgədən topladığımız oxşamalar arasında həm bayatı-ağılar, həm də nəsrlə deyilən oxşamalar vardır. Bayatı-ağılar xüsusən Salyanın Çuxanlı, Kərimbəyli, Yenikənd-Xələc və s. kəndlərində geniş yayılıb. Salyanın Şirvan hissəsinə düşən ərazilərdə yas mərasimlərində bayatı-ağıları həm avazla, həzin-həzin söyləyirlər, həm də bayatı formasında, yəni avazsız, şeir kimi deyirlər. Hər bir qadın ən azı beş-altı ağı deyir, sonra mərsiyəxanın işarəsi ilə növbə digərinə ötürülür.

Mən səni Leyli gördüm,
Leyli-gileyli gördüm.
Gəldim səni görməyə
Torpağdan öyli gördüm.

Gözəl ağlar,
Gözlərim gözəl ağlar.
Nə qədə yaddar ağlasa,
Anası ölmiş hamıdan gözəl ağlar (49).

Oxşama-bayatıların mətninə oxşama deyən qadınlar və ya mərsiyəxanlar söz, yaxud cümlələr əlavə edirlər:

Gəlmişəm, görəm səni, bacım, ay laylay,
Açmışam anamın uzunhörigli qızzarı, hörəm səni.
Nə haçarım var, bacılarım, ay canımın dil bilib,
yol annıyan uzunhörigli qızzarı, vallah, nə haçarım var, nə kilidim,
Bir açıb görəm səni, ay bacım, laylay, bacılarım, laylay (49).

Toplanılan bayatı-ağıların arasında dünyasını dəyişən adama yalvarıb xitab edilən mətnlərə də rast gəldik. Belə mətnlərdən bəzilərində adətən bildiyimiz bayatıların məzmununa dəyişiklik edilmiş və nəticədə həmin bayatının yeni variantı yaranmışdır:

Başımda qarmağım var,
Qarmağı vırmağım var.
Bacı, bi dənə Səbinə xətrəsiyçin
Sənə yalvarmağım var (49).

Bu bayatını dünyasını vaxtsız dəyişmiş bacısı üçün söyləyən Rzayeva Şəhla Əbil qızı mərhum bacısını övladının – Səbinə adlı qızının xətrinə ölməməyə çağırıb yalvarır.

Bölgənin Muğana düşən hissələrində, Salyanın Şorsulu, Boranıkənd, Neftçalanın Xolqarabucaq, Xolqaraqaşlı, Mürsəqulu, Qırmızıkənd, Qaçaqkənd və s. kəndlərində əsasən nəsr formalı oxşamalar geniş yayılıb. Mərhumu oxşayan zaman böyüdülmüş və ortalığa qoyulmuş şəklini öpüb, əzizləyir, həzin avazla oxşamağa başlayırlar. Oxşamaq, yəni mərhumun xarici görünüşünü, boy-buxununu dillə təsvir etmək, əzizləmək anlamındadır. Burada dünyasını dəyişən adamın ömür yolu, xasiyyəti, sənəti və s. xüsusiyyətləri sadalanır. Salyan rayonunun Şorsulu kənd sakini 1937-ci il təvəllüdlü Quliyeva Pakizədən qeydə aldığımız mətnlərə əsasən toysuz öləni belə oxşayırlar:

Toy qoyunun qurd aparan,
Toy xınasın yel aparan, balam, lay-lay.
Yetdi mətləbinnən birin almıyan,
Toy otağına girmiyən,
Əyninə bəyliy kassumu geymiyən,
Toy xınası qana dönən,
Toyu vaya dönən, balam lay-lay.

Övladı olmayan gəlini belə oxşayırlar:

Yuxarıdan yürüy asmıyıb,
Aşağıdan beşiy yelləmiyən,
Bazara gedib oğul börkü, qız ləçəyi almıyana,
Qəlbi evlad həsrətiynən çırpınana qurban.

Övladı olmayıb sonsuz ölən üçün belə oxşayırlar:

Heç oğlu-qızı dalıycan ağlamıyan,
Heç qəbrinin üssünə oğul-qız ləpiri düşmiyənə qurban.

Ata öləndə qız övladları üçün belə oxşayırlar:

Heç ata əliynən qapısı döyülmiyən,
Məsləhəti qoşular gəzən qız balalarua qurban.

Hündür boylu adamı belə oxşayırlar:

Kənardan atdı görüküb,
Yaxınnan piyada görükən,
Hündür boylu, pəhlivan cüssəli,
Halay vurub, halay dağıdana qurban (49).

Göründüyü kimi, bu oxşama-ağılar insanların dərdini-kədərini obrazlı şəkildə ifadə etməklə yanaşı, həm də xalqın, millətin içərisindən çıxan sadə adamların kədərini, itkisini sözə necə çevirdiyini, bölgənin yazıb-oxumağı bilməyən təhsilsiz, yaşlı insanlarının söz yaratmaq qabiliyyətini göstərir. Türk folklorşünası A.Özdemir bununla bağlı yazır: "Hər ağı bir romandır. Orada mərhumun əməlləri, qabiliyyətləri xatırlanır. Mərhum beləcə ağılarda yaşamış olur" (137, 10).

L.Vaqifqızı Bakıdan və Şəkidən qeydə aldığı ağıları müqayisə edərək qeyd etmişdir ki, "ağı söyləmək ənənəsi bütün Azərbaycanda eyni olsa da, hər regionun özünəməxsus cəhətləri vardır. Şəkidə nəsr formalı ağılar daha çox feli sifət tərkibi şəklində qurulursa, Bakı ərazisində daha çox I növ ismi birləşmələrdən istifadə olunur. Şəkidə ağının sonu "lay-lay" sözü ilə qurtarırsa, Bakıda ağının sonu daha çox "anan qurban", "vay" kimi sözlərlə tamamlanır (125, 129). Müşahidələrimiz göstərdi ki, Neftçala-Salyan bölgəsində də Bakıda olduğu kimi, ağıların sonu çox zaman "anan qurban", "bacın qurban" kəlmələri ilə tamamlanır. Bəzən bölgədə həzin səslə dünyasını dəyişən doğmasına "lay-lay çalan" insanlara da rast gəlmək mümkündür. Fikrimizcə, doğmasını itirən adamın mərhumu oxşayarkən hansı formada oxşamasının özü də insanın xarakteri ilə bağlıdır. Bu zaman ağı söyləyən, oxşama deyən adamın hansı psixo-emosional duyğuları yaşaması onun beyninin süzgəcindən gələn kəlmələrə, sözsüz ki, təsir edir. Oxşama bitdikdən sonra yenə imamların, peyğəmbərlərin həyatından bəhs edən mərsiyələr deyilir, qadın mollası, yəni ağıçı bu arada müxtəlif hədisləri və dini rəvayətləri nağıl

edir. Sonra gülab paylanır, məclisdə oturanların üzərinə gülab səpilir, fatihə verilir. Başsağlığına gələnlərin çoxu evlərinə gedir, yaxın adamlar, uzaqdan gələn tanış-biliş ehsan süfrəsinə oturur. Ev sahibi ehsan olaraq halva-fətir, şorqoğalı, xurma, çay, küftə-bozbaş və ya qovurma-plov hazırlatdırır. Çalışırlar ki, ehsan kimi bişirilən xörəkdən hər kəs yesin. İnanırlar ki, ehsan yeyənlərdən kiminsə duası ovsanaya düşəcək. Ən duyğusal məqamlardan biri evdəki ağlaşma mərasimi bitəndən sonra qadınların qəbir üstünə getmə adətidir. Bölgədə qadınlar qəbir üstə mərhumun dördündə, yeddisində və qırxında gedirlər. Doğmalarının itkisilə barışa bilməyən adamlar qəbir üstündə üzünü cırır, başını yolur. Onu sakitləşdirmək üçün digər yaxın adamlar əllərindən gələni əsirgəmirlər. Yaşlı, dünyagörmüş qadınlar qəbrin torpağından götürüb itkidən çox üzgün olan doğmaların sinəsinə, kürəyinə sürtürlər, bununla inanırlar ki, torpaq sərinlik gətirəcək. Bu zaman "torpaqdan yaranmışıq, torpağa da getməliyik" kimi öyüd-nəsihət edirlər.

Yas mərasimi zamanı kişilər üçün ayrı mağar qurulur. Bu zaman mağarın ən yuxarı tərəfindən molla üçün yer ayrılır. Məclisin yuxarı başından (əgər mərhum kişidirsə) mərhumun böyüdülmüş şəkli asılır. Molla rozə deyir, mərsiyə deyir. İmamların müsibətindən danışır, imam Hüseyn rozəsini oxşama şəklində avazla deyir. Axundun dediyinə görə, bölgənin yas mərasimlərində icra olunan qadınların uca səslə ağlaşması, qadın məclisində ortalığa mərhumun şəklinin və paltarlarının gətirilməsi, qadınların üzünü cırması, başını yolması kimi hərəkətlər şəriətə görə yasaqdır. Sadalanan bu adətlər ürfi adətlərdir.

Bölgədə yası düşən adamlar bir il toya, şənliyə getməzlər, əyinlərinə qara geyərlər. Dünyasını dəyişən adamın qırxını və ilini qeyd edirlər. Mərhumun ili çıxanadək gələn bayramlar (Novruz, Ramazan, Qurban bayramları) qara bayram kimi qeyd olunur. Qara bayram günlərində qohum-qonşular mərhumun evinə yığışır, həmin günlərdə ehsan süfrəsi verilir. Rəhmətə gedənin adına Quran xətm olunur, qəbri ziyarət olunur. Qara bay-

ram günlərində qohumları mərhumu yad etmək üçün qəbri üstə gedər, evinə gəlib doğmalarına başsağlığı verirlər.

Folklorşünas C.Bəydilinin verdiyi məlumata görə, əski türklər ölümün bir son olmağına, heçliyə dönməyə deyil, ölümdən sonra da həyatın mövcudluğuna və axirətin var olduğuna inanırdılar. Özü də bu inanışın tarixin dərinliklərindən gələn kökü var. Yaxşı adamların ruhunun göylərə yüksəldiyinə dair etiqad da var ki, daha qədimdir. Ölənlərin ruhları bu dünya ilə bağlılıqlarını qoruyurdular. M.Kaşqari ruhların ildə bir dəfə gecələr sağ ikən yaşadıqları yerlərə gəlib xalqa baş çəkdiklərini yazırdı. Ölənlərin ruhlarının bu dünya ilə bağlılıqlarını qoruduqları inamı Azərbaycanın bəzi yörələrindəki ruh (ruf) ölçmə inamında da yaşamaqdadır (47, 296). Bizim araşdırdığımız bölgədə də **ruf (ruh) tutma inancı** vardır. İnanca görə, əgər birini, xüsusən az yaşlı uşaqları axşam tərəfi qızdırma tutursa, uşaq halsız olursa, yaşlılar deyir ki, ruf tutub. Bunu öyrənmək üçün ruf ölçən xüsusi adamlar olur. Bu qabiliyyət, adətən, nəsildən-nəslə ötürülür. Ruf ölçmək üçün içi su ilə dolu qabın üzərinə qaşıq şaquli vəziyyətdə tutulur, xəstələnmiş adamın mənsub olduğu nəsildən və ya ocaqdan rəhmətə getmiş ulu nənəsinin, babasının və ya digər qohumluğu çatan mərhumların adı bir-bir sadalanır, hansında qaşıq tərpənirsə, demək, o adamın ruhu tutub. Sonra ehsan olaraq bişiriləcək xörəyin adı söylənilir. Hansı xörəyin adı çəkiləndə qaşıq tərpənsə, demək, o yeməyi bişirmək lazımdır. Həmin mərhumun adına ehsan bişirilir, qohum-qonşuya paylanılır. İnanılır ki, xəstələnmiş, ruf tutmuş adam sağalacaq (49).

### 3.1.4. Dini bayramlar

Bütün respublikada olduğu kimi, bu regionda da Ramazan ayında bir ay oruc tutulur. İnsanlar məscidlərə gedir, məsciddə və ya evlərində "oruc açdı" süfrəsi verirlər. Bir ayın sonunda **Ramazan bayramı** qeyd olunur. Bayram münasibətilə hər kəs evində bayram süfrəsi açır. Doğmalar, qohumlar, qonşular – hamı bir-birini təbrik edir. Dünyasını dəyişən insanların qəbri ziyarət olunur, ili çıxmayanlar üçün qara bayram süfrəsi açılır. Tanıyan-bilən, hamı qara bayram münasibətilə mərhumun evinə gəlir, ölənə rəhmət di-

ləyirlər. Doğmaları tərəfindən rəhmətə gedənlərin adına Quran xətm olunur. Xəstəlik və digər üzrlü səbəbdən oruc tuta bilməyənlər bayram günlərində ailə üzvlərinin sayına uyğun evdən fitrə çıxarırlar.

**Qurban bayramı**nda insanlar iribuynuzlu heyvanlardan qurban kəsirlər. Bunun üçün sürüdən sağlam heyvan seçilməlidir. Qurbanlıq heyvanı kəsdirərkən onun başını kəsəcək bıçaq əvvəlcə mollaya aparılır. Molla həmin bıçağın üzərinə dua oxuyur. Kəsilən qurban ətindən ən azı yeddi qapıya pay göndərilir. Bölgədə insanların çoxu qurbanlıq heyvan kəsilməzdən əvvəl mal sahibilə şərik olurlar. Bu zaman siyahı tutulur, hər kəs istədiyi miqdarda götürəcəyi hissənin pulunu qabaqcadan ödəyir.

Qurban bayramında nişanlı qızlara oğlan evindən qurbanlıq qoç gətirilir. Seçilmiş heyvanın buynuzuna qırmızı ipək bağlanır. Qurbanlıq heyvan qız evində kəsildikdən sonra tən yarısını oğlan evinə yollayırlar. Bu bayramda da gəlin üçün şirniyyatlarla, cürbəcür konfetlərlə, geyim əşyaları ilə bəzədilmiş xonçalar oğlan evindən qız evinə gətirilir.

Qurban bayramı günlərində hər evdə, hər ocaqda qurban əti bişirilir.

### 3.1.5. Məhərrəmlik

Bölgədə geniş qeyd olunan mərasimlərdən biri **Məhərrəm ayı**nda keçirilən adətlərdir. Buranın əhalisi şiə təriqətinə mənsub olduğuna görə ərazidə Məhərrəmlik ayı çox ağır ay hesab edilir. Məlumdur ki, Məhərrəmlik ayı ilə bağlı icra olunan mərasimlər Kərbəlada baş verən hadisələrlə əlaqəlidir. Folklorşünas F.Bayat “Kərbəla folkloru” kitabında Məhərrəmlik rituallarından geniş bəhs etmiş, ən maraqlı məqamlara toxunmuşdur. “Kərbəla hadisəsi humanist İslamın qanlı tarixidir. Həm də elə bir tarixidir ki, dinin bağrında sağalmayacaq yara açmış, İslam aləmini ikiyə bölmüşdür: bir tərəfdə əzilənlər, haqqı, ədaləti, qardaşlığı, sevgini simvollaşdıranlar; digər tərəfdə əzənlər, ədalətsizlər, dini şəkil kimi qəbul edənlər, cahillər, hər kəsə kölə gözü ilə baxanları təmsil edənlər. Konkret olaraq birinci tərəfdə Əhli-beyt, Hz. Əli və onun şiəsi, ikinci tərəfdə isə Bəni Ümeyya və sonradan onları iz-

ləyən Abbasilər sülaləsi dururdu" (46, 10). Qeyd edək ki, Məhərrəmlik ayında bölgədə elçilik, toy, nişan, qonaqlıq, şadlıq məclisləri keçirmək yasaqdır. İnsanlar məscidlərdə, evlərdə yığışaraq imamlar üçün təziyə saxlayır, Qurandan ayələr oxunur, imamların həyatından bəhs edən mərsiyələr söylənir, ehsan süfrələri verirlər. Aşura günü imamların din yolunda şəhid olduğu gündür. Buna görə həmin gün heç kəs evində təmizlik işləri görmür, paltar yumur, hamamlanmır. Məhərrəm ayında Salyanda bəzi evlərdə teşt qurulur, ələm qoyulurmuş. Salyanda yaşayan Şanisə Cəfərovanın dediyinə görə, Aşura günündə hədik və yağlı fətir bişirilir, imam yolunda ehsan verilirmiş. Ötən əsrin ortalarında, təxminən 1960-80-ci illərdə bu ərazinin məscidlərində və kəndlərdə Məhərrəmlik ayı müddətində ələm gəzdirmək adəti olmuşdur. Ələm gəzdirənlər özlərini seyid adlandırır, əsasən başqa yerlərdən bu kəndlərə gəlir, əllərində ələm qapı-qapı gəzərək nəziri olanlardan imam yolunda pul, xələt yığırdılar. Hal-hazırda Xol zonası kəndlərində məscidlərdə yenə ələm hündür bir yerdə qoyulur, arzusu, niyyəti yerinə yetənlər ələmə xələt bağlayır. Lakin ələm gəzdirmək adəti bir neçə müddətdir ki, sıradan çıxıb.

Bölgədə yaşayan insanların çoxu Məhərrəmlik ayı ərzində imam ehsanı verir. İmam ehsanını məscidlərdə və evlərdə verirlər. Yaxınlıqda məscid olmayan yerlərdə kənd adamlarından birinin evinə yığışır, on gün imamlar üçün matəm saxlayırlar. Matəm saxlanılan evdə molla oturdulur, imamların vaqeəsindən söhbətlər edilir, mərsiyələr deyilir. Yaşlı adamların dediyinə görə, əvvəllər məscidlərdə matəm günlərində ağlaşmadan sonra hamıya şərbət paylanırmış. Şərbəti alıb içən adam belə deyirmiş: "nuşi imamə, yezidə nəhlət". Bu məclislərə seyidlər, dindarlar və sıravi adamlar çağırılır. Düşünülür ki, ehsan süfrəsindən yeyən adamların duası ev sahibi üçün ovsanaya düşür.

Məlumdur ki, Salyanın bəzi kəndlərinin əhalisi sünnü təriqətinə mənsub idilər. Əvvəllər onlar Məhərrəmlik ayında imamlara təziyə saxlamırdılar. 1980-ci illərdən bəri həmin kəndlərin əhalisi imamlar üçün matəm saxlayır, Məhərrəm ayında toy-nişan

etmirlər. Yenikənd orta məktəbinin müəllimi Səlimov Bəyməmmədin dediyinə görə, sünnülər Məhərrəm ayında toy etmələrinin uğursuzluğunu gördükləri üçün sonradan həmin ayı matəm ayı kimi qeyd etməyə başladılar. F.Bayatın yazdığı kimi, "məzhəbindən, tutduğu yoldan asılı olmayaraq, qəlbində iman, könlündə Hz.Peyğəmbər, Əhli-beyt sevgisi olan hər müsəlman üçün Kərbəla bir müsibət yeri, Məhərrəmlik ağır yas günüdür" (46, 231).

### 3.2.Bölgənin mövsüm mərasimləri: Novruz bayramı

Novruz bayramı xalqımızın çox qədim zamanlardan icra etdiyi mövsüm mərasimlərindəndir. Bayramın çox əski kökləri vardır. Bir çox alimlər bayramı həm mərasim, həm ritual baxımından araşdırmış, müxtəlif fikirlər söyləmişlər. Folklorşünas A.Xəlil yazır: "Əgər biz Novruza ritual, mərasim və bayram kimi diaxron sırada və ya sinxron cərgədə baxsaq, o zaman bu terminoloji tavtologiya kimi qəbul edilməməlidir. Çünki bunların hər birinin məsələnin bir tərəfini izah etməyə kömək edən məna çaları vardır. Novruz tərkib elementləri etibarilə arxaik ritualdır, mövsüm mərasimidir, təqvim bayramıdır və ya milli bayramdır" (67, 62). Neftçala-Salyan bölgəsində mövsümlə bağlı qeyd olunan mərasimlər özünəməxsusluğu ilə seçilir. Burada Novruz bayramı ilə, İlaxır çərşənbələrlə bağlı qeyd olunan mərasimlər bu baxımdan səciyyəvidir.

Azərbaycanın elə bir regionu yoxdur ki, orada Novruz bayramı təntənə ilə qarşılanmasın. Bayrama hazırlıq bir ay əvvəldən – el arasında "Boz ay" kimi tanınan zamandan başlayır. Ev-eşik, həyət-baca təmizlənir, palaz-xalça havaya verilir, evlər, hasarlar, bağça-bağlar, ağacların gövdələri əhənglə ağardılır, hər tərəfdə təmizlik işləri görülür.

Bayramdan əvvəlki dörd çərşənbə axşamı – İlaxır çərşənbələr qeyd olunur: su, od, yel, torpaq çərşənbələri. Hər çərşənbə axşamı hamı bir yerə yığışır, tonqal qalayır, lopa düzəldirlər (lopa – möhkəm məftilin bir ucuna köhnə əski parçalar sarınır, neft vurularaq yandırılır). Uşaqlar lopanı daha çox hündürlüyə atmaq üçün öz aralarında yarışırlar. Bəzən yararsız hala düşmüş avtomobil təkərlərini də tonqal əvəzi yandıraraq ətrafına topla-

şırlar. Hamı tonqalın üstündən atılır, bölgənin bəzi kəndlərində tonqala "atdanbıcı" deyirlər. Novruz tonqalının, yəni atdanbıcının üstündən atılanda ona müraciətlə

"Atdanbıcı, yağlıbıcı,
Ağırlığım, uğurluğum
Səndə yansın, kül olsun"–

deyirlər. Torpaq çərşənbəsi o biri çərşənbələrə nisbətən daha təmtəraqla qeyd olunur. Yenə hər həyətdə, hər qapıda tonqal qalanır. Qeyd edək ki, bəzi bölgələrdə Novruz tonqalları yandırılmır. Məsələn, Folklor İnstitutunun əməkdaşı X.Məmmədovanın verdiyi məlumata görə, Qubanın bəzi kəndlərində bayram axşamında tonqal əvəzinə qeyil yandırılır. Evdəki adamların sayı qədər (zoğal və ya alma ağacından kəsilmiş çubuqlara qeyil deyirlər) qeyilləri torpağa basdırır, uclarına əski-üskü sarıyaraq yandırırlar. Bu, bayramın təntənəsini bir az da artırır*.

İlaxır çərşənbə günü sübh tezdən axar suyun üstünə gedib su gətirilir, ev-eşiyə, həyət-bacaya həmin sudan səpilir. Bu su müqəddəs sayılır. İlaxır çərşənbədə cavanlar qohum-qonşuya qurşaq atır (bölgədə "papaq atmaq ifadəsinin əvəzinə "qurşaq atmaq" işlədilir), qız-gəlinlər niyyət edib qulaq falına, qapıpusduya gedirlər. Həmin axşam hər kəs evdə xoş söz danışmalıdır ki, qulaqasdıya gələnlər yaxşı söz eşitsin.

İlin axır çərşənbəsində subay qızlar il ərzində ərə gedib-getməyəcəklərini öyrənmək məqsədilə fal açdırırlar. Məsələn, niyyət edib təndirin külbəsinə (təndirin aşağı hissəsində havanın sirkulyasiyası üçün qoyulan nəfəslik) bir yumurta ilə birgə qırmızı və qara rəngli karandaş qoyurlar. Səhər tezdən gedib yumurtaya baxırlar. Əgər yumurtanın üstünə qırmızı iz düşübsə, demək, həmin qızın bəxti açılacaq, tezliklə ərə gedib xoşbəxt olacaq. Ancaq yumurtanın üstünə qara xətt düşübsə, bu, uğursuzluğa işarədir. İlaxır çərşənbədə icra edilən başqa bir falda isə subay qızlar aşamdan duzlu kökə yeyib yatırlar ki, gecə yarısı susasınlar.

-----------------------------

*Qeyd: Məlumatı Folklor İnstitutunun əməkdaşı X.Məmmədova şifahi şəkildə vermişdir.

Yatarkən yaxınlıqda bir fincan su da qoyurlar. Gecə yarı möhkəm susuzlayan qız fincandakı suyun üstündə hansı oğlanın şəklini görürsə, ona da ərə gedəcək. Yaxud su ilə dolu kasanın içərisinə bir ucu sapa bağlanmış nişan üzüyünü yaxınlaşdıraraq necə hərəkət etməsinə baxırlar. Üzük fırlanıb kasaya dəyib səs çıxardıqca qızlar sayır: bir, iki, üç......on yeddi, on səkkiz, on doqquz, iyirmi......və s. Falına baxılan qızın hansı yaşda ərə gedəcəyini belə təyin edirlər.

Novruz bayramının özəlliklərindən biri də budur ki, bayram axşamı hər evdə, hər ocaqda rəhmətə getmişlər yad olunur. Həmin gün hamı doğmalarının qəbri üstə səməni aparır, Yasin oxutdurur, şam yandırır.

Dünyasını son bir il ərzində dəyişənlərin evinə, ocağına bütün kənd axışır, “qara bayram” münasibətilə başsağlığı verilir. Ev sahibi mərhumun adına “qara bayram” süfrəsi açır. Süfrəyə halva, şorqoğalı, şəkərbura, paxlava, xurma düzülür. Başsağlığı verməyə gələnlər bir stəkan çay içib ayağa qalxır, üzü axşama bayramı öz ocağında qeyd etmək üçün evə tələsirlər. Ərazidə belə bir inam mövcuddur ki, hər kəs Novruz bayramını evində keçirməsə, yeddi il ard-arda bayramı doğmalarından, öz ocağından uzaqda qarşılayar. Ona görə də hamı bayramı öz evində keçirmək istəyir.

Novruz həm də təbiətin dirçəlməsi deməkdir. Elə buna görə torpağın oyanması, yaradılışın rəmzi olaraq hər evdə səməni göyərdilir. Səmənini əzizləyən uşaqlar:

“Səməni, saxla məni,
İldə göyərdərəm səni”

Və yaxud:

Səməni, sazana gəlmişəm,
Uzana-uzana gəlmişəm”
-deyə oxuyurlar.

Bölgədə bayram ərəfəsində göyərdilmiş səmənidən halva bişirirlər. Səməni halvasının bişirilmə qaydası belədir: buğda arıtlanır, üç gün islaqda qoyulur, sonra torbaya tökülərək üç gün saxlanılır. Tişərmiş (yəni – cücərmiş) buğdanı təmiz taxtanın üs-

tünə sərib, göyərdirlər. Barmaq uzunluğunda qalxandan sonra doğrayır, iri mis teştin içində çəngələyib daşla əzir, təmiz su ilə yuyub cunadan süzürlər. Bu proses üç dəfə təkrarlanır. Sonra süzgəcdən keçirilmiş səməni suyuna un qatıb horra kimi qarışdırır və ərsinlə o üz-bu üzə çevirərək qatılaşana qədər bişirirlər. Söyləyicilərin verdiyi məlumata görə, səməni halvasına bu yerlərdə İsfahan halvası da deyirlər. Belə inam var ki, bu halvanı bişirən adam təmiz, saf niyyətli olmalıdır, yoxsa halva hər adamın əlində hasil olmur. Bəzən səməni halvasını bişirən adam niyyət edir. Ürəyindəki arzunun gerçəkləşməsini halvanın alınıb-alınmayacağı ilə əlaqələndirirlər. Qeyd edək ki, son zamanlar səməni halvası bu bölgənin Novruz süfrələrində nadir hallarda görünür.

Yaşlı nəslin dediyinə görə, əvvəllər Novruz bayramı günlərində Kosanın, Keçəlin oyunları, onların çıxardığı hoqqalar kənd camaatının əylənməsi üçün gözəl vasitə idi. Onlar öz aralarında kiçik səhnəcik tipli dialoqlar qurur, əylənmək üçün maraqlı oyunlar göstərirdilər.

Keçəlin pinti başı,
Eşşəyə mindi başı.
O tayda dava düşdü,
Bu tayda sındı başı.
Kosam getdi Meşkinə,
Vədə verdi beş günə.
Gəlmədi on beş günə.
Kosanı öldürdülər,
Atdılar it yeşiyinə.

Vay... Kosa öldü.
– Kosa nə issiyir?
– Pissi.*
– Dal...nan çıxsın tüssi.
– Kosa nə issiyir?
– Qakka.
– Əyağında falakka.
– Kosa nə issiyir?
– Əpbəy.**

Kosaya pay verirlər, Kosa ayağa durur (10, 3-4).

Bayram axşamlarında bəzən qadınlar da kişi paltarı geyinir, özlərini Kosaya bənzədərək yalançı saqqal-bığ qoyur, qonşuların, tanışların evinə gəlib oxuyurmuşlar:

-----------------------------
*pissi – pul
**əpbəy – çörək

A xala-xala, dursana,
Xonçanı doldursana,
Allah baluu (balanı) saxlasın,
Kosanın payın versənə (49).

Ev sahibi noğuldan-nabatdan, şirnidən bir boğça düzəldib qapıya gələni əliboş qaytarmazmış. Söyləyicilərin dediyinə görə, keçən əsrin 50-60-cı illərində bölgənin bayram axşamında tonqal üstündən atılanda aşağıdakı parçanı deyirmişlər:

Ağırlığım-uğurluğum
Yer götürsün,
Göy götürsün.
Ruzumu Allah yetirsin (49).

Müasir günümüzdə bayram axşamlarında Novruz tonqalının üzərindən atılarkən bu sözlər deyilmir, əvəzində

Ağırlığım, uğurluğum
Odda yansın, kül olsun.

və ya

Ağırlığım, uğurluğum
Qoy bu oda tökülsün,–
deyirlər.

Bayramda hər evdə xonça düzəldilir. Əvvəllər xonçaya qoz, fındıq, noğul, kişmiş, badam, püstə qoyulurdu. Bugünkü Novruz süfrələrini sadalananlarla birgə şəkərbura, paxlava, şorqoğalı və s. şirniyyatlar bəzəyir. Yaşlıların dediyinə görə, əvvəllər bayramda şəkərbura, paxlava və bu kimi bişmişlər bişirilməzdi, əvəzində fəsəli, fətir bişirir, buğdadan şirin qovurğa qovurur, bayram süfrəsi üçün mütəlcəm (şirin qovurma) plov hazırlayırmışlar.

Şorsulu kənd sakini Pakizə Quliyevanın dediyinə görə, bayram vaxtı qız-gəlinlər yığışaraq aşağıdakı mahnını oxuyurmuşlar:

A şanı, şanı,
Dağlar aşanı,
Yar bizə gələcəy
Bayramlaşanı.

Bir öy tikdirmişəm
Tamam ağuşkə.
Bir oğlan issərəm
Bığı bənööşə.

* * *

Bir öy tikdirmişəm — A şanı, şanı,
Tamam pıxarı. — Dağlar aşanı,
Bir oğlan issərəm — Yar bizə gələcəy
Bığı yuxarı. — Bayramlaşanı (49).

Bayram xonçasının ətrafında evdəki adamların sayına bərabər şam yandırılır. Xonçaya bişirilmiş rəngli yumurtalar qoyulur. Bayram günlərində yumurta döyüşdürmək adəti geniş yayılıb. Uduzan şəxs yumurtanı udana verməlidir. Bayramda uşaqlar və yeniyetmə oğlanlar başlarına qalın kağızdan hazırlanmış ucu şiş papaq qoyur, özlərini Kosaya bənzədərək qapı-qapı gəzib ev sahiblərindən yumurta yığırlar. Əvvəllər qapı-qapı gəzib yumurta yığan uşaqlar belə bir mahnı da oxuyurmuşlar:

Çin gəldi, gəldi, gəldi,
Novruz bayramı gəldi.
Xanım dursun əyağa,
Beş-beş yumurta versin.
Yumurtası olmasa,
Toyuğun falasın* versin (10, 4).

Bəzi bölgələrdə Kosalar tək Novruzda yox, Qurban bayramında da qapı gəzirlər. Z.Səmədova yazır ki, Zaqatala bölgəsində Novruz bayramı ilə yanaşı, Qurban bayramında da Kosalar evləri gəzirlər. Çox vaxt ev sahibindən yumurta istəyirlər. Əgər birinin onlara verməyə boyanmış yumurtası olmasa, onda onlar səslərini dəyişib belə oxuyurlar:

Allahuküvər yumurta ver,
Verməsən, xalanın qızını ver.

Və yaxud:

Kim yumurta versə, barışaram,
Kim verməsə, küsərəm,
Ona qarğış edərəm (116, 15).

------------------------------
*fala – toyuğun altına qoyulan yumurta

Novruzda nişanlı qızlara bayram xonçası aparmaq adəti bütün Azərbaycanda olduğu kimi, bu bölgədə də vardır. Bayramlıq xonçalarda şirniyyatla yanaşı, nişanlı qız üçün təzə pal-paltar da aparılır.

Novruzda dədə-babadan qalma gözəl adətlər də var ki, bu gün bölgədə həmin adətlər yaşadılır: küsülülər barışır, hamı bir-birinə bayram payı aparır, imkanlılar kasıblara əl tutur ki, bayramda heç kəsin süfrəsi boş qalmasın. Hamı bir-birinin evinə bayramlaşmağa gedir.

Son illər bölgədə Novruz bayramı evlərdə, məktəblərdə, ictimai yerlərdə qeyd olunmaqla yanaşı, bəzi kəndlərdə xüsusi bayram mağarları qurub, orada da yığışır, bayramı qeyd edirlər. Mağarlara yığışanlar evdə bişirilən şirniyyatdan, bayram yeməklərindən bura gətirir, yeyir-içir, çalıb-oynayırlar. Bu, bir daha göstərir ki, bölgədə Novruz bayramı hər zaman olduğu kimi, bu gün də möhtəşəmliyini qoruyub saxlayır.

Novruz bayramından sonrakı dövr bölgənin yaşlı insanları arasında "qırx kötüy" adlandırılır. Rəvayətə görə, qarı Novruz qabağı havalar isti keçdiyindən arxayınlaşıb odunun hamısını yandırır. Bayramın səhəri havalar soyuyur. Qarı evi isitməyə odun tapmır. Qocasını göndərir ki, gedib odun tapsın. Qoca gedib bir kötük tapıb gətirir. Beləliklə, qoca kişi qırx gün evə odun daşımalı olur. Qırx gündən sonra yaz özünü göstərməyə başlayır, havalar isinir. El arasında martın 21-dən aprelin 30-na qədərki dövrə "qırx kötüy" deyilir (49).

Fikrimizcə, yuxarıda sadaladığımız mərasimlər Neftçala-Salyan ərazisinin mərasim folklorunu əks etdirmə baxımından müəyyən qədər təsəvvür yaradır. Yaddan çıxmış, unudulmaqda olan bir çox mərasimlərin icrası ilə bağlı ənənəvi ünsürlərin vaxtında toplanması və araşdırılması çağdaş günümüzdə çox gərəkli və vacib işdir. Qloballaşan dünyada bir çox milli-mənəvi dəyərlərimizin itirilməməsi üçün folklora söykənən mərasimlərimizi qorumaq və yaşatmaq zəruridir.

# IV FƏSIL

# EPİK FOLKLOR ÖRNƏKLƏRİ. UŞAQ FOLKLORU. AŞIQ SƏNƏTİ

## 4.1. Epik folklor örnəkləri

### 4.1.1.Dastanlar

Dastanlar epik folklorun iri həcmli janrlarından biridir. "Azərbaycan folklorunda "dastan" anlayışı aşıq yaradıcılığının məhsulu olan epik-lirik əsərləri ehtiva edir. Şeirlə nəsrin növbələşməsi prinsipinə əsaslanan dastanların süjeti təhkiyə şəklində söylənilir. Aşıqlar bunu dastanın yurdu adlandırırlar. Qəhrəmanların lirik duyğulanmaları, iztirab və həyəcanları, kədər və sevincləri, həsrət və nisgilləri, deyişmə və bağlaşmaları isə aşıq şeirləri ilə verilir" (122, 225). Bu gün Neftçala-Salyan ərazisində geniş şəkildə nə dastan söyləyən aşığa, nə də dastana qulaq asan auditoriyaya rast gəlməsək də, bəzi yaşlı söyləyicilərin yaddaşına dastan mətnləri həkk olunmuşdur. Söyləyicilərin dediyinə görə, ərazinin toylarını ötən əsrin 80-ci illərinə qədər aşıqsız, çal-çağırsız, dastansız təsəvvür etmək olmazdı. Əldə etdiyimiz dastanları, əsasən, Neftçalanın Bankə qəsəbəsində yaşayan Aşıq Əvəzin repertuarından qeydə aldıq. Bunlardan "Zəncanlı Qurbani", "Aşıq Valehlə Zərnigarın dastanı", "Dəvə dərisinə girmiş şahzadə Bəhramın dastanı", "Abbas və Gülgəzin dastanı", "Mənsum və Diləfruzun dastanı". Bununla yanaşı, bölgədən həm də aşıq olmayan, adi söyləyicilərin yaddaşından "Koroğlu" dastanını, "Əsli və Kərəmin dastanı", "Aşıq Qəribin dastanı", "Alı xan və Pəri xanımın dastanı", "Əsmərlə Qənbərin dastanı"nı əldə edə bildik. Ümumilikdə ondan çox dastan yazıya aldıq. Təəssüflə qeyd etməliyik ki, bölgədə aşıq yaradıcılığı və dastan söyləmək ənənəsi tamamilə unudulmaqdadır. Biz 2012-ci ilin yayında Aşıq Əvəzlə görüşdük və aşığın repertuarı ilə maraqlandıq. O, dediyi dastanları ustadı Aşıq Pənahdan öyrəndiyini, vaxtilə Pənahla toylara get-

diyini, günorta saat ikidən beşədək dastanları ifa etməyi ustadının ona həvalə etdiyini söylədi. Aşıq hazırda bölgədə aşıq sənətinə qarşı olan laqeydlikdən çox narahat olduğunu göstərdi. Repertuarındakı dastanlara gəlincə, aşığın söylədiyi dastanları digər folklor mətnləri kimi diktafonla yazıya aldıq. Aşıq ifa etdiyi dastanlardan təkcə "Zəncanlı Qurbani"ni ustadnamə ilə başladı. Söylədiyi digər dastanlarda birbaş mətni ifa edirdi. Bütün dastanları əvvəlcə həvəslə söyləməyə başlayan aşıq hadisələri kulminasiya nöqtəsində yarımçıq buraxır, nədənsə dastanı tez bitirməyə çalışırdı. Demək olar ki, dastanların hamısında bu natamamlıq aşkar duyulur. Bunun səbəbini soruşanda aşıq həmin dastanı nağıl etmək üçün böyük vaxt lazım olmasını səbəb gətirirdi. Gəldiyimiz qənaətə görə, aşıq uzun illərdir ki, bu dastanları ifa etmədiyindən onların bütöv mətnini tam xatırlaya bilmir. Söhbət əsnasında o, özü də qeyd etdi ki, iyirmi ildir, dastanları ifa etmir, əslində dastanlara bu illər ərzində qulaq asmaq istəyən olmayıb. Aşıq ehtimal ki, yaşlı olduğundan, yaddaşının zəifləməsi səbəbindən dastanların süjet xəttini unutmuşdur. Buna görə o, söylədiyi dastanların əvvəlini yaxşı başlasa da, sonrakı hadisələri dəqiq xatırlaya bilmir, nəticədə mətni tez-tələsik bitirirdi.

Aşığın söylədiyi "Zəncanlı Qurbani" dastanı beşcildli "Azərbaycan dastanları" kitabında nəşr olunmuş "Qurbani" dastanının Diri versiyasına (6, 97) qismən uyğun gəlir. Aşıq Əvəzin dastanın əvvəlində dediyi ustadnamələrə kitabda rast gəlmədik.

Nadan məclisində, naşı yanında,
Ləl xırdala, gohəri seç, nə bilər?!
Bir damlanı sel anlayan nadana
Bütün dərya ümmanı keç, nə bilər?!

Axtarsan da, yerin yeddi qatını,
Hər kəs göstərəcək öz isbatını.
Namərdə bağışlaginan köhlən atını,
Yolunda sən canunnan keç, nə bilər?!

Özünü böyüdüb dağ edənnərin,
Şorunu əridib yağ edənnərin,
Gözəl-gözəl ustaddarın kəlamın ağ edənnərin
Xəznədar ol, xəznəni ver, nə bilər?! (49)

Aşığın repertuarında əsasən məhəbbət dastanları genişdir. Buradakı qəhrəmanların demək olar ki, bir çoxu Həzrəti-Əlinin əlindən badə alıb içiblər. Ümumiyyətlə, Aşıq Əvəzin söylədiyi dastanlarda dini motiv və epizodlar üstünlük təşkil edirdi. Aşıq dastanların arasında ayrı-ayrı aşıqların yaradıcılığından da dini mövzulu nümunələr, qıfılbəndlər söyləyirdi. Misal üçün:

Ustaddan dərs alan heç olmaz naşı,
Əzəl bu dünyaya kim gəldi qarşı?
Ərşidəki xoruzun neçədi yaşı?
Sərində ciqası nə rəngdə iydi?

Ustaddan dərs alan heç olmur naşı,
Əmr Əntər gəldi meydanə qarşı.
Ərşin xoruzunun ağ rəngi vardı,
Səksən min il onun tarixi vardı (49).

Aşıq başqa bir nümunədə İslam dininin müqəddəs kitabı olan "Quran" və onun ayələri haqqında söhbət açır:

Bir gülşəndə gördüm beş qönçə xəndan,
On iki qızılgül, on dördü reyhan.
Bir çeşməsin gördüm nuri-əla,
Yüz iyirmi dörd min onun süd camı vardı.

Bir məscidin gördüm əcəb mötəbər,
Altı min altı yüz altmış altı dər,
Altmış pəncərə, yüz on dörd minbər,
Otuz sütun üstə dabanı vardı.

Altı min altı yüz altmış altı gül,
Yüz on dörd surədi qurban, ya bülbül.
Onun altmışı nisbidi, otuz cüti müttəsil,
Doxsan min kəlmədə tamamı vardı (49).

Aşıq söhbət əsnasında, dastanların arasında Məhəmməd peyğəmbərin həyatından bəhs edən rəvayətlər danışır, klassik ədəbiyyatımızdan M.Füzulinin, Ş.İ.Xətainin, C.Ruminin yaradıcılığına ara-sıra müraciət edirdi.

Bölgə ərazisində adi söyləyicilərin də repertuarında dastanlara rast gəlmək mümkündür. Belə ki, söyləyicilərdən ikisi "Koroğlu" dastanından parçalar söylədi.

Onlar Neftçala rayonunun Qaçaqkənd sakini 1930-cu il təvəllüdlü Orucov Alşan Qədir oğlu və Xolqarabucaq kənd sakini 1930-cu il təvəllüdlü Əsədov Məmmədqulu Dadaş oğlu idi.

Bölgədən əldə etdiyimiz iki dastanı isə 1888-ci il təvəllüdlü Muradov Şirməmməd İbrahim oğlundan (1983-cü ildə dünyasını dəyişib) nəvələri 1980-ci ildə qeydə alıb, babalarının səsi xatirə qalsın deyə maqnitofon kasetinin yaddaşına köçürüblər. Həmin dastanlar "Əsli və Kərəmin dastanı" və "Aşıq Qəribin dastanı"dır. Mətnlər söyləyici tərəfindən avazla ifa olunub. Biz bu dastanları söyləyicinin nəvəsi Muradov Muradın ailə arxivindən əldə etdik.

Ümumiyyətlə, dastanlara əsasən kişi söyləyicilərin repertuarında rast gəlirdik, lakin iki qadın söyləyicidən də dastan qeydə almışıq. Həmin söyləyicilərdən biri 1932-ci il təvəllüdlü Məcidova Pistəxanım İsrafil qızı, digəri 1935-ci il təvəllüdlü Abdullayeva Bəsti Heydər qızıdır. Neftçala rayonunun Qaçaqkənd kəndində yaşayan Məcidova Pistəxanımın repertuarından "Aşıq Qərib"in dastanını yazıya aldıq. Söyləyici Abdullayeva Bəsti isə əslən Vedi rayonunun Kolanı kəndindəndir. 1950-ci ilin aprelində digər həmyerliləri ilə birlikdə Salyan rayonunun Şorsulu kəndinə köçürülən Bəsti Abdullayeva bizim üçün "Alı xanla Pəri xanımın dastanı"nı danışdı. Söyləyici dastanda Pəri xanımla qardaşının deyişmələrini və digər hissələri xüsusi həvəslə nağıl edirdi.

Qeyd edək ki, bölgədə dastan danışan söyləyicilər onu çox zaman nağıl adlandırırlar. Bu barədə "Azərbaycan dastanları" kitabında da qeyd olunur. "Dastan qoşan və məclislərdə dastan ifa edən aşıqlarımızın özləri, eləcə də onlara qulaq asan əhali

çox zaman dastana sadəcə “nağıl” demiş, bir sıra rayonlarımızda isə hələ indi də belə deyilməkdədir” (71, 9).

Doğrudan da, istər aşıq Əvəzin, istərsə də digər dastan söyləyicilərinin dastanı nağıl kimi təqdim etməsi faktı ilə biz də qarşılaşdıq.

### 4.1.2.Nağıllar

Nağıllar epik folklorun ən qədim janrlarından biri olmaqla insanların dünyagörüşünü, həyat və məişət tərzini, adət və ənənələrini əks etdirmək baxımından çox dəyərlidir. Bu mənada sözügedən bölgənin nağılları ümumtürk təfəkkürünün məhsulu kimi dəyərli olması ilə yanaşı, həm də buranın insanlarının düşüncə və həyat tərzini əks etdirir.

Biz Neftçala-Salyan bölgəsindən təxminən əllidən yuxarı nağıl mətni əldə etdik. Nağılları əsasən, Salyanın Aşağı Xələc – Yenikənd, Şorsulu, Borankənd kəndlərindən, Neftçalanın Xolqarabucaq, Xolqaraqaşlı, Qaçaqkənd, Qırmızıkənd kəndlərində yaşayan söyləyicilərdən toplamışıq. Toplanılmış materiallara baxdığımızda məlum oldu ki, bu nağılların arasında fərqli variantlar, yeni nağıl qəhrəmanları, maraqlı nağıl süjetləri vardır. Bu bölgədə nağılların çeşidli növ və qrupları ilə rastlaşmaq mümkündür. Buradan toplanılmış sehrli nağıllara “Pərəqulağın nağılı”nı (T.R.301), “Məlikməmmədin nağılı”nı (T.R.400+T.R.400*B+T.R.402+T.R.449), “Əlimərdanın nağılı”nı (T.R. 285D), “Armudxan xanla tülkünün nağılı”nı (T.R. 545B), “Səbir daşının nağılı”nı (T.R. 437) və s.; məişət mövzulu nağıllara “İsgəndər şahın nağılı” (T.R. 806*), “Şah Abbasın anasının nağılı”nı, “Ahu balanın nağılı”, “Qisas” (T.R. 960), “Dərzi qızının nağılı” (T.R. 879), “Sədaqətli dostların nağılı”, “Löhlöhün nağılı” (T.R. 1398*), “Çoxdanışan arvadla ilanın nağılı” (T.R. 1164), “Birə dərmanı satan oğlanın nağılı” və s.; dini mövzulu nağıllara “Ovsanaya düşən tikə” (T.R. 760**), “Abidin səhvi” (T.R. 751), “Yazıya pozu yoxdur” (T.R. 930); heyvanlar haqqında nağıllara “Fərə bacının nağılı” (T.R. 56A), “Şəngülüm, Şüngülüm və Süpürkəgülümün nağılı” (T.R. 123), “Tülkü ilə canavarın nağılı”nı və s. nümunə göstərə bilərik (Qeyd: Adlarını

örnək göstərdiyimiz nağılların beynəlxalq süjet göstəricisindəki nömrələrini mötərizə içərisində verdik).

Bölgədə yayğın olan "Pərəqulağın nağılı" məşhur "Məlikməmməd nağılı"nın fərqli variantıdır. Bu nağılı Neftçalanın Xolqarabucaq kəndində yaşayan 1930-cu il təvəllüdlü Əsədov Məmmədqulu Dadaş oğlundan qeydə aldıq. Söyləyici nağılı mərhum anasından uşaq yaşlarında olarkən eşitdiyini dedi. Nağılın süjet xətti maraq doğurduğu üçün onun məzmununu burada verməyi məqsədəuyğun sayırıq: "Məlikməmməd, Məlikəhməd və Pərəqulaq – üç qardaş olur. Ataları rəhmətə gedəndə onlara vəsiyyət edir ki, uzaq eldə bir dev var, onun mənə 600 manat borcu var, gedib onu alarsınız. Atalarını dəfn eləyəndən sonra böyük qardaş Məlikməmməd devin yaşadığı elə yola düşür. Devin bir qızı varmış, atasına deyir ki, ata, bir qaraltı gəlir, çox ağır-ağır, yavaş-yavaş. Dev soruşur, suyu nətəhər içər? Qız deyir, piləyə-piləyə. Dev yenə soruşur, çörəyi nətəhər yeyər? Qız deyir, ağır-ağır. Məlikməmməd gəlir çıxır, dev öz bığından üç tük çəkir, onu yuxarıdan asır. Sonra ikinci qardaş gəlir, dev bunu da eyni qayda ilə asır. Qardaşlarının qayıtmadığını görən Pərəqulaq devin yanına gəlir. O, əlində sac, kürək, kibrit götürür, qızıl xoruzun belinə minib yola düşür. Devin qızı Pərəqulağın gəlişini qeyri-adi formada təsvir edir, deyir ki, bir qaraltı gəlir, yeri-göyü bir-birinə qatıb, hər tərəfi toz-torpağa qərq edib. Bunu eşidən dev qorxusundan qaçıb samanlıqda gizlənir. Pərəqulaq devin yerini soruşanda qızı deməmək istəmir. O, qızı qorxudur ki, səni isti sacın üstündə yandıraram. Qız qorxduğu üçün atasının yerini deyir. Pərəqulaq samanlığı kibritlə yandırır, dev yanaraq ölür. Pərəqulaq qardaşlarını xilas edir, devin bütün var-dövlətini, mal-qarasını və qızını götürür, öz vətəninə geri qayıdır. Yolda mal-qaranı suvarmaq məqsədilə bir quyunun yanında dayanırlar. Quyu çox dərin olur. Pərəqulaq belinə kəndir bağlayıb quyuya enir, oradan yuxarıya su ötürür, qardaşları da mal-heyvanı suvarır. Axırda Pərəqulağın belinə bağlanmış kəndiri kəsib, onu quyunun dibində qoyub oradan uzaqlaşırlar. Qardaşları düşünür ki,

əgər Pərəqulağı quyudan çıxarsalar, mal-dövlət, heyvan sürüsü, devin qızı – hər şey ona çatacaq. Pərəqulağı quyuda qoyub evlərinə gələn qardaşları analarına devin Pərəqulağı yediyini deyirlər. Sən demə, Pərəqulağın cibində kiçik bir bıçaq varmış. Quyunun içərisində çarəsiz, köməksiz qalan Pərəqulaq yerin altında bıçaqla özünə yeraltı tunel qaza-qaza düz evlərinə qədər yol açır. Evlərinin altındakı mağarada gizlənən Pərəqulaq qardaşlarının yemək yediyi tavanın altını deşir, ordan qidalanırmış. Nağılın sonunda qəhrəman ona xəyanət edən qardaşlarını kəllə-kəlləyə vurub öldürür, bütün mal-dövlətə sahib olur"(49).

Göründüyü kimi, nağıl süjet xəttinə görə, "Məlikməmməd nağılı"na çox yaxındır. Lakin Pərəqulağın devin üzərinə qızıl xoruzun üstündə, əlinə də sac, kürək alaraq getməsi, əlindəki bıçaqla yeraltı tunel qazması, qardaşlarının yediyi yeməyi tavanın dibini deşərək ordan özü üçün yeyəcək əldə etməsi və d. faktlar, bundan başqa, ən əsas məsələ qəhrəmanın adının Pərəqulaq olması və nağılın da eyni adla söyləyicinin özü tərəfindən adlandırılması bu mətnin maraqlı variant olmasını sübut edir. Qeyd edək ki, söyləyici Əsədov Məmmədqulu Dadaş oğlundan ümumilikdə beş nağıl, iyirmidən çox lətifə və rəvayət, bir dastan, xeyli bayatı və aşıq şeiri əldə etdik.

Sehrli nağıllardan "Məlikməmmədin nağılı" da çox maraqlıdır. Nağılı Salyan rayonunun Aşağı Xələc kənd sakini 1930-cu il təvəllüdlü Bəşirov Sabir Şahsuvar oğlundan qeydə aldıq. Bu nağılı söyləyici belə adlandırsa da, süjet xətti indiyədək çap olunmuş "Məlikməmməd" nağılının variantlarından tamamilə fərqlidir. Nağıl dörd süjetin birləşməsindən yaranıb. Bu hal onu göstərir ki, Salyan-Neftçala bölgəsindən toplanmış nağıllarda hələ də maraqlı və zəngin kontaminasiya hadisəsilə qarşılaşmaq mümkündür. Pərilər padşahının qızının gah meymun, gah da quş cildinə düşməsi, uçan xalçanın, gözəgörünməz papağın, sehrli süfrənin nağıl qəhrəmanına yardım etməsi, nağılın içərisində nağıl, fərqli süjetlərin kontaminasiyası bu nağılı digər nağıllardan fərqləndirir. Məlumdur ki, sehrli nağıllarda cild dəyişmə motivi

geniş yayılmışdır. Türk folklorşünası S.Sakaoğlu sehrli nağıllarda və əfsanələrdə şəkildəyişdirmə motivi haqqında yazır: "Bir əfsanədə yer alan canlı və ya cansız ünsürlərin üstün bir güc tərəfindən cəzalandırılması və ya fəlakətdən qurtarılması üçün o andakı şəkillərindən daha fərqli bir şəklə çevrilməsidir. Dəyişikliyin əsas səbəbi cəzadır: fəlakət və ya sonu fəlakətlə bitəcək bir təhlükədən qurtarmadır... (138, 29)".

Nağılın oxşar variantına "Azərbaycan folkloru külliyyatı"nın ikinci cildində rast gəlirik. Həmin kitabda "Tüklücə" (34, 345) adı ilə təqdim olunmuş nağıl bizim topladığımız "Məlikməmmədin nağılı"na uyğun olsa da, onların arasında fərqli məqamlar da vardır. Bunlardan biri bizim topladığımız nağılda pəri qızının meymun formasında olması, "Tüklücə"də isə onun kirpi formasında olmasıdır. Bizim nağılda üç qardaş divlə bağlı, onların sehrli xalçası, sehrli papağı və sehrli süfrəsi olması faktı və Məlikməmmədin onları öldürüb, bu sehrli əşyalar vasitəsilə pərilər padşahının ölkəsinə getməsi və s. məsələlər vardır. Bu məqamlara "Tüklücə" nağılında rast gəlinmir. Bundan başqa, bizim topladığımız nağılda əsas qəhrəmanın adı Məlikməmməddir, "Tüklücə" nağılında isə Məlikcümşüddür. Qeyd edək ki, söyləyici Bəşirov Sabir Şahsuvar oğlundan iki nağıl, dörd rəvayət yazıya aldıq.

Məişət nağılları arasında "İskəndər şahın nağılı" xüsusilə maraqlıdır. Bu nağılı Neftçala rayonunun Qaçaqkənd kəndində yaşamış 1930-cu il təvəllüdlü Orucov Alşan Qədir oğlundan qeydə aldıq. Söyləyicidən ümumilikdə üç nağıl, bir dastan, xeyli sayda atalar sözləri, inanclar və rəvayətlər qeydə aldıq. "İsgəndər şahın nağılı"nın süjet xətti də maraqlı və diqqətçəkəndir. Söyləyici şahın ölməzdən əvvəl etdiyi vəsiyyəti – ölüm səhnəsini, dəfn zamanı cənazənin qəbiristanlığa aparılma qaydasını qeyri-adi formada təsvir edir. "Əvvəlcə qırx qız, başlarında qırx xonça, hamısında qızıl, sonra qırx gəlin, yenə başlarında qırx xonça qızıl, ardınca orta yaşlı üzürübəndli yaşlı qadınlar, bir dəstə var-dövlət, at, kotan, araba. Axırda da bir dəstə molla əllərində Quran oxuya-oxuya məni dəfn eləsinlər" (49). Söyləyicinin aydın və səlis nitqi,

mətndəki hadisələri ardıcıllıqla təsvir etmək qabiliyyəti mətnə canlılıq verirdi. Alşan Orucovdan qeydə aldığımız "İskəndər şahın nağılı" Muğan folkloru kitabında iki ayrı mətn kimi təqdim olunmuşdur. Biri "Dünya çox Süleymanları yola salıb" nağılı (28, 138) kimi, digəri isə "Zülmət daşı" başlığı ilə "Əfsanə və rəvayətlər" bölməsində (28, 104) təqdim olunmuşdur. Bu fakt Neftçaladan toplanılan "İsgəndər şahın nağılı"nda kontaminasiya hadisəsi ilə rastlaşdığımızı göstərir. Bu nağıl Süleyman peyğəmbərlə İskəndərin bir mətndə çıxış etməsi baxımından da diqqətçəkəndir.

Mövzusuna görə məişət nağıllarına yaxın olan "Ahu balanın nağılı"nın maraqlı süjet xətti vardır. Nağılı Neftçala rayonunun Xolqarabucaq kəndində yaşayan 1941-ci il təvəllüdlü Qədirova Əfruzə Əmən qızından qeydə almışıq. Nağıla görə, kənddən meşəyə göbələk yığmağa gedən qızlardan birinə ayı hücum edir. Ayı qızı tutur, kürəyinə atıb qayaların arasındakı mağarasına gətirir və burada saxlayır. Bir müddət keçəndən sonra bu qızın ayıdan bir oğlu dünyaya gəlir. Uşaq yarı insan, yarı ayıya bənzəyir. Uşağı Ahu bala adıyla çağırırlar. Bir gün mağaradan çıxmağı bacaran qız yaxınlıqda qoyun sürüsü görür, boynundakı muncuqları çıxarıb keçinin boynuna salır, bu yolla kənd adamlarına öz yerini nişan verir. Qızının bir neçə il əvvəl ayı tərəfindən oğurlandığını bilən ailəsi və qohumları çobanın köməyilə həmin yerə gəlir. Qızı mağarada tapıb xilas edirlər. Ayıdan doğulmuş Ahu balanı daşlara çırpıb öldürürlər. Sonra qızın qohumları mağaranın yaxınlığında gizlənib ayının qayıtmasını gözləyirlər. Axşam geri qayıdan ayı balasının ölüsünü görüb ağlayır, "ay Ahu bala uuu" deyərək fəryad edir. Bunu görən kənd adamları ayını da öldürüb kəndə qayıdırlar (49). Qeyd edək ki, Qədirova Əfruzə Əmən qızından iki nağıl, altı rəvayət qeydə aldıq.

Heyvanlar haqqında nağıllardan "Şəngülüm, Şüngülüm və Süpürkəgülümün nağılı" (49) məlum nağıl süjetidir. Burada keçinin kiçik balasının adı fərqlidir. Qurd onların evinə girəndə Süpürkəgülüm süpürkənin arxasında gizlənir, ehtimal ki, buna görə onun adı bölgədə bu cür adlandırılır.

Heyvanlar haqqında olan bütün nağıllarda tülkü hiyləgərdir. “Fərə bacının nağılı”nda (49) toyuğun başını aldadıb balalarını yeyən tülkü başqa bir nağılda özündən qat-qat güclü olan canavarı aldadır. Canavara bacıoğlu-dayı olmağı təklif edən tülkü dəfələrlə onun başına oyun açır, nəticədə canavar məhv olur. Tülkü elə bilir ki, daha arxayınlığa çıxacaq. Amma nə qədər hiyləgər olsa da, axırda nehrədən qorxub onu dənizdə batırmaq istəyən tülkünün özü də dənizdə bataraq ölür (10, 22). Bölgədən toplanmış nağılların arasında heyvanlar haqqında nağıllar olduqca azdır.

Qeyd edək ki, bölgəyə kənardan gəlmə nağıl süjetləri də vardır. Bunlardan birini Gülbala Xankişiyev nağıl etdi. Onun dediyinə görə, II Dünya müharibəsindən geri qayıdan atası gələrkən bir yetim qıza rəhmi gələrək özü ilə gətirir. Deyilənlərə görə, qız milliyyətcə tatar imiş. Həmin qızı bir müddət evlərində saxlayandan sonra elin adətilə kənddə ərə də veriblər. Gülbala Xankişiyevin dediyinə görə, “Sıfatnomun nağılı”nı həmin qız danışırmış. Bu nağıl məzmununa görə sehrli nağıldır. Şah oğlanı sevdiyi qızdan ayırmaq üçün gedər-gəlməzə göndərir, deyir ki, “gedərsən ora, bilmərsən hara, gətirərsən onu, bilmərsən neyi”. Oğlan da sevdiyi qızın muradına çatmaqdan ötrü tilsimli qarılarla görüşür, onlardan kömək istəyir, əjdaha qurbağa ilə dostluq edir, sirri öyrənir. Ən sonda odun-alovun içindən o biri dünyaya atılan oğlan gözəgörünməz Sıfatnomu özü ilə götürüb şahın yanına gətirə bilir. Şah görəndə ki, oğlan ona verilən tapşırığın öhdəsindən gəldi, deyir ki, bu qız sənə halaldı, get evlən onunla (49). Ümumilikdə iyirmidən çox lətifə və rəvayət, dörd nağıl danışan Gülbala kişinin özünəməxsus nəqletmə xüsusiyyətləri vardı. Mətndəki dialoqların canlılığı, hadisələrin maraqlı dillə təsviri söyləyicinin nitqinin səlis, hafizəsinin güclü olmasından və repertuarının zənginliyindən xəbər verirdi.

Nağıl danışan söyləyicilərin çoxu danışdıqları mətnləri böyük həvəslə nağıl edirdi. Bəzən onların arasında nağıl formullarından istifadə edərək mətnlərə xüsusi bəzək vuran, mətni obrazlı dillə təsvir edən söyləyicilərə də rast gəlirdik. Bəzən nağılı “biri

var iymiş, biri yox iymiş", bəzən "biri olır, biri olmır", "varıymış, yoxıymış, bi dənə padışah varıymış" formulları ilə başlayan söyləyicilər sonda "göydən yerə üç alma düşdü, biri sənin, biri mənim, biri də nağıldanışanın" sonluq formulu ilə bitirirdilər. Topladığımız nağıllarda medial formullara az rast gəlinir. Bir çox söyləyicilər, ümumiyyətlə, heç bir nağıl formulundan istifadə etmirdi. Bu isə göstərir ki, bölgədə peşəkar nağıl ifaçılığı sıradan çıxmaq üzrədir. Nağılların sonunda bəzi söyləyicilər sonluq formulların əvəzində alqışlardan istifadə edirlər. Onlar öz övladları, nəvə-nəticələri ilə yanaşı, bir çox hallarda bizə, yəni mətni danışdığı auditoriyaya, eləcə də toplayıcının özünə alqışlar edirdilər.

Nağıl danışan söyləyicilər arasında yaşlı kişilərin sayı daha çox idi. Yuxarıda qeyd etdiyimiz kimi, onlar danışdıqları nağılları valideynlərindən, bəziləri isə keçmiş toylara gələn aşıqlardan eşitdiklərini qeyd edirdilər. Bölgədə qadın nağıl söyləyicilərinə də rast gəlinir. Onlardan biri – Ceyran Babayeva danışdığı nağılın öz həyat hekayəsi ilə çox yaxın olduğunu qeyd etdi. Qadın nağıl söyləyiciləri arasında Tahirə Qədirova, Aqibət Orucova, Adilə Əhədova, Pakizə Quliyeva, Narınc Yahyayeva, Əfruzə Qədirova, Roza Həsənova, Mənzərə Səlimova, Nailə Həsənova xüsusilə seçilirdi.

### 4.1.3 Lətifələr

Folklorun ən yayğın janrlarından biri də lətifələrdir. Lətifələr məzmun və mövzu baxımından qısa, yığcam və güldürücü olduğundan tez yadda qalır, daha geniş auditoriyada yayılır. "Lətifələr cəmiyyətdə adi həyatın mizan-tərəzisini pozan halların güzgüsüdür. Milli əxlaqda, etik düşüncədə yabançı hallar nəzərə çarpanda, üzə çıxanda ilk öncə lətifələrdə onlara cəmiyyətin münasibəti əksini tapır" (95, 300). Lətifələri yaşlılar da söyləyir, gənclər də, uşaqlar da... Bütün yaş qrupları arasında lətifə söyləyənlərə rast gəlmək mümkündür. Folklorşünas F.Bayat bununla bağlı göstərir ki, "türk xalqları arasında müxtəlif isimlərlə adlandırılan lətifələr hər zaman canlılığını və güncəlliyini qoruya bilmiş, hər zaman əyləndirici funksiyanı yerinə yetirmiş, hər insan tərəfindən söylənmişdir" (44, 204). Ümumazərbaycan folklo-

runda olduğu kimi, Salyan və Neftçala rayonlarında da lətifə janrı digər folklor mətnləri ilə müqayisədə daha geniş yayılmışdır.

Toplama materiallarına baxdığımızda bölgədən maraqlı lətifə mətnləri və yeni lətifə personajları əldə etdiyimiz məlum olur. Bunların arasında məşhur lətifə qəhrəmanları Molla Nəsrəddin və Bəhlul Danəndənin adı ilə bağlı lətifələr də vardır, konkret bu bölgəyə məxsus olan lətifələr də... Bölgədən qeydə aldığımız "Molla Nəsrəddinin Ayı görməsi", "Molla Nəsrəddinlə qapı əhvalatı", "Molla ilə qırx lotunun əhvalatı", "Mollanın dəyişik düşməsi", "Molla ilə qonşusunun qazan əhvalatı", "Molla Nəsrəddinlə qonşusunun qızıl davası", "Mollanın ehsan yeməyə getməsi", "Mollanın acgözlüyü", "Mollanın hamam sərgüzəşti", "Mollanın yorğan davası"; "Bəhlul Danəndənin qadınların hiyləsini yazması", "Danəndə Bəhlul, yoxsa Divanə Bəhlul", "Bəhlul Danəndə ilə kişmişsatanın əhvalatı" və digər bu tipli lətifələri klassik lətifələr hesab etmək olar. Müşahidələrimiz göstərdi ki, bu tipli lətifələr yeni nəslin arasında çox yayılmamışdır, lakin bunlar nisbətən yaşlı nəslin nümayəndələrinin repertuarında aktivdir. Folklorşünas Ə.Əsgər bunun səbəbini "klassik lətifələrin öləziməsi" (58, 14) ilə əlaqələndirir. Alim göstərir ki, "onların yerini yeni lətifə qəhrəmanları tutmaqdadır" (58, 14). Doğrudan da, orta yaşlı və yeni nəslin repertuarında daha çox rast gəlinən lətifə qəhrəmanları "dəlilərin" sərgüzəştləri ilə, yaxud qayınana və gəlin münasibətləri ilə bağlıdır. Bununla bağlı Salyan və Neftçala ərazisində xeyli sayda lətifə mətni tərəfimizdən qeydə alınmışdır.

Folklorşünas Ə.Əsgər lətifələrin yayılma səbəblərinin maraqlı izahını vermişdir. "Müasir lətifələrin bir çoxu lokal xarakter daşıyır və konkret bölgələrdən kənara çıxmır. Onlardan bəziləri bölgələrin hüdudlarını aşaraq başqa bölgələrə də yayılır" (58, 15). Bəzi lətifələr vardır ki, onlar sözügedən bölgənin folkloru bugünə qədər toplanmadığından heç yerdə nəşr olunmamış, bu səbəbdən də geniş yayılmamışdır. Belə lətifələrdən Neftçala rayonunun Aşağı Surra kəndinin əhalisi ilə bağlı yaranmış lətifələri misal göstərmək olar. Bölgədə Aşağı surralılara zarafatla

“Surranın quru bəyləri” deyirlər. Aşağı Surradan olan biri hər həftə bazar günü Salyana bazarlığa gedərmiş. O, əynini təmiz və səliqəli geyinərmiş, arxasına bahalı yəhər yükləyərmiş. Yolda rast gəldiyi adamlardan soruşarmış: – A qardaş, filan nişanda atım qaçıb, sənə rast gəlməyib ki? (49)

Digər bir lətifədə deyilir ki, bir surralı Kür çayı ilə Salyana üzən ticarət gəmilərindən birində yedəkçilik edir. Salyana çatmağa az qalmış aldığı zəhmət haqqını verib fayton kirayələyir, şəhərə faytonla gələrmiş. Qoy onu görənlər desinlər ki, surralı bəy şəhərə faytonla gəlir (49).

Surralı mal təzəyini yığanda da lovğalığından aşağı əyilmir, ulağın üstündə oturub əlinə də uzun bir şiş alır, yerdəki mal təzəklərini şişə batırıb yığaraq xurcuna doldurur ki, qışda yanacaq kimi istifadə etsin (49).

Televizor yeni çıxan vaxtlarda surralıların çoxunun evində televizor yox imiş, amma kənddə hamının evinin damında televizor antenası varmış. Qoy deməsinlər ki, filankəsin televizoru yoxdur (49).

Surralılarla bağlı belə lətifələrin sayını artırmaq mümkündür. Təəssüf ki, bu lətifələr zamanında toplanaraq nəşr olunmamışdır, həmin lətifələrin böyük bir qismi unudulmuşdur. Müasir günümüzə surralıların “quru bəylər” olması deyimi gəlib çıxmışdır.

“Azərbaycan lətifələrinin regional xüsusiyyətləri”ni araşdıran S.Abbaslı yazır: “Bölgə lətifələrinin mahiyyətində, məğzində dayanan xalq gülüşü, xalq satira və yumoru folklorun əksər janr və növlərində geniş yer alsa da, region bəzəmələrində zirvə nöqtəsinə yüksəlmiş, onun genetik mahiyyətinin zənginləşməsində əhəmiyyətli rol oynamışdır (2, 142). Sonra müəllif müşahidələrinə əsaslanaraq “regional lətifələrin doğurduğu gülüşün insanın daxili aləmini, mənəviyyatını, ovqatını təmizləməklə bərabər, həm də onu tərbiyələndirmək işində mühüm rol oynadığını” göstərmişdir (2, 142).

Salyanda Mirzə Baqi adlı müdrik insan yaşamışdır ki, onun adı ilə bağlı xeyli lətifə yaranmışdır. Lakin onunla bağlı yaranan duzlu, məzəli əhvalatların çoxu zamanında yazıya alın-

madığından itib-batmışdır. Mirzə Baqi ilə bağlı əldə etdiyimiz bəzi lətifələri vaxtilə Neftçala rayonunun Xolqaraqaşlı kənd orta məktəbinin Ədəbiyyat müəllimi işləmiş, indi təqaüddə olan Təbiət Abdullayevanın şəxsi arxivindən götürmüşük. "Bir kəndli Mirzənin yazdığı şikayəti pristava təqdim edir. Pristav onu başdan eləmək üçün deyir: – Mən bu xətti oxuya bilmirəm. Get, yazanı bura çağır. Mirzə pristavın yanına gəlib başlayır onu tərifləməyə, onun ali mənsəblərə layiq olduğunu deyir. Pristav: – Mirzə, səndən çıxmayan iş, nə əcəb məni tərifləyirsən?! Mirzə: – Belə eləyirəm ki, bəlkə səni böyüdüb bir yerə aparalar, onda camaatın da canı sənin əlindən qurtarar" (49).

Salyan lətifələrini öyrənmək baxımından Məhəmməd Rza Xəlilbəylinin 1994-cü ildə Salyanda nəşr etdirdiyi "Salyanın məzəli adamları" kitabı (65) maraqlı mənbədir. Müəllif burada Salyanın tanınmış adamlarının sərgüzəştləri haqqında söhbət açmışdır. "Kababçı Feyzi", "Usta Şirin", "Mağazaçı Mirhadı", "Dovğaçı Məlik", "Appa lələ", "Xaçının sərgüzəştləri" və d. Baməzə salyanlıların başına gələn əhvalatlardan bəhs edən müəllif ön sözdə Salyanda yaşamış Mirzə Baqi haqqında da söhbət açmışdır. Onun əslən şamaxılı olmasını əsas gətirən yazar, bu səbəbdən "Salyanın məzəli adamları" kitabına onunla bağlı lətifələri daxil etmədiyini söyləmiş, sadəcə adını çəkməklə kifayətlənmişdir. Ancaq Mirzə Baqinin Salyanda yaşamasını əsas gətirərək düşünürük ki, Mirzə Baqi eyni zamanda Salyanın lətifə qəhrəmanıdır.

Sözügedən ərazidən toplanmış lətifələrin bir hissəsi süjet və mövzu baxımından ümumtürk və ümumazərbaycan lətifələrinin bu bölgəyə məxsus variantlarıdır. Misal üçün, üç yoldaş qatarla gedirmiş – azərbaycanlı, gürcü, bir də erməni. Stolun üstü yeməkiçməklə dolu imiş. Bir müddət keçəndən sonra gürcü çaxırı pəncərədən tullayıb, deyib ki, bundan bizdə çoxdu. Erməni konyakı stolun üstündən götürüb tullayır, deyir ki, bundan bizdə çoxdu. Elə bu vaxt bir qarasaç, qaraqaş, qaragözlü kişi kupeyə daxil olur, demə, o talış imiş. Azərbaycanlı da tez onu tutub pəncərədən tullayır,

deyir, "bundan da bizdə çoxdu". Eyni lətifənin Şəki variantı da maraqlıdır. Həmin mətndə talış ləzgi ilə əvəzlənir (125, 140-141)

Bölgədə siyasi məzmunlu lətifələr də geniş yayılmışdır. Bu tipli lətifələrdən Stalinlə Hitlerin arasında baş verən əhvalatlar daha çox yayılıb. Həmin lətifələrdən birində hansı liderin daha məşhur olması ön plana çəkilir, onlar arasında müqayisə aparılır. Digər bir lətifəyə görə, bu dövlət başçılarından hansının daha gözəl, texniki tərəqqi baxımından inkişaf etmiş dövlət qurduğundan söhbət açılır (49). S.Abbaslı tarixi şəxsiyyətlərin lətifə obrazına çevrilməsi ilə bağlı yazır: Çoxsaylı tarixi şəxsiyyətlərlə bağlı regional lətifə örnəkləri təsdiq edir ki, hər bir ictimai-siyasi quruluşun və onun hakim ideologiyasının fəaliyyətdə olduğu tarixi kəsimdə onlarla şəxsiyyətin adı ilə bağlı gülməcə örnəkləri yaranmış və onların böyük əksəriyyəti xalq yaddaşında qorunmuş, dildə-ağızda dolaşmış və geniş pərvəriş tapmışdır (3, 179). İnsanlar arasında geniş yayılmış lətifələrdən ədəbsiz lətifə mətnlərini də örnək göstərmək olar. Bu tipli lətifələr daha çox gənc oğlanlar və kişilər arasında yayılır. Lakin belə lətifələrin məzmununda ədəbsiz sözlər və kəlmələr işləndiyindən onlar tərəfimizdən toplanılmamışdır.

Salyan və Neftçala rayonlarında polietnik lətifələrə də rast gəlinir. Xüsusilə də salyanlı ilə talışın arasında yaranan çəkişmələr bu baxımdan maraq doğurur. Həm polietnik lətifələr, həm də bölgənin insanlarının arasında baş verən sünnü-şiə ziddiyyətlərini əks etdirən lətifələr haqqında I fəsildə bəhs etdiyimizdən burada onlar haqqında məlumat vermədik.

Ümumiyyətlə, Salyan və Neftçala folklorunu – buranın etnoqrafiyasını, insanların həyat tərzini, dünyagörüşlərini öyrənmək baxımından ərazinin lətifələrini toplamaq və araşdırmaq gərəklidir.

### 4.2. Uşaq folkloru

Neftçala və Salyan ərazisindən toplanılan folklor materialları arasında uşaq folkloruna aid maraqlı oyunlar, düzgülər, beşik nəğmələri – laylalar, əzizləmələr, yanıltmaclar, tapmacalar, sanamalar, acıtmalar, nağıllar və s. vardır. Bu nümunələrin bir

hissəsini böyüklərin uşaqlar üçün yaratdığı mətnlər təşkil edir ki, bura nağılları, tapmacaları, laylaları, əzizləmələri aid etmək olar. Müşahidələr göstərir ki, körpəliyində layla ilə, əzizləmə ilə əhatə olunan uşaq milli ruhda tərbiyə alır, humanist böyüyür. Ağlı kəsən vaxtı nağıllara qulaq asan, tapmacaların açmasını açmağa çalışan uşaqlar zəngin dünyagörüşə malik olur, intellektual səviyyələri yüksək olur.

Psixoloqların dediyi kimi, körpə səs duymağa başladığı ilk günlərdən anasının laylası ruhuna hopursa, təbii ki, daha şirin və rahat uyuyur, ana laylası ilə yatırdılan körpə özünü daha güvənli ortamda hiss edir. Folklorşünas R.Qafarlı yazır: "Laylalar təkcə uşaqları yuxuya vermək üçün deyil, həm də onların gələcək tərbiyəsinin ilk mərhələsidir" (76, 105). Bu, gələcəyimiz üçün sağlam ruhlu, hərtərəfli mükəmməl vətəndaşların yetişdirilməsi deməkdir. Ona görə laylaların, əzizləmələrin toplanması vacibdir.

Laylay çalım adua,
Allah yetsin dadua.
Allah dadua yetəndə
Məni də sal yadua.

* * *

Laylay çallam həməşə,
Karvan gedər yemişə.
Yastığunda gül bitsin,
Yorğanunda bənöşə.
Laylay, balam, a laylay,
Körpə quzum, a laylay (49).

* * *

A laylay, yenə laylay,
Can didim sənə laylay.
Sənə gələn dərd-bəla
Qoy gəlsin mənə, laylay (49).

Əzizləmələr və oxşamalar uşaqlara əsasən körpə vaxtında oxunur. Yaşlı nənələrdən körpə nəvələrini əzizləyərkən hansı formada, hansı sözlərlə əzizlədiklərini ara-sıra soruşurduq. Çox

zaman hamımızın bildiyi məşhur "Bu balama qurban" əzizləməsini söyləyirdilər. Ancaq müşahidələr göstərdi ki, ünsiyyət qurduğumuz nənələrdən birinin nəvəsi doğulandan sonra həmin nənə, əslində çox əvvəllərdən bildiyi bir nümunəni söyləməyə başladı. Həmin nümunə bizim üçün yeni, orijinal əzizləmə mətni sayıla bilər. Baxmayaraq ki, mətn bitkin deyil, amma maraqlı məzmunu var. Nənə körpə nəvəsini digər uşaqlarla müqayisə edərək əzizləyir, göz qaytarmaq üçün öz nəvəsinə aid hadisələri müqayisədə daha kiçildir:

Atdılar atın çapar,
Rəsul bi dayça.
Uşağlar alma satar,
Rəsul turş alça.
Atdılar tüəng atar,
Rəsul tapança (49).

Həmin əzizləmə mətninə bir qədər fərqli şəkildə Naxçıvandan toplanmış folklor örnəkləri arasında da rast gəlinir, lakin burada da mətn bitkin deyil:

Atdılar atın çapanda
Balam da bir dayça.
Xahlar qız götürüp qaçanda
Balam da bir dulça (92, 173).

Və yaxud:

Balam, gəl soyun görüm,
Sərvitək boyun görüm.
Tarıdan arzum budu,
Balamın toyun görüm (49).

Topladığımız əzizləmələrdən birində isə nənə ilə kiçik dialoq vardır:

Nəvəm hayannan gəlir?
– Akkuşa çalasınnan...
Kürki nöşün cırıxdı?
– Kasıblığ balasınnan...

Kiçikyaşlı uşaqlar üçün oyunları adətən böyüklər təşkil edir, bu, balacaların ətraf aləmlə tanışlığı üçün vacibdir. Belə oyunlar eyni zamanda onların əylənməsi üçün bir vasitə olur. İki-üç yaşlı uşaqlara saymağı öyrətmək məqsədilə böyüklər guya balacaların ovuclarına bir quşun qonduğunu deyir. Sonra baş barmaqdan başlayıb, bir-bir bütün əl barmaqlarını göstərərək, bu tutdu, bu kəsdi, bu bişirdi, bu yedi, çeçələ barmağı göstərib, vay, buna qalmadı deməklə onlar üçün əyləncəli ortam yaratmaqla yanaşı, həm də saymağı öyrədirlər.

Uşaqların çox sevdiyi folklor mətnləri arasında nağıllar mühüm yer tutur. Folklorşünas P.Əfəndiyevin dediyi kimi, "nağılları "böyüklər" və ya "uşaqlar" üçün yaranmış nağıllar kimi qruplaşdırmaq olmaz. Bütün nağılları uşaqlar maraqla dinləyir, yadda saxlayır və dönə-dönə, həvəslə nağıl edirlər. Ancaq bu janr içərisində alleqorik nağıllar qrupu uşaqlar üçün daha maraqlıdır (54, 220). Bu baxımdan, ərazidən qeydə aldığımız "Şəngülüm, Şüngülüm və Süpürkəgülümün nağılı", "Fərə bacının nağılı", "Tülkünün kələyi" və digər bu tipli alleqorik nağıllar diqqət çəkir.

Uşaqlar arasında geniş yayılmış folklor mətnlərindən biri də düzgülərdir. Folklorşünas A.Nəbiyev göstərir ki, "düzgülərdə elə bir ciddi süjet yoxdur... Başlanğıcı müəyyən hadisə ilə nəzərə çarpan düzgüdə birdən-birə süjet itir, məzmun pozulur, ritm, ahəng, alliterasiya ön plana keçir, rabitəsiz söz kompleksləri mətnə daxil olur, müstəqil misralar yaradır. Mətndaxili misraların bəzisi ayrı-ayrılıqda müstəqil məna ifadə etsə də, süjetin ümumi tərkibində vahid mətn yaratmır və ya pərakəndə məna yükü daşıyan misralar hər hansı bir fikri tamamlaya bilmir" (95, 589). Buna baxmayaraq, uşaqlar arasında düzgülərin söylənməsinə tez-tez rast gəlirik. Bunlardan "A teşti, teşti, teşti", "Əl-əl əpənək", "Əlimi bıçaq kəsibdi" və s. mətnlər bu bölgənin uşaqlarının dilinin əzbəridir. Folklorşünas R.Qafarlı yazır: "Uşaq şeirlərində sanki səslər, sözlər rəqs edir. Yaradıcılar özlərinin oyun xarakterini bütün çalarları ilə şeirə köşürürlər. Gerçək həyatda bir uşağın başına gələn adi hadisə elə ritmlə və məzəli şə-

kildə təsvir edilir ki, qaravəllini, lətifəni xatırladır" (76, 207). Nümunə üçün verdiyimiz düzgü mətni Neftçala və Salyan ərazisi üçün səciyyəvidir:

İki bacılar yan-yana,
Gedirdilər Səlyana.
Səlyan suyu sərindi,
İki bacılar gəlindi.
Gəlinə bax, gəlinə,
Əlin vırıb belinə.
Gəlinə bir söz disən,
Gedər diyər ərinə.
Əri minər maşına,
Sürər dağın başına.
Oğlannar əsgər gedir,
Kül qızzarın başına...(49)

Göründüyü kimi, mətndə vahid süjet xətti yoxdur, məzmunu zəifdir, lakin misralardakı alliterasiya "qulağa xoş gəlir". Buna görə də bu tipli mətnləri uşaqlar daha tez əzbərləyir və gündəlik oyun zamanı onlardan istifadə edirlər.

Bir çox oyunların təşkili uşaqların həm fiziki sağlamlığına, həm də zehni inkişafına müsbət təsir göstərir. Uşaq oyunları eyni zamanda uşaqların asudə vaxtının daha səmərəli keçməsinə səbəb olur.

Məlumdur ki, əvvəllər, radio-televiziyanın mövcud olmadığı zamanlarda insanların boş vaxtları daha çox olurdu. Həmin vaxtdan səmərəli istifadə etməyə çalışan uşaqlar və yeniyetmələr cürbəcür oyunlar təşkil edirdilər ki, bu da həmin dövrün şəraitinə uyğun icra edilirdi. Uşaqlığı ötən əsrin 30-40-cı illərinə təsadüf edən bugünkü yaşlı nəsil uşaq vaxtı oynadıqları oyunları yaxşı xatırlayır. Bu gün həmin oyunların çoxunun sıradan çıxmasına təəssüf edirlər. Belə oyunlardan "Turna vırdı oyunu", "Bəgmə gizir oyunu", "Təkmə-cüt oyunu" , "Eşşək beli sındırdı", "Köçaldıqaç", "Bənövşə, bəndə düşə", "Yeddi şüşə oyunu" və digər oyunları misal göstərmək olar.

Sadaladığımız oyunların bir çoxunu uşaqlığı təxminən 1940-cı illərə təsadüf edən söyləyicilərin repertuarından qeydə almışıq. Neftçala rayonunun Xolqarabucaq kənd sakini Adilə Əhədovanın yaddaşından üç oyun mətni qeydə aldıq ki, həmin oyunlar hazırda bölgədə tamamilə unudulmuşdur. A.Əhədovanın dediyinə görə, insanlar gündəlik işlərini bitirdikdən sonra hər gün bir qonşunun evinə yığışırmışlar. Onlar uzun qış gecələrində cürbəcür oyunlar təşkil edərək öz vaxtlarını daha maraqlı keçirirmişlər. Bəzən bir evə beş-altı evin uşaqları yığışır, müxtəlif oyunlar təşkil edirmişlər. Belə oyunlardan "Turnavırdı" çox maraqlıdır. Söyləyicinin dediyinə görə, bu oyunu oğlanlar və qızlar bir yerdə oynayırmışlar. Uşaqlar çay dəsmalını hörürmüşlər, turna həmin hörülmüş çay dəsmalına deyirmişlər. İki bərabər dəstəyə ayrılan uşaqlardan ikisi dəstəbaşçısı olurmuş. Dəstələrdən birində nə qədər adam vardısa, o qədər də turna düzəldirdilər. Seçilmiş dəstə başçıları əvvəlcə öz aralarında pıç gəlirlər, yəni biri ovcunda gizlətdiyi kiçik çöpü, yaxud kiçicik bir əşyanı tapmaq üçün əllərini bağlı formada digər dəstə başçısına tərəf uzadır. Əgər hansı əldə gizlətdiyini tapırdısa, oyuna birinci qarşı dəstə başlayırdı. Yaxud adi kibrit qutusunu ortaya atırmışlar. Bu tərəfi düşərsə, ciki, digər tərəfi düşərsə, böki deyər, –

"Ciki mənim, böki mənim,
Tooxan* dursa, o da mənim"

deyirmişlər. Əvvəldə uduzan dəstənin uşaqları dairəvi cizgiyə girir. Kənarda qalan dəstə cizgidəki turnaları götürməyə çalışır. Götürə bilməyənləri turna ilə döyürlər. İçəridəkilər kənara çıxır, kənardakılar cizginin içərisinə girirlər. Oyunun əsl mahiyyəti turnanı ələ keçirməkdir. Turnanı ələ keçirən dəstə qalib sayılır. Oyunu uduzan dəstənin oyunçuları həyətə çıxıb üç dəfə ucadan qışqırmalı imiş:

"İtdi itin bağlasın,
Bu gecə yalağ mənimdi" (49).

Söyləyicinin məlumatına görə, bu kəlmələri bütün qonşular eşidirmiş. Səhəri günü hamı keçən gecə oyunu uduzan dəstənin kim olduğunu öz aralarında danışıb müzakirə edirmişlər.

-----------------------------
* tooxan dursa – dik dursa

“Bəgməgizir” oyunu təxminən digər bölgələrdə mövcud olan “xan-vəzir” oyununa çox yaxındır. Oyunun qaydalarına görə, oyunçulardan biri bəy, biri vəzir, digəri cəllad vəzifələrini icra edirmişlər. Uduzan oyunçunu döşəmənin üstündə iməkləyə-iməkləyə gəzdirirmişlər.

“Təkmə-cüt” oyununda da adi kibrit çöpünü ovucun içərisində gizlədərək digər oyunçudan tapması tələb olunur. Bu zaman kibrit çöpünü tapmağa çalışan oyunçu aşağıdakı parçanı oxuyurmuş:

“Ya ondadı, ya bunda,
Halvaçı tükanında,
Ağam didi, vır bunda… (49).

Bağlı ovuc açılır, əgər kibrit çöpü tapılırdısa, udurdun, əgər tapılmadısa, uduzurdun. Söyləyicinin dediyinə görə bu oyunda da uduzan oyunçu həyətə çıxıb qışqırırmış:

“İtdi itin bağlasın,
Bu gecə yalağ mənimdi” (49).

Qədim oyunların təsviri bir daha göstərir ki, uşaqlar öz oyunlarını gündəlik həyat və məişət tərzlərinə uyğun formada təşkil edirmişlər.

Söyləyicilərdən əldə etdiyimiz bilgiyə görə, ötən əsrin ortalarında çox sevilən oyunlardan biri qız uşaqlarının əl-ələ tutub “Ya lələm” deyərək halay çəkmələri olmuşdur. “Ya lələm” halay-nəğməsini Salyan rayonunun Şorsulu kəndində yaşayan 1937-ci il təvəllüdlü Quliyeva Pakizə Əlibala qızından qeydə aldıq. O, ümumilikdə 12 bəndi, hər bəndi 5 misradan ibarət olan nəğmənin mətnini birnəfəsə, həm də gözəl avazla söylədi. Nəğmənin hər misrası “Ya lələm” kəlməsi ilə başlanır, demək olar ki, hər bəndin sonu “Ya lələm, halay döndər belə” misrası ilə bitir.

Ya lələm, halay vırun düzülsün,
Ya lələm, xumar gözzər süzülsün,
Ya lələm, hər kəs halay çəkməsə,
Ya lələm, əli əldən üzülsün.
Ya lələm, halay döndər belə.

Ya ləl əm, ev dalında bel durmış,
Ya ləl əm, bel dayanmış, bel durmış.
Ya ləl əm, çərkəz papağ altında
Ya ləl əm, kəkili tel-tel durmış.
Ya ləl əm, halay döndər belə (49).

Söyləyicinin dediyinə görə, bu nəğməni oxuyan yeniyetmə qızlar əl-ələ tutaraq, dövrə vurub, halay çəkirmişlər. Kimin yaxşı səsi varsa, hərəyə iki-üç bənd olmaqla növbə ilə oxuyurmuşlar. Qızlar kənardan onların oyununa baxan oğlanlara da "sataşırmışlar".

Ya ləl əm, miçətkəni qurmuşam,
Ya ləl əm, daldasında durmuşam.
Ya ləl əm, bırdan gedən oğlanın
Ya ləl əm, ürəynə xal salmışam,
Ya ləl əm, halay döndər belə (49).

Bu halay-nəğmənin mətninə uyğun nəğmələr 1968-ci ildə nəşr olunmuş "Azərbaycan folkloru antologiyası"nın birinci kitabında "Halay oyunu" başlığı ilə verilmişdir (11, 32), lakin bizim topladığımız mətnin bir hissəsinə orada rast gəlmədik. Qeyd edək ki, burada nümunə üçün verdiyimiz bəndlər də həmin kitabda yoxdur.

Bölgədə bəzi oyunlar vardır ki, onları, əsasən, oğlan uşaqları oynayır. Belə oyunlardan "Əvvəli" (bəzi bölgələrdə buna "Ənzəli" də deyirlər), "Topağacı", "Yoldaş, səni kim apardı", "Çilingağac", "Qayış götürüb qaçdı" və s. oyunları misal göstərmək olar. Uşaqlıqda oynanılan oyunların uşaqların həyatında mühüm olduğunu qeyd edən Səlimov-Şağani yazır: "Mütəhərrik idman səciyyəli oyunlar fiziki cəhətdən inkişaf üçün ən yararlı vasitədir. Əsrlər boyu uşaq və gənclərimizin qolu, biləyi bu cür xalq oyunlarında bərkimişdir" (115, 4).

Uşaq oyunları yeniyetmələrin fiziki cəhətdən güclü olmasına səbəb olduğundan bu tip oyunların əski türk əxlaqından doğduğu danılmaz faktdır. "Oyunların müəyyən bir qismi uşaqların, xüsusilə də oğlan uşaqlarının fiziki cəhətdən güclü, əsl döyüşçü kimi böyüməsinə şərait yaradır. Bu da əski türk əxlaqından doğan

haldır. Döyüşkən türklər övladlarının da əsl cəngavər kimi böyüməsində maraqlı idilər" (125, 153).

İ.Əliyevin yazdığı kimi, "milliliyini qorumaq, yaşatmaq, inkişaf etdirmək istəyən xalq sahib olduğu təlim-tərbiyə sistemini bu zəngin, çeşidli irsə arxalanaraq qurmalıdır. Övlada mənsub olduğu xalqın əski tarixə sahib olduğunu öyrətmək mühümdür" (128, 19-26). Fikrimizcə, istər uşaq folkloru nümunələri, istərsə də uşaq oyunları böyüməkdə olan nəslin – uşaqların həyatında mühüm yer tutur. Uşaq folkloru örnəklərinin və uşaq oyunlarının geniş araşdırılması zəruridir.

### 4.3. Aşıq sənəti

Neftçala və Salyan regionunun folklor mühitini araşdırarkən buranın aşıqları ilə bağlı mövzuya toxunmamaq mümkün deyil. Məlumdur ki, sözügedən ərazidə yaşayıb-yaradan aşıqlar Şirvan aşıq mühitinin nümayəndələridir. Folklorşünas M.Qasımlı "Şirvan aşıq mühitini Azərbaycan aşıq sənətinin bölgə keyfiyyətlərinə görə ən çox seçilən mühit" (83, 202) olduğunu göstərmişdir. Müəllif Salyan, Sabirabad, Biləsuvar və başqa bu kimi ərazilərdəki aşıq sənətinin ifaçılıq baxımından Şirvan aşıq mühitinə daxil olduğunu qeyd etmiş, "bir çox hallarda Şirvan aşıq mühitindəki sənət həyatının qaynarlığını Salyan aşıqlarının ifaçılıq və sənətkarlıq məharətinin təmin etdiyini" (83, 206) xüsusi vurğulamışdır.

Bölgənin aşıqları haqqında söz açarkən əvvəlcə XVIII yüzillikdə yaşayıb-yaratmış Aşıq Vəlicandan başlamaq lazımdır. Bəlkə, ondan daha əvvəlki dövrlərdə də bu ərazidə aşıqlar yaşayıb-yaratmışlar. Ancaq istinad etdiyimiz mənbələrə və söyləyicilərdən əldə olunan məlumatlara görə, bölgənin aşıqları arasında ən qocamanı Səlyanlı Vəlicandır. A.Turan bölgə haqqında yazdığı "Darülmöminin" kitabında Aşıq Vəlican haqqında məlumat vermiş, onun Salyan bölgəsinin aşığı olduğunu, qəbrinin Bayatla Qaramanlı kəndləri arasındakı köhnə qəbiristanda olduğunu" yazmışdır (124, 142). Salyanlı Vəlicanın bədii irsindən bizə gəlib çatan "Gizlənir" adlı yeganə şeiri ilk dəfə Salman Mümtazın 1935-ci ildə nəşr etdirdiyi "El şairləri" kitabında çap olunmuşdur:

Səbzələr söynəşir bahar çaqında,
Mehlər əsişəndə bağda gizlənir,
Bülbül arzu çəkər gül həsrətinə,
Çi fayda yanında zağda gizlənir.

* * *

Bu dünyaya gələn eylərdi həvəs,
Bu sevda səndədir ya fəryadi rəs,
Gəldi naqə xəbər gətirdi çərəs,
Dedi: gördüm Məcnun dağda gizlənir.

* * *

Cümlə aləm gedər, iymandır yoldaş,
Nə ata, nə ana, nə qohum-qardaş,
Kəfən yaş, qəbir yaş, vay başıma daş,
"Vəli", cismin bu torpaqda gizlənir (91, 303).

Ərazidə Aşıq Vəlicanla bağlı rəvayətlər də yayılmışdır. A.Turanın yazdığına görə, Salyanlı Vəlican onun ulu babasıdır, əslən Bayat elindəndir, haqq aşığıdır (124, 142). Ballıcallı kəndinin qocaman sakinlərindən olan şair S.Abbasın dediyinə görə, Salyanlı Vəlican imzasıyla tanınan aşıq Arazın o tayından bura gəlmiş, bölgənin məşhur aşığı kimi tanınmışdır.

XX yüzillikdə bölgədə, eləcə də respublika səviyyəsində tanınan Aşıq Qurbanxan Sadıqov, Aşıq Bəylər Qədirov, Aşıq Pənah Pənahov Şirvan aşıq mühitinin layiqli nümayəndələri olmuşlar. Onlar Respublika Aşıqlarının müxtəlif illərdə keçirilən qurultaylarında iştirak etmişlər. Hər üç aşığın formalaşmasında ərazinin toyları, el şənlikləri mühüm rol oynamışdır. Yaşayıb-yaratdıqları illərdə bölgədə keçirilən bütün ictimai tədbirlərdə, el şənliklərində fəal iştirak etmişlər.

Məlumdur ki, Şirvan aşıq mühitinin musiqi repertuarı özünəməxsusluğu ilə digər bölgələrin aşıq ifaçılarından seçilir. Folklorşünas M.Qasımlının dediyi kimi, "oxu və çalğı üslubunda xanəndə tərzini qabarıq görüntülərlə əks etdirdiyinə görə Şirvan mühitinin musiqi repertuarı ənənəvi aşıq repertuarından xeyli dərəcədə fərqlidir. Belə ki, bu mühitdə aşıq tərzi ilə xanəndə tərzinin

qovuşuğu olan "Pişrov" havaları (on ikiyə yaxın belə hava var), "Şikəstə"lər (doqquz şikəstə havası mövcuddur), "Şəşəngi"lər (sayı üçdür) vardır. Müşahidə edilir ki, həmin havalar sırf bölgə səciyyəlidir. Adı çəkilən havaların saz-balaban-nağara və qoşa nağara müştərəkliyi olmadan tək sazla – solo şəklində ifasının mümkün olmaması da havanın məhz aşıq tərzi ilə xanəndə tərzinin sintezindən yarandığını göstərir" (83, 202).

Aşıq tərzi ilə xanəndə tərzinin sintezindən yaranan havaların gözəl ifaçılarından biri Aşıq Qurbanxan olmuşdur. O, 1905-ci ildə Salyanın Sərxanbəyli kəndində anadan olmuşdur. Aşıq nəinki bölgədə, hətta bölgədən kənarda da toy məclislərinin yaraşığı kimi məşhurlaşmışdı. "Onun adət-ənənəyə sadiq qalması, toy qayda-qanunlarını yaxşı bilməsi, aşıq sənətində öz işinin ustadı olması daha çox nəzərə çarpırdı... Aşıq Qurbanxan deyərdi ki, aşıq toy yerində görünməməlidir. Lazımi vaxtda məclisə gəlməli, gələndə də hiss olunmalıdır ki, onun sinəsi sözlə doludur... Q.Sadıqov kənardan çox lovğa, təkəbbürlü adam təsiri bağışlayırdı. Ancaq o, lovğa adam deyildi. Qürurlu, yerini, oturuşunu-duruşunu bilən bir sənətkar idi (51, 9).

Bölgənin yaşlı söyləyicilərindən Aşıq Qurbanxan haqqında soruşanda onun haqqında ağızdolusu danışmağa başlayırdılar. Neftçalanın Xolqarabucaq kənd sakini Gözəlov Əfsərağanın dediyinə görə, Aşıq Qurbanxanın idarə etdiyi toyda iştirak edən mayor rütbəli bir hərbçi cibindən iyirmi beşlik çıxarıb aşığa vermiş və kaş mənim əsgərlərim də sənin kimi belə gözəl və iti addımlara sahib olaydı demişdi. Digər bir söyləyici isə Qurbanxanın "Koroğlu" dastanını xüsusi şövqlə danışmasını və auditoriyanın onu böyük heyranlıqla dinləməsinin şahidi olduğunu söylədi.

Aşıq Qurbanxanın ustadı Şirvan aşıq məktəbinin banisi Aşıq Bilal olmuşdur. Seyfəddin Qəniyevin verdiyi məlumata görə, "bir dəfə Şirvanın dədə sənətkarı Aşıq Bilal Qurbanxanın yaşadığı Sərxanbəyli kəndinə toya gəlir. Kənd sakinlərinin xahişi ilə Mirzə Bilal gənc Qurbanxanı dinləyir, səsini, avazını bəyənir və onu özünə şəyird götürür. Həmin vaxtdan Aşıq Bilalın ansamblın-

da xanəndə kimi bütün Azərbaycanı dolaşır Qurbanxan" (85, 316). Q.Sayılov Aşıq Bilalı "Şirvan aşıq məktəbinin mükəmməl bilicisi və onun təşəkkülü və inkişafında müstəsna xidmətləri olduğu üçün onu həm də XX əsr Şirvan aşıqlarının piri" (111, 20) adlandırır. Deməк, "Şirvan aşıqlarının piri" hesab edilən Mirzə Bilaldan dərs alan Qurbanxanın uğurlarının ən böyük nədəni məhz bu olmuşdur. M.Xudubəyli "Mənim sazlı-sözlü dünyam" adlı əsərinin son bölümündə "Bu yol Şirvan yoludur" hissəsində Şirvan aşıq mühitinin özünəməxsusluğundan söhbət açmış, Aşıq Qurbanxanın ömür yolundan bəhs edərək yazmışdır: "Qurbanxan daim axtarışdaydı. Ustadının tövsiyələrini birər-birər köksündə boğçalaşdırırdı. Şirvan aşıq sənətinə xas olan havaların pərdələrdə gəzişmələri, Aşıq Bilalın söylədiyi dastanların sinədəftər edilməsi, məclisdə yol-ərkan bilməsi yavaş-yavaş Qurbanxana ad-san qazandırır, cavankən onun adına şöhrət gətirirdi" (68, 270). Daha sonra müəllif ustad aşığın yaradıcılığından örnəklər gətirərək onları təhlil etmiş, sonda belə bir nəticəyə gəlmişdir: "Qurbanxan Sadıqov həm də yaradıcı aşıq olmuşdur. Onun oynaq və axıcı dildə yazdığı qoşma və gəraylıları sayca cox olduğu kimi, məna və məzmunca da zəngindir, ruhu oxşardır (68, 272).

"Aşıq Qurbanxan 1928-ci ildə Azərbaycan aşıqlarının I qurultayında iştirak etmişdir. Müxtəlif illərdə fəxri fərman və diplomlar qazanmışdır... Laureat adına layiq görülmüş, Azərbaycan aşıqlarının II və III qurultaylarının nümayəndəsi olmuşdur" (85, 317).

Aşığın yaradıcılığından günümüzədək gəlib çıxan qoşma və gəraylılarından "Oynasın", "Kənarında", "Gülür", "Qurbanam", "Yada sal məni", "İnciməsin", "Saz-balabandı" və digər nümunələr Aşıq Qurbanxanın söz və saz dünyası haqqında müəyyən təsəvvür yaranmasına xidmət edir.

Gəlsin məclisimə yaxınım, yadım,
Saz götürsün oğlum, nəvəm, övladım.
Qurbanam, el olmuş mənim ustadım,
Onunçün adım tək elə qurbanam (28, 407).

Doğrudan da, aşığın övladları və nəvələri bu gün onun yolunu layiqincə davam etdirirlər. Aşığın nəvəsi Həsənağa Sadıqovun "Mahirlər" ansamblı təkcə respublikamızda deyil, həm də ölkəmizdən kənarda məşhurdur. Aşıq Qurbanxanın kiçik oğlu Əhmədağa Sadıqov da atasının yolunu davam etdirir, bu gün bölgənin toy məclislərini idarə edir.

Bölgənin digər tanınmış aşığı Aşıq Bəylər Qədirovdur. O, 1914-cü ildə Salyanın Çuxanlı kəndində anadan olmuş, aşıqlıq sənətinin sirlərini Aşıq Abbas Cəyirlidən öyrənmişdir. 1937-ci ildən başlayaraq Bəylər Qədirov ərazinin toylarında, el şənliklərində aşıqlıq etməyə başlamış, zamanının ən məşhur aşıqlarından biri kimi tanınmışdır. "Aşıq Bəylər Qədirov aşıq sənətini dərindən bilən, onu yüksək məhəbbətlə tərənnüm edən, ustad aşıqlardan öyrəndiklərini daha da zənginləşdirən, aşıq havalarını ustalıqla ifa edən sənətkar idi" (51, 10). Aşığın oğlu İxtiyar Qədirovun verdiyi məlumata görə, aşıq Salyanla yanaşı, Şamaxıda, Bakı kəndlərində, Lerikdə, Quba-Xaçmaz rayonlarında və digər ərazilərin toy məclislərində aşıqlıq etmişdir. Atası ilə bağlı xatirələri soruşduqda İxtiyar Qədirov 1972-ci ildə Kürsəngi kəndində Aşıq Şakir Hacıyevlə Aşıq Bəylərin birgə toy idarə etməsini, həmin toyda bu iki sənətkarın gözəl sənət nümayiş etdirmələrini xatırladı. Aşığın repertuarına gəlincə, deyilənlərə görə, ustad aşıq "Şikəstə"lərin mahir ifaçısı olub, hansısa şikəstəyə hətta "Bəylər şikəstəsi" də deyirmişlər. Aşıq Bəylər "Kərəmi"ni, "Osmanlı"nı, "Peşro"nu, "Gəraylı"nı və digər aşıq musiqilərini mahir ifa etmişdir. O zaman toylara balabançı Mənəflə, Rəşidlə, Alməmmədlə, Əlyar Zahidovla birgə getmişdir. "Aşığın uzun illər xanəndəsi Əzizov Əhməd olub" (85, 358). Aşıq Respublika aşıqlarının II və III qurultaylarında iştirak etmişdir. Şeirləri və qoşmaları müxtəlif dərgilərdə nəşr olunmuşdur. Aşığın "Salyanın", "Səhərlər", "Gözlərin", "Bu yerdə", "Oynayır", "Gözləmə" və digər şeirləri bu gün də sevilərək oxunur.

Yuxudan durursan sökülləndə dan,
Öpür yanağını günəş uzaqdan,

Bəylər istəyir ki, qəlbi hər zaman
Yolunda gün kimi yana səhərlər (111, 37).

Aşıq "Salyanın" adlı şeirində doğma torpağı vəsf etməklə yanaşı, həm də ustadı Aşıq Abbasın adını çəkərək bir daha ona olan ehtiramını bildirmişdir.

Dağlarının başı çiskinli, duman,
Bir yanım Arazdı, bir yanım Muğan,
Ey ustam Abbasın vətəni Şirvan,
Gör nə gözəl ziynəti var Salyanın (111, 36).

Q.Sayılov ustad-şagird münasibətləri ilə bağlı yazır: "Hər bir aşığın yaradıcılığında ustadlara müraciət, onların xatırlanması xüsusi yer tutur. Ümumiyyətlə, aşıq sənətində ustad-şagird ənənəsinin tarixi çox qədim zamanlara qədər gedib çıxır. Bu böyük bir institut kimi aşıq sənətinin mövcudluğunun, ənənənin ötürülməsinin əsas vahididir. Bu mənada ustad aşıqlara müraciətən şeirlər yazılmasının əsasını məhz elə ustad-şagird münasibətləri təşkil edir" (112, 158).

Aşıq Bəylərin özünün də yetirmələri olmuşdur, "qiymətli ustadnamələr, gözəlləmələr, dastanlar müəllifi və ifaçısı Aşıq Bəylər Rza Məmmədovun, Mirzəlinin, Ağababa Bədəlovun və başqa aşıqların ustadı olmuşdur" (111, 35).

Aşıq Bəylər 1991-ci ildə dünyasını dəyişmişdir. Atasının yolunu davam etdirən mahir saz ifaçısı İxtiyar Qədirov bu gün həm də gitarada mükəmməl ifa edir. El şənliklərində, dövlət tədbirlərində fəal iştirak edir.

XX əsr Şirvan aşıq mühitində xüsusi istedadı ilə seçilən sənətkarlardan biri Aşıq Pənahdır. O, həm sənətdə, həm də həyatda bir insan kimi əvəzsiz şəxsiyyət idi. Haqlı olaraq onu tanıyan və bilən müasirləri "Aşıq Pənahı sələf-xələf münasibətlərini ehtiramla gözləyən saz və söz xiridarı" adlandırır (52, 5), onu klassiklərə borclu kimi yaşayıb-yaradan ustad sənətkar kimi dəyərləndirir. İ.Əbilovun dediyi kimi, "Aşıq Pənah idarə etdiyi məclislərə adi şənlik yığıncağı kimi yox, ədəb-ərkan məktəbi kimi baxırdı. Şübhəsiz ki, onun böyük uğurla yetkinlikdən kamillik mərtəbəsi-

nə yüksəlməsinin başlıca səbəbi də həmin sənətkar qənaəti ilə bağlı idi. Axı hər məclisi ədəb-ərkan məktəbinə çevirmək hər aşığa qismət olmur. Aşıq Pənahın qismətinə belə bir sənət müjdəsi düşdü. Bu da səbəbsiz deyil. Çünki o, sənət dünyamızdan, el-obanın adət-ənənələrindən bəhrələnə-bəhrələnə yaşın müdriklik məqamını vaxtından çox-çox əvvəl fəth eləmişdi" (52, 4).

Aşığın idarə etdiyi el şənliklərində, toy məclislərində iştirak edən insanlarla görüşdük. Hamı onun ənənəyə bağlı, ədəb-ərkan bilən, saza-sözə dəyər verməyi bacaran el sənətkarı olduğunu vurğuladı. Görünür, aşığı xalqa, sıravi insanlara sevdirən ən mühüm cəhətləri elə bunlar olmuşdur. Aşığı tanıyanlar onun haqqında o qədər yüksək fikirlər söyləyirlər ki, götürdüyümüz bəzi qeydləri burada verməyin gərəkli olduğunu düşünürük. Deyilənlərə görə, o, iricüssəli, hündürboylu, yaraşıqlı, xoş simalı olmuşdur. Böyüklə böyük, kiçiklə kiçik kimi rəftar etmiş, səxavətli, əliaçıq olmuşdur. Təkcə yaxın qohum-əqrəbanın deyil, hətta tanımadığı, bilmədiyi, üzünü birinci dəfə gördüyü birinə də yaxşılıq etməyi bacaran, kimsəsizə, kasıba əl tutan insan kimi tanınmışdır. İdarə etdiyi ucqar kənd toylarından birində Aşıq Pənah görür ki, ev sahibi çox kasıbdır. Buna görə aşıq toyu idarə etdiyi üçün ona verilən zəhmət haqqını götürmür. Digər fakta görə, aşıq yanına gəlib dərs almaq istəyən neçə şagirdi öz evində təmənnasız saxlayıb. Aşığın oğlu Taleh Pənahovun dediyinə görə, ustad aşıqdan dərs alan astaralı Aşıq Elxan illərlə onların ailə üzvlərindən biri kimi eyni damın altında yaşamışdır, ustad onu öz övladlarından ayırmamış, onun da bütün ehtiyaclarını ödəmiş, heç nədən korluq çəkməyə qoymamışdır. Bankə qəsəbəsində yaşayan Aşıq Əvəz də ustadını xoş xatirələrlə yad edir, onun öz şagirdlərinə göstərdiyi diqqət və qayğını, maddi və mənəvi dəstəyi, həmişə onlara arxa-dayaq olmasını indi də xatırlayır. Aşıq Əvəzin dediyinə görə, ustadı Aşıq Pənah şagirdlərini özu ilə toylara aparar, gündüz vaxtı dastanlar söyləməyi, toyu idarə etməyi onlara həvalə edirmiş. Aşıq Pənah axşam düşəndə mağara girir, onun gəlişi ilə toyxanaya bir canlılıq, yeni bir əhval-

ruhiyyə gəlirmiş. Aşıq Əvəz ustadı Aşıq Pənah haqqındakı xatirələrini aşağıdakı şeirlə tamamladı:

Sinəsində sazı, sözü,
Gəzdi doğma yurdu Pənah.
Bayram oldu hər gəlişi
Harda məclis qurdu Pənah.

Həm şairdi, həm aşığdı,
Toy-düyünə yaraşığdı.
Tükənmiyən bir işığdı,
Könüllərdə nurdu Pənah.

Koroğlunun Cünunuydu,
El-obanın yananıydı.
Dini meydan onunuydu,
Hər sözü bir pirdi Pənah.

Qanında Kür qeyrətinin,
El-obanın hörmətinin,
Ölməz bu el sənətinin
Keşiyində durdu Pənah (49).

Aşıq Pənahın hansı ustaddan dərs aldığını soruşduqda övladları onun daxili istedadı sayəsində aşıqlıq etdiyini, heç bir ustaddan dərs almadığını dedilər. Pənah özü sağlığında Aşıq Ələsgəri özünün mənəvi ustadı saymış, sözarası "ustadım Ələsgər, atam Ələsgər, oğlum Ələsgər" kimi ifadələr işlətdiyini də xatırladılar. Lakin Q.Sayılov "Şirvan aşıqları" kitabında Pənahın Aşıq Qurbanxandan dərs aldığını qeyd etmişdir (111).

Aşıq Pənah da digər Şirvan aşıqları kimi toylarda saz-balaban-nağara-qoşa nağara müştərəkliyi ilə çalıb-oxumuşdur. Balabanda Rəşid, Mənəf; qara zurnada Alməmməd kişi; qavalda Tapdıq; qoşa nağarada Əvəz aşığı müşayiət etmişlər. Aşığın qızı A.Pənahqızının verdiyi məlumata görə, Pənah əlində saz toyxanaya girəndə məclis əhli ustada hörmət əlaməti olaraq ayağa qalxardı. Pənahın yerişində də, nitqində də bir ahəng vardı. Saat-

larla, dayanmadan, səlis, axıcı nitqi ilə tamaşa edənləri valeh edərmiş. Dəfələrlə toyxanada bədahətən şeirlər, qoşmalar söylədiyinə şahid olanlar vardır. Şagirdlərini toylara aparmaqda məqsədi həm onlara maddi tərəfdən dəstək olmaq idi, yəni şagird olsa da, çalıb-oxuyurdu, haqqını alırdı, həm də məclisin ədəb-ərkan qaydalarını öyrədirdi. Söyləyicilərin dediyinə görə, Aşıq Pənahın toylarda Qulu Əsgərov, Rübabə Muradova kimi korifey sənətkarlarla bir yerdə məclis apardığı məqamlar da olmuşdur. Gözəl səsə, bənzərsiz ifa mədəniyyətinə malik olan aşığın Yetim Segah üstündə, bəzən Zabul üstündə də muğam oxumasını görənlər olmuşdur. Bunun da müəyyən səbəbləri vardır. İ.Əbilov "Mizrab teldən ayrılsa da..." məqaləsində yazır: Aşıq Pənah 18-20 yaşlarında ikən Salyan dövlət dram teatrında fəaliyyət göstərmiş, Məcnun, Kərəm, Qərib, Sərvər, Əsgər rollarını məharətlə ifa etmişdir (52, 4). Toylarda söylədiyi dastanlara gəlincə, "Qurbani", "Abbas və Gülgəz", "Koroğlunun Bağdad səfəri" və digər dastanlar aşığın repertuarında geniş yer tutmuşdur. "O, dastandan fraqment söyləyib, başqa mövzuya keçməzdi, bir dastanı söyləməyə başladımı, onu axıradək, son təfərrüatına qədər danışmamış təskin olmazdı. Məhz belə məqamda tamaşaçı-dinləyici sənətin sinkretik vəhdətindən feyziyab olardı – şirin səsli Pənaha, püxtə rəqqas Pənaha, tum giləsi boyda tazanə ilə bir orkestr təsiri oyadan ifaçı Pənaha valeh olardı və adama elə gələrdi ki, o, bir neçə aktyorun iştirak etdiyi meydan tamaşasına baxır. Bəli, o, sözdən və musiqidən canlı mənzərə yaratmağı bacarırdı" (52, 6).

Aşıq Pənahın övladlarından heç biri atasının yolunu davam etdirməyib. Pənah sağlığında özü arzu edib ki, övladlarının hamısı ali təhsil alsın. Aşıqlıq etmək, sənətə gəlmək arzusunda olan kiçik oğlu Taleh Pənahovun bu məsələ ilə bağlı danışdığı xatirələr maraqlıdır. Onun dediyinə görə, o zamanlar Salyan rayon pionerlər evi bir tədbir üçün V sinif şagirdi olan Talehin ifasında ustadın "Yenə tovuz kimisən, nə gözəl bəzənmisən" mahnısını hazırlayıb. Aşıq Pənahdan xəbərsiz məşqlərə qatılan

balaca Taleh həmin havanı həm sazda ifa etməyi, həm də gözəl oxumağı öyrənir. Məktəbli yaşıdlarından bir qız da həmin musiqiyə uyğun rəqs hazırlayır. İfa zamanı Taleh rəqs edən qızın arxasınca gəzişərək "Yenə tovuz kimisən, nə gözəl bəzənmisən" mahnısını ifa edir. Tədbirdə iştirak edən Aşıq Pənah evə gələndən sonra balaca oğlunu danlayır, icazəsiz saz ifa etməyi ona qadağan edir. Ustad saza da, sənətə də çox ciddi yanaşırdı, buna görə ifa edilən mahnı ilə yanaşı, ifaçının hərəkətlərinə qarşı da tələbkar idi. Belə ki, rəqs eləyən qızın arxasınca gəzişərək saz çalmağı, ifa etməyi heç bəyənməmişdi. Eyni zamanda ustad sənətkar aşıqlıq sənətinin ağır olduğunu, böyük zəhmət hesabına başa gəldiyini bildiyindən övladlarının onun yolunu davam etdirməsini istəməmişdir.

Aşıq Pənah uzun müddət Salyan rayon mədəniyyət mərkəzinin nəzdindəki "Kür" aşıqlar ansamblına rəhbərlik etmiş, bu ərazidə aşıqlığın yayılması, inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəməmişdir. Ustad aşığın fəaliyyəti dövlətimiz tərəfindən zamanında qiymətləndirilmiş və o, "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Aşıq Pənahın əsərləri sağlığında nəşr olunmuşdur. Onun "Saz və söz", "Məhəbbətdən danışaq", "Təzə söz, təzə mahnı", "Mənim sazım", "Sözlərimi saxla yadda" kitabları çap olunmuşdur. Ustadın qızı Aynurə Pənahqızı 2006-cı ildə "Aşıq Pənah dastanı" adlı kitabını atasının həyat və yaradıcılığına həsr etmişdir (103).

Bölgənin qocaman aşıqlarından Aşıq Əvəzin yaradıcılığı da diqqəti çəkir. O, 1930-cu ildə Salyanın Qırmızıkənd kəndində doğulub. Aşıq Pənahın şagirdi olub. Özünün dediyinə görə, Pənah onu özü ilə toylara aparırmış, aşıqlıq etməyin sirlərini öyrədirmiş. Biz Aşıq Əvəzin vasitəsilə Aşıq Pənahın repertuarındakı dastanlar haqqında məlumat əldə etdik. Öyrəndik ki, Aşıq Pənah el şənliklərində "Zəncanlı Qurban", "Abbas və Gülgəz", "Dəvə dərisinə girmiş şahzadə Bəhram", "Aşıq Valehlə Zərnigarın dastanı"nı və digər dastanları böyük şövqlə nağıl edirmiş.

Bu gün bölgədə aşıqlıq ənənəsi tamamilə unudulmaqdadır. Aşığa tələbat da, demək olar ki, yox dərəcəsindədir. Bölgənin toylarını daha sazla, balabanla deyil, digər musiqi alətlərilə çalıb-oxuyurlar. Ancaq yaşlı nəslin yaddaşında az qala daşlaşmış bir ifadə qalıb. Məsələn, el şənlikləri zamanı musiqiçilər gələndə "aşığlar gəldi", musiqiçilərə xələt vermək istəyəndə " bu, aşığın xələtidir" deyirlər. Bu isə bir daha sübut edir ki, bölgədə aşıqlıq etmək bu gün dəbdən düşsə də, orta və yaşlı nəslin nümayəndələrinin qəlbində hələ də aşığa sonsuz məhəbbət vardır.

Fikrimizcə, Şirvan aşıq mühitində Salyan – Neftçala aşıqlarının özünəməxsus yeri vardır. Bu gün haqqında bəhs etdiyimiz Şirvan aşıqlarının hər birinin yaradıcılığı ayrıca tədqiqat obyektinə çevrilə bilər.

# NƏTİCƏ

Bölgə folklorunu araşdırmaq məqsədilə vaxtaşırı bölgəyə getmək, ərazidə yaşayan insanlarla təmasda olmaq, oranın tarixini, coğrafi şəraitini, etnoqrafiyasını öyrənmək, xeyir-şər mərasimlərində iştirak etmək, ənənəni yaxşı bilən yaşlı və orta nəsil nümayəndələri ilə ünsiyyət yaratmaq vacibdir. Folklor söyləyicilərinin "ürəyinə yol tapmaq", onlarla səmimi, mehriban münasibət qurmaq lazımdır. Əks halda söyləyicinin "qəlbini ələ almaq", lazım olan materialı əldə etmək çətin məsələdir. Bu səbəbdən sadalanan şərtləri nəzərə almaqla işimizi həmin prinsiplər əsasında qurduq. Vaxtaşırı bölgədə ezamiyyətdə olduq, müxtəlif kəndlərdə yüz əlliyə yaxın folklor söyləyicisi ilə görüşüb xeyli material yazıya aldıq, materialların üzərində bölgənin folklor mühitini təsvir və təhlil etməyə çalışdıq.

Monoqrafiyanın I fəslində Neftçala-Salyan bölgəsi haqqında ümumi məlumat verilir. Buranın tarixi-coğrafi şəraiti öyrənilir, vaxtilə burda məskunlaşan (bölgədə buna "yurd düşmək" deyirlər) qədim tayfa və kənd adlarının etimologiyasına nəzər salınır, ərazinin iqlimi, təbiəti haqqında məlumat verilir. Bölgədəki əhalinin həyat tərzini, məşğuliyyətini özündə əks etdirən folklor örnəkləri təhlil edilir. Göstərilir ki, buranın əhalisi əsasən heyvandarlıqla, əkinçiliklə, balıqçılıqla, bağ-bostan işlərilə məşğul olur. Sadə zəhmət adamlarının gündəlik məşğuliyyətləri onlardan qeydə alınan folklor mətnlərində əks olunduğu vurğulanır. Sonra bölgə əhalisinin milli tərkibi statistik cədvəldə göstərilir, etnik və etnoqrafik rəvayətlər araşdırılır. Bölgənin folklorunun toplanılması və folklor söyləyicilərin spesifik xüsusiyyətlərindən, çoxvariantlılıq məsələlərindən söhbət açılır, folklor toplayan zaman müşahidə etdiyimiz faktlar analiz olunur. Qeyd edilir ki, insan münasibətlərini, xüsusən də valideyn-övlad, qayınana-gəlin, qayınana-yeznə, qonşular arasında olan münasibətləri əks etdirən mətnlər bölgə söyləyicilərinin repertuarında

üstünlük təşkil edir. Bu, onu göstərir ki, ərazidə məişət mövzulu folklor mətnləri daha aktivdir.

Monoqrafiyanın II fəslində bölgədən toplanılmış mifoloji mətnlər və mifoloji personajlar təhlil olunur. Göstərilir ki, Beçəxor mifoloji obrazı ilk dəfə tərəfimizdən aşkarlanmışdır. Qeydə alınan mətnlərdə o, müxtəlif bioloji varlıqlara bənzədilir. Guya o, hamilə qadınların bətnində uşaqla birgə, uşağın əkiz tayı kimi əmələ gəlir. Sonra uşağı yeyib əvəzində özü doğulur. Doğulan kimi sürətlə qaçaraq evdəki sandığın altında gizlənir. Bəzi söyləyicilər onu siçovula, kərtənkələyə, kirpiyə, bəziləri toyuğa və ya xoruza bənzədiyini deyirlər. Qeyd edək ki, Beçəxorla bağlı rəvayətlər ilk dəfə təhlil olunur. Sonra bölgədən toplanılmış Hal//Al arvadı, Cin, Qulyabanı, Əzrayıl, Qaraçuxa personajları ilə bağlı rəvayətlər təhlil edilir, onların digər bölgələr üzrə mövcud variantları ilə oxşar və fərqli cəhətləri müqayisə olunur.

Ardınca Neftçala-Salyan ərazisindəki pirlər, ziyarətgahlar, seyidlər və onların kəramətləri haqqında bilgi verilir. Neftçalada Pirətavan piri; Salyanda Sarı Seydan ocağı; Xilaşəkər piri; Salyanda Mirbağır ağanın; Qaçaqkənddə Mirəziz ağanın; Xolqaraqaşlıda Ağadədənin; Kürqarabucaq kəndində Seyidnənənin ocağı və onların möcüzələri, funksiyaları ilə mövcud inanc və rəvayətlərdən bəhs edilir.

Monoqrafiyanın III fəslində bölgənin mərasim folkloru təsvir olunur. Qeyd olunur ki, bu gün folklorun aktiv icra olunduğu yerlər mərasimlərdir. Bölgənin məişət mərasimləri (toy, yas, doğum – "qırx bələk", Məhərrəmlik və Aşura günlərində icra olunan adətlər, ərazidə keçirilən mövsümi və dini bayramlar – İlaxır çərşənbələr, Novruz, Ramazan, Qurban bayramları) haqqında məlumat verilir, həmin mərasimlər təsvir və təhlil olunur. Bölgənin toylarında vaxtilə söylənən toy mahnıları – "Arazına, xan boyuna"; "Taxdın bərəkalla, gəlin" nəğmələrinin sıradan çıxdığı göstərilir, mərasimin icrası mərhələlər üzrə təsvir olunur. Sonra ərazinin yas məclislərinin təsviri ilə yanaşı, "oxşama demək" – "dil demək" adətlərindən bəhs edilir. Böl-

gənin Muğan ərazisində nəsr formalı ağıların, Şirvan hissəsində nəzm formalı ağıların geniş yayıldığı göstərilir. Bu da təbii haldır. Çünki Şirvan ərazisi qədimdən özünəməxsus bayatıları ilə məşhurdur. Yas mərasimlərində mərsiyəxanların Q.Zakirin, Qumrunun mərsiyə və qəsidələrindən istifadə etmələri, Peyğəmbərin və imamların həyatından danışılan rəvayətlər, ibrətamiz və hikmətli mətnlərlə məclisi "ələ almaları" qeyd olunur.

IV fəsildə əvvəlcə bölgədən qeydə alınmış epik folklor mətnləri – dastanlar, nağıllar və lətifələr haqqında bilgi verilir. Göstərilir ki, bu gün Neftçala-Salyan ərazisində nə dastan söyləyən aşığa, nə də dastana qulaq asan auditoriyaya rast gəlinməsə də, bəzi yaşlı söyləyicilərin yaddaşına dastan mətnləri həkk olunubdur. Halbuki buranın toylarını ötən əsrin səksəninci illərinə qədər aşıqsız, dastansız təsəvvür etmək olmazdı. Sonra dastanlar və dastan söyləyicilərindən bəhs olunur. Bölgədən qeydə alınan nağıllar arasında fərqli variantlar, yeni nağıl qəhrəmanları, maraqlı nağıl süjetləri olduğu göstərilir. Beynəlxalq süjet göstəricisindəki nömrələri qeyd olunur, onlardan bəziləri təhlil olunur. Sonra lətifələr və yerli lətifə qəhrəmanları haqqında informasiya verilir. Göstərilir ki, burada məşhur Molla Nəsrəddin və Bəhlul Danəndə lətifələrilə yanaşı, "Aşağı Surra kəndinin quru bəyləri" haqqında söylənilən lətifələr də mövcuddur. Salyanda Mirzə Bağının başına gələn əhvalatlar lətifə mətnləri kimi maraqla danışılır və dinlənilir. Təəssüflə qeyd olunur ki, bu lətifələr vaxtında toplanmadığı, nəşr olunmadığı üçün böyük əksəriyyəti hazırda unudulmuşdur.

Kiçikyaşlı uşaqlar arasında söylənilən folklor mətnləri – düzgülər, sanamalar, tapmacalar, uşaq oyunları haqqında məlumat verilir, onlardan örnəklər göstərilir. Böyüklərin uşaqlar üçün söylədiyi laylalar, oxşamalar və s. folklor mətnlərindən nümunələr gətirilərək təhlil olunur.

Bu fəsildə bölgənin aşıqları və aşıq sənəti ilə bağlı mövzuya toxunulur. Göstərilir ki, bu aşıqların repertuarı Şirvan aşıq mühitində özünəməxsusluğu ilə seçilir. Bölgədə vaxtilə yaşayıb-

yaratmış aşıqlar (Salyanlı Vəlican; Aşıq Qurbanxan; Aşıq Bəylər; Aşıq Pənah; Aşıq Əvəz) haqqında danışılan rəvayətlərdən, onların həyat və yaradıcılığından, yaratdıqları söz xəzinəsindən söhbət açılır.

Salyan və Neftçala folklor bölgəsinin araşdırılması region folklorunun xüsusiyyətlərini öyrənmək baxımından əhəmiyyətlidir. Buranın folklor mənzərəsinin təhlili, ümumiyyətlə, Azərbaycan folklorunun əhatəli öyrənilməsinə şərait yaradır.

## ƏDƏBİYYAT

1. Abbaslı İ. Folklorşünaslıq axtarışları. 2 cilddə. I cild. Bakı: Nurlan, 2009, 512 s.

2. Abbaslı S. Azərbaycan lətifələrinin regional xüsusiyyətləri. Bakı: Nurlan. 2011, 160 s.

3. Abbaslı S. Tarixi şəxsiyyətlərlə bağlı regional lətifələr. Folklor və Tariximiz mövzusunda Respublika Elmi Konfransının materialları. 19-20 noyabr 2012-ci il. Bakı: Elm və təhsil, 2012, 176-179 s.

4. Abdullayev B. Haqqın səsi. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1989, 144 s.

5. Abdullayeva M. "Azərbaycan folklorunun regional xüsusiyyətləri (Şəki-Zaqatala folklor nümunələri əsasında): Namizədlik dissertasiyası, Bakı: 2002, 159 s.

6. Azərbaycan dastanları. 5 cilddə. I cild. Bakı: Çıraq, 2005, 424 s.

7. Albalıyev Ş. Quleybanı və Hal obrazları arasında eyniliklər. "Kredo" qəzeti. 01 mart, 2008, 14 s.

8. Altun İ. Kocaelidə türbələrlə bağlı inanc və praktika: "Sultan Baba". "Dədə Qorqud" Elmi-ədəbi toplu. Bakı: Nurlan, 2007, II sayı, 70-79 s.

9. Alıyev A. Azərbaycan folklorunun regional xüsusiyyətləri (Dərələyəz folklor nümunələri əsasında). Namizədlik dissertasiyası. Bakı: 2008

10. Arxiv 866 // Toplayanı AMEA Folklor İnstitutunun əməkdaşı f.ü.f.d. Əliyeva Ü.

11. Azərbaycan folkloru antologiyası. Birinci kitab. (Toplayanı və tərtib edəni: Ə. Axundov) Bakı: 1968

12. Azərbaycan folkloru antologiyası. 23 cilddə, I c. Naxçıvan folkloru / Tərtib edənlər: Fərzəliyev T., Qasımlı M. Bakı: Sabah, 1994, 388 s.

13. Azərbaycan folkloru antologiyası. 23 cilddə, II c. İraqtürkman folkloru / Tərtib edənlər: Paşayev Q., Bəndəroğlu Ə. Bakı: Ağrıdağ, 1999, 467 s.

14. Azərbaycan folkloru antologiyası. 23 cilddə, III c. Göyçə folkloru / Toplayıb tərtib edən: İsmayılov H. Bakı: Səda, 2000, 767s.
15. Azərbaycan folkloru antologiyası. 23 cilddə, IV c. Şəki folkloru / Tərtib edənlər: Əbdülhəlimov H., Qafarlı R., Əliyev O., Aslan V. Bakı: Səda, 2000, 498 s.
16. Azərbaycan folkloru antologiyası. 23 cilddə, V c. Qarabağ folkloru / Tərtib edən: Abbaslı İ. Bakı: Səda, 2000, 414 s.
17. Azərbaycan folkloru antologiyası. 23 cilddə, VI c. Şəki folkloru / Toplayıb tərtib edən: Əbdülhəlimov H. Bakı: Səda, 2002, 495 s.
18. Azərbaycan folkloru antologiyası. 23 cilddə, VII c. Qaraqoyunlu folkloru / Toplayıb tərtib edənlər: İsmayılov H., Süleymanov Q. Bakı: Səda, 2002, 464 s.
19. Azərbaycan folkloru antologiyası. 23 cilddə, VIII c. Ağbaba folkloru / Toplayıb tərtib edənlər: İsmayılov H.; Qurbanov T. Bakı: Səda, 2003, 476 s.
20. Azərbaycan folkloru antologiyası. 23 cilddə, IX c. Gəncəbasar folkloru / Tərtib edənlər: İsmayılov H., Quliyev R. Bakı: Səda, 2004, 522 s.
21. Azərbaycan folkloru antologiyası. 23 cilddə, X c. İrəvan Çuxuru folkloru / Toplayıb tərtib edənlər: İsmayılov H., Ələkbərli Ə. Bakı: Səda, 2004, 472 s.
22. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XI c. Şirvan folkloru / Toplayıb tərtib edənlər: İsmayılov H., Qəniyev S. Bakı: Səda, 2005, 443 s.
23. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XII c. Zəngəzur folkloru / Toplayanlar Nəbioğlu V., Kazımoğlu M., Əsgər Ə. Bakı: Səda, 2005, 464 s.
24. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XIII c. Şəki-Zaqatala folkloru / Tərtib edənlər: Abbaslı İ., Əliyev O., Abdullayeva M. Bakı: Səda, 2005, 550 s.
25. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XIV c. Dərbənd folkloru / Toplayanlar: İsmayılov H., Xurdamiyeva S. Bakı: Səda, 2006, 430 s.
26. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XV c. Dərələyəz folkloru / Toplayıb tərtib edənlər: Mirzəyev H., İsmayılov H., Ələkbərli Ə. Bakı: Səda, 2006, 484 s.

27. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XVI c. Ağdaş folkloru / Toplayıb tərtib edən Rüstəmzadə İ. Bakı: Səda, 2006, 496 s.

28. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XVII c. Muğan folkloru / Toplayıb tərtib edənlər: Hüseynov B., İsmayılov H./ / Ön söz / İsmayılov H. Bakı: Nurlan, 2008, 447 s.

29. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XVIII c. Şəki folkloru / Toplayıb tərtib edəni: Əbdülhəlimov H. Bakı: Nurlan, 2009, 532 s.

30. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XIX c. Zəngəzur folkloru / Tərtib edənlər: İsmayılov H., Təhməzoğlu R., Ələkbərli Ə. Bakı: Nurlan, 2009, 416 s.

31. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XX c. Loru-Pəmbək folkloru / Toplayıb tərtib edənlər: İsmayılov H., Ələkbərli Ə. Bakı: Nurlan, 2011, 399 s.

32. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XXI c. Qazax örnəkləri / Toplayanı: Həkimov M. Tərtib edənlər: Xəlilov R., Ələkbərli Ə. Bakı: Elm və təhsil, 2012, 376 s.

33. Azərbaycan folkloru antologiyası. 23 cilddə, XXIII c. Naxçıvan örnəkləri / Toplayanı: Cəfərova A. Tərtib edənlər: Ələkbərli Ə., Cəfərova A. Bakı: Elm və təhsil, 2012, 332 s.

34. Azərbaycan folkloru külliyyatı. Bakı: Səda nəşriyyatı, 2006, 400 s.

35. Azərbaycan mifoloji mətnləri / Tərtib edəni, ön sözün və şərhlərin müəllifi Acalov A. Bakı: Elm, 1988, 196 s.

36. Azərbaycan Milli Ensiklopediyası // “Azərbaycan” cildi. AME Elmi mərkəzi. Bakı: 2007, 884 s.

37. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycan Regionları. Bakı: 2013, 777 s.

38. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, c., Bakı: 1982. səh.395

39. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, IX c., Bakı: Azərnəşr, 1986, 624 s.

40.Babayev R. Azərbaycan folklorunun regional xüsusiyyətləri (Naxçıvan folkloru). Namizədlik dissertasiyası. Naxçıvan: 2009, 167 s

41.Baharlı M. H. (Vəliyev). Azərbaycan (fiziki-coğrafi, etnoqrafik və iqtisadi oçerk) Bakı: Azərnəşr, 1993, 190 s.
42.Bakıxanov A. "Gülüstani-İrəm". Bakı: 1991.
43.Bayat F. Övliya mənkabələri və ya türk dərvişlərinin kəramətləri. Bakı: Elm və təhsil, 2013, 212 s.
44.Bayat F. Folklor dərsləri. Bakı: Elm və təhsil, 2012, 424 s.
45.Bayat F. Qarabağ tərəkəmə folklorunun bəzi özəllikləri. "Qarabağ folkloru: problemlər, perspektivlər" mövzusunda Respublika Elmi konfransının materialları. Bakı. 26 dekabr 2012, 12-20 s.
46.Bayat F. Kərbəla folkloru. Məhərrəmlik rituallarından şəbih meydan tamaşalarına. Bakı: Elm və təhsil, 2014, 291 s.
47.Bəydili C. Türk mifoloji sözlüyü. Bakı: Elm, 2003, 417s.
48.Bu yurd bayquşa qalmaz / Toplayıb tərtib edənlər Nəbioğlu V., Qaradaşlı M., Əsgər Ə. Bakı: Yazıçı, 1995, 240 s.
49.Bu nümunələr müəllifin şəxsi arxivindədir.
50.Çəmənzəminli Y.V. Əsərləri. 3 cilddə, III cild. Bakı: Avrasiya Press, 2005, 440 s.
51.Dadaşov F. Aşıq sənətinin korifeyləri sırasında Salyan triosu: Aşıq Pənah, Aşıq Qurbanxan və Aşıq Bəylər. "Aysberq və həyat" qəzeti. 15 may 2013
52.Əbilov İ. Ön söz // Mizrab teldən ayrılsa da... Aşıq Pənah Pənahov. Sözlərimi saxla yadda. Bakı: Yazıçı, 1991, 144 s.
53.Əbilov İ. Uzaq keçmişdən uzaq gələcəyə (Neftçala – qaynaqlarda, yaddaşlarda) Neftçala: "Gündoğar" qəzeti redaksiyasının mətbəəsi. 1995, 25 s.
54.Əfəndiyev P. Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Nurlan, 1992, 477 s.
55.Əhmədli A. Folklorda söyləyicilik statusu. "Dədə Qorqud" Elmi-ədəbi toplu. Bakı: Səda, 2005, III sayı, s. 95-110
56.Əliyev K. Romantizm və folklor. Bakı: Elm, 2006, 160 s.
57.Əsgər Ə. Azərbaycan sehrli nağıllarında qəhrəman (səciyyəsi və mənşəyi): Namizədlik dissertasiyası. Bakı: 1992, 240 s.
58.Əsgər Ə. Ön söz. Azərbaycan folkloru antologiyası. Zəngəzur folkloru. XII Bakı: Səda, 2005, 464 s.
59.Hacıyev T. Mikayıl Baştunun "Şan qızı dastanı" və poetikası. Bakı: Təhsil, 2005, 311 s.

60.Hacıyev V. Azərbaycan folklorunun səciyyəvi xüsusiyyətləri (Gürcüstan türklərinin folklor örnəkləri əsasında): Doktorluq dissertasiyası. Bakı: 1992, 347 s.
61.Hacıyev V. Gürcüstanda türk xalq ədəbiyyatı ənənələri. Bakı: Səda, 2005, 303 s.
62.Həvilov H. Azərbaycanın maldarlıq mədəniyyəti. Bakı: 1987
63.Həvilov H. Azərbaycan etnoqrafiyası. Bakı: Elm, 1991, 252 s.
64.Hüseynov İ. Möminlər evi –Salyan. Bakı: Çənlibel NPM, 2007, 284 s.
65.Xəlilbəyli M.R. Salyanın məzəli adamları. Salyan: 1994
66.Xəlilov R.; Xürrəmqızı A. Salman Mümtazın şəxsi fondundan folklor mətnləri // Tərtibçilərdən. Bakı: Nurlan, 2013, s.4-12
67.Xəlil A.Türk xalqlarının yaz bayramları və Novruz. Bakı: Elm və təhsil, 2012, 144 s.
68.Xudubəyli M. Mənim sazlı-sözlü dünyam. I kitab. Bakı: Ulu, 1999, 304 s.
69.Xürrəmqızı A. Azərbaycan mərasim folkloru. Bakı: Səda, 2002, 210 s.
70.İsmayılov H. Azərbaycan folklorunun regional xüsusiyyətləri. Bakı: Səda, 2006, 336 s.
71.İsmayılov H.; Cəfərli Ə. Azərbaycan xalq dastanları // Ön söz. Azərb. dastanları. Bakı: Çıraq, 2005, 424 s.
72.Kazımoğlu M. Folklorda obrazın ikiləşməsi. Bakı: Elm, 2011, 228 s.
73.Kazımoğlu M. Ön söz, yaxud problemlərdən perspektivlərə doğru. Qarabağ folkloru: problemlər, perspektivlər mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: 26 dekabr 2012, 3-11s.
74.Kərimova X. Nehrəm, ol... "Dədə Qorqud" Elmi-ədəbi toplu. Bakı: Səda, 2004, I sayı, 164-167 s.
75.Kitabi-Dədə Qorqud // Tərtib, transkripsiya, sadələşdirilmiş variant və müqəddimə Zeynalov F. və Əlizadə S. Bakı: Yazıçı, 1988, 264 s.

76. Qafarlı R. Uşaq folklorunun janr sistemi və poetikası. Bakı: Elm və təhsil, 2013, 540 s.

77.Qarabağ: folklor da bir tarixdir. I c. / Toplayıb tərtib edənlər: Rüstəmzadə İ.; F8rhadov Z. Bakı: Elm və təhsil, 2012, 464 s.

78.Qarabağ: folklor da bir tarixdir. II c. / Toplayıcılar: Əsgər Ə.; Rüstəmzadə İ.; Orucov T.; Fərhadov Z. Bakı: Elm və təhsil, 2012, 484 s.

79.Qarabağ: folklor da bir tarixdir. III cild / Tərtib edəni: Rüstəmzadə İ. Bakı: Elm və təhsil, 2012, 468 s.

80.Qarabağ: folklor da bir tarixdir. IV c. / Toplayanlar: Rüstəmzadə İ.; Bağdadova S. Tərtib edəni: Rüstəmzadə İ. / Bakı: Elm və təhsil, 2013, 458 s.

81.Qarabağ: folklor da bir tarixdir. V c. / Toplayıb tərtib edənlər: Rüstəmzadə İ., Fərhadov Z. Bakı: Zərdabi LTD MMC, 2013, 451 s.

82.Qarabağ: folklor da bir tarixdir. VI c. / Toplayıb tərtib edən: Vaqifqızı (Süleymanova) L. Bakı: Zərdabi LTD MMC, 2013, 465 s.

83.Qasımlı M. Aşıq sənəti. Bakı: Ozan, 1996, 260 s.

84.Qəniyev S. Azərbaycan folklorunun regional özünəməxsusluğu: Şirvan folklor mühiti: Doktorluq dissertasiyası. Bakı: 2000, 353 s.

85.Qəniyev S. Şirvan aşıqları. Bakı: 2007

86.Məmmədov A. Salyan (Dəmir dövründən – orta əsrlərədək). (tarixi-arxeoloji icmal). Bakı: Elm, 2011, 61 s.

87.Məmmədov A. Qərbi Azərbaycan folklor ədəbi mühiti (Ağbaba-Şörəyel materialı əsasında). Namizədlik dissertasiyası. Bakı: 2005

88.Məmmədov Ə. Qarayazı düzündən Xəzər dənizinə qədər (tarixi etnoqrafik oçerk). Bakı: Maarif, 1979, 187 s.

89.Məmmədov H. Muğanın maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat). Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001, 220 s.

90.Məmmədova X. Quba pirləri: Funksional təsnifat və inanc sistemi. "Dədə Qorqud" Elmi-ədəbi toplu. Bakı: Nurlan, 2010, II sayı, 83-97 s.

91.Mümtaz S. El şairləri. II cild. Bədii-ədəbiyyat şöbəsi. Bakı: Azərnəşr, 1935, 482 s.

92.Naxçıvan folkloru. Alın yazısının kəlmələri (toplayanlar: Məhərrəm Cəfərli; Rafiq Babayev). Dədə Qorqud. Elmi-ədəbi toplu, 2005: Səda, №4, 152-177 s.

93.Neftçala folklorundan örnəklər. "Dədə Qorqud" Elmi-ədəbi toplu. Bakı: Nurlan, 2008, III sayı, 140-158 s.

94.Neftçala-Salyan folkloru. "Dədə Qorqud" Elmi-ədəbi toplu. Bakı: Nurlan, 2012, I sayı, 126-150 s.

95.Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. I kitab. Bakı: Turan, 2003, 678 s.

96.Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. II kitab. Bakı: Elm, 2006, 648 s.

97.Nəbiyev N. Coğrafi adların mənşəyi. Bakı: Maarif, 1969

98.Nəbiyev N. Coğrafi adlar. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1982

99.Nurlu İ. XXI əsrin astanasında Neftçala. I kitab. Bakı, Araz, 1997, 433 s.

100.Orucova S. Azərbaycan folklorunun toplanma, tərcümə və nəşr problemləri. Bakı: Elm və təhsil, 2012, 536 s.

101.Paşayev Q. İraq-türkman folkloru. Bakı: Yazıçı, 1992, 216 s.

102.Paşayev Q. Bitib-tükənməyən incilər xəzinəsi //Ön söz. Azərbaycan folkloru antologiyası, II kitab, İraq-türkman folkloru. Bakı, Nurlan, 2009, 3-45 s.

103.Pənahqızı A. Aşıq Pənah dastanı.Bakı: Şur, 2006, 136 s.

104.Polad Ə. Həzrəti-Əli. Bakı: 2004, 256 s.

105.Ramazanov K. Salyan sözünün etimologiyası haqqında. Azərbaycan SSR EA xəbərləri. №3, 1953

106.Rəşidəddin. Oğuznamə. Bakı: Azərbaycan Milli Ensiklopediyası nəşriyyat-poliqrafiya birliyi. 2003, 107 s.

107.Rüstəmzadə İ. Yuxarı Qarabağ folklorunun toplanması problemləri. Qarabağ folkloru: problemlər, perspektivlər mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı: 26 dekabr 2012, 142-152 s.

108.Rüstəmzadə İ.; Fərhadov Z. "Tərtibçilərdən" // Qarabağ: folklor da bir tarixdir (Toplayıb tərtib edənlər: Rüstəmzadə İ.; Fərhadov Z.). Bakı: Elm və təhsil, 2012, 464 s.
109.Rzasoy S. Folklor informasiyasının etnik-regional strukturunun modelləşdirilmə konsepsiyası // Ön söz. İsmayılov H. Azərbaycan folklorunun regional xüsusiyyətləri. Bakı: Səda, 2006, 336 s.
110.Sarabski H. Köhnə Bakı. Bakı: Şərq-Qərb, 2006, 144 s.
111.Sayılov Q. XX əsr Şirvan aşıqları. Bakı: Səda, 2007
112.Sayılov Q. Şirvan aşıq sənəti: ənənə və müasirlik. Bakı: Nurlan, 2013, 200 s.
113.Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı: Yazıçı, 1983, 326 s.
114.Seyidov M. Qam-şaman və onun qaynaqlarına ümumi baxış. Bakı: Gənclik, 1994, 232 s.
115.Səlimov-Şağani. Oyun və əyləncələr də bir tarixdir. Bakı: Elm, 1993, 41s.
116.Səmədova Z. Zaqatalada Azərbaycan folkloru (magistr dissert) Bakı, 2005
117.Süleymanova L. Azərbaycan nağıllarında Naxış obrazı. Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər. 38-ci kitab.
118.Süleymanova L. Şəki folklor mühiti. Namizədlik dissertasiyası. Bakı: 2008, 160 s.
119.Şaman əfsanələri // Tərcümə və tərtib edənlər: Gözəlov F., Məmmədov C. Bakı: Yazıçı, 1993, 144 s.
120.Şamil Ə. Uyğur, qaqauz, Quzey Qafqaz türklərinin folkloru və ədəbiyyatı. Bakı: Nurlan, 2011, 412 s.
121.Tapdıqoğlu N. Neftçala rayonu və onun toponimiyası. Bakı: 2006, 134 s.
122. Təhmasib M. Seçilmiş əsərləri. 2 cilddə. I cild. Bakı: Mütərcim, 2010, 488 s.
123.Tərtər folkloru. "Dədə Qorqud" Elmi-ədəbi toplu. Bakı: Nurlan, 2013,
124.Turan A. Darülmömінin. Bakı: Elm və təhsil, 2012, 429s.
125.Vaqifqızı L. Şəki folklor mühiti. Bakı: Elm və təhsil, 2012, 248 s.

126.Vəliyev V. Folklorşünaslığın bəzi məsələləri haqqında //Elmi əsərlər. Dil və ədəbiyyat. Bakı: S.M.Kirov adına ADU, 1979, 6-cı sayı, 3-6 s.

**Türk dilində**

127. Adana. İl yıllığı -1991. Adana: Baskı Kemal Matbaası A.Ş., 1991, 304 s.

128. Aliyev İ. Folklor örneklerinin terbiyesel olanaklarına dair. V milletlerarası Türk Halk Kültürü Kongresi. Genel konular seksiyon bildirileri. Ankara: 1997, 19-26 s.

129. Ambrose Merton. Folklor // Nail Tan. Folklor (Halkbilimi) Genel bilgiler. İstanbul: 1997

130. Bayat F. Türk mitolojik sistemi. Cilt 1, İstanbul: Ötüken, 2007,

131. Bayat F. Türk mitolojik sistemi. Cilt 2, İstanbul: Ötüken, 2007, 368 s.

132. Boratav P.N. Yüz soruda Türk folkloru. Ankara: Bilge Su, 2013, 310 s.

133. İnan A. Tarihte ve bugün şamanizm. Ankara: Ğaleri türk yayınları. 1954, 350 s.

134. Kalafat Y. Balkanlardan Uluğ Türkistana Türk halk inançları – I. T.C. Kültür Bakanlığı. Ankara: 2002, 381 s.

135. Kalafat Y. Orta Toroslar ve Makedonya Yörükleri Halk İnançları karşılaştırması. I Akdeniz Yöresi Türk Toplulukları sosyo-kültürel yapısı (Yörükler) sempozyumu bildirileri. Antalya: 25-26 nisan 1994, 153-176 s.

136. Mehmet Y. Bilecik dügün adetleri. Türk Dünyası Araştırmaları dergisi. 29 sayı. İstanbul: Dizgi-Baskı: Afşin Matbaası, 1984, 72-90 s.

137. Özdemir A. Öyküleriyle ağıtlar I cilt. Ankara: Kültür Bakanlığı yayınları, 2002, 418 s.

138. Sakaoğlu S. Anadolu-türk efsanelerinde taş kesilme motifi ve bu efsanelerin tip kataloğu. Ankara: Ankara Universitesi Basımevi, 1980, 140 s.

139. Sakaoğlu S. Eflatun Cem Güney. Konya: Komen Yayınları, 2014, 216 s.

## Rus dilində

140.Богатырев П.Г. Вопросы теории народного искусства. Москва: Искусство, 1971.

141.Калашев Н. Местечко Сальяны Джебатского уезда Бакинской губернии. СМОМПК, № 5, Тифлис: 1886

142. Круглов Ю.Г. Фольклорная практика. Москва: Просвещение, 1979, 96 с.

143. Гекман Л.П. Сказитель как медиатор между сакральным и профанным уровнем бытия в традиционных культурах Сибири // Вестник АлтГТУ им. И.И. Ползунова №1, 2006, стр. 78-84

144. Гейбуллаев Г.А. Топонимия Азербайджана, Баку: 1986.

145. Плицейски М.М Роль памяти в фольклорным процессе // Проблемы фольклора. Москва: Наука, 1975.

146. Путещественники об Азербайджане. Т.1. Баку, 1961.

147. Погосов А. Бакинская губерния Местечко Сальяны. СМОМПК, № 11, Тифлис: 1891, 146-150 с.

148. Самошкин А. Сказительские традиции мордвы. Саранск: Мордов. Кн. Изд-во, 1989, 192 с.

## İnternet

149. http:// az.wikipedia.org (wiki) Salyan.

150. www. bakimliyiz. com / akdeniz-bolgesi/ 94956-adananin-dugun-adetleri-nelerdir. html

151.www. serdarhan.com / qaziantep-yoresi- dugun-orf-adetleri-ve- gelenekleri-nelerdir-3134. Aspx.

## KİTABIN İÇİNDƏKİLƏR

**Folklora sevgi ilə (K.Əliyev) ............................................ 3**

**Giriş ...................................................................................... 5**

**I Fəsil. Neftçala-Salyan folklor bölgəsi**
1.1. Bölgə haqqında ümumi məlumat .................................. 10
1.1.1. Əhalinin etnik tərkibi................................................ 15
1.1.2. Bölgə coğrafiyasının folklorda təzahürü ..................... 19
1.1.3. Əhalinin məşğuliyyəti və folklorda təzahürü............... 22
1.2. Bölgə əhalisinin xarakterik xüsusiyyətləri və
onun folklorda ifadəsi ...................................................... 30
1.2.1. Bölgədən toplanmış folklor mətnlərində etnik,
etnoqrafik və dini qarşılaşdırmalar ...................................... 33
1.2.2. Qərbi azərbaycanlılardan və qarabağlılardan
toplanmış mətnlərin səciyyəvi xüsusiyyətləri ....................... 36
1.3. Bölgə folklorunun toplanması və folklor
söyləyicilərinin özünəməxsusluğu......................................... 40

**II Fəsil. Mifoloji mətnlər**
2.1. Mifoloji mətnlər və personajlar .................................... 51
2.1.1.Beçəxor.................................................................... 51
2.1.2.Hal ........................................................................... 52
2.1.3.Cin ........................................................................... 61
2.1.4.Əzrayıl ..................................................................... 63
2.1.5.Qaraçuxa.................................................................. 68
2.2. Ocaqlarla bağlı inanclar və rəvayətlər........................... 74

**III Fəsil. Mərasim folkloru**
3.1. Bölgənin məişət mərasimləri ........................................ 84
3.1.1. Toy mərasimi ........................................................ 84
3.1.2. Qırx-bələk adəti..................................................... 95
3.1.3. Yas mərasimi ........................................................ 96
3.1.4. Dini bayramlar ...................................................... 105
3.1.5. Məhərrəmlik.......................................................... 106
3.2. Bölgənin mövsüm mərasimləri: Novruz bayramı........... 108

**IV Fəsil. Epik folklor örnəkləri. Uşaq folkloru. Aşıq sənəti**
4.1. Epik folklor örnəkləri.................................................. 115
4.1.1.Dastanlar................................................................. 115
4.1.2.Nağıllar .................................................................. 119
4.1.3.Lətifələr .................................................................. 125
4.2. Uşaq folkloru ............................................................ 129
4.3. Aşıq sənəti ................................................................ 137

**Nəticə ...................................................................... 148**
**Ədəbiyyat ................................................................ 152**

**Aynurə Sadıq qızı Səfərova.**
**Neftçala-Salyan folklor mühiti.**
Bakı, Elm və təhsil, 2018

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Korrektoru:
**Təbiət Abdullayeva**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Ruhəngiz Əlihüseynova**

Kağız formatı: 70/100 1/16
Mətbəə kağızı: №1
Həcmi: 164 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış,
“Elm və təhsil” NPM-də hazır deopozitivlərdən
ofset üsulu ilə çap olunmuşdur.